Əlizamin Hüseynli (Qızılbaş)

# ƏSRİMİZİN SEVGİLİSİ

-14716-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2014

84(5 Aze)
H 98

**Əlizamin Hüseynli (Qızılbaş)**

**ƏSRİMİZİN SEVGİLİSİ**

**Bakı, «MBM», 2014, 320 səh.**

«Qızıl qələm» mükafatı laureatı, Yazıçılar Birliyinin üzvü Hüseynli (Hüseynov Əlzaman Həsən oğlu) Əlizamin-Qızılbaşın bu kitabda şeir və poemaları çap olunub. Şair bu kitabda sevgi, vətən, insan, torpaq sevgisi haqqında şeirləri çap olunub. Əvvəllərdə çap olunmuş «Bir ünvan yaşadım» 2011-ci il Bakı şəhəri «MBM» nəşriyyatında çap olunan «Nuhdan qalan dünya» 2012-ci ildə «Avropa» nəşriyyatında çap olunub. Bu kitabı şairin oxucularla üçüncü görüşüdür.

İnşallah, qismət olsa, silsilə kitabları nəşriyyat mətbəxində çapını gözləyir. Allah yetirsin! Amin!

ISBN 978-9952-29-065-8

© Ə.Hüseynli
Bakı, «MBM»



## Ön söz əvəzi

Zamanın süzgəcindən süzülə-süzülə müasir dövrümüzə qədər gəlib çatan Söz-nə qədər müqəddəssən, nə qədər ülvü, şirinsən? Uca Tanrı səni yer üzünə ərmağan edən gündən dünyanı gəzirsən, dünyanı bəzəyirsən.İnsanlar arasında ünsiyyət vasitəsi olaraq onlara yardımçı olursan.

Sözü ilə, şeiriyyatı ilə insanlara yardımçı olan,insanların qəlbində özünəməxsus yeri olan,insanlarla ünsiyyət yaradan bir şair tanıyıram..

O, sadəliyi,vətənpərvərliyi, millətsevərliyi ilə tanınan şair dostum Əlizamin Hüseynlidir. Əlizamin Hüseynlinin yaradıcılığı mənə çox yaxın, doğmadır.Onun publisist yazılarında və şeirlərini hər dəfə oxuyanda və ya dinləyəndə yazılarında hər dəfə yeni söz, yeni məna olduğunu görürəm.

Əlizamin Hüseynli Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, artıq iki kitabı işıq üzü görüb. «Əsrimizin sevgilisi» kitabı onun sayca üçüncü kitabıdır. Kitabı oxuduqca Odlar yurdu Azərbaycanın qəhrəman övladlarının danışdığı, mənə doğma olan dillin saflığına, rəvanlığına heyran olursan.

Uca Tanrı sözü Odlar diyarına ərməğan edən gündən bəri əcdadlarımız doğma Azərbaycan dilini sevmiş, bu dilin müqəddəsliyi uğrunda daima mübarizə aparmışlar. Dilimizin, dinimizin qorunması gələcək nəsillərə çatdırılması hər birimizin borcudur. Çünki bu dildə yazılan şeirlər, nəğmələr dünyanı fəth edir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dilini sevmiş, azərbaycanlı olmağı ilə fəxr etmişdir. Ümummilli lider Heydər Əliyevin fəxarətlə söylədiyi «Mən fəxr edirəm ki Azərbaycanlıyam»-kəlməsi bu gün bütün azərbaycanlıların qəlbində qürurla səslənir.

Bu gün hər bir azərbaycanlının Prezidenti olan İlham Əliyev dilimizin saflığı, təmizliyi uğrunda çox böyük işlər aparır. Azərbaycanımızı dünyaya tanıdır. Ölkəmizin çiçəklənməsi, inkişafı naminə əvəzolunmaz işlər görür. Prezident

İlham Əliyevin növbəti dəfə Prezident seçilməsi münasibəti ilə qələmə aldığı «Seçildi İlham» şeirində Əlizamin Hüseynli yazır:

*Yenidən prezident seçildi İlham,*
*İndi ölkəmizə o arxa durur!*
*Bölgələr simasın dəyişir tamam,*
*Dağılmış ölkəni yenidən qurur.*

*Onadır deyirlər xalqın gümanı,*
*Xalqın seçimidir İlham, seçildi!*
*Götür başınızdan çəni, dumanı,*
*Desinlər fatehdir İlham, seçildi!*

Şair «Əsrimizin sevgilisi» kitabında lirik, dünyəvi, ünvanlı şeirlərlə yanaşı poema janrında da qələmini sınamışdır. Onu da qeyd edim ki, o, bu sahədə də uğur əldə etmişdir.

«Əsrimizin sevgilisi» sənədli poema Ulu Öndər Heydər Əliyevlə Zərifə xanım Əliyevanın ülvi məhəbbətinə həsr olunub. Əsəri oxuduqca ümummilli lider Heydər Əliyevlə Zərifə xanımının saf məhəbbətinə heyran olursan və bu sevgi qarşısında baş əyirsən:

*Əziz Əliyevin qızı,-*
*Heydər Əliyevi sevir;*
*Bu nə gözəl,nə xoş yazı,-*
*Bu eşqi dastana çevir!..*

Bu iki şəxsiyyətin həyat yolu sevənlər üçün örnək olmalıdır. Həqiqi sevginin yolunu heç nə bağlaya bilməz.Saf məhəbbət, düz ilqar, eşqə sadiq, sədaqətli olmaq əsərin əsas qayəsidir. Bu ülvi sevgi İlham Əliyev kimi bir insanı Azərbaycana bəxş etmişdir.





*Gətirdi düşməni dizə,*
*Mərd, mübariz türkmən oğlu!*
*Ömrün bağışladı bizə,*
*Davamçısı İlham oldu!*

*Baş əymək bizə vəzifə,*
*Dörd fenomen insan üçün;*
*Əziz, Heydər və Zərifə,*
*Rəhbərimiz İlham üçün!!!*

Həyatda hər bir kəsin öz cığırı, öz izi olur. Bu izi açmaq üçün illərlə yol gedirsən. Getdiyin yollar isə gah döngəli, gah enişli, gah da ki, yoxuşlu olur. Enişli-yoxuşlu tale yollarını payız külələri darayır. Bəzən də tənhalığa çəkilib özünözünlə danışırsan və sabah nə olacaq, baxtın üzünə güləcəkmi, yoxsa gülməyəcək? Bu sual Əlzamin Hüseynlini düşündürür. Kim bilir daha nələr haqqında düşünür, şair. Nə haqqında düşünürsə də sonda haqq-ədalətin üzərinə qayıdır. Çalışır ki, heç zaman bədxahlar, namərdlər, ikiüzlülər,riyakarlar haqqa qalib gəlməsin, onu əyməsin. Haqq yolunda candan keçməyə hazır olan şair «Kim bilir» şeirində bəxt ulduzunun başı üstə fırlandığını qələmə alır,sübhə doğru, aydınlığa doğru inamla addımladığını bildirir.

*Bəxt ulduzum başım üstə fırlanır,*
*Başıma qonacaq,onu kim bilir?!*
*Ziyana,yoxsamı xeyrə hallanır,*
*Nə cür qutaracaq sonu, kim bilir?!*

*Qızılbaşın qızılquşu ötmədi,*
*Arzuları ünvanına yetmədi!*
*Əfsuslar ki,acıları bitmədi,-*
*Soyunacaq qara donu?..Kim bilir?..*

İnsan dünyaya gəlir, uşaqlıq illərini, gənclik illərini və ən nəhayət qocalıq dövrünü yaşayır. (Əgər Tanrıdan qisməti varsa). Zaman öz axarı ilə irəlilədikcə insanın əməlləri onu yaşadır. Bunun üçün isə ilk növbədə yaxşı əməl sahibi olmağı insanlara tövsiyə edir, Ə.Hüseynli. Damarlarında yaxşılıq qanı axır. Haqq yolunda, saf məhəbbət yolunda heç nədən çəkinməyən şair «Yaşamaq istəyirəm» şeirində yazır:

***Yaşamaq istəyirəm,***
***Səhər sübhdən oyanım,***
***Baxım məsum çöhrənə,***
***Səninlə bir dayanım.***

Ə.Hüseynli həm də məhəbbət şairidir. Dünyanı məhəbbətsiz, sevgisiz təsəvvür etməyən şair bu qoca dünyada öz sevgisi yolunda ömrünü fəda etməyə hazırdır. «Bir ömür sevgi» şeirində,

***Bir ömür sevəcəm səni,gözəlim,***
***Sən də öz sevgini mənə bağışla!***
***Axırım sənlədir, sevda əzəlim,***
***Ömrümə rəng qatıb onu naxışla...***

***Sənə qovuşmağa həsrətli könlüm,***
***Nə qədər tamarzı, avara qaldı?!***
***İstədim milyon il yaşayıb ölüm,-***
***Dedilər qismətin bu yara qaldı!***

Və ya «Ürək bezib» şeirində

***Yollarımız ayrılalı,***
***Ayrı ünvanda,addasan.***
***Ürəyimin yaraları,***
***İçimdə donan yaddasan...***





deyir, alın yazısına inanır. Sevginin də, dərd-qəmin də insana pay kimi verilməsinə inanır.

«Ömrümün fəsilləri» şeirində yaşadığımız dünyanın fəsillərinin dolub boşaldığını qələmə alan şair, insan ömrünün fəsillərinin də nə vaxtsa dolub boşalacağını vurğulayır:

***Dünyanın yayı da, qışı da gözəl,***
***Sirli dünyamızın fəsilləridir.***
***Bəşər üçün yaradılıbdır özəl,***
***İlahi işinin əsilləridir...***

***Yayı isti, qışı soyuq mənzilim,-***
***Onu tərk eləmir vəfalı könlüm.***
***Nə vaxtsa dolacaq ömür zənbilim,***
***O vaxtda sovqatım olacaq ölüm.***

Xoşbəxt o, kəsdir ki, adı el-oba arasında hörmətlə çəkilir. Ə.Hüseynli belə insanlardandır. Müvəffəqiyyətdən başı gicəllənmir, əksinə öz uğurlarını başqaları ilə bölüşməyi , kiminsə xeyrinə yaramağı özünə borc bilir. Şeirləri həm oxunaqlı, həm də rəvandır. Özü qədər səmimi olan Ə.Hüseynli həm də gözəl həkimdir. Ə.Hüseynli yeni şeirləri ilə sizlərin görüşünə gəlir, əziz oxucular.

Ə.Hüseynliyə yeni-yeni uğurlar diləyüir, geniş oxucu auditoriyası arzulayıram.

***Elman İsrafiloğlu,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***«Quruluş», «Beyləqan» qəzetlərinin baş redaktoru.***



# İLHAM SEÇİLDİ

*Prezident seçkilərindən sonra yazıldı.*
*Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına həsr edirəm.*

Prezident seçkisi qaldı arxada,
Allaha şükür ki, İlham seçildi!
Azərbaycan güclənəcək daha da,
Qarabağ düyünü demək kiçildi!..

Yenidən prezident seçildi İlham,
İndi ölkəmizə o arxa durur!
Bölgələr simasın dəyişir tamam,
Dağılmış ölkəni yenidən qurur.

Deyirlər Onadır xalqın gümanı,
Xalqın seçimidir İlham, seçildi!
Götür başımızdan çəni,dumanı,
Desinlər fatehdir İlham, seçildi!

Şuşa qalasını al Qacar kimi,
Çevir Qarabağı yaşıl bağlara!
Qarabağda vüsət,inkişaf kimi,
Qaz-işığı göndər bizim dağlara!

Qoy nura qərq olsun Xocalı, Laçın,
Xankəndi yolun aç, eylə Bisütun!..
Qarabağ düyünün deyəndə açın,
Sənin əllərinlə açılsın bütün!!!

İdman kompleksi tikir hər yanda,
Şah Abbas məscidlər tikdirən kimi,
Mehriban xanım da onun yanında,
Xalga xidmət edir bir ərən kimi!..

Allah hər ikisin şərdən saxlasın,
İşıqlı gələcək gözləyir bizi!
Qoy doslar sevinsin,düşmən çatlasın!
Daim qalib görək rəhbərimizi!





# ƏSRİMİZIN SEVGİLİSİ
## *(İki ömür bir dünya)*



*Ulu Öndər Heydər Əliyevlə*
*Zərifə xanım Əliyevanın ülvi*
*məhəbbətinə həsr edirəm*
*Sənədli poema*

Naxçıvanın
Şahtaxtlısı,
Gül-çiçək açıb hər yanı...
Gənc gimnazist ailəsi,-
Əziz Əliyevi tanı!..

O, İrəvanda bitirib,
Gimnaziyanı əlaçı;
Xoş bəxti də tez gətirib;
Leylası olub əlacı!.

Gənc yaşından evləndirib,
Valideynləri Əzizi;
Göylərdən yerə endirib,
Leylası olub əzizi!

İstəkli eşi-yoldaşı,
Doqquz aylıq hamilə;
Cavan həyat – can sirdaşı,
Dayaq olub bu famılə!

Üzü ağ olsun gəlinin,
Hörmət qoyur qaynanaya;
Düşəri olub əlinin,
Gəlin dönəcək anaya!

İyirmi səkkiz aprel günü,
Min doqquz yüz iyirmi üç;
Bir gül açdı adı-ünü,
Ata ondan alırdı güc!..

Aya dedi,mən çıxacam,
Günə dedi, mən baxacam;
Ana dedi, bu gül çağam,
Deyir, günü mən yaxacam!

Ancaq bir az zəif idi,
Adı kimi zərif idi,-
Babbalaca zərif çağa...
Gənc gimnazisist-Əziz ağa;-

Öpüb qoydu gözü üstə,
Allahından tay nə istər;
Ay parçası, gözəl bala,-
-Böyü,böyü,qalma dala!..

**Əzizlər Bakıya gedir**

Çağa hələ aylıq ikən,
Əzizgil köçdü Bakıya;
Bəhrə görər zəhmət çəkən,
Gəlməz bu işlər şakıya!

Unversitetdə tibb elminə
Sahib olmaq arzusunda;
Bu elmi bilmək naminə,
Bir Allahdı arxasında!..

Bir kimsəsi, köməyi yox,
Təkbaşına gənc bir ailə;
Zarya bala qucaqda tox,
Leylanın gözünə gilə...

Unversetdə yataqxana,
Gənc tələbə ailəsi;
Zəhmətə qatlaşır ana,
Ağırlaşdıqca şələsi!





Beş il məhrumiyyət dolu,
İlləri yola saldıqca,
Əziz, Leyla gedir yolu,
Zaman özü qocaldıqca...

Gündüz oxu,gecə işlə,
Ailənin yükü ağır;
Halal zəhmətini dişlə,
Gənc ailə Əzizə baxır...

Əziz,ailəsin çox sevir,
Xüsusilə Zarya qızın;
Çox ağır olsa da dövr, (devir)
Dərsdən sonra çəkir nazın...

Qızın boyunu sevdikcə,
Qız yekəlib ha boy atdı,
Allaha şükür!-dedikcə,
Böyüyüb ərsiyə çatdı..

Aylar keçdi,il dolandı,
Araz daşıb çox bulandı,
Çiçəklər açıb sulandı,
Zərifə qız dərsə getdı...

Əzizin işi çox çətin;
Alimlik vurdu yaxaya!
Bu işlərdə Əziz mətin,-
Bu işlər gəlməz şakaya!

Əvvəlcə aspirant oldu,
Namizədlik adın aldı;
İstedadı qarant oldu,
Doktorluğun dadı baldı!

Az bir müddət sayısında,
Səhiyyənin komissarı!
Həm də ailə qayğısında,
Evdə Zaryası, həm yarı...

Artıq bir oğlu da olub.
Adın Tamellan qoyublar;
Artıq bir az yaşa dolub.
Hələ,demə ki,doyublar!..

Sovet dövrü uşaqlara.
Qəribə adlar verdilər;
Bəziləri; Sovet. Şura.
Bu qıza"Zarya"* dedilər...

Əziz Dağıstana gedir.
Məsul dövlət vəzifəsi;
Dağıstanda olub sədir.
Baş köşədə Zərifəsi..

**Qədərlər görüşür burda**

...Min doqquz yüz qırx ikidə.
On doqquz yaşlı gənc Heydər.
Bax ondakı bu təkidə,-
Onu rastlaşdırıb qədər!

Qarandaşla rəsmin çəkir
12 yaşlı "Zarya"nın**;
Altından da ismin əkir.
Adın yazır Zərifənin!

-Bu ad sənə çox yaraşır,-
Adını Zərifə qoydum!
Göydə ulduzlar sayrışır.
Qədərlər qovuşur aydın!..

Heydər heykəltaraşlıqda.
Rəssam olub yaratmalı;
Uca boylu yaraşıqda.
Ömür-günü qaraltmalı!..

---

* *Zarya-12 yaş. Zərifə xanımın uşaqlıq adı. gənc Heydər-rəssam*
** *12 yaşında qızın partıretini çəkir; "Zərifə-12 yaşında" yazır- AzTV-də verilişdə,13.05.13-ci il*





**Heydər sənəti dəyişir**

...İndi Heydər KKB-nin.
Leninqrad məktəbində;
Kəşfiyyatçı sənətinin,-
Zirvəsində öz təbində!

Rus dilinin dərinliyi.
Sənətinin gərginliyi.
Gənc Heydəri heyran edir.
Feliksin* dalınca gedir!

"-Çekist ona deyilir ki.
Soyuq başlı,qaynar ürək!
Elə işlər eləyir ki,-
Əl izi qalmasın gərək!.."**

Çekist Heydər belə idi;
Sviqunun*** sevimlisi!
Çekistlərin əli idi.-
Zərifənin deyimlisi...

Etibarlı gənc çekistin.
Təyinatı Azərbaycan;
Əks-kəşfiyyat dəsti-xəttin,-
Öyrənmişdi son ayacan!

Rəhbərlik ondan çox razı:-
Kafkazların göz-qulağı;
Daşnakların kökün qazır.
Təmizləyirdi"alağı"!..

---

* *Feliks-Edmunoviç Dzerjinskiy-sovet çekistlərinin ilk rəhbəri -red.nı*
** *Feliksin kəlamıdır.çekistom kto bıt. xolodnom* qolovoy,qoryaçimi serd semi,çistimi rukami!.. *"-KKB-nin devizi olmuş bir kəlam idi-red.müəl*
*** *Sviqun-sovet çekisti. SSRI-Dövlət Təhlükəsizlik komitəsinin səd*

Bu"alaqlar"ın yerinə,
Azərbaycan tumu əkir;
Köklər işləsin dərinə,
Həmişə qayğısın çəkir!

**Talelər görüşür yenə**

...Qardaşı* gilin qonşusu,
Əziz bəyin qızı həkim;
Onu almaqdı arzusu,-
Demişdi;- «şəklini çəkim»...

Düz səkkiz il sonra Heydər,
Vurulacaq bu insana;
İlahidən qismət,qədər,-
Düşsə də şaxta,borana!

Zərifəyə deyir,görük,-
O da ulduz,ay parçası;
Arxasında qoşa hörük,
Heydər bəyin nur carçısı!

Həyatından artıq sevir,
Həkim qızı-Zərifəni;
Bu yolda dağları devir,-
Əldə elə "Dəfinə"ni!!!

O da nəcib,ləyaqətli,
Vəzifəli həkim qızı;
Ailəsinə sədaqətli,
Heydər eşqi çəkir qızı!

Atasına bağlı bu qız,
Atasını çox da sevir;
Aybənizli,ağıllı qız,-
Gənc Heydəri baxta sevir!

* *böyük qardaşı-profesor Həsən Əliyev nəzərdə tutulur.red.müəl.*





**Göz həkimi Zərifə**

...Atasının yolun gedir,
Olur nur bəxş edən həkim;
Gənc Heydəri O,kəşf edir,
Sevgisinə olur hakim!

Əziz Əliyevin qızı,-
Heydər Əliyevi sevir;
Bu nə gözəl,nə xoş yazı,-
Bu eşqi dastana çevir!..

**Mir Cəfərin qısqanclığı...**

Qısqanclıqdan Mir Cəfərin,
Səbədsiz beyni dağılır;
Biliyi, savadı dərin,
İnsanlar ona yağıdır!

Əzizin şöhrəti,şanı,
Qısqandırır Mir Cəfəri;
-Qoruyaraq Dağıstanı,
-Sürgün etmir bir nəfəri?!

-Dağısatan kimi sərt yerdə,
-Necə ki, qolçomaq yoxdur?!
-Bağırov düşünür hərdən,-
Əziz ona batan oxdur!..

Bu"ox"dan yaxa qurtardı,
Əziz qayıtdı Vətənə;
Gəlirdi təzyiqin ardı,-
Əzizi saldı çətinə!..

O boyda şəxsiyyət indi,
Qoyulub GEM*-in rəhbəri;
Əziz buna da sevindi,
Necə olacaq səhəri?!

* GEM – sanitar-tibb müəssisəsi - red. müəll.

Hələ biləndə kim?
Mir Cəfərə ehtibar yox!
Həlim xəsiyyət bu həkim.
Rəhbərliyin göbzünə ox!..

**Ülvü məhəbbət...**

Bu qız yamanca vurulub
Ağılla,başla Heydərə;
Saf eşqi nurdan durulub,
Heydər də bu gülü dərə...

Qəlbinə bu sevgi düşüb,
İlahidən,bilinmədən;
Bu sevgidən çox dəyişib,
Allah eşqi silinmədən!

Bu sevginin adı ülvət,-
Səbəbkarı çekist Heydər;
Görüşürlər xəlvət-xəlvət,
Eşq gülünü hey dər, hey dər!...

Çekist idi o vaxt Heydər,
Uzun boylu sütül oğlan;
Bir könüldən min könülə,
Vurulmuşdu qəfil oğlan! .

**Rəhbərliyin rəzilliyi**

Rəhbərliyə çatdı xəbər,
Yemilyanov nota verdi;
Gənc Heydəri boğdu kədər,
-Yolundan dönmədi geri!

Yemilyanov zikirdədir:-
"-Əziz Əliyev haqqında,
-Bağırov pis fikirdədir,-
-Silinərsən lap yaxında!"...

Cavab verdi: O, nadana:-
"-Fəqət,o qızı sevirəm!





-Heç nədən aslı olmadan,
-Lap paqonumu çevirrəm!.."

Sevən qəlbi sıxılsa da,
Olan eşqi tükənmədi;-
Bu notadan yıxılsa da,
Sevgisindən çəkinmədi!

Həlim qəlbli,gözəl mələk;
Dedi,-bu iş tutmaz daha,-
-Bu sevdadan sən gəl,əl çək,-
-Vüsalımız döndü aha!.."

**Haqq öz yerini tapdı**

Böyük Haqqın xoş məramı,
Bu məhəbbəti qorudu;
Ayrılın!-deyən adamın,
Deyən dilləri qurudu!..

Ədalət aldı yerini,
Baş kəsənlər tez vuruldu;
Fələk qırdı məhvərini,
Canilərə"toy"quruldu!..

Allahın bu xoş məramı,
Xilas etdi bu sevgini;
İlham bəxş edən ananı,
Qovuşdurdu bir xoş günü!..

El adəti nişan-toyla,
Qovuşdular bir-birinə;
Bu ölçülür nəsil-soyla,
Mən gedirəm lap dərinə!

Sadə yaşam tərzi ilə,
Zövq aldılar bu həyatdan;
Bir Allahı,özü bilə,-
Şirin, acı çıxmaz yaddan!...

14716
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZIDENT KİTABXANASI

...Cavan çekist oddan keçdi,
Zərifə də öz işində...
İllər bu ömürdən içdi,
Onlar nələrin peşində?!

**Heydər ailəsi böyüyür**

...Dünyamıza Sevil gəldi,
Rəhbərimiz İlham gəldi!
Bu məhəbbət azalmadı,
Bu sevginin Azman* adı!..

Bu dünyadan keçib getdi,
Mələksifət üzü qaldı;
Nəsillər bu yoldan keçdi...
İlham adlı izi qaldı!...

Belə sevgi görülməyib,
Nə keçmişdə, nə indidə!
Belə sevgi hörülməyib,
Bəni-insan ürəyində!..

Elə sevgi yaşadılar,
Ulu Öndər xanımıyla.
Ömür yükü daşıdılar,
Düz ilqarlı anımıyla!

Bu məhəbbət oddan keçdi,
Alnı açıq,üzü də ağ.
Nəsillər bu yoldan keçdi.-
Qəlbimizdə O,yenə sağ!

Nur saçılan simasında
Zərif xanım mərhəməti,
Saf eşqinin səmasında,
Allah-tala əmanəti!-

* Azman – böyük, əzəmətli deməkdir (red. müəll.)





Heydər oldu əmanəti,-
Qayğı ilə əzizlədi...
Sevil,İlham zəmanəti,
İndi onlar bizimlədir!

Əsrimizin məhəbbəti
Qönçələndi bu insanda;
Sevgi dolu gül səbəti,
Bar da verdi adda-sanda!

Üzü nurlu ay parçası,
Böyük ürəkli,mehriban.
Sevgi,məhəbbət carçısı,-
Hara gedir bu karivan?!

Bu dünyadan keçib getdi,
Bu dünyada sözü qaldı.
Az ömründə nələr etdi,
İlham adlı izi qaldı!..

**Bu dünyadan «dəril» günü**

...15-i aprelin günü,-
Min doqquz yüz səksən beşin,
Bu dünyadan"dəril!"-günü,
Yoxdu çarəsi bu işin!..

...Palatada stol üstə;
Əl yazısı donub qalıb,
Ağ göyərçin düşüb xəstə,
Dil ucuna qonub qalıb...

-"Məndən heç narahat olma,
-Uşaqlardan müğəyət ol!
-Qəlbin xəstədir,çox yorma,
-Mən gedəli,sən həyat ol!.."

"Səni sevirəm...Zərifə..."
Bunu insan,mələk yazıb?!

Bəs edər duyan arifə,
Sonsuz sevgi,dilək yazıb!..

Deyirlər can şirin olur,
O, canını düşünmədi:
Saf məhəbbət dərin olur,
Ölümdən də üşənmədi!

Son nəfəsdə Heydərini,
Övladını yada saldı...
Dünya şöhrətli ərini,
Düşünüb yuxuya daldı...

Belə sevgi sən görmüsən?!
Mən görmədim hələ,qardaş!
Sən də ömür,gün sürmüsən,-
Leyli,Məcnun bilə yaddaş...

Elə sevdi bir-birini:
Canı-dildən,saf könüldən,-
Heyran etdi hər biləni,-
Həyatını oxu,dinlə!.

**Qara xəbər**

...Xəbər çatıb rəhbərimə:
Can evindən can ayrılır!
Kədər qatdım kədərimə,
İçin-için yan,ayrılır...

Rəhbər Heydər qəm içində,
Tərk edibdi həyat daşı...
Məğrur gözlər nəm içində,
İxtiyarsız axır yaşı...

Nə etməli,həyat belə,
Heç kim qalmır bu dünyada...
Yaşamalıydı O,hələ,
Hələ çatmalıydı dada!





Xəstələrə nur bəxş edən,
Həkim özü de hardadır?!
Eşqin qəlbinə nəqş edən,
Rəhbər Heydərim dardadır!..

Qəmgin gözü çətin gülər,
Nə tez tərk elədin Onu?!
Yaşasaydın uzun illər,
Görərdin sovetin sonun!..

Yasasaydın,görərdin ki,
Nələr çəkdi bu başımız?!
Qonşuların əli ilə
Zəhərlənibdi aşımız!..

Görərdin ki,Ulu Öndər,
Adlı bir dayağım vardı!
Təkrarlanır qoca qədər,
Üç rəngli bayrağım yardı!

"...Bir dəfə yüksələn bayraq,
Bir də enməz,bir də enməz!"
Müstəqil dövlətə dayaq;-
"Müstəqillik bir də dönməz!

Dağılmış ölkəni qurdu,
Aldı"qurdların"əlindən!
Vətənimə arxa durdu,
Bünövrə qazmış dərindən;

Almışlardan,yetmişlərdən,
Bünövrələr tökülmüşdü;
Doxsan illik keçmişlərdən,
Olan-qalan sökülmüşdü!

Əldə,cibdə bir quruş yox,
Hay faşistləri qapıda!

Orduda möhkəm duruş yox,
Əlikramlar da yapıda!..

Nələr etdi Ulu Öndər,
Hər kəs oturdu yerində!
Atatürküm oldu Heydər,
Adı xalqımın dilində!

Atatürküm,Xətayim O,
Onlardakı ürək Onda;
Əllərdəki ətəyim O,
Allah göndərmiş sonunda!

Gətirdi düşməni dizə,
Mərd,mübariz türkmən oğlu!
Ömrün bağışladı bizə,
Davamçısı İlham oldu!

Nələr deyim,nələr yazım?-
Bu fenomen insan üçün?!
Çox zəif olsa da yazım,
Yadigardı yazan üçün...

**Böyük fəsəlli!**

...Görərdin ki, qoca tarix
Təkrarlanır bu torpaqda;
Bütün dünya alqışlayır,
İlham oğlunu ayaqda!

Tam müstəqil dövlətimin,
Bayrağı göyləri dəlir!
Azərbaycan millətimin,
Firavan günləri gəlir...

Sənin gəlininin Mehriban,
YUNESKO-nun baş vəkili;





Əliylə gül açır hər yan,
Xoş niyyəti min tikili!.

Nəvələrin pırıl-pırıl,
Leyla Vətənimi öyür;
Xocalının haqq səsini,
Yaxın,uzaq,sağır duyur!

Balaca Heydər böyüyüb,
Ağıllı bir oğlan olub!
Görərədin ki,hay döyülüb,
Torpağımızdan qovulub!..

Heyif,bunları görmədin,
Ömrün az,xilqətin böyük!
Qarbaçov adlı namərdi,
Mənim xalqım hələ söyür!..

Ulu Öndər tez gətirdi,
Odlar Yurdu ölkəsinə,
Xiyabanda bir ətirdi,
İftixardı hər kəsimə!

Yaxınlardan,uzaqlardan,
Gələn qonaq səni anır,
Yurdumu dardan qurtaran,
Rəhbərin sevgisi sanır!..

Sənə sunulan çiçəklər,
Ulu Öndərin elçisi;
Yaşa deyir xoş diləklər;
Əsrimizin sevgilisi!!!

**Epiloq**

...Böyük sevgi son nəfəsdə,
Dilindən kağıza köçdü,
Aybənizli,boyu bəstə,
Bu dünyadan nə tez köçdü?!

Son nəfəsdə istəmədi,
Sevgilisi qəmgin ola,
Ölüm nədi, xəstə nədi?-
Göz giləsi nəmgil ola!

Bu nə sevgi, el bu nə istək?!
Əsrimizin sevgilisi!
Son nəfəsdə dindi istək,
Dərya oldu hər giləsi!..

Baş əymək bizə vəzifə,
Dörd fenomen insan üçün;
Əziz, Heydər və Zərifə,
Rəhbərimiz İlham üçün!!!

*20.04.2013-cü il. Beyləqan şəhəri.*





## ƏRKAN ABI-ÖYRƏTMƏN

*Afrikanın uzaq Tanzaniya ölkəsinə Türkiyədən bir öyrətmən (müəllim) – Ərkan Çağıl abi gedib okul (məktəb) açdı,öz ailəsini; eşi – Arzu xanımı, oğlu kiçik Xəlili də özü ilə apardı. Buraya başqa türk müəllimləri də gəldi, tanzaniyalı həmkarları ilə birlikdə"siyah mirvarilərə" – tanzaniyalı uşaqlara təhsil verirdilər. Günlərin birində dağ yolunda öz avtomobilində qəza yapdı, ağır yaralandı; və vəfat elədi, ölməmişdən vəsiyyət etdi ki, onun cənazəsini vətəni Türkiyəyə aparmasınlar, ona doğma olan bu məktəbin həyətində dəfn etsinlər! Onun vəsiyyəti ailəsi və yaxınları tərəfindən yerinə yetirildi... Bu, türk müəlliminin, adamının böyük ürəyindən xəbər verirdi!.. Allah rəhmət eləsin!*

Tanzaniya bir türkə məskan oldu;
Türkiyədən gəlmə öyrətmən idi...
Qaranlıq qitəyə o,bir dan ulduz,
Qara qitə ona bir vətən oldu!..

Türkiyədən bu yerlərə gəlmişdi,
Çağıl Ərkan abi okul* açmağa;
Buranı özünə vətən bilmişdi,-
Gəlmişdi bu yerə ziya saçmağa!

Siyah balaları özünkü bildi.
Öyrətdi onlara elmin sirlərin.
Burda abı-hava elə gözəldi,-
Qaynayan Afrika bir xeyli «sərin!..»

* okul – türkcə, məktəb – red. Ə.H.

Eşi Arzu xanım,oğlu Xəlil də,
Onunla bu yerdə nəfəs aldılar;
Bura uyğunlaşdı bir neçə ildə,
Öz dərdi-səriylə burda qaldılar...

«Türk okulu» yaxşı hizmət verirdi,
Burda oxuyanlar bir xeyli məmun;
Qara mirvarılər onu sevirdi,
Fəqət,yol qəzası eylədi mağmun...

O,son nəfəsində vəsiyət etdi:-
-Onu dəfn etsinlər okul bağında!
Böyük türk adından bu nəsiyətdi;-
Dünyanın; türkləri qınaq çağında!..

Bu qərib diyarda türküm uyuyur,
Qara Afrikanın okul bağınada;
Bu qara qitəni nuruyla yuyur,-
Təmiz ürəyinin nur çırağında!..

Bu dünya durduqca orda qalacaq,
Müqəddəs ruhuyla ziya saçaraq!
Nəsillərin yaddaşında olacaq,-
Pərvanələr kimi oda qaçaraq!..
Paslı qıfılları qırıb açaraq!...

*21.12.2011-ci il. Beyləqan şəhəri.*





## BEYLƏQANIN BAŞÇISI

*Beyləqanın başçısı hörmətli Vaqif Abdullayev cənablarının ad gününə həsr edirəm.*

Dünyada insanlar cürbəcür olur;
Viranə qoyanlar,bir də quranlar,
Qəlbimə bu dəfə təskinlik dolub,
Şükür ki,bizə də arxa duran var!

Qədim Beyləqandan bir azca bəri,
Haramı düzündə bir şəhər durur,
Vasif Abdullayev duyub səhəri,
Müasir qurluşda yenisin qurur!

Bu şəhərin adı yeni Beyləqan,
Sovet dönəmində bir az düzəldi,
Vaqif gələn gündən olub çıraqban,
Onun zəhmətiylə necə gözəldi!..

Ulu Öndərimin nəfəsi burda,
Əməlləri çiçək açır yurduma,
Bir zaman Beyləqan qalanda darda,
O ilham vermişdi qadir orduma!

Ulu Öndər sitəm çəkdi haylara,
Haramı düzündə məyus oldular!
Indi ataşkəsdir,sakitdi ara,
Beyləqandan çox uzaqdı ordular!..

İndi Beyləqanın güllü yazıdır,
Bu yazı gətirən, quran kişi var;
Onun şərəfinə bu bir yazıdır,
Diqqətlərə şayən gözəl işi var!

Yenidən qurulur qədim Beyləqan,
Yeni park, mərkəzlər, yeni binalar...
Ayağı urzulu, ürəyi al qan,-
Boşboğaz, əbləhlər bəzən qınarlar...

Yolundan donmərmi vüqarlı insan,
Yüz əngəl çıxsa da yolunun üstə?!
Yolundan eləmək deyildi asan,
Ona xoş arzular, xoş sabah istə!

Onun arxasında gör kimdi duran?-
Ulu Öndərimin ciyər-parəsi!
İlhamla müstəqil gələcək quran,
Bütün dərdlərimin odur çarəsi!..

Sənətə, şeirə qiymət verəndi,
Təbim cuşə gəlib ondan yazıram!
Beyləqanı quran O,bir ərəndi,
Bu yolda şerimlə mən də hazıram!..

*10.05.2013-cü il. Beyləqan şəhəri.*

## CAVAD XANIN ÖVLADLARI

*21 yanvar 2012-ci ildə möhtərəm prezidentimiz cənab İlham Əliyev Gəncəyə səfər etdi; tele ekran qarşısında bu səfəri izlədikcə elə sandım ki, sehirli aləmə düşmüşəm! Eşq olsun, bu işləri görən kişiyə! Haqlı olaraq möhtərəm Prezidentimiz Yelmar müəllimi göstərib:-Yelmar müəllim yaxşı işləyir! - dedi. Doğrudan da hər şey çox gözəldir! Qəlbim riqqətə gəldi; dəfələrlə Gəncədə olmuşam, möhtərəm Prezidentimizə"Gəncə qapıları"barədə, Cavad xan barədə 2004-cü ildə, yəni, Eldar Əzizovun işlədiyi dövrdə yazmışam və Prezidentimizin xüsusi göstərişi ilə cənab Eldar Əzizov bir sıra işlər gördü; Cavad xanın qəbrinin üstündə məqbərə tikdirdi, Kutaisi monastırında"əsirlikdə" saxlanılan bir cüt (misdən olan qapıların bir tayını ikinci dünya müharibəsində Stalinin xüsusi göstərişinə əsasən güllə düzəltmək üçün metalloma göndərmişlər. ) mis*





*qapıların surətini çıxarmaqla yenidən həyata qaytarmış oldu. Lakin o zaman da mən təklif etmişdim ki, Gəncə qapılarının qabağında Cavad xanın at üstündə möhtəşəm heykəli qoyulsun, Azərbaycanın Gəncəli filosof-şairi- (Əli Nicatın"Gəncəli müdrik"romanını oxu!) Mirzə Şəfi Vazehin Gəncə məscidinində böyüyüb, başa çatdığı və ordan pərvazlandığı otaqlarının birində"Mirzə Şəfi Vazeh guşəsi" və Ev muzeyi yaradılsın, Azərbaycan ədəbiyyatının körkəmli qəzəl ustası və lirik şairəsi Məhsəti xanım Gəncəviyə də Bakıda Xan qızı Natəvan xanıma ucaldılan abidə kimi, ona da heykəl qoyulsun! Qoy Bakımız kimi, Gəncəmiz də heykəllər və fəvvarələr şəhərinə çevrilsin; Sizin və möhtərəm Pezidentimizin sayəsində! Siz ona müraciət etsəniz, inanın ki, Sizin sözünüzü yerə salmaz! Axı, adlarını çəkdiklərim də Azərbaycanımızın qiymətli övladlarıdır! Onlar onsuz da xalqımızın qəlbində özlərinə əbədi abidələr yaratmışlar, lakin bu günkü nəsilin imkanı çatar ki, müstəqil Vətənimizin bu kimi unudulmuş, Moskvanın əli ilə deyil, öz əllərimiz və vəsaitimiz hesabına heykəllərini ucaltmaq onlara qarşı dərin ehtiramımızın nümayişidir! Gəlin bu heykəlləri də qoyağın və Gəncəmizi bir az da gözəlləşdirəyin! Eşq olsun Sizə, cənab Yelmar müəllim! Sağ olun! Gələcək nəsillər Sizi heç unutmayacaq!!!*

*Sizə və Gəncəyə həsr etdiyim aşağıdakı şeirimi hüzurunuza təqdim etməkdən qürur duyuram.*

Babalara ehtiram,
Türkün öz qanındadır!
Taleyimi yazıram,
Möhtəşəm anımdadır;

Gəncəyə kimlər gəlib,
Davidlər, Sisyanovlar...
Qürurun yerə sərib,
Yelzaveta, Kirovlar!..

Tarixin ləkələri
Təzə təmizlənibdi,
Evləri, küçələri
İndi əzizlənibdi!

Yelmar bəy də ilhamla
Yeni Gəncə yaradır;
Baş tacımız İlhamla
Gəncəmizə qaladır!

Cavad xan,Nizaminin
Ruhları səninlədir.

İlham sənin zaminin,
İlahi təbinlədir!

Xalqımın mərd oğulu,-
Cavad xanın nəvəsi!
Gəncəm təzə doğulur,-
Yelmar bəyin həvəsi!
Babaların ruhunu
Nə qədər şad etmisən!
Nizaminin,Vazehin
Yurdun abad etmisən!

Yüz abidə yaratdın
Ululların adına;
Yadları söküb atdın,
Tarix düşdü yadına...

Qapısın David əkdi,
Qalasını sən yarat!
Nələr acılar çəkdi,
Səninlə olsun rahat!..

Səndə bu zəka nədir?!
Sən Memar Əcəmisən?!
Qurduğun xəzinədir,-
Quranların cəmisən!





Prezdentin üzünü
Ağ etmisən Gəncədə!
Deyim sözün düzünü;
Cavad xansan,məncə də!..

Sənə sonsuz təşəkkür,
Allahdan can sağlığı!
Əzim,səbir,təfəkkür,-
Bir də ki,üz ağlığı!!!

Təmənnasız el oğlu,
Gəncəli səni sevdi;
Gəncəm üçün çox sağ ol,-
Qalasız qədim evdi..

Qapısı yerin alıb,
Qalıb abidələri;-
Məhsəti,Vazeh qalıb,
Cavad xan dədələri!..

Qalasını da sən tik,
Gəncə sənin evindir.
İşıq saç bir günəş tək,
Qızılbaşı sevindir!

*22.01.2012-ci il. Beyləqan şəhəri.*

## GƏNCƏ QALASI

*Gəncə Icra Başçısı hörmətli Yelmar müəllim (cənab Yelmar Vəliyev) Gəncə qalasını bərpa edir.*

Gəncə qalasının günahı nədə,
Yadelli cənaba təslim olanda?!
Böyük bir millətə qorxumu,hədə?-
Başının üstünü bulud alanda?!

Dərbənd qalasıtək məğrur dururdu,
Sisyanova qarşı tənha qalanda!
Kərpicin,əhəngin qanla yoğurdu,-
O məğrur qalanın bürcün alanda!..

Yerlə-yeksən oldu Gəncə qalası,
Ağlar göz yaşını silən olmadı.
Əsir-yesir qaldı Qacar balası.
O zal divarlardan əsər qalmadı...

Düşmənin nifrəti bitib tükənməz,
O nifrət dağıtdı Gəncə qalasın!
Elə dağıtdı ki,bir də tikənməz,-
Görüb Cavadxanı yada salmasın!

Düşmənin dilmancı Mədətov-haydı,-
Onun fitvası ilə qala dağıldı!
Taleyin verdiyi bu necə paydı?-
Gəncə qalası da,sanki,nağıldı...

Elə bil bu qala heç vaxt olmayıb,
Gəncə də düşmənə:-xoş gəldin!-deyib.
İşlənən cinayət qorxunc və ayıb,-
"Yelzavetpol"-deyə,təzə don geyib!

Zor ilə Gəncənin adı dəyişdi,
Ürəklərdən silinmədi ad-sanı'
Sovet dönəmində adlar əyişdi,
Dedilər,Gəncəni-Kirabad tanı!..

Qala da silindi,onun adı da,
Xalqın yaddaşında qaldı ad-sanı...
İndi salamlayır bizi,yadı da,
Nizami yurdunu Gəncətək tanı!.

İndi sahibidir öz övladları,
Nizaminin,Cavadxanın ruhu şad!





Qatlayıb arxivə qoyub adları,
Yelmar müəllimlə olacaq abad!!!
(Gəncə qalasıyla olacaq abad!)

*07.02.2012-ci il. Beyləqan şəhəri.*

## FÖVQƏLADƏ VƏZİYYƏT

*İgid qurtarıcı FİN-nin bütün heyətinə həsr edirəm. Vanda zəlzələ zamanı fədakarlıq göstərdiklərinə görə.*

Soydaşların dardadır, tez yetiş FİN qardaşım,
Yer-göy alt-üst olubdur, əzilib qolum-başım!
Nə qədər insan yatır daş-dəmirin altında,
Kimi canın tapşırıb, kimi də yer qatında...

Tez yetiş harayına, qurtar kor məngənədən,
Hələ nəfəsi varkən,tez gəlməsən kəsilər!
Fəlakətli günlərdə axtarma heç bir nədən,
Allahın qəzəbini çox görübdü nəsillər!...

Gah zəlzələ oyanır, gah da vulkan püskürür,
Bu kiçik planetin nə qədər dərdi varmış?!
Gah istidən çatlayır, gah soyuqdan öskürür,-
Nə olursa olsun, Allah üstündə yarmış!..

Göyün yeddi qatında cövlan edir buludlar,
Rüzgarın arxasında sel suyu var,qarı var.
Qopub dərin kökündən uçur qoca palıdlar,
Təbiətin gücünə kimin iqdidarı var?!

Təbii fəlakətin önünü almasan da,
Əllərində qüvvətin,ürəyində təpər var!
Yetişirsən millətin harayına asanca,-
Aşarsan qarlı dağı,ya qarşında çəpər var!

Vanda fəlakət zaman FİN yetişdi uçaraq,
Fəlakət bölgəsinə ulaşdılar bir anda.

Yıxılmış binaların özülünü açaraq,
Neçə həyat qutardı FİN qardaşlarım Vanda!

Betonların altından neçə insan qutardı,
Qurtaran Allah əlbət,-gör,kimlərin əliylə?
Demək ki, Allahın da yerdə köməyi vardı,-
Onların bu əməyi qiymətlənsin ləliylə!

FİN-də nizam-intizam,bir də möhkəm inam var;
Qutarmağa gələnlər yaxşı bilir işini!
Onların arxasında Kamal,bir də İlham var,
Burda yad edək gərək,iki böyük Kişini!!!

*Türkiyənin prezidenti Abdulla Gül qurban bayramında Vana gəldi; dəprəmzədələrin çadırlarını ziyarət etdi, əməyi keçənləri, o cümlədən,Azərbaycan respublikasının FİN əməkdaşlarını qeyd etdi*

*06.11.2011-ci il. Beyləqan şəhəri.*





# ÜNVANLI ŞEİRLƏR

## MALİKİN İLK NƏVƏSİ

*Oğlum Turalın şefi Malik Seyfulla oğlunun qız nəvəsi olub; əllərində qalsın, atalı-analı, babalı-nənəli böyüsün!Amin!*

Nəvəm,-"baba!"-deyəndə,
Diksindim gəncliyimə.
O günü görüb sən də,
Gülərsən dincliyinə!...

Artıq baba olmusan,
Nəvələrin çağırsın.
Demək,yaşa dolmusan,
Qoy saqqalın ağarsın!

Həyatın nur çağıdır,
Qismət olub Alikə*.
Babalıq üz ağıdır,-
Növbə gəldi Malikə!

Təzə zoğlar,pöhrələr,
Kökümüzü ucaldır;
Yeni nəsil çöhrələr,
Malik,bizi qocaldır!...

Sevindin,nəvən oldu,
Dövlətdə dəvən oldu.
Qızılbaş yaşa doldu.
Qocalıqdan bac alar!

*01.11.2012-ci il. Beyləqan şəhəri.*

---

* yəni – Əlizaminə (red. müəll.)

## SAF ÜRƏKLI GENERAL

*Həssas ürəkli həkim, yardım sevər general Faiq Cavad oğlu Tağızadənin ad gününə həsr edirəm. FHN-nin general-mayoru Faiq Tağızadə ağır ürək xəstəsi olan nəvəm İlkini"Heydər Əliyev" Fondunun yardımı ilə Moskvaya əməliyyata gönərilməsinə yardımçı oldu. Allah razı olsun!..*

Bu ürəyi hardan aldın,-
Sinəndə döyünən qəlbi?!
Nəcib nəsli yada saldın,-
Kimsə üçün deyil albi!..

Bu nəsilin insanları,
İnsanlığa nümunədir;
Nərəngizi[1],Tağıları,[2]
Yaddaşlara bir namədir...
(mənim tibb insitutunda
müəllimlərim olub.
Allah rəhmət eləsin! Amin!)

Atan Cavad[3] insanlığın
Ən alisinin siması,
Müşküllərdən asanlığın,
Möhtacların and səması!

Cüt ananın övladları,
Halal südün bəhrəsidir;

[1] ATU-nin prof.Nərəngiz xanım Tağızadə-bibisi
[2] prof.Tağı Tağızadə-əri
[3] Cavad Tağızadə-Faiq Tağızadənin atası





Mehriban, Faiq adları,
Mələklərin çöhrəsidir...

Yaxşılıq genlərindədir,
Onlar kimi insan hanı?!
Ha denən ki,əlindədir,-
Bu mərd insanları tanı!..

Təmiz ana südü kimi,
Qazandıqların halalın;
General edən həkimi,
Saf ürəyində amalın!..

Təmiz nəslin cahangiri,-
Tağızadələrin oğlu;
Onların nəslindən biri,
Nəslin davamçısı,-doğru!

...İlkin nəvəm can üstündə,
Balalarım sənə gəldi;
Ürək qüsürü qəstində,-
Müşküllərə sinə gərdin!

...Yeddi min dolları sundu,
Nicad verdi bir balaya;-
Heydər Əliyevin fondu,-
Məlhəm oldu min bəlaya...

Moskvada"Bakulev"də,
Keçdi ürək əməliyyatı;
Rahat yatsın Əliyev[4] də,
İlkinə verdi həyatı!..

[4] Ulu Öndər Heydər Əliyev fondu nəzərdə tutulur-red.müəl.

...O insanlıq ki,səndə var,
Allah razı olar səndən!
Harda sənintək bəndə var,-
Allah ucaldar heç nədən!.

Kişiliyi,ürəyi saf,
Faiqtək iyi görmədim,
Ürəyi üzütək şəffaf,
Faiqtək bəyi görmədim!..

*05.05.2013-cü il.Əlizamin Hüseynli (Qızılbaş).*
*Beyləqan şəhəri.*

## QƏNİRƏ

*Millət vəkili, xalqımın Tomris qeyrətli, vətənpərvər xanımı Qənirə Paşayevaya həsr edirəm.*

Şəhriyarın övladı,
Qənirə xanım adı;
Sən Şəhriyar deyəndə,
Önündə baş əyəndə,
Qəlbim tir-tir titrədi,
Qızılbaş səninlədi!

Azərbaycan övladı,
Qənirə xanım adı;
Azərbaycan deyəndə,
Qeyrətə bax zənəndə!..
Təbriz,Dərbənd,Kərkükün...
Qəlbində acı yükün!..

Bütöv Azərbaycanın,
Sən aslan övladısan!





Əli sənin qurbanın,
Sən Tomrisin adısan!
Danışan dilin alov,
Alışan elin Alov*!..

Dedin o torpaqları,
Unutuğun adları,-
Nəsillər unutmasın,
Xəyalından atmasın;-
Hazır olsun almağa,
Ölüb orda qalmağa!..

Erməni açlımında,
Möhkəm əzmini gördüm!
Ən acılı anımda,
Başıma çələng hördün...
Kişi qeyrətli qadın,
Saf,müqəddəsdi adın!

Odlar yurdu-Vətənin,
Heydər,İlham çətənin!
Qəlbindən od püskürən,
Millətə yol göstərən,-
Mən də sənə gəlirəm,
Qənirəm, ay Qənirəm!!!

*25.12.2011-ci il."İctimai" telekanalında çıxışından sonra.Beyləqan şəhəri*

* Alov – Odlar Yurdu ölkəsi nəzərdə tutulur (red. müəl.)

## EMİN BƏYİN RÜTBƏSİ

*Oğlum Turalın rəhbəri və dostu Emin müəllimin rütəsini bir ulduz da böyüdüblər; təbrik edirəm!*
*FHN-nin əməkdaşı, polkovnik-leytenant Emin Fəxrəddin oğlu Abdullayevə ərmağan edirəm.*

Podpolkovnik olmusan,
Rütbən elə böyüsün;
Ucalığa dalmısan,-
Dostlar sənlə öyünsün!

Buna layiq bəndəsən,
Ucalıq zirvəsində.
Dost-tanış üçün əsən,
Bir mələk cilvəsində.

Allah verdiyi ömrü
Şərəflə vursun başa.
O da Allahın əmri,-
Emin də olsun paşa!

Səbirli,gözəl insan,
Allahın xoş bəndəsi;
Hər xeyirxah olasan,
Səvabı çox,-həndəsi!..
*01.11.2012-ci il. Beyləqan şəhəri.*

## NİŞAN MƏRASİMİ

*Oğlum Fəridin və Süsənin nişan mərasiminə həsr edirəm*

İgid oğlan bir qızın,
Qismətinə kim düşə?..
Qısmətin,-alnın yazın,





Püşkünə həkim düşə,
Sənin yolunda bişə?!

Bizim gəlin Süsəndir,-
Süsən-sünbüldü adı;
Qəlbi kövrək,küsəndir,
Seyid-imam övladı,
Fərid onu tovladı!..

Arzularla döyünür,
Üzündə nur,isməti.
Ata-ana söyünür;
Həkimlikdi sənəti,
Allahdandı qisməti!

-Mir Yaqub*, gözün aydın:
Arzuların bar verir!
Mən Ondan* ilham aldım,
Fəridimə yar verir,
Allahım qərar verir!!!

-Qıza süd verən Ana,-
(Gülgəz xanım!)
Üzün ağ,başın uca!
Böyüdüb yana-yana,
Yetişdirdin soyunca,
Üzün gülsün doyunca!
Amin!
Aygülə bacı gəlir,
Aygünün bir eltisi;
Başımın tacı gəlir,
Mir Yəhyanın**elçisi,

* Mir Yaqub-dostum-həkim,cərrah-Süsənin atası.
* O-Allaha işarədir.
** Mir Yəhya-Mir Yaqubun atası-Allah rəhmət eləsin!

(Peyğənbərin s.ə.s.elçisi!)
Müsəlmanlıq ölçüsü!

Bu gün nişan,toy-düyün,
Qohum-qardaş amada!
Qızılbaş,sən də söyün,
Oğlun dönür damada,
Bəxt ulduzu səmada!..
(Davam etsin tamada!***)

*18.03.2012-ci il. Bakı şəhəri. "Al-tun"şadlıq sarayı.*

## AD GÜNÜ

*Hər iki qudalarımı; Aytən qızımın qaynatası Tofiq Hüseynovun və Fərid oğlumun qaynatası Mir Yaqub həkimin ad günüdür - Iiyul. Belə bir təsadüf qərib deyilmi?!*

Dünyanın qəribə işlərinə bax;
Biri iyul;-iki qudam doğuldu.
Qohum deyə gəzdim əlimdə çırax,
Gördüm hər ikisi azman oğuldu!

Yayın istisində od ilə gəldiz;
Tofiq Gədəbəydə,Yaqub Aranda.
Ata-ana üçün hər biri əziz,
Düşmən çəpəridi sona varanda!

Başqa-başqa yerdən gəldiz Bakıya,
Təhsil də aldınız,ailə qurdunuz...
Bu talenin işi gəlməz şakıya,
Yaxın qohum oldu uzaq yurdunuz.

Səbəbkar övladlar,yoxsamı tale?
Bu sual önündə baş əyməliyəm.

*** tamada-Süsənin əmisi-Mir Cavan idi.





Sizi tapmışam ki, əməlisaleh,-
Qızılbaş Əliyə Pir deməliyəm!..
Sizi verənə şükür!

*01.06.2012-ci il. Beyləqan şəhəri.*

## BİRİ İYUL

*Hər iki qudam;Tofiq müəllim və Mir Yaqub eyni gündə anadan olub. Hər ikisinə can sağlığı arzu edirəm!*

Biri iyul ad günün,
Böyük olub ad-ünün;
Azman kişi,atasan,
Arzulara çatasan!

Yay günündə doğuldun,
Nə gözəl bir oğuldun;
Ata-anaya övlad,
Bu dünyanı gəl aldad...

Böyüyüb yaşa doldun,
Oğullu-qızlı oldun.
Artıq xoşbəxt babasan,
Gəncliyi verdin asan!

Elə bil ki, nağıldı,
Bir oğlan, iki qızdı.
Qızlar uçub dağıldı, -
Oğlun ilə qalasan!..

Verdin ömrü yazlara,
Bir öğula, qızlara*...
Dönməsin yazın qışa,-
Qohumsan Qızılbaşa...
Allahım əskik etmə!

*01.06.2012-ci il.*

* Hər iki qudamın hərəsinin: ailə tərkibi eynidir: 1 oğlan, 2 qızdır (red.müəl.)

## AD GÜNÜN MÜBARƏK

*Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ad gününə ithaf edirəm. (7-si fevral 2011-ci ildə qəhrəmanın 23yaşı tamam oldu)*

Ad günün mübarək, Mübariz bala,
Dolça bürcündəki bir ulduz bala!,
Ellər hüzüruna gəlibdi bu gün;
Gəldim qəbristana ziyarət üçün!...

Yeddisi fevralda gəldin dünyaya,
Dolça bürcün güldü Günəşə,Aya!
Ömür yolun döndü sirli röyaya,-
Dedin:-Vətən üçün canından keçim!

Yaşın iyirmi üçdür, zaman dolubdu,
Toy süfrən,aşın da tamam olubdu;
Şəhidlik şərbətli dolçan dolubdu,-
Mən də o şərbətdən,o sudan içim!..

İnsan sevgisindən,eşqindən uca,
Şəhidlik şərbətin içdin doyunca!
İyirmi üç yaşında nə qədər qoca,-
Ağla hüzüründa,yan için-için!

Mənim də qismətim dolça bürcüdür,
Bu bürcdən olanlar aslan gücüdür!
Mərddir,mübarizdir,elin öcüdür,-
Tanrı özü deyib;-qoy belə biçim!

Belə ər savaşı imandan gəlir,
Qorxmazlıq,cəsarət İmamdan gəlir!
Cəddin Məhəmməddən,Qurandan gəlir,-
Belə mərd oğlandan necə yan keçim?!





Şimşəklər çaxnaşıb,tufan qopanda,
Yerə dolça-dolça sellər hopanda,
Övladın yaxşısın,pisin tapanda,
Qızılbaş,qismətə Mübariz seçim!!!

*07.02.2011-ci il.Beyləqan şəhəri.*

## YOLUNDAN DÖNMƏ, QARDAŞ

*Güney Azərbaycanının şairi Zaman Paşazadəyə. ("Güneyin səsi"məcmuəsinin ilk sayı mübarək olsun! Bu jurnalın yaradıcı heyətinə uğurlar arzulayıram! Allah qüvvət versin! Niyyətinizə çatasınız, inşallah!!!)*

Çaşıb qalmışam, qardaş,
yolumun yarısında...
Şimşək, odla yazılmış
sətirlər arasında...
Tatın verdiyi darı
məni yaman aldadır!
Cadügardı bu qarı,-
Çiləm hələ daldadır!..
Haqq qapısın açmağa
Nə gücüm, qanadım var,
Məsləkimə çatmağa
Nə dilim, nə adım var!
Dilsiz, adsız kiməm mən?!
Başqasının diliylə
İnildəyən siməm mən!!!
Belə ədalət olar?!
Belə ətalət olar?!
Tısbağa qından çıxdı,
Öz qının bəyənmədi!
Manqurt neçə ev yıxdı,
Özgəyə dəyənmədi...
Özgənin dili şirin?!

Onun g...nə girin!!!
Müsəlman qardaş dedin:
Bir süfrədə aş yedin...
Torpaq,süfrə də birdir,
Bilməm,bu necə sirdir?!
Məgər səninki pirdir?!
Farsın dilində dindir!..
*****

Uçmağa qanadım yox,
Qapı toyuqları tək.
Dəydi düşmənimdən ox,-
Qalmadı bircə lələk!...

Bu taydan him eylədi,
Bilmədim kim eylədi?!
O tayda qanadıma
Pəhləvi sim eylədi!

Yenə düşüb bayıldım,
İllər keçdi ayıldım...
Ayılanda gec idi,-
Toparlanmaq güc idi!...

Yanmışdı qanadlarım,
Silinmişdi adlarım:-
Səttarxan-milli hanı?!
Məhəmməd Xiyabanı?!
*****

Qanad nəyimə lazım,
İstəsəm,yolu azım!!!
Dənçiyim ki,doludur,
Yolum ipək yoludur!

O da gör hardan keçir,
Bizi tülkülər seçir:-
Yolun «azmış» bəndənin
Boynu da dardan keçir!..





Bir əlində quranı
Gəzdin dağı,aranı...
Turanın öz dili var,
Şad eləsin İranı!!!
*****

Cənnət də vəd edən var,
Cəsədin çürüyəndə; –
Cəhnnəm körpüsü dar,
Yıxılma yüyürəndə!...

Yoxsa, yanıb kül olsan,
İmdada çatan olmaz!
Oxuyan bülbül olsan,
Şövqündən yatan olmaz!..

Oxu,yanıqlı oxu,-
Bəlkə, ruhlar oyana!
Azadlıq donu toxu,
Qan rənginə boyana!...

Qacarımın qanına!
Səttarxanın qanına!
Ah çəkmə,əziz qardaş,
Od sal düşmən canına!!!

Billəm,od salmaq olmur,
Bir də od sal təndirə!
Belə də qalmaq olmur,
Boynun gəlsə kəndirə!..

Kəndir də qırılacaq,
Yolundan dönmə,qardaş!
Türk dili qurulacaq,
Farsla öyünmə,qardaş!!!

*07.05.2011-ci il. Beyləqan şəhəri.*

## MƏN KİMƏM

*İranın Parsabad şəhərindən Seyid Cəlil Hüseyninin "Mən kiməm" şeirinə («Qanlı günəş» kitabından)*

Üzünün nurundan oxşatdım səni,-
Vallahi, elə bil bir kökdənik biz;
Gözlərim axtarır Ayna nənəmi,
Qulamhüseyn babama olubdu kəniz,
Şarnişin gözəlmış,gözləri dəniz...

Min doqquz yüz on səkkizinci ildə,
Qara bəxti dəyib daşlara onun;
Gözəllik mələyi günün birində,
Geyib öz qanından əcəl donunu,
Bir güllə gətirib ömrün sonunu!

Qulamhüseyn babamın qəfil gülləsi,
Qohum-əqrəbanı salıb äləmə,
O da çox gözləyib,nəvə gələsi,-
Onun müsübətin ala qələmə?!
O bitməz acını sən də dənəmə!..

Nənəmin qəbrini axtarıram mən,-
Arazın o tayı olub məkanı;
Bircə gül balası-Hüseynov Həsən,
Qırıb keçənmədi sərhəd-tikanı,-
Axır,qəbr evinə vurdu təkanı...

O bircə Həsəni Allah qorudu,
Stalin zülmündən,daha nələrdən...
Dəmiryolçu kimi yolları yordu,
Rəhmətlik; qazandı nəvələrindən,-
Dövləti bildiyi dəvələrindən!

Qalmışam bu tayda,bilmirəm kiməm;
Hansı nəsildənəm, hansı kökdənəm?-
Qəmlər dəryasında üzən bir gəmi,





Qulamhüseyn,Aynadan törəyən dənəm,
Oyanıb görəydi ay üzlü sənəm...

Dənim də bar verib bu tayda mənim,-
Qulamın, Aynanın törəmələri...
Aynanı öldürən güllə qismətim,-
Dəyişib yurdumu,daha nələri,-
Fələyin bəd, yoxsa, xoş əməlləri?!

*21.12.2012-ci il. Beyləqan şəhəri.*

## ŞUŞANIN QARTALI DAŞALTIDADIR

*Azərbaycan respublikasının Milli Qəhrəmanı polkovnik-leytinant Riyad Əhmədovun əziz xatirəsi unudulmazdır.*

Qarabağı qartal quş kimi süzdün,
Güllədən qorxmadın,yan keçdi səndən;
Od saçan qurşunu düşmənə düzdün,
Ki,xain düşmənlər çıxsın Vətəndən!

Neçə kənd-obanı azad etdiniz,
Goranboydan tutmuş Şuşaya qədər.
İyrim beşi yanvar boya* getdiniz,
Kaş döyüş yükünü daşıya qədər!..

Döyüş planını kim hazırladı;-
Daşaltıdan keçən döyüş planın?!
Olan-bitənləri kim bazarladı,-
Yetmədi axıra dönüş planın?!

Axı sən çekistin,belə səhv olmaz,
Hiyləgər şeytana doy gəlməliydin!
Hərbi xəyanətə sizdə əhv olmaz,
Bunu qabaqcadan tez bilməliydin...

* boy-qədim türk sözü,ruslar işlədir-döyüş deməkdir-*red.müəl*

Üstünə yağanda düşmən gülləsi,
Anladı, satılıb quruşunadək!
Dar keçid, hər yandan düşmən,neyləsin?-
Vuruşdu düşmənlə duruşunadək...

Çoxusu yaralı çəkildi geri,
Qırılan qırıldı vətən yolunda!
Qızıl qanı ilə islatdı yeri,
Geri çəkilmədi yara qolunda.

Od yağdırdı düşmən mövqelərinə,
Ağır texnikanın birin də vurdu!
Əlvida dedilər talelərinə,
Doxsan mərd igiddən bir qala qurdu...

Ağır texnikadan atılan atəş,
Düz onun səmtini nişan alıbdı;
İnsan qulağını batıran atəş,
Köksündə partayıb, şan-şan qalıbdı...

Təbriz*də boyanıb qızıl qanına,
Kərbəla yeriydi o gün Daşalti!
O vaxtkı ordumuz yetmir dadına,
Namusu,qeyrəti qoyub başalti...

O vaxt Çanaqkala beləydi,fəqət,
Orda baş komandan Atatürk idi;
"-Sizə ölüm əmri verirəm,əvət!"
Düşməni mövqedən atan türk idi!

Riyad da əmr etdi:-geriyə yol yox,-
Ancaq neyləsin ki,yolu kəsildi:
Həzrət Abbas kimi vurulub,qol yox,
Riyad-şəhid qardaş həmən nəsildi!..

---

* Azərbaycanın Milli Qəhrəmanı-Təbriz Ulu Türk, XəlilRza Ulu Türkün böyük oğlu-*red.müəl.*





Çəkistim,mətinim,türküm-möhkəmim,
Məkrli düşmənin zirehi dəmir!
Qızıl qan içində pələng görkəmin,-
Heykələ dönübdü,yoxdu səs-səmir...

Atalar,analar ürəyi dağlı,
Ağlayan gözləri donub qaşaltı.
Riyadım ölməyib Şuşada sağdı,
Əbədi məkanı olub Daşaltı...

...Leyla, Farizəsi baxır yollara,
Yəqin ki, atası qayıdar evə;
Eşi də həsrətdir möhkəm qollara,
Ala aquşuna Məcnuntək sevə...

Şuşa səmasında ruhlar dolaşır,
Babam Şah Qacarın nakam ruhutək!
Düşməni yenməkçün göylə dalaşır,-
Şuşa qalasından baxan huritək!..

*23.12.2012-ci il. Beyləqan şəhəri.*

## EHTİBARSIZ ADAMLAR

*Dostum İmanov Ehtibar müəllimin şərəfinə.*

Ehtibarsız olub bəzi adamlar,
Qarnım üçün deyil,qədrim üçünəm.
Qədər məni istəməsəm də damlar,
Demək olmaz harda öləm keçinəm...

Atam bu yerlərə qırx beşdə gəldi,
Nənəqızın vətənində yaşadı;
O gələndən dəmiryolu düzəldi,
İndi məzarlıqda qəbri,daş-adı...

Sordu;-haralısan?-Qoy bir evlənim,
Onda deyərəm ki,mən haralıyam...

Torpaq olub bu yerlərə ələnim.
Könlündən vurulmuş bir yaralıyam!

Harda yuva saldın,ora yurd yerin,
Dədə-babalardan bizə yadıgar.
İstər isti olsun,istərsə də sərin,
Gələn nəsillərin hələ ardı var...

Bir qarın çörəyə elin atanlar,
Ehtibardan danışanda utanmır?!
Yaxşı yaşamağa üzün tutanlar,
Elin təsibini çəkməyi qanmır.

Onların qandığı para-pul,maşın,
Bir də təzə evdə can rahatlığı.
Qədir-qiyməti yox dostun,yoldaşın,
Keçmiş yurd onlara yer boyatlığı.

Belə insanlara nə deyim,qardaş;
Vətəndaşmı deyim,yoxsamı veyil?!
Ehtibarın itiribsə vətəndaş,
Demək,adam deyən zümrədən deyil!..

*01.09.2012-ci il. Beyləqan şəhəri.*

## ALLAHIN ELÇİLƏRİ

*Aytən qızımın ilki İlkinin ürəyində cərrahi əməliyyat apararaq yenidən həyata qaytaran ürək cərrahları dr. Rafik Babaşovun və dr. Sevil xanımın şərəfinə.*

Ürəkləri dinləyən
Qəlb evimin həkimi;
Ağrılardan inləyən,
Sağaltdınız İlkini!





Mənim ilk qız nəvəmi,
Ürəyində dörd qüsur!
Aldız dərdi, ələmi,-
İşlədib nadir üsul!..

Bu çox çətin iş idi;
Öhdəsindən gəldiniz!
Rafikin əl işidi,-
Ağ ciyəri dəldiniz...

Ordan damar çəkdiniz,
İlkinin ürəyinə;
Sevillə bar əkdiniz,-
Qızıltək dəyərində!..

Bu iki bacı-qardaş,-
Təmənasız işləyir...
Açıblar dərdə savaş,-
Ürək yaşam istəyir!..

Ürəyim qanı vurmur,
Gəl,onu dinlə,həkim!
Ürəksiz həyat olmur,-
Qoymayın əzyət çəkim!..

Götürün dərd-kədəri,
Ürəyim dərddən şişib!
Allahın elçiləri,-
Sizlərə görəv düşüb!..

Əllərinə sağlığı,-
Deyim, Rafik, Sevilə!
Sizdəki üz ağlığı,-
Əsas verir sevinəm!..
Allah da sizi sevsin!!!

*12.11.2011-ci il. Bakı şəhəri. Bayıl qəsəbəsi.Ə*

## AZIX MAĞARASI

*Azərbaycanın "Azıx" mağarasını tədqiq etmiş və dünyanın ən qədim insan məskəni-Azərbaycanın Azıx mağarasıdır! İfadəsini bütün dünyaya sübut etmiş böyük elm fədaisi, geoloq, professor Məhəmmədəli Hüseynovun şərəfinə; o, dünyanın ən qədim insanının alt çənə sümüyünü aşkar edib,tədqiq etmişdir, lakin bu yolda erməni "alim"lərinin kəskin müqavimətini qırmalı olmuşdur!Əhsən!!!*

O nədir ki,əlində
Tutmusan, gözəl insan?!
Qədim insan dilində.
Sən danışdın çox asan!..

Dünyaya sübut etdin,
Azıx-insan adını!
Dünyanı heyrət etdin,-
Kəşf eləyib qadını!..

O qadından doğulub,
Millətin nəsli-kökü;
Sanki,o dağ ovulub,-
Qarşında mat,diz çöküb!

Avey dağda daş dövrün,
Göyəzəndən od tapdın,
Dedin tarixi görün,-
Yeni tarixi yapdın!

Mingəçevir tarixin,
Qəniyevim yazanda,
Quruçay mədəniyyətin,
Möhürlədin bu yanda!





Əzizə Cəfərzadə,
Qobustan"qaya rəksin",
Bir milyon il ziyadə,
Köndələn çayda əksin!..

Yazdın qədim tarixi,
Əlindəki çəkiclə;
Saxtakarlıq arxivin,-
Ermənini çəkilə!!!

Ermənilər diz çökdü,
Elminin qarşısında!
Məhəmmədəli sökdü,
Divlərin yarışında!!!

-Neandertaldan qədim,
-Azıxda yaşanıbdı!..
Onu yəqin elədim;-
Tarixim aşınıbdı!..

Bu tarixi düzəldən,
Məhəmmədəli kişi!
Belə olub əzəldən,
Kişilər gurub işi;-

Nail oldu ona ki,
Azəri türkü qədim!
Bizimkilər qana ki,
Məhəmmədəli xadim!!!

Özü də elə xadim,
Tayı-bərabəri yox!
Tarixə yazıb adın;-
Düşmən gözlərinə ox!!!

Alim Məhəmmədəli,-
Elmimin fədaisi!
Onda var Allah əli,-
Azığımin dahisi!

Məhəmməd(ə.s.ə)mağarada,
Quranı əxz eylədi!
Məhəmmədəli burda,
Azığı kəşf eylədi,-

Azıx mağarasını!-
Dahi insan belədi!
O qadının yasını,
Saxladı,fəxr elədi!..

Azərbaycanlı kimi,
Azərbaycan alimi!
*03.11.2011-ci il. Beyləqan şəhəri.*

## SİNİF MÜƏLLİMLƏRİM

*Sinif müəllimlərim; Əntiqə və Fatma müəllimənin şərəfinə.*

Allah rəhmət eləsin!
...Burnu fırtılıqlı cılız bir uşaq,
Əynində sortuğu gedir məktəbə;
Bütün fənlər üzrə"beş"alır qoçaq,
Önündə qalxmağa min bir mərtəbə...

Əlifba öyrədir Əntiqə məllim,
Evdə dərs öyrədir Səkinə bacı,
Ana dilin deyir Fatma-mülayim,
Hərdən hirslənəndə dil şirin-acı.

Elmin bünövrəsin onlar qoydular,
Bilməyənin gözlərini oydular,





Sanma,usandılar,durub doydular,
Onlar olub dərdlərimin əlacı.

Şərəfimi hər yerdə ad etdilər,
Anam öləndə məni yad etdilər,
Bir Allahın dərgahına getdilər,
Nəzərimdə onlar mənim baş tacım!

Könlüm qübarlanıb üzə düşübdü,
Fikrim,xəyallarım izə düşübdü,
Onları yad etmək bizə düşübdü,
Bilmirəm məktəbə,məzara qaçım?!

Can anam süd verib məni böyüdüb,
Onlarsa,dərs verib dərslə öyüdüb,
Elə bil yoxmuşlar,zaman üyüdüb,
Onların ruhuna göyə əl açım,
Başqa nəyə çatır gücüm, əlacım?..
*01.09.2012-ci il. Beyləqan şəhəri.*

## BELESUVARLI DOSTUM

*Bu şeiri "Sam"firmasının nümayəndəsi, Zəhmətabad kənd sakini dostum Hüseynə ərməğan edirəm.*

Kasıblar mərd olar!-atalar deyib,
Atalar sözündə axtarma eyib!
Dünən qonaq oldum bir dostumgilə,
Məni qarşıladı o gülə-gülə...

Onunla çox yeri ziyarət etdim;
Sifdə Hacıgilə,sonra seyidə,-
Onun ürəyinə siyarət etdim,-
Gördüm,bir guşədə alıb qeyidə!

Adı Hüseyndir bu mərd kişinin,
Xoşsifət,vicdanlı,bilir işini!

Düşünüb danışır,bəsirətlidir,
Həyat dərsi keçib,cəsarətlidir!

Hamının hesabın verir yerində,
Təmiz ürəyində sirlər dərində!
Mərifət şirəsin kökündən alıb,
O nəmdə-nişanda bir az qocalıb...

Zəhmətabad kəndi Beləsuvarda,
Mənim kasıb dostum demə ki,darda!
Onun gözü toxdu,İmamsayağı,-
Qəribə gəlməsin sözüm,-bayağı!..

Kasıbın çörəyin kəsib xoş oldum,
İsti yuvasında bir gecə qaldım.
Xəstə əmisini görüb xoşaldım,-
Nurlu çöhrəsindən bir şeylər aldım...

Xanımı çıxmadı insan üzünə,
Xörəyi,süfrəsi onun siması!
Deyir,bir xəstəlik düşüb izinə,-
Gözəl,pak ürəyi,aman,sınmasın!

Qızların ikisin ötürüb,dürüb;
Nəvə silsiləsin götürüb,durub...
Qismətin axtaran yaxında bulur,-
Hüseyn qardaşım gözündən vurub!

*26.11.2011-ci il.*

## YOLUNDA CAN YANASI

*"Avropa"nəşiriyyatının kompyuter yazanı əslən Şuşalı Əminə xanıma.*

Zülmətin qaranlığı
Çöküb gözəl çöhrənə.
Çöhrənin nur-ağlığı,
Gülüm,tanışdı mənə...





Qara-şirin gəlinlik,
Hardandı səndə,gözəl?!
Məsuniyyət,sərinlik,
Mənə yazdırdı qəzəl!

Sordum ki,haralısan?
Dedi,Şuşa məskənim.
Qarabağ maralısan?-
Azərbaycan vətənim!

Son cavabın oxudum,
Bir cüt qara gözündən.
Şeir-çələng toxudum,
Qızılbaşın sözündən...

Pıçıldadı dodağı,
Qara gözləri güldü.
Qəlbimə çəkdi dağı,
Niyətimi o,bildi!..

Adı Əminə xanım,-
Peyğənbərin anası.
Şuşa gözəli canım,-
Damarda qan yanası!..

*12.02.2012-ci il. APU-nin "Avropa" nəşiriyyatında.*

## MENECER AYTƏN XANIM

*"MediPol"klinikasının meneceri Aytən xanıma.*

Bir təsadüf üzündən
Rast gəlmişdim ona mən,
Nur yağırdı üzündən,
Maşınında xoş zənən...

Saxlayıb düz yanımda,
Soruşdu filan yeri;
Duyğulandı qanım da,
Söylədim,sürün geri...

Sarnışın, alagözlü,
Başın saldı aşağı.
Arxada qaragözlü,-
İki oğlan uşağı...

Özü dil açıb dedi;
-Qohum-tanış uşağı,
Ağızımı izlədi.
"Med.pol"un yaraşığı.

-"MediPol"da menecer.
Aparıcı həkiməm...
-Qızıma bənzərin var.
Məcburam ki,çəkinəm!

Həm də səninlə adaş,
Elə bil əkizsiniz,
Adı,özü də bağdaş,-
Bir ləpirli izsiniz!

Vizitkasın uzadıb.
-Sizlə işləmək xoşdu!
Deyib bir az qızadı,-
Ürəyim nəğmə qoşdu.

Dedi,salamat qalın.
Bizə baş çəkin hərdən...
Maşını dalın-dalın,
Sürüb ayrıldı məndən.

Telefonuna zəng vurub,
"Med.Pol"dan iş arasam?-
Subaysa,yaşam qurub,-
İşə-gücə yarasam?..





Telefonu vermir cavab,
Bəlkə,iş günü gedim;
Gözələ baxmaq savab,-
İşi bəhanə edim...

*24.02.2013-cü il. Beyləqan şəhəri.*

**NAKAM ÖMÜR**

*Mənim üçün əziz olan insanların itgisini yaşadıqca, özüm də yavaş-yavaş ölürəm, necə ki, əzizimiz Zərifə xanım Siyab qızının vaxtsız ölümü kimi...*

Nakam ömür hədər oldu,
Bir neçə ayın içində;
Ürəyimə kədər doldu,
Cızzığım çıxdı içimdə...

Bir toy günü,bir məclisdə,
Zamiqi* gördüm yaxından;
Mən sordum,sanki,silistdə,-
Dedi, ruhları axında...

Mədihə,Zərifə getdi**
Günahsız nakam ömürlər;-
Niyə bizləri tərk etdi.
Niyə az ömür sürdülər,-

Bu nəsilin övladları.
Sonaları,qanadlar?!
Baş daşına yazdırdılar,
Qan yaddaşı,can adları...

---

* Zərifənin bacısının əri, Res.xalq artisti,tarzan
** rəhmətə getdilər.Allah rəhmət eləsin!

Hərəsi bir qanlıq mələk,
Ruh olub uçdu göylərə;
Yaman vurdu zalım fələk,
Matəm doluşdu öylərə!..

Mənim xəbərim olmadı,
Rayonda yatıb qocaldım,
Boş ağlım yada salmadı,
Ölüm xəbərin gec aldım...

Xəbər alanda gec idi;
Lələ köçüb yurdu qalıb,
İnsanlar nə tez köç edir,
Qalanları dərdə salıb?!

*13.04.2013-cü il. Beyləqan şəhəri.*

## REYHAN QARACA VƏ ANCELİNA CÜLIYA

*Türk müğənnisi Reyhan Qaraca və Ancelina Cüliya (ABŞ-ın müğənnisi Somalıdə olmuş, yardım etməklə, dörd yetimi də övladlığa götürərək özü ilə evinə gətirmişdi-əhsən,xristian xanımına!) Somalıdə olub, orada ehtiyac içində çabalayan müsəlman camaatına yardımda bulunmuşlar...*

*Görən müsəlman ölkələrinin,o cümlədən bizim şeyxlərimiz harda yatıblar?! Nə vaxt səxavət kisəsinin ağzını açacaqlar?Allah hamımıza insaf və əliaçıqlıq əta eləsin! Ramazan günlərində yardım etmək savabdır; bu savabı Ancelina və Reyhan Qaraca qazandılar, əhsən bu xanımlara!*

Susuz çöllü Somalidə yetimlər,
Ərlər şəhid, qadınlar qalıb başsız;
Var olanlar acdır, çoxdu itimlər,
Allah ümidinə qalanlar aşsız...

Bura yer üzünün bir cəhənnəmi,
Əmin-əmanlıqdan yoxdu bir əsər.
Mehdi-axır zaman bura enəmi,
Özünü bu kökə salıbdı bəşər?!





Dünyanın hegamon baş dövlətləri,
BMT,Amerika haraya baxır?!
Alçaq siyasətin min qələtləri,
Xalqları məhv edir, qanları axır!..

Müasir dünyanın min kələyinə,
Min bir sual ilə ölür insanlar...
Böyük siyasətin bu gün nəyinə,
Nəyinə inanıb böyür insanlar?!

İki mələk endi göyün üzündən,
Endilər cəhənnəm-zülüm düzünə;
Utandı özləri insan izindən,
Qəlbi ağlasa da,gülüş gözündə...

Onları bu yerə gətirən nədir?-
Somalı düzündə niyyətləri nə?!
Bunu dərk etməkçün çəkəsən dərdi,
İbadət edəsən ya da min sənə!

Somali dərdini alıb qəlbinə,
Ramazan günündə etdi yardımı.
Sanki,getmişlərdi Məkkə evinə,
Bu böyük ürəkdən yenə vardımı?!

Əgər varsa,söylə,söylə hardadır,
Sərvəti göylərə dəyən əfəndim?!
Somalıdə din hümmətin dardadır,
Özünə müsəlman deyən əfəndim?!

Aclıq,zülm içində Somali xalqı,
Reyhan,Ancelidən başqası yoxmu?!
Onlar qayıtdılar, Somali qaldı,
Allah rizasıçın sədəqə çoxmu?!

Qurandan, Allahdan bəhs edən zahid,
Bir az da Somali dərdindən danış.

Sərvətin üstündə oturan abid,
Ancelina,Reyhantək sən də alış!..
*05.09.2012-ci il. Beyləqan şəhəri.*

## MÜQƏDDƏS GÖRƏVLİ KİŞİ

*25.05.2012-ci il axşam saat 20 radələrində çoxdan yolunu gözlədiyim, ədib və məslək dostum, ağsaqqalımız, idialımız, Güney Azərbaycanının böyük oğlu Qulamrza Təbrizi mənə zəng edib, müalicəyə görə təşəkkür elədi... Xüsusi görəvlə gəldiyini deyəndə mən hər şeyi anladım. Bir də gələcəyində mütləq Beyləqana gələcəyini, Cərgiz peyğənbər məqbərəsini də ziyarət edəcəyini, mənim etdiyim müalicəni bizdə davam edtirəcəyini bildirdi. Hədsiz sevindim! Bəkliyirəm, tez gəlin!-dedim...*

Bu gün zəng elədi böyük ustadım,
Elə bil,Cəbrayıl enmişdi göydən!
Təşəkkür elədi mənə astadan,
Ürəyim sevincdən çıxmışdı öydən...

Qərib diyarlardan gəlib Bakıya,
İçəri şəhərdə doğma evinə.
Əzablı həyatı gəlməz şakaya,
Öz doğma yurdunda bir az sevinə...

Dayağı Bakımız olsa da onun,
Xəyalları yenə uçur Təbrizə;
Çox fikir eləyir taleyin sonun,
Şair təxayülü dönür dənizə...

Bu dəniz içində baş alıb gedir,
Azğın dalğalara gərib siəsin.
Quyunun dibindən daş alıb gedir,
Kaş ki,arzusuna yetsin,sevinsin!





Londonda ailəsi gözləyir onu;
Zeynəbi, Sarası,Kərimi,yarı...
Müqəddəsi görəvi izləyir onu,
Azadlıqdı onun dövləti,varı!

Özü azad quştək gəzir dünyanı,
Nə olsun, Təbrizim azad deyil ki!
Səssiz haraylayır qanıb duyanı,
-Azadlıq Təbrizə!-Qulam deyir ki...
*25-26.05.2012-ci il.Beyləqan şəhəri.*

## BÖYRƏK SANCISI

*Sevimli baldızım Məhsəti xanıma
(Başirova Məhsəti Məmməd qızına)
həsr edirəm.*

Baldız xəstələnib yaman;
Böyrəyindən daş asılıb.
Ağrıdan qışqırır;-aman!-
Yazıq ağrıdan sarsılıb...

Bir ucdan iynə vururuq,
Ağılara təsiri yox!
Başında növbə qururuq,
Ağrının da səbiri çox...

Ağrilar belinə vurur,
Lap doğuş sancısı kimi!
Gah uzanır, gah oturur,-
Özündən qamçısı kimi.

Üç gündü yoxdu dincliyi,
Axır,axşam sənginidi.
Acıyla ötüb gəncliyi,
Ağrıların zənginidir!..
*10.05.2012-ci il.Beyləqan şəhəri.*

## BAL ARISI

*Dostum və məsləkdaşım*
*Seyfəddin Əsədə həsr edirəm.*

Bir həkim dostum var,adı Seyfəddin,
Bir əli Tanrıda,bir əli yerdə;
O, yaxşı öyrənir yaşamın həddin,
Arı zəhərini calayır dərdə!

Bölüşür biliyin xəstələriylə,
Xoş niyyətli yaşam olub məramı;
Qadir təbiətin saf əlləriylə,
Qurtarır ağrıdan xəstə adamı!..

Təbiət ovsunu onun əlində,-
Öz tilsimli gücün göstərir bizə;
Min bir hikmət dolu şirin dilində,
Namərd xəstəliyi gətirir dizə!

Gülər simasında şəfa nuru var,-
Gənclik illərindən tanışdı mənə.
Onun sifətində açılıb bahar,-
Bal arısı olub qonub çəmənə...

Dostum,"Eskulap"a həkk edib arı,-
Zəhərli ilandan arı yaxşıdır;
Arı sancmasıyla azalır ağrı,
Dərdə şəfa verən arı naxşıdır!..

Nə qədər zəkidir,həkim qardaşım,
Ellər heyran qalıb bu ovsununa;
Arı sancmasıyla axsın göz yaşım,
Qəlbim göz yaşımla bəlkə ovuna!..





Məhəmməd peyğəmbər düz buyurur ki,
"Elm üçün Çinə get,artır biliyi!"
Seyfəddin qardaşım özün yorur ki,
Dərdə çarə etsin"arı iliyi"!!!

O,gedir dərmançün Tayılantatək,
Qədim xalq iksirin gətirmək üçün;
Hökm edir xəstəlik sağalanadək,
Arıyla dərdləri götürmək üçün!..

Arılar qəflətən məni nə çaldı,
Arı pətəyinə açıb baxanda;
Qolların pərişan,ağrılı qaldı,
Arının zəhəri qola axanda!..

Seyfədin deyir ki,xeyirdi doktur,-
Arıdan şəfalı dünyada nə var?!
Arı neştərini ölüyə soxdu,-
Onun təsirindən dirilib qaçar!..
*29 08 2013-cü il. Beyləqan şəhəri.*

## SƏNƏTƏ QİYMƏT

*Bu şeiri, gecə saat 1-2 radələrində şeir kitabımı oxuyub həzz alan və mənə zəng edib minnətdarlı gını bildirən Rayonlararası vergi idarəsinin rəisi, duyarlı insan Elçin Kazımlıya ərmağan edirəm*

Bu dünyanın neçə künc-bucağı var,
Bu künc-bucaqlarda nə qədər insan?!
Deyən,o qədər də dərd qucağı var,-
Sanma,dərd qoynunda yaşamaq asan?!

Bəzən bu yaşamı asanlaşdıran,
Bir Xızır övladı tutur qolundan;
Şeir qazanını coşub daşdıran,
Şairə kömək ol haqqın yolunda...

Gecə zəng elədi;necə sayqılı?!
Ağzından söz deyil,bal töülürdü;
Bir şair qəlbini duymuş,qayqılı,-
Xoşnıyyət qəlbindən bar tökülürdü!

Mən də duyğulandım onun sözündən,
Demək ki,oxuyub sözü duyan var!
Yuxu tökülsə də nurlu gözündən,
Gecələr şeirlə gözü yuyan var...

Vacib bir mövzunun üstünə gəlim,-
Deyəsən,insafa gələn tapılıb;
Şeir xiridarı Elçin müəllim,
Yaman duyğulanıb,hissə qapılıb?!

O,söz verib mənə kömək eliyə,
Yazdığım yazılar çap olsun gərək;
Elçin Kazımlıdan borcdur Əliyə,-
Sənətə qiymətdir,xərcin çəkərək!..
*14.09.2013-cü il.*

## LOĞMAN

*(Müqəddəs görəvli həkim)*
*Beyləqan xəstəxanasının baş həkiminə həsr edirəm.*

Allah bizı bu el üçün yaradıb,
Bizə həkim sənətini bəxş edib;
Həkimlər içində kimlər aranıb,
Öz alınına taleyini nəxş edib...





Sənin də taleyin Beyləqandadır,
Burda cərrah kimi şöhrət qazandın;
Sənin də iş-gücün irin-qandadır,-
Cəhd etməklə deyil,Xaliq yazandı!

Nə gecə,nə gündüz bəs edir sənə,
Yuxusuz gecələr ömrünə bəzək!
Həssas qəlbin sığmayanda sinənə,
Ağrıya səbirlə,təmkinlə dözək!..

Xəstə can üstündə,gözləri səndə,
Bu gözəl dünyada kim ölmək istər?!
Qəlbin xəstə üçün vurur sinəndə,
Xəstənin dərdini tən bölmək istər!..

Həkimtək loğmansan,insantək həlim,
Vicdana vəfalı,anda vəfalı!
İstərəm xəstətək yanına gəlim,
Dərdə dərman elə,əli şəfalı!..

Çoxusu qınayır baş həkim kimi,
-Niyə sərt deyilsən işçiyə qarşı?!
Yaradan bəxş edir həlim həkimi,
Qazanmaq istəməz söyüş,qarğışı!..

Gərginlik içində keçir həyatın,
Ağrıya,acıya dözüb durursan!
Tibb elmi sevməyir işin boyatın,
Səhiyyəni tam yenidən qurursan!
*30.08.2013-cü il.*

## QURBANƏLİ BƏYƏ OXŞAR

*(Bir dostuma)*

Bir dostum var;varlı-hallı,
Sərxoş olanda söz verdi;
Verdiyi söz yerdə qaldı,
Pulu vermədi,dirəndi!..

Yeni kitab çap etməyə,
Yaxın durmalıydı qağa;
Nə var ki,boş söz deməyə,
Sözünə bütövdü"Ağa"!

Bu dünyanın malı şirin,
Sanki,ətindən ət kəsir;
Arxayın etdinsə birin,-
Niyə ümüdini kəsir?!

Söz verən üstündə dursa,
Ən çətin işlər düzələr;
Sınıq könülləri qursa,
Ürəklər niyə üzülər?!

Qurbanəli bəyə**oxşar,
Niyə belə zayıl çıxdı?!
Əgər ondan səmir yoxsa,
Xam yuxudan ayıl,çıxdı!**

Boz atı*** minib çapanda, (*)
Ürəkləndin,varlı qardaş!

---

* C.Məmmədquluzadənin"Qurbanəli bəy"kekayəsi,-nəzərdə tutulur-red.
** il çıxdı.başa çatdı,-demək istədim.red.mən
*** arax,-nəzərdə tutulur,-red.mən.





Söz verib ona atanda,-
Yaman üzüldü Qızılbaş!..
*23.10.2013-cü il.*

## XOŞ GƏLMİSƏN, AYŞƏ XANIM

*"TRT türk"kanalının aparıcısı və istedadlı jurnalisti, gözəl xanım, şəxsən mənim simpatiyam Ayşə Sübərkərə dərin hörmətlə; 9.10.2013-cü il tarixdə keçirilən Azərbaycan respulikası Prezident seçkisini izləmək üçün öz ayağı ilə Bakıya gəlmiş, lakin xəstələrim ucbatından gedə bilmədiyimi çox təəsüflə deməliyəm;elə peşimanam ki, bir də onu harda görəcəm?! Ya qismət? Qimətsə öz ayağı iləqapımıza qədər gəlmişdi. Hansı ki, İstanbula da getməyə hazırdım?! Təəsüf... çox təəsüf...*

Gözlərim şəklini çəkdi,
O,ekranda görünəndə;
Seçkini izləyəcəkdi,-
Mən burada* sürünəndə...

...Xoş gəlmisən,Ayşə xanım,
Sən gələn yollara qurban!
Səni ürəyimdə anım,-
Yolun azdı bizim sərvan...

Dedim,gedəm İstanbula,
Özün Bakıya gəlmisən;
Fürsətdi düşəm qəbula,
"Abşeron"da dincəlmisən...

Ağ-bəyaza bürünmüsən,
Sarnışın olmusan tamam.

---

* Beyləqanda

Ekranımda görünmüsən,-
Ürəyim atlandı yaman!..

Qəlbimə qulaq asmadım,
Bu da mənim zəifliyim;
Bakıya niyə qaçmadım,
Niyə qarışdı ipliyim?!

İki gün qaldın Bakıda,
Ürəyim atlandı gedəm!
Necə şəxsdən rəy də aldın,
Məndən yox...yaşardı didəm...

Xəstələrim vermir macal,
Həkimlik də çətin peşə:
Əli,Ayişəsiz qocal,-
Həsrəti qəlbini deşər!..

Təqsir mənim özümdəydi,
Gedib görüşə bilmədim;
Görüş yaxın,-çözümdəydi,
Getdim örüşə,-gəlmədim...

İşim əngəldi özümə,
Qovuşa bilməm Ayşəmə;
Bu iş yetmədi çözümə,-
Pərvanə olmadım şəmə!.

Məni bağışla,Ayşəm,
Sənlə görüşə bilmədim.
Mən də,bax,belə səyişəm,-
İçim ağladı...bilmədin...
...Axı, sən hardan biləsən?!

*09.10.2013-cü il.Beyləqan şəhəri. Öz evimdə yazdım. Ayşə xanım "TRT-türk"kanalında cəh-cəh vurur;-"İlham Əliyev seçicilərin 82.7 faizini,yəni,seçkiləri qazandı!.."*





# CAHAN ŞAHIN MƏHƏBBƏTİ

*(Tac-Mahal haqqında"Ictimai"TV-də gedən verilişdən sonra) 1761-ci ildə Moğul (Baburlar)imperatorluğu sona yaxınlaşsa da, Cahan şahın hakimiyəti dövründə sevimli arvadı Mahal Müntazın doğuş zamanı vaxtsız ölümü onu çox sarsıdır; Mahal xatunun qəbri üstündə ona məqbərə-tac tikdirir, hansı ki, qiymətini hesablamaq mümkün deyildir. Xalac qəbilələri Dehli sontanlığını 756 il, Hindistanın ingilis ıstilasına qədər idarə etmişlərdi; hal-hazırda Hindistanın prezident sarayı, -Lori sarayını, Heydərabad kimi sənaye şəhərini, minlərlə tarixi abıdəyə öz möhürlərini vurmuşlardı! Bunlardan tarixəşayən, dünyanın 7möcüzəsindən biri sayılan" Tac Mahal", yəni, Mahal xatunun"Tacı"nı yaratmışdı. Bu qiymətsiz, saf Məhəbbət qarşısında baş əyməsən ən azı günahdır! Leyli-Məcnun məhəbbəti kimi!..*

İnsanlıq tarixində məhəbbət simvoludur,
Mahal Müntaz-Cahan şah məhəbbəti;
Özü moğul kökündən, həm də Xalac oğludur, -
Tac-Mahalı yaradıb od yaxan məhəbbəti!

Bu necə eşqdir ki, qiyməti yoxdur,
Göylərə zillənən sütünlar oxdur,
Yeddidən biridir, qiyməti yoxdur, -
Məhəbbətlə baxan Şah məhəbbəti!..

Nə qədər qiymətli, nə qədər incə,
İnsanı qərq edır qəmə, sevincə;
Bu eşqə ağlayır qəlbim gizlincə, -
Tarixi dastandı Şah məhəbbəti!

Cavankən ömrünə boranlar əsdi,
Ömrünü-gününü bir çağa kəsdi!
İndi"Tac-Mahal"da Cahanla dəstdi,
Özü Mahal Müntaz, -ah! -məhəbbəti...

Mahal xatun öldü, "Tacı"yaşayır,
Cahan şah indi də acı yaşayır...
Uzaq Hindistanda Bacı yaşayır, -
Ürəyimə axan"Şah"məhəbbəti.

Bu nə möcüzədir, bu nə duruşdu?!
Bu nə ayrılıqdı, bu nə görüşdü?!
Məvahir-nəhrdən bu nə yürüşdü?!
Bu geniş dünyanı yax məhəbbəti! .

Bir yanda"Tac-Mahal", bir yanda Mamay*
Orxan-Yenisaydən başlayır Gün-Ay;
Gültəkin**, Bilgə xan, təpələr Saray
Dünyanı yaradan, bax, Məhəbbətə!!!
*25.10.2013-cü il.*

## ELİMIN AĞSAQQALI

*Elimizin ağsaqqalı Mürşüd Əzimovun*
*əziz xatirəsinə.*

Bir qaya parçalandı,
Bir dağ çökdü diz üstə:
Bir ürək uçalandı,-
Düşüb yandı köz üstə!

Bir ağsaqqal ürəyi,-
Eli üçün döyünən!
Susdu elin gərəyi,-
Mürşüd üçün öyünən

---

* *Mamay, -Mamay Kurqanı, -Çingiz xanın oğlu, red. Ə*
** *Gültəkin xan, Bilgə ( Bahadur ) xan, -Orxan-Yenisey abidəsin də əski-runik əlifba ilə vəsiyyəti və adı yazılmışdı, -red. Ə. H*





İndi yasın saxlayır,
Fəxr etsə də ürəkdə.
Onunçün el ağlayır,
Rəhmət dildə,diləkdə!..

Elimin ağsaqqalı
Nə tez getdi dünyadan?!
(Soruşuram haqq hanı?)
İndi qoyub baqqalı,
Əsər yox ki,həyadan!
*21.07.2013-cü il.*

# HÜZÜNLÜ ANLARIM

## BABƏK DƏ GETDİ

*Eşitdim ki, Tural oğlumun balaca qaynı Babək (İbrahim oğlu) öz hamımında çimərkən ayağı sürüş ərək yıxılmış, başı vananın kənarına dəyərək huşunu itirmişdi. "Star"özəl klinikasında başından əməliyyat olunaraq reanimasiyaya yerləşdirilmiş,huşu özünə gəlmədən mədə-bağırsaq qanaması başlamış, bunun qarşısını almaq üçün lazım olan laxtalanma dərmanları işlətmədilər?Nə üçün?!*

*Bunu "Star"dakı neyrocərrahdan, reanimatolqlardan soruşmaq lazımdır! Əfsuss... çox əfsuss!..*

Babək vardı bu dünyada,
Zəhməti ilə yaşardı.
Bir oğlan idi həyada,
Haqsız sözdən tez daşardı!

Adı Babək,özü dindar,
Zəhməti ilə dolandı;
Yıxılıb başın sındrdı,
Ailəsin zülmə salandı...

Qaldırdılar hospitala,
Anevrizmanı* götürdü;
Oğlan ölmüşdü az qala,
Reanimasiyaya ötürdü...

* anevrizma-genişlənmiş qan damarı.red.müəl.





Qanı durulaşdırdılar,-
Bağırsaqdan qan açıldı.
Səbəbin araşdırdılar,
Güya xoradan açıldı?!

Bağırsaqdan qan axırsa,
Qanı tez durdurmaq gərək!
Başında şimşək çaxırsa,
Kəfənin biç,yerini ək...

"Star*"düzünü etmədi;
Qanı durdurmaq gərəkdi!
Taktikanı düz seçmədi,
Bilmədim bu,nə kələkdi?!

İndi ölüm ayağında,
"Amin kapron*","kalsi*"vurmur,
Qorxur,tromb qabağında,
Fəsad verər!..Qan da durmur...

Bu da yanlış bir üsüldü,-
Qan axma tez dayanmalı!
Bunu etməmək qüsurdu,-
Beyin sonra oyanmalı...

Babəkdəsə tərsin etdi;
Laxtalanma aparmadı.
Bağırsaqdan qanı getdi,-
Bu tilsimdən qutarmadı!

Allah deyir,bəndələrim,
Elmi öyrənib çözüm tapar!
İtirdiyim çox nələrim,-
Qismət,deyə,yerə batar...

Tibb elmimiz yetərsizdi,
"Allahın işidir!"-dedik;

Acılarım bitərsizdi,-
Acımı ehsanda yedik!..

Bəbək də yolun yolçusu,
Qanı düşdü lap aşağı...
Əzrayildi qarolçusu,-
"Star"* məhv etdi uşağı!..
*Amin kapron"-qan durduran,*kalsi-qan durduran dərmanlar-red.müəl.)
(Allah rəhmət eləsin!)
*25.04.2013, saat12—30*

## ZƏRİFƏNIN ÖLÜMÜ

*Siyab həkimin(tələbəlik illərində onlara çox gedərdim və ona ərklə Siyab əmi deyərdim) böyük qızı, əzizimiz Zərifə xanımın vaxtsız ölümünə görə kədərlənir, əzizlərinə baş sağlığı verirəm.*

Bu axşam öyrəndim o yoxdu;-gəl,döz,
Sıxılan qəlbimi qəm-qüssə aldı!
Zamiqin** dediyi iki kəlmə söz,
Məni məndən alıb nə hala saldı?!

Onu bir mən bildim,bir də ki, Allah,
Vücudum titrəyib,bir an qocaldı...
Gənclik illərimdə oldum bir salah,***
Kasıblıq onda da məndən bac aldı!

O da məsum deyil anası kimi,
O,saf sevgimizi vara dəyişdi.

* star-özəl klinikadır,Bakı şəhərində-red.müəl.
** Zamiq-Zərifənin yeznəsi, xalq artisti, tarzan, *Zərifə getdi"...
*** yəni,avam-türk kəlməsi-red.müəl.





Namərdlər saydılar heçə həkimi,
Qaynı bıçaq çəkib mənlə deyişdi!

-O qızın adını alma ağzına!-
Dedim ki, qismətdən artıq yeyilməz!
İndiki gəlməzdi o vaxt ağlıma,
-Özgənin qisməti bizdə deyilməz!..

İyirmi il beləcə keçdi sərasər,
Ata məzarında görüşdüm bir vaxt;
Üzüyün qaşına oturdu gövhər,
Həsrət vüsal ilə qovuşan sayaq!

Sonra da anası,bacısı getdi*,
Yaqud**, Mədihəni*** çəkdi yanına...
Qızılbaş yenə də çaşdı,səhv etdi,
Yetişə bilmədi ölüm anına...

...Yaxşı yadımdadı,tələbə idim,
Onlara gedərdim bazar günləri.
Mənim üçün bu bir qələbə idi,
Xoşbəxt sevgimizin azad günləri...

Yaxşı yadımdadı,atam da gəldi;
Apardım onlara işimdən yana,
Atam ona baxıb,dedi;-gözəldi,-
Özü çay gətirdi,çıxmadı ana...

Siyab çox gec gəldi,təxminən 10-da,
Dedi ki,"bu gecə növbətçi idim."
Atam, Sarı dayı bunu duyanda,-
Mən də orda idim,bələdçi idim...

* rəhmətə getdi-red.müəl.
** Yaqud-Zərifənin anası
*** Mədihə-ortancıl bacısı-red.müəl.

Siyab həkim ilə söhbət edəndə;-
-Əlini verirəm,sərancamına!-
Atam bu sözləri üzə deyəndə,
Razılıq duyğusu doldu canıma...

Yolda atam mənə bir söz də dedi;-
-Qız yaxşı olsa da,anası vaydı,
Səni o istəmir, sözünü dedi,
Bir qış günü idi, bir soyuq aydı...

Dəmir yol şineli geymişdi atam,
Zərifə fırlandı onun başına.
Qızın məhəbbəti çətin ki, yata,
Həsən* oturmuşdu"elçi daşına?!"

Qızdan bir kəlmə də etmədi atam,
Danışdı,təyinat almağa dair...
Düşündüm, bununla məqsədə çatam,
Sən saydığını say,fələk nə sayır?!

Mətbəxdən çıxmadı anası bir an,
Sordum səbəbini, dedi;-yad kişi...
Onunçün incidim Yaqud xaladan,
Bu yerdə şeytanlar görürdü işi.

Bildim ki, könülü yoxdu Yaqutun,
Mən qalam Bakıda həkim işləyəm;
Namərdlər izlədi eşqin süqutun,
Əsasım yoxdu ki,onu pisləyəm!..

Boş-boşuna qürur məni bitirdi,
Onun çağrışına getmədim qəsdən;
Qismətim hardaydı,kimi itirdi,
Ürəyim çırpınıb çıxdı qəfəsdən!

* Həsən-rəhmətlik atam-red.müəl.





...Mən nədən incidim Yaqud xaladan?!
O vaxtdan aramız soyudu yaman.
Düz iyirmi bir il keçdi aradan,-
Bizə sığal çəkdi fələk və zaman!..

Yaxşı yadımdadı,söylədim ona;
-Anan bəyənmədi məni nə üçün?!
Astadan söylədi;-girmişdin dona,
-Nə vaxt elçi gəldiz,demədik keçün?..

Onun arzuları gözündə qaldı,
Nələr yaşamadı cavan çağında?!
Həssas ürəyini qüssələr aldı,
Ölüm vadisinin lap qırağında...

Onu axtarıram xəyallarımda,-
O məsum insanı fani dünyada,
Qəbrinin başında,bu qollarımda,
Cızhacız yanıram oyaq röyada,-
Zərifə xanımı salaraq yada...

*14.04.2013-cü il. Bakı şəhəri,Əhmədli qəsəbəsi.*

## QƏFİL ÖLÜM

*13 dekabr 2011-ci il,gecəl-radələrində qonaqlıqdan gələn day-dostum Eyzan, oğlu-Telman və üç övladı, "Zaporoji"maşının sürücüsü-Rövşən gəlib su arxına çatanda, Eyzan:-saxlayın,mən düşüm siz qayıdın! Rövşən:-xala, səni hardan götürmüşəm, ora da düşürəcəm! Qapı ilə su arxı arasında məsafə cəmi 50-60 metr olar-olmazdı. Rövşən maşını nədənsə düz sürə bilmir,körpüyə sol tərəfdən yanaşır; körpüdən sola-suyun içinə arxası üstü düşür, təkərləri göydə! Maşının qapılarını, təpikləsələr də, şüşələrini yumruqları ilə döyəcləsələr də maşının qapıları, fortuşkaları heç cür açılmır ki, açılmır. Telman ayağının altındakı dəmirsaplı çəkiclə fortuşkanı vurub qırır,bir az nəfəs alırlar. Səs-küyə diqqət yetirən qonşunun qızı:-ata,arxın üstündə adamlar dalaşır!-deyə,həyacanla məlumat verir.Atası evdən arxın üstünə qaçır,gəlib çatanda,hər şey aydın*

*olur!.. Qonum-qonşu tökülüb; Telmanı, üç öladını, Eyzanı sağ-salamat çıxarırlar; Eyzan yarıhuşsuz vəziyyət olur... Sürücü Rövşən üçün artıq gec idi,-onun cansız bədənini axırda zorla çıxarırlar. Hamlet, Mətanət, qonşular fədakarlıq göstərərək bu mağdurları xilas edirlər! Yoxsa, faciə daha artıq olardı!... Eyzan gözlərini açıb:-uşaqlar qutardı?-soruşur. Rövşənin öldüyünü eşidəndə, gözlərini yumub keçinir... Allah rəhmət eləsin!Amin!*

Bir Eyzan gül yaşayırdı,
Xalac adlı bir obada;
Balalarından ayırdı,
Zalım fələk, getdi bada!

Ziyafətdən gəlirdilər;
Nənə,Telman,üç nəvəsi...
Arxı keçmək istədilər,
Əcəl,sürücü həvəsi?!

Eyzan dedi:-düşüm,gedim,
Arxı keçmə, ev yaxındı..
-İşi axıracan edim;-
-Çatırıq qapıya indi!..

...Maşın düşdü dalı üstə;
Qərq oldu lil sularında!
Çıxmağa cəld oğul istər,-
Fərhad gücü qollarında!-

Qonşu qızı səs eşitdi;
Dedi:-orda savaşırlar!
Qonşu gəlməyə qətt etdi,
Gördü,suya qarışıblar!..

Qohum-qonşu töküldülər,
Mağdurları qurtarmağa;
Soyuq suda söküldülər,
Eyzan taqətsiz durmağa!..





Bircə dəfə gözün açıb;-
-Uşaqlarım qutardımı?..
Deyib,uçdu-işıq saçıb,
Ruh da həyatın ardımı?!

Sürücü qıymadı gedə,-
Pay-piyadə evlərinə.
Suya düşdü...
varmı nədən?!
Ölüm keçdi əllərinə!..

Şofer Rövşən,bir də Eyzan,
Qalmadılar bu dünyada.
Necə qıydı bunu yazan,-
Ömürləri getdi bada?!.

Xilas oldu dörd övladı;
Üç nəvəsi,bir oğlu sağ!
Ölüm Eyzanı ovladı,-
Dedi:-Telman,salamat qal!

Boğdu onu su altında,-
Xalac arxı aşıb-daşdı!
Ruhu indi göy qatında,
Məzahirin gözü yaşdı...

Ağla,ürəyini boşalt,
Əcəli boşaltmaq olmur!
İstər başına vur kıvalt,-
Öləni yaşatmaq olmur...

Sürücünü danışdıran,
Qızı çölə daşıran var!
Əcəl suyun qarışdıran,
Soyuq suya aşıran var...

Bu dünyanın işi belə;
Hərə bir cür gedəsidir!
Bu sirr açılmayıb hələ;-
Ölən yazıq bəndəsidir!..

*15.12.2011-ci il. Beyləqan şəhəri.*

## ANACAQ

*Haqqın dərgahına qovuşmuş xalaoğlanlarım-Heydərin və Qənbərin əziz xatirəsinə. Lap uşaq idim - 6-7 yaşlarında, təzə yurdumuzda kərpicdən iki mərtəbə ev tikirdik. Yemən xalanın əri-Xalıx əmi bizə gəlmişdi. Bir evə baxdı, bir mənə, gözlənilmədən sual etdi: -Əli, deyə bilərsənmi, neçə qardaşsınız? Mən bilə-bilə ki, iki qardaşıq, kişinin fikrini duydum... və... onun dörd oğlanları - xalaoğullarımı -Qənbəri, Ənvəri, Heydəri, Allahverdini nəzərə alıb,-altı qardaşıq, Xalıq əmi!... Kişi fərəhlənib; -Həsən, bundan müğayət ol, bu uşaq zəka sahibi olacaq!..-dedi. Allah rəhmət eləsin!..*

Bu gün keçdiyim küçədən
Bəlkə sabah keçəmmədim.
Heç soruşma,neçin,nədən,
Heç özüm də seçəmmədim…

Bir gün baxan xumar gözlər,
Bu dünyaya baxmayacaq.
Dildən çıxan acı sözlər,
Heç kimsəni yaxmayacaq!

İrəliyə bir addım yox,
Hər şey qalacaq geridə.
Bizi əvəz edən nə çox,-
Əskiləcəkdir biri də...

Hesabını bilən dünya,
Bizi də çıxdaş sanacaq.
Arxamızca gülən dünya,
Yəqin bizləri anacaq!..





-Neçə qardaşsız,ay Əli,
-Altı qardaş,Xalıq əmi!
-İki siz,dörd bizim dəli?!
-Belə yazdı Xaliq əli!...

-Afərim zəkana,bala!
-Həsən bundan müğayət ol!
-Bəlkə bizi yada sala,
-Siz salamat,bizə də yol...

Heydəri,Qənbəri gedib,
Yerdə qalanlara şükür!
Əli olub indi ədib,-
Xəstəlik onu da bükür...

*09.05.2012-ci il. Beyləqan şəhəri.*

## QURANIN MÖCÜZƏSİ

*19 rəqəmi İlahi rəqəm*

On doqquz möcüzəsi var müqəddəs Quranın;
Yüz on dörd surəsi ilə təsdiq edir də bunu;
On doqquz kainatı öz hökmüylə Quranın,
On doqquz rəqəmidir kodlaşdırıb Qanunu*!...

Yoxdan yaradan Rəbbin adı ilə Bismillah;
O canlı məxluqatı yoxdan niyə yaratdı?!
Suallar qaşısında çaşıb qalmışam, vallah,
Yaşam elə yaşamdı,ölüm niyə rahatdı?!

Ölümdən qorxan insan bunu necə anlasın?!
O dünyadan gələn yox,hesab verib ağlasın?!
Bu dünyada gəzənlər oxumazlarmı Yasın?!
Tövbə, Əlaq surəsin oxuyub da anlasın!..

Yüz on dörd surəsinin bir hərifin dəyişsən,
Xəta etmiş olarsan,tarazlığı pozarsan!
On doqquzun qatını altı ilə əyişsən,-
Yüz on dörd surəsini bir Qurana yazarsan!..

Yüz on dörd rəqəmini on doqquza böləndə,
Musanın altı üzlü nişanı düşür yada!
Bu dünyanı yaşayıb,bir gün sən də öləndə,
On doqquz sual ilə cavab ver o dünyada...

Quranın surələrin birər-birər oxuyan,
Bilir, Allah kəlməsi ayələrdən yüksəkdə!
Rəbbim ağıl verib ki,onun kimi oxuyam?!
Şeytan girir qəlbimə, yazıq ağılım da şəkdə!..

Bir Qədr gecəsində girə qəflət yuxuma;
Anlada mən qəribi özü anlıyan kimi!
Özündən uydurub da filan-filan toxuma,-
Açıq-aydın dəlillə özüm ayılan kimi!..

Şəkk-şübhələr içində çaşıb qalmışam,vallah;
Sorum,yoxsa,sormayım;-Qiyamət günü nə vaxt?!
Zahid çox qəzəblənib desə,əstəxfurullah!-
Qızılbaş, sən səbr elə, gözlə, qurulanda taxt!...

*03.11.2011-ci il. Beyləqan.*





# LİRİKA

## YAZ, MƏNIM ÜÇÜN

*Mama-qnekologiya şöbəsində bir gözəl gördüm.*

Dünən bir cənnətə düşmüşdüm sanki,
Hürülər bürüdü dörd-bir yanımı;
Həyatımda boyunca elə bir an ki,
İşvəli bir gözəl aldı canımı!..

Yazın təravəti çökmüş hüsnünə,
Məsum baxışları nələr anladır?!
Yazıq Qızılbaşın durub qəstinə,
Günahgarcasına onu danladır...

İçində özünü danlayan yazıq,
Qədərə,qismətə gücün yetərmi?!
Onu kəşf eləyib anla azacıq,-
Bu həsrət vüsalla,söylə,bitərmi?!

Niyə söyləməyə gücün yetməyir,
Sənə ki,dil-ağız verib İlahi?!
Xəyalından o can niyə getməyir,-
Onu sənin üçün dərib İlahi?!

O,dərilmiş güldür,-şöhrət qurbanı,
O şöhrətpərəstin əli quqrusun!
Bahar təravəti süsmüş hər yanı,
Dərilib sərilmiş,suyu qurusun?!

Ətrindən burdaca məst oldum,Allah,
Qismət quyusunu qaz,mənim üçün!
Yazarsan bəxtimə onu,inşallah,
Ömrümə-günümə yaz,qənim üçün...

*26.07.2012-ci il."Medikal-centr-L",Mama-ginekologiya şöbəsi.Beyləqan şəhəri.*

## YAŞAMAQ İSTƏYİRƏM

Yaşamaq istəyirəm,
Sabahı görmək üçün,
Ürəyimə acını,
Saçını hörmək üçün...

Yaşamaq istəyirəm,
Səhər sübhdən oyanım,
Baxım məsum çöhrənə,
Səninlə bir dayanım.

Boyanım mavi rəngə,
Göyləri yazmaq üçün;
Girib başqa ahəngə,
Yazını pozmaq üçün!

Dünyada olub bitən,
Xəbərlərdən xəbərdar,
Gəlib qəlbimdə bitən,
Kədərindən xəbərdar...

Hərdən zövq ilə geyib,
Mən kənara baxanda,
Aşkara,gizli deyin,
Qıraqlara axanda...

Səni çox üzdüyümü,
Səndən də öncə bilim,
Xəyanət üzüyümü,
Doğrayım dilim-dilim!

Boşaltmaq istəyirəm,
Ürəyimin yükünü;
Çoxaltmaq istəyirəm,
Ömrün həyat tükünü...





Ulduzların sayınca,
Saymağa məşqulat var,
Gecə-gündüz doyunca,
Ruhuma qol-qanad ver!..

...Hər şey ötüb keçəndi,
Qalasıdı əkdiyin;
Qızılbaş da köçəndi,-
Heyif bunca çəkdiyi!..
İnşallah,çox yaşasın!

*14.01.2013-cü il. Beyləqan şəhəri.*

## YARADILANI SEVƏK?

Yunis əmrə deyir ki,
"Yaradandan ötəri,
Yaradılanı sevək..."
Hayın dəyməz xətəri?..

Günahgar bəndəsiyik,
Yer-göyün arasında!
Bir Allahın nəsiyik,
Durmayaq sırasında?!

Yaradılanı sevmək,
Əlbət də ədəb istər...
Ədəbsizi devirmək,
Caizdir,onu göstər!

O,özünü göstərir;-
Var canımda yarası!
İzrail,hay xəstədir;-
Dünyanın üz qarası!..

Mən hayı necə sevim?-
Ölüm saçır ağızı!

Onunku olub evim,
Dünyanın ən"yazığı!"

Soyqırım iddasıyla,
Xaçpərəstlər birləşir!
Xocalım öz yasıyla,
Yerlə-göylə əlləşir...

Hələ də tanıyan yox,
Bu soyqırım deyilmi?!
Türk hayın gözünə ox,-
Bu ox sınmır, əyilmir!..

*22.12.2011-ci il. Beyləqan şəhəri.*

## VƏFALI QIZ

*Yanıma xəstə bir qadın gəldi; cavankən qocalmış, solmuş bir qadın! Əri ruhi xəstə olduğundan, onu döyür, kəsməklə hədələyir, müalicədən yayınır, qadın qoruxusundan səhərə qədər yatmır, vəfalıdır, ərin-uşaqların atmır, zatən, əri də xalası oğludur. Əhsən,bu qadına, əhsən!..*

Bizim yerdə bir gəlin var,.-
Ailəsinə vəfalı qız...
Bağrı yanar,gözü yaşar,
Xəstəsindən cəfalı qız!

Nə çillədi sən çəkirsən,
Cəhənnəmlərdə bişirsən?!
Həyat sıxır,dəyişirsən,-
Cəfaları dəfalı qız!..

Ərli bir qadın olmusan,
Cavankən yaşa dolmusan.





Çilən ağırdı,solmusan?!
Öz-özünə şəfalı qız.

Dərd yelləri yaman əsdi,
Xoşbəxtliyin tez tələsdi...
Ərin bərəst,-natərəsdi,-
Bərlas eşi,-bahalı qız!

Ərin dəlidir,-savaşır;
Dərdlərin başından aşır.
Sənə xoş həyat yaraşır,-
Allahım-əfli,ali,qız!..

Şeytan yenə də azdırır,
Ömrünə goru qazdırır,
Şəninə şeir yazdırır,-
Allah eylər əff,dəli qız!!!

*10.02.2012-ci il. Beyləqan şəhəri.*

## XƏSİS HACI

*Bir Hacıya tərif yazdım, yanılmışam; çünki, çox xəsismiş! Xəsisdəsə iman olmaz!*

Varlılar xəsis,-açıq,
Onunçün də varlıdır.
Kasıblar əliaçıq,-
Onunçün də barlıdır;-

Barın verən ağaclar,
Özləri çılpaq qalır.
Varını verən aclar,
Ondan mükafat alır?!

Bu çətin suallara,
Cavab aradım nahaq;
Düşdüm nahaq yollara,-
Hacıdan istədim haqq...

Bəs axırı nə oldu?-
Yəqin etdim onu mən;
Getdiyim çətin yoldu,
Hissə qapılma həmən!

Zəhmətinin əvəzin,
Almayanda incıdır; –
Əli çıraqlı gəzin,
Mən yazdığım incidir!..

Hacıya şeir yazdım,
Yaman xəsis kişidir;
Yazdıqlarımı pozdum,-
Yalan-palan işidir!

Hacını evdə gördüm,
Telefon açdı oğluna;
Otuz manatla durdum,
Xəsis əli dağlana!...

Heyva payı da verdim,
Qəbul elədi arsız;
Daha da artdı dərdim,
Hacını qalsın varsız!..
*27.11.2011-ci il. Beyləqan şəhəri.*

## AĞLIMI OYNATMA, QIZ

Dün dedin, sevirsən məni,
Soruşuram, görən niyə?!
Başqasının bir zənəni,
Yad kişiyə dönər,niyə?!

Sənin heç insafın yoxmu,
O yazığın günahı nə?!
Süfrən azıymış, ya toxmu,-
İçində çəksənə ahı!..





Zülm eyləyir, qəlbin sızlar,
Uşaqlarının atası;
Göydən düşmədi ki,qızlar?-
Ağlını satma, qadası!

Yaxşı,ya pis qismətindir,
Qızlarının da atası;
Xalaoğlun,-öz ətindir,
Çətin ki, səni atası!.

Deyirsən ki,ağlı çönür,
Bərəstlərin xəstəliyi!
Birdən də alimə dönür,-
Onda pulu dəstəliyir?!

Allahına şükr eyləyib,
Könlünü al, yatma, qız.
Hərdən məni zikr eləyib,
Ağlımı oynatma, qız...
Günah bizə, yazıq bizə!
*11.03.2013-cü il. Beyləqan şəhəri.*

## BİR QADINA NƏSİHƏT

Kimə qızmısansa, məni qınadın,
Mənim sənə dönmək heç niyyətim yox;
Ahıl bir şairəm, Əlidir adım,-
Eşqə,məhəbbətə nəhayyətim yox...

Fəqət,ərli qadın heç arzum deyil,
Buna meyl edənin şərəfi olmur!
Çox da ki,qadının əri bir veyil,-
Olsa da,baş qoşmaq şər,əffi olmur!!!

Haçansa səni də çalacaq ilan,
Nə töksən aşına,o da çıxacaq;

Haçansa,kiməsə dediyin yalan,
Bir zaman gələcək, səni yıxacaq!..

Odur ki,ağlını başına topla,
Səni də çalacaq bir gün ilankəs.
Şeytana aldanıb,üzdə ha gopla,-
Sən,əziz oxucum,mən və filankəs!..

*11.03.2013-cü il. Beyləqan şəhəri.*

## VAXTSIZ QOCALMIŞAM

*Uşaq idim,-məktəbli, kənddə mağazadan gəlirdim; qəpik-quruşum qalmışdı, anam-atam sağ idi, kasıb, xoşbəxt günlərimin birində qabağıma qaraçı qadın çıxdı; o, israr elədi ki, bir şey ver, falına baxım. Çıxarıb ona bir sarı sovet manatı verdim. Qaraçı qadın sağ əlimi əlinə alıb "oxumağa" başladı;-"...axırda bir dul qadın alassan, onun hesabına dolanassan!" Qəribədir...Axı,bu necə ola bilər???*

Vaxtsız qocalmışam,gücüm qalmayıb,
Fəxrlə öydüyüm gəncliyim qayıb.
Qismətim olmusan,özgə almayıb,-
Qaraçı falçısı o vaxt düz deyıb?!

Gözləmişəm taleyimi bixəbər,
Mənim ilə yaşamaqçün bərabər,
Məni bu halımla sevən bəxtəvər,-
Gərək axtarmasın məndə bir eyib!

Deməк ki,sən düşdün kor qismətimə,
Bəlkə də dəyərsən əziyyətimə.
Özüm də heyranam qətiyyətimə,-
Səni almaq üçün qızıl don geyib!





Yuxusuz gecəmsən,gözdə çimirim,
Tənha yatağımda sənsən hənirim...
İzin ver ətindən bir az gəmirim,-
Demə,səndən qabaq kim isə yeyib!..

Bu yaşda nə qədər gözələ vurğun?
Qara gümanlarla düşübsən yorğun;
Qızılbaş, verdiyin cavabsız sorğun,-
Taleh dükanında hələ ki,qayıb...

*21.01.2011-ci il. Beyləqan şəhəri.*

## KİM BİLİR

Bəxt ulduzum başım üstə fırlanır,
Başıma qonacaq, onu kim bilir?!
Ziyana,yoxsamı xeyrə hallanır,
Nə cür qutaracaq sonu,kim bilir?!

Taleyimi çox küləklər daradı,
Sınıq könlüm arzuları aradı...
Görürəm ki,yenə günüm qaradı,-
Görəcəmmi bir ağ günü,kim bilir?..

Bəxt çəpərin mən hörürəm,hörülmür,
Gümanların sonu hənuz bilinmir...
Acı günlə şirin ömür sürülmür,-
Aydınlığa doğru yönü, kim bilir?..

Qızılbaşın qızılquşu ötmədi,
Arzuları ünvanına yetmədi!
Əfsuslar ki,acıları bitmədi,-
Soyunacaq qara donu?..Kim bilir?..

*22.01.2011-ci il. 00-35. Beyləqan şəhəri.*

## BİR ÖMÜR SEVGİ

Bir ömür sevəcəm səni, gözəlim,
Sən də öz sevgini mənə bağışla!
Axırım sənlədir, sevda əzəlim,
Ömrümə rəng qatıb onu naxışla...

Göydə ulduzlarım,ayım sən oldun,
Nurlu işartına baxdım uzaqdan.
Qarlı zirvələrdə duman,çən oldun,
Üşüdüm oduna,yandım sazaqdan!

Sənə qovuşmağa həsrətli könlüm,
Nə qədər tamarzı, avara qaldı?!
İstədim milyon il yaşayıb ölüm,-
Dedilər qismətin bu yara qaldı!

Sevdalı könlümlə qoca dünyada,
Bütün bir ömrümü fəda edərəm.
Sən sahib çıxmasan: bu soya, ada,
Etmərəm eşqimə əda, gedərəm...

*04.02.2012-ci il. Beyləqan şəhəri.*

## ÜRƏK BEZİB

Səndən elə doymuşam ki,
Bir də sulanıb axmayım.
Gözlərimi oymuşam ki,
Bir də yoluna baxmayım.

Yollarımız ayrılalı,
Ayrı ünvanda,addasan.
Ürəyimin yaraları,
İçimdə donan yaddasan...

Zaman keçib unudacaq,
Ümüdlərim qocaldıqca.





Sanma,bir də qayıdacaq,
Özgə yurdunda qaldıqca...

Qayıtsa da fərq eləməz,
Ruhum bezib gözləməkdən!
Ürəyimə dərd eləməz,
Ürək bezib əzilməkdən...

*09.02.2012-ci il. Beyləqan şəhəri.*

## TÜRK SÖZÜNDƏN HEÇ UTANMA

Türk sözündən heç utanma,
Qoy Allah utandırmasın!
Boş-boş sözlərə inanma,
Boşluqlarda qandırmasın...

Öz tarixim mənə bəsdir,
Keçsə milyon sənə*,bəsdir!
Gündə bir ad nə həvəsdir?-
Qeyrisini andırmasın?!

Andıranı yandırsana,-
Kor nadanı qandırsana!
Sən də faktla utandır ki,
Türk-türkməni dandırmasın!

Hər kimsənin öz adı var;
Bəsdir onu gizlətdiyin!
Hər dilin də öz dadı var,-
Anasını dizlətdiyin!..

Birisi amerkan deyir,
Birisi iranlı deyir,
Hərəsi bir qələt yeyir,
Elə budur düzəltdiyin?!

---

* *sənə-türkcə,il-red.Ə.H.*

Haya ha ermәni denәn,
Hunu macar ilә yenәn!
Azәrbaycanlıydım dünәn?-
Nәdir mәni izlәtdiyin?!

Ad nә deyirsәn,deginәn;
Xalq dilindәn dönәn deyil!
Yalanlardan az yeginәn,
Millәti gәl,etmә veyil!

Belәcә sәhvin düzәlәr,
Haqqım hәr şeyi düz әlәr!
Kiminin әhvi düzәlәr?-
Qızılbaşı bizlәtdiyin?!..

*04.12.2011-ci il. Beylәqan şәhәri.*

## BİR KƏRKÜKLÜ GÖZƏLƏ

*"Türkmәneli"TV-nin aparıcı jurnalisti xanıma,әrәbcә öz ana dili kimi danışır,adam valeh olur.*

Peyğәmbәrin dilindә,
Danışan dilin gözәl!
Azәrbaycan elindә,
Qızılbaş necә dözәr?!

Dodaqların piyalә,
Ay bәnizli gözәl qız.
Bilsәn,düşdüm nә halә,
Sәnә baxanda yalqız?!

Ekrana sarılmışdım,
Ürәyim oldu infarkt!
İkiyә yarılmışdım,
Danışdıkca,-tırak-takt!..





Onu yaradan Allah,
Nә gözәl yaradıbdı!
Deyirәm,ola sabah,
Görәm,bizdә yatıbdı!..

Ay xam xәyal qardaşım,
Arzuların çox çәtin;
Əllini ötüb yaşın,
Ağ saçları gizlәdin?!

Mәndәn uzaq elindә,
Görәm kimin yarısan?!
Mәn dәrdindәn zülümdә,
Qızılbaşa yarı sәn!..

*19.01.2011-ci il. Beylәqan şәhәri.*

## KİMLƏR QALIB?..

Köhnә ili yola salıb,
Tәzә ili qarşıladım.
Kimlәr gedib, kimlәr qalıb,
Barmağımı çarşıladım...

Şükür,tәzә ildә sağam;
Qeyd edirәm tәzә ili!
Görmәyәcәm, keçsә yaxam,
Yenә gәlәn bizә ili!...

Gedәnlәrdәn biri olub,
Ölәcәyәm gültәk solub.
Qarşılarsan gözün dolub,
Əli-deyә, gәzә ili!...

Yenә sabah açılacaq,
Yenә günәş saçılacaq,
Yer kürәsi qaçılacaq,-
Gәtirәcәk sizә ili!

Kimlər ölə, kimlər qala?-
Bizim əlimizdə deyil.
Kimlər səni yada sala?-
Onun qarşısında əyil!..
*02.01.2012-ci il. Beyləqan şəhəri.*

## TƏRİF, YOXSA...

Bir tərəfdə Əlikrəm,
Bir tərəfdə erməni!
Asala ləzgilərlə,
Təhdid edirdi məni!

Dalı barmaqlı ünsür,
İndi dayanıb susur...
Ulu Öndərim-cəsur,-
Xilas etdi Vətəni!

Konsorsiyüm faizi,
Məhv elədi acizi...
Ulu Öndər caizi,-
Xan-bəy etdi çətəni!

Dövrün sonu gələndə,
Tale üzə güləndə,
Tərif edim,de məndə,-
Hər yolundan ötəni?!

Öndərin davamçısı,
Şeirim ilhamçısı,
Allahım,ver qamçısın,-
Kök üstündə bitənin!..
*19.11.2011-ci il. Bakı şəhəri. Bayıl qəsəbəsi.*





## TƏNHA SAKKIZ AĞACI

*Beyləqanın Sarı su kəndinə*
*gedən yolun üstündə qərar*
*tutmuş tənha sakkız ağacına*

Neçə əsrlər keçib
bu kimsəsiz çöllərdə,
Onu burda kim əkib
bilən yoxdu hələ də...

Nəhayətsiz çöllərdə
kimin yolun gözləyir?
Duaları əllərdə,
gələni əzizləyir.

Bir meyvəsi,barı yox,
barı onun varlığl.
Bir kimsəsi,yarı yox,
el içində yarlığı...

El içində hörməti,
Qatma bağlayan da var.
Dərdliyə mərhəməti,
Ona ağlayan da var!

Niyə sakkız ağacı
deyirlər bu tənhaya?!
Insana ehtiyacı
yoxdu.-küsə,ağlaya...

Torpağın bağrındadır
dərin kökün himləri,
Dərdi yer ağrındadır,
yola salıb kimləri?!

Ancaq özü qalıbdı,
Həyatı şirin,acı...

Sakkız adın alıbdı,
Tənha sakkız ağacı.
*30.08.2012-ci il. Beyləqan şəhəri.*

## TƏNHA QADIN

Tənha bir qadın yaşayır,
Dünyamızın bir küncündə.
Nə qədər dərdlər daşıyır,
Ürəyinin hər küncündə...

Qəlbi məhəbbətlə dolu,
Dünyamıza göz açandan.
Bakıya düşübmüş yolu,
Görmədim onu haçandan...

Dedilər Beyləqandadır,
Maraq çox bürüdü məni;
Soruşdum ki,hayandadır?-
Ayağım sürüdü məni...

Adın zikr eləyib qaldım;
Düz qarşıma çıxdı xanım!
Çöhrəsinə nəzər saldım,
Gəncliyimə döndü anım...

Alma gözlər cilvələndi;
-Kimsən?..Huşum gedib!-dedi.
O gözlərdən nur ələndi,
Tənhalığı bir an yedi...

Bir mehriban adamını,
Sanki,kəşf etmişdi xanım!
Verməsə də el yamını,
Fəraqət etmişdi xanım...

Sordum halın-əhvalını,
Qayət keyfi yerindədir!





Ürəyi saf zavalının
Dərdi-səri dərindədir...

Yəqin xanım gec evlənib,
Cocuq-çoluğu da yoxdu.
İşi-gücüylə əylənib,
O vaxt qoruğu da yoxdu...

Əsmət yaxşı yadımdadır
Kolxoz sədri işləyirdi;
Silləsi də dadımdadır,
Söyüb,bizi"dişləyirdi!"

Arıq,çevik,qaşqabağı,-
Yeri-göyü süpürərdi.
Alma gözü,bal dodağı,
Görən, kimə tüpürərdi!..

Rast gəldiyi bir avara,
Əsmət xanıma yar olub.
Əsmət hara,sərxoş hara.
Buna səbəb də var olub!

Əsmət xanım varlı-hallı,
Bakıdakı evin satıb;
Atıb sərxoşu zavallı,-
Dərdinə bir dərd də qatıb!

Beyləqanın bir küncündə,
Tənha bir qadın yaşayır;
Ürəyinin hər küncündə,
Dünya boyda yük daşıyır!

Dərdlər onu çuğlasa da,
Qəlbi ağlar, üzü gülür.
O kitabı bağlasa da,
Biri susub, yüzü gülür...

Altmış beş yaş nə yaşdı ki,
Onu qıvraq,canlı gördüm!
Ərəb xurmalı aşdı ki,
Dodaqların qanlı gördüm...
*Allah özü rəhm eləsin!*
*10.02.2012-ci il. Beyləqan şəhəri.*

## BİRİ İNCİDİ MƏNDƏN

Bir söz üçün göynəyib,
Biri incidi məndən;
Yazdığımı öyrənib,
Bir sözü edib nədən...

İncimə,ay qardaşım,
Söz yarası ağırdı.
Kütəlməyib yaddaşım,
O vaxt qarğış yağırdı!..

Mən xatirə yazmışam,
Onu da çox görürsən...
Deyisən ki,azmışam?-
Sözün ilə döyürsən?!

İzin ver,bir söz deyim,
Sən özünsən günahkar;
Qurandan al don geyim,
Etdiklərin nahaq.ar!..

Billəm,deyəssən,qismət,-
Mən də səninlə razı...
İnsanda namus,ismət,
Olmalıdır,ən azı...
*12.09.2012-ci il.*





## TƏNƏZZÜL

*Avropanı çuğlayan iqtisadi böhranı ört-basdır edən Avropa birliyi təşkilatı əslində "sivil" xristian toplumundan başqa bir şey deyil; çünki, müsəlman ölkələrinin neft-qazı ilə dolandıqları halda, içlərinə bir dənə də olsun müsəlman ölkəsini qəbul etmək istəmir, Qarabağ (Xocalı) müsübətində erməniləri dəstəkləyir, bizim acılarımızı göz ardına vurur! Bu da xristian ədaləti!..*

Allah,sənə qurban olum,
Tənəzzüldədir Avropa;
Şəhid olur bir-bir oğlum,
Gülə-gülədir Avropa!..

Türkiyəsi dışarıda,
Fransası aşırıda,
Yunanıstan yaşarıda,-
Yaman gündədir Avropa!

Avropanın bu toplusu,
İnsan haqları goplusu.
Almır müsəlman toplusun,
Yalan gillədir Avropa!..

Türkiyənin çabaların,
Yunanıstan yabaladı;
Bütün dünyanı aldadır,-
Iki dildədir Avropa!

Yunanıstan əldən gedir,
Merkel,Sarkozi səy edir...
Bizə"soyqırım"əklədi,
Bölə-böldədir Avropa!

Ermәniyә qucaq açır,
Qaraçıya alov saçır.
Macar bu qurumdan qaçır,-
Ölә-öldәdir Avropa!..

Әdalәt deyәn şeyi yox,
Müsәlmandan hәr payı çox.
İslam isә gözünә ox,-
Üzdә gizlәdir Avropa.

Osmanlıdan qisas alır,
Kıbrız işin әsas alır?!
Qarabağıma yas salır,
Neçә illәrdir Avropa!

Göy bayrağı göy türkünkü,(!!!)
Türkә düşmәndi bu günkü!
Qızılbaş deyәr, hununkun*
Bilә-bildәdir Avropa!!!

*08.02.2012.Ә*

## TAPILAR

Bu qoca dünyanın işlәri adıl;
Necә lazımdırsa elә yapılar...
Hәlә at oynatsın filankәs yüz il,
Onun da cavabın verәn tapılar!

Sahibsiz ölkәnin qul vәtәndaşı,
Dövran belә getmәz,sil gözün yaşın...
Burda fәrasәtli kәm fürsәtlәrin,
İşlәri xod gedir,qaradır qaşı!

---

* *Hun-macar,524-cü ildә Kalatuan döyüşündә Hun imperatoru Atilla xristian Romasına qalib gәl mişdir. İndi isә küçәlәrdә yürüş edәn macarlar Avropa birliyinin bayrağını yandırdı*





Necә olmaq üçün sındırma başı,
Allah nә veribsә ona qail ol.
Ya şor çörәk üçün,ya da ki,aşı,-
Qismәtin olmağa çalış nail ol!

Mәn kimәm, özümdәn şeir-zad yazam?!-
Mәnә vәhy gәlәndә yazır bu qәlәm!
Yerdә cövlan edib, göylәrdә azsam,-
Qәrib ruhlar ilә tapışıb gәllәm...

Allahım,o ruhu mәnә yaxın et,-
Bәlkә,yuxularda ulaşım ona;
Şeirimin dilini şirin, axın et,-
Arazla Kür kimi qarışım ona!

Hәlә dә qazıram söz mülkünü mәn,
Toxumu,gübrәsi bir az kәsatdı.
Tәr mәhsul yerinә bitmәsin çәmәn,
Toplayıb üyütmәk sonra hasatdı!..

Gör, hardan götürdüm gübrә, toxumu?-
Mәsudun* mülkündәn götürdüm sәlәm!

---

* Mәsud-11-ci әsrin 2-ci yarısında Beylәqanda yaşamış şair Mәsud ibn Nәmdar nәzәrdә tutulur, red.müәl. Ә.H. Onun 2000 beytdәn artıq poetik irsi әsasәn ana dili-türkmәn, әrәbcә hekәyәlәri, farsca mәktubları günümüzә çatmışdır. Nizami Gәncәvidәn öncә yaşayıb, yaratmış,12-әsrin 2-ci yarsısında vәfat etmişdir. Beylәqanda yaşayanları türkmәn adlanır, yazılarında türkmәnlәrlә fәxr edir! Eyni fikir müasir türk folklor araşdırmaçıları Sәlahәddin Çәtinqaya vә Heydәr Dündәrin "Tәrәkәmәlәr" kitabında da anladılmışdır, yәni,"azәrbaycanlılar"deyilәn xalq әslindә Qafqaz türkmәnlәridir, vәssalam! Kәrkükdә yaşayan soydaşlarımız kimi!-hansı ki, mәlum"Çaldıran"faciәsindәn sonra Böyük Azәrbaycandan ayrı düşsәlәr dә öz milli kökünü, adını vә dilini dәyişmәmişlәr! Böyük Azәrbaycan-türkmәn şairi, Şeyx Mәhәmmәd Füzuli babamızın Vәtәni-Kәrkükün Boyat kәndinin adı dәyişmәdiyi kimi! Lәhçәlәri dәNaxçıvan, ya da Tәbriz lәhçәsi!!! Bilmirәm,sizi başa sala bildimmi?!? İndi özünüz qәrar verin:- Azәrbaycanlısınız, yoxsa, türkmәn oğlu, türkmәn?!

Elə gözəl yazıb, türkün oxumun,-
Oxumaqçün bir də dünyaya gələm!..

Burda söz mülkünə qiymət verən az,
Dövlət,mülk üstündə gedir davalar!
Qızılbaş,oturub sən şeirini yaz,-
Vaxt gələr qiymətin verən tapılar!..

*04 .11.2011-ci il. Beyləqan şəhəri.*

## DƏLİ KÜRÜN ŞILTAQLIĞI

*12-21.05.2010-cu ildə aramsız yağışlardan sonra, Kür çayında qanunsuz qurulmuş vətəgələrin hesabına, Kür çayının mənfəzi təmizlənmədiyi üçün, Kür çayı daşdı... Sabirabad rayonunun Kür boyu kəndləri; Bayramlı, Cavad,.. digər kəndləri su altında qaldı... Xalqa böyük ziyan dəydi...*

Millətin ağır gününü,
Şeirlə yazmağım gəlir;
Heç olmadı fərri günü,
Halına yanmağım gəlir!

Bir tərəfdə hay-erməni,-
İmtahana çəkir məni!..
Su altına bu vətəni
Salan "ermənilər"bilir.

Təbiətin şıltaqlığı,
İnsanınmı sarsaqlığı?!
Kürün vətəgə balığı,-
Bayramlı,Cavadı silir!.

Xalqı balığa satdılar,
Lilli sulara atdılar!
Özləri rahat yatdılar,-
Sözləri gözləri dəlir!





Nuh nəbini tapmaq çətin;
Sudan,seldən çıxa mətin!.
Dəli Kürlə bu millətin,-
Savaşına O da gülür...

Araz coşub,Kür daşanda,
Xəta-bəla sovuşanda,
Kürlə Araz qovuşanda,
Bu mehrə qınağım gəlir...

*21.05.2010-cu il.*

## DÜNYADAN YAZIM

Bu dünyada həyat ilə ölüm eşit;
Nə bilirsən,uyrurursan o dünya var?!
Bətnindəki təlatümü özün eşit;
Görəssən ki,bu dünyada bir ayna var!..

Cənnət quşu dediklərin,-yavru-uşaq,
"O dünyada"böyüyəcək, kim olacaq?!
Sonsuz,çətin sualların ardı yasaq,
Elə isə əsəblərim tarımlaşan sim olacaq!

Deyirsən ki, düşünmə keç!Necə keçim?!
Bu sualın cavabı da tərs düşübdür;
Cəhənnəmi,yoxsa ki, cənnəti seçim?!
Qismətimə çətin sual, dərs düşübdür...

Düşünmədən qəbul etdim!Razı qaldın?-
Düşündükcə qəlbimə şübhə dolacaq...
Bu dünyadan çoxmu aldın,azmı aldın?-
Hesablarına,hamısı burda qalacaq!

Nə mənası? Sən gedirsən, yolun açıq,-
Yığdıqların gələn nəsilə qalacaq!
Mən deyirəm,çəkinmədən,açıq-saçıq;-
Varın varsa, nəsillər yada salacaq"..

Bəd gümanlar içində batıb getdiyim,
Əqlimin uydurduğu dünya nə lazım?!
Acısıların,şirinlərin sevdiyim,
Gözümə görünən dünyadan yazım!..

*23.12.2011-ci il.Beyləqan şəhəri.*

## GÜVƏNMƏ

İnsan oğlu,öz-özünə sevinmə,
Yeridiyin yolda qarışqanı bil.
Qazandığın var-dövlətə güvənmə,
Ölüm ağuşuna alar biqəfil!...

Sənə öyüd vermək bizə yaraşmaz,
Ağıl eşitməsə,qulaq kar aşmaz!.
Ağlı olan dünya ilə yarışmaz,-
Dünya cahangirin görüblər səfil...

Ömür yüküm zaman belində gedir,
Acılarım taleh dilində gedir;
Qoca,cavan,tifil əlində gedir,
Bu qoca dünyada mən də bir tifil...

Qızılbaş,özünü üzmə dünyada,
Ehtiyacdan gülmə qohuma,yada!
Şerin oxunanda düşərsən yada,
Ayrı nəyin var ki,ay ağzı qıfıl!...

*08.09.2010-cu il. Beyləqan şəhəri.*

## HƏKİM QIZIM-AYGÜLƏ

Özüm də bilmədən bu gün,
Son beşiyim,şirin qızım!..
Bu gün sənin arzun üçün,-
İstədim ki,şeyir yazım...

Bu gün sənin arzun üçün,
Necə-necə qapı döydüm;





Qismətini yazmaq üçün,
Ağız dolu səni öydüm!..

Səni öydüm,biri baxdı,
Ümid verib ilğım axdı...
Məndəki bu necə baxtdı?!
Oyanmır ki,oyanmır ki!..

Baxt üçün də pul gərəkmiş;
Baxtdan var-dövlət zirəkmiş!
Baxta var-dövlət dirəkmiş,-
Pulsuz dirək dayanmır ki!

Həkimlik çətin peşədir;
Mamalıqsa əndişədir!
Ana qəlbi saf şüşədir,-
Naşı olan duyammır ki!...

Çalış qızım,sən duyan ol,
Hər anaya bir həyan ol!
Həyat bəxş edən bəyan ol,-
Ölüm şaka qanmayır ki!...

Analar-ana torpağım,
İlk beşiyim,ilk yatağım.
Namusum,başda papağım,-
Biqeyrətlər yanmayır ki!

Diqqət, qızım,yenə diqqət;
Sənətə, işə sədaqət!..
Həyatla ölüm həqiqət,
Ölüm seçən,sanmayır ki...

Həyat səni sınayacaq;
Pis öyrənsən,qınayacaq!
Həkim kimi tanıyacaq,-
Əldə xına boyanmır ki?!
(Qan boyanır!!!)

*29.11.2010-cu il. Bakı şəhəri. Mamalıq-ginekologiya insitutunda.*

## HƏSRƏT, MÖHLƏT KÖRPÜSÜ

Şah babamız Xətayi,
Birləşdirən körpüdü.
O tay ilə bu tayı
Güləşdirən körpüdü,-
Xudafərin körpüsü!

Rusların murdar izi,
Bu torpağa dəyəri,-
Alçaq tutdular bizi,
Qalxdi hayın dəyəri,
Bizə qoydular pusu!

Ruslar böldü torpağı,
Zor ilə neçə yerə?!
Hiyləgər oldu yağı,-
Qanla doldu dağ-dərə,
Baş tacı etdik rusu!..

Yasaq olundu körpü,
Türmənçaydan bu yana;
Rus oldu qorxu,ürkü,-
Cəllad,-Azərbaycana,
Yıxdı bizim Ulusu!..

Yasaq olunmuş körpü,
Xudafərin körpüsü!
Keçməsi qorxu,ürkü,
Həsrət,möhlət görküsü,-
Xudafərin körpüsü!...

Onu salan babamız
Bax,belə deməmişdi.
Keçsin deyə,obamız,
Tikib düzəltməmişdi?!
Heç qocalmır hörgüsü!





O tay,bu taylı qardaş,
Arazı keçsin deyə.
Yoxsa ki,gözlərdə yaş,
Baxıb keçinsin deyə?!
Nədir bu həsrət,küsü?!

Nə qədər ki,zülüm var,
Ədalətsiz dünyada,
Nə qədər ki,ölüm var,
Ümüdim gedir bada,-
Azalınır onun süsü!...

*01.04.2012-ci il. Beyləqan şəhəri.*

## İMZAM

Mən kiməm, şeir yazam?-
Vəhy gəlir, yazır qələm!
Mübarək olsun qəzam,-
Məsuddan* aldım sələm!..

"-Pəltəklər Beyləqanda,
Şabranda şər qatdılar;
Taleyimi yadların
Ayağına atdılar!..

Ruhlarını Tanrımız
Yəqin ki, əff eyləməz!

* Məsud ibn Nəmdar-Məsud Nəmdar oğlu - X əsrin 2-ci yarsında Beyləqanda doğulub, yaşayıb (Nizami Gəncəvidən qabaq) doğma ana dilində-türkmən(azərbaycanlı) dilində poetik şeirləri və poema şəkilində tarixi- 2000 beytdən çox əsərləri,ərəbcə yazdığı hekayələri və farsca yazdığı məktubları bu günümüzə gəlib çıxmışdı; Böyük Britaniya Kral Əlyazmalar Fondunda saxlanmaqdadır! Şükürlər olsun ki, itib batmayıb! Qurayanlara və bizə çatdıranlara min rəhmət!!! XI əsrin 1-ci rübündə vəfat etmişdi, ölüm yeri dəqiq məlum deyil.

Türkmənlər hakim olar,
Onlara aman verməz!.."**

Beyləqanı o, yazdı;
Yazdı tarix daşına!
Demə,yazdığı azdı,-
Yazdıqları aşina!..

Yazdı millətin adın,
İzah etdi muradın;
Kişi ol,denən adın!-
Yoxsa ki,oldun qadın?!

Güldən-bülbüldən də yaz,
Dolan sünbüldən də yaz!
Elə yaz ki,oxunsun,
Şahi-düldüldən də yaz!..

Yazırsan hər nədən yaz,
Türkü yaddan çıxarma!
Təbrizdən, Dərbəndən yaz,
Türkmən addan çıxarma!..

O, adı belə yazdı,
Tarixi bilə yazdı!
Yazanda sən də düz yaz,
Demə ki, həkim azdı!...

Beyləqanın tarixin,
Yazdı olduğu kimi;
Bu gün mən də yazıram,
Heç qınama həkimi!

*04.12.2011-ci il. Beyləqan şəhəri.*

** Məsud ibn Nəmdarın-Həyatı haqqında poemasından.red.müəl.Ə.H





## İSTƏRƏM

Qaşlarının naxışı,
Cüt bəbəyimdən keçir.
Gözlərinin axışı,
Düz ürəyimdən keçir...

İçdin eşqin şərbətin,
Eşq əlindən hallı qız.
Öldürəcək həsrətin,
Dərdi şirin, ballı qız...

Niyə məni sevirsən?-
Mən ki, sənin deyiləm?!
Gör, heç məni deyirsən?-
Eşq əlindən veyiləm!

Axtarıb tapdım səni,
Bu nə taleh,nə yazı?!
Candan sevirsən məni,
Qurban olum ən azı!!!

Vücudun cənnət bağı,
Orda uymaq istərəm.
Abu-kövsər dodağın,-
Qırıb udmaq istərəm!..

*10.03.2012-ci il. Beyləqan şəhəri.*

## KAŞ ÜRƏKDƏN SEVƏ BİLƏ

Başqasının səadəti,
Olub gizli məhəbbətim.
Kimlər qoyub bu adəti,
Əksinədir təbiətim;-

Gərək məndə əməl edəm,
Kor-koruna bu adətə?!

Belə olub babam, dədəm,-
Qovuşublar səadətə?!

Bəlkə, mən də dönük çıxım,
Ürəyimin istəyinə?!
Mən də günah kimi baxım,
Qəlb evimin dəstəyinə?!

Kaş ki,sən də oxuyasan,
Kitabımın vərəqi çox,
Eşq odunda uyuyasan,
Bu yanmağın fərəhi çox...

Eşq atəşi yandıranı,
Cəhənnəmlər qorxuzamaz.
Özün mömün qandıranı,
Tanrı yıxar,qaldıramaz...

Eşqin köləsi olanlar,
Məhəbbətdə dönük çıxmaz;
Eşqə dönəsi olanlar,
Günəş olar,sönük çıxmaz!

Bahar kimi tumurçuqlar,
Hərəsi bir çiçək açar;
Ağ,qırmızı,sarımçıqlar,
Hərəsi bir mehir saçar...

Çəkər məni iç evinə,
Öz doğmaca evi bilər.
Qəlbim ağlar,gah sevinər,
Kaş ürəkdən sevə bilə...

*26.02.2013-cü il. Beyləqan şəhəri.*





## LONDONDA DÖRD TÜRK QALIB

*2012-ci il, 33-cü London yay olimpiadasında 55 kq-lıq güləşçilər arasında bütün medallara türk millətindən olan pəhlivanlar sahibləndilər! Lakin bu hadisə baş versə də gənc güləşçilər bunu duymadan, hərə öz bayrağına sarılaraq bu hadisənin sevincini doyunca yaşadılar. Mənsə, bu mən zərədən doymadım! Türkün "manqurt" balalarını həyacanla izlədim və bu şeir yarandı...*

Londonda dörd türk qalib,
Peters Modos*-hun qardaş,
Rövşən** gümüşü alıb,
Həmid*** qızılla bərdaş!

İlyan Semyonov kalmıq,
O da bürünc nişanlı.
Medalın tümün aldıq,
Türklər olubdu şanlı!

Böyük türk oğulları,
Olub qüvvət singəsi.
Ayrılsa da yolları,
Pöhrə verir tingəsi!

Həmid Soryan Ərdəbil,-
İranı təmsil edib,
Dörd ulduzdu elə bil,
Göylərdən yerə enib!

---

* Peters Modos-hun(macar)güləşçisi
** Rövşən Bayramov-Azərbaycan güləşçisi, finalda Həmidə bir xal hesabı ilə yenildi
*** Həmid-İranlı (Ərdəbilli) güləşçi-azəri türkü-Şah İsmayıl babamızın həmyerlisi-*red.müəl.Ə.H.*

İlya soyuq şimaldan,
Ötükənə yaxındı.
Başları qalmaqalda,
Rus əlinə baxandı...

İranlı da həmçinin,
Dili yoxdu danışa,
Ağlaram için-için,
Ürək lazım alışa!

Macar türkün hun qolu,
Atillanın övladı.
Türk də hunun bir yolu,
Xaçpərətlər ovladı!

Dayanıblar yan-yana,
Özlərindən xəbərsiz...
Kaş manqurtlar oyana,
Sevinərlər təhərsiz!!!

Rövşənin göz yaşları,
Heç yaraşmadı ona.
Türkün qopan daşları,
Bu gün zirvəyə qona!

Ətrafa bir sal nəzər,
Gözlərin kor olmasın!
Medallar türkü bəzər,
Heç nigaran qalma sən.

Ərdəbilli Həmid də,
Azərbaycan türküdür!
Rövşən ilə debütdə,
Qızıl onun kürküdür!..

Bir yerdə çox möhtəşəm,
Bayraqları cürbəcür.





Göz dəyməsin!-demişəm,
Türk toxumu cücərir!..

London olubdu nədən,
Türk-pəhlivan donunda.
Özləri hiss etmədən,
Birləşdilər sonunda!

Türkü- manqurt balalar,
Qol-qola dalanıblar.
Kaş ki,belə qalalar,
Deyərdim,oyanıblar!!!
İnşallah!

## LONDONDAN AÇILAN ZƏNG

*Bu gün 30 dekabr 2012-ci ildə Londondan bir zəng gəldi cib telefonuma, açdım, gözləmədiyim tanış bir səs məni sevindirdi; bu səs əslən Təbrizli, "Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri, həssas, gözəl insan, dostum Qulamrza Səbri Təbrizinin səsi idi; məni və ailəmizi qarşıdan gələn yeni il-2013-cü il münasibəti ilə təbrik edib xoş arzularını bildirirdi vəfalı dost!*

Tək-tənha evdəyəm,əlimdə qələm,-
Köhnə ili yola salmaq üzrəyəm...
Eşim*,övladlarım** uzaqda,nə qəm,
Mən də xalqım üçün burda gərəyəm.

Günorta üstüdür, saat-3-30,
Nömrəsiz zəng*** gəlib cib telfonuma,
Açıb telefonu dinməmiş hənuz,
Londondan tanış səs dolur fonuma...

---

* eşim-Ofeliya Moskvada,ordinator Aygül qızının yanında
** oğlum-Tural-FHN-də,Fərid-diş həkimi,Aytən ailəli Bakıda
*** xaricdən gələn zənglər nömrəsiz olur-*red.müəl.*

Qulamrza Səbrinin səsidi bu səs,
Böyüklük göstərib zəng edib hardan?!
Oturduğu yerdə gəlib bir həvəs?!-
Çalışır xalqını qutara dardan!..

Deyir,yeni ildə şərab içmərəm,
Burda vadar edir hər tos qaldıran.
İçmədim,ağrılar söndü bir kərəm,-
Məgər şərab imiş mənə saldıran!

Dedim, İsa-Məsih şərab içməyib,
Xaçpərəst zümrəsi özün aldaddır;
İsa şərab üçün candan keçməyib,
Onun zühurəti hələ daldadır!..

Onun doğum günü bizə də əziz,(!)
Şərabsız keçinmək daha düz olar;
İçib sərxoş olan qırmızı bəniz,
İsa-Məsih ilə zorda* üz olar!..

Quranda yazılıb İsanın taxtı,
Məryəmdən doğuşu,həyat kitabı.
Şərabla sınama kor-qara baxtı,
Tanrıdan insana gələn xitabı...

Biz şərab içmərik,bizimçün yasaq,
O yasaq dediyin sağlamlıq üçün!
Tanrı dediyinə gəl qulaq asaq,-
Demir ki,şərabla canızdan keçin?!
(Sora soruşarıq,yarandıq neçin?!)

Danışdıq Saradan**, Kərim*** baladan,
Leylanın**** balası iməkləyirmiş...

---

* Zor - qiyamət
** Sara-böyük qızı,professor- nevropatoloq-*red.müəl*
*** Kərim-sonuncu oğlu,subaydı-*red.müəl.*
**** balaca qızı-evdardı,əri italyandır-*red.müəl.*





Kərim nişanlanıb Gəncə-qaladan,
Qulamrza,arvadı**** əmәkliyimiş.

Kərimin məclisi gərək yaydadır,-
Yaşı ötüb keçir iş-güc içində.
Leylanın camalı,sankı,aydadır,-
Balaca körpəsi mələk biçimdə.

Məndən uşaqları soruşub durur,
-Aygül Moskvada həkim işləyir...
Deyirəm,Sara da bizimçün qürur,-
Genetika elmində çəkim istəyir!

Dünya ehtibarsız,həyat əmanət,
Bir də görüşümüz nə vaxtda qalır?..
Hansı insan oğlu verər zəmanət,-
Haçansa qismətim tabaqda qalır?!

...Ustadın zəngindən çox məmun oldum,
Bu yaşlı insana ömür dilədim;
Bu şeiri yazmağa bir zəmin oldu,-
Onun sağlığına burda gillədim*****...

*30.12.2012-ci il. Beyləqan şəhəri.*

## HƏSRƏT

*(Sevimli qarıcıma)*

Gecələrim gündüzə,
Çöhrəndə açılanda,
Məni gətirdin dizə,
Aydan nur saçılanda...

Heç olmasa yuxuma,
Dedim, bəlkə, gələrsən.

---

**** Süsanna xanım-ingilis qızı,vəfalı ömür-gün yoldaşı, red.Ə
***** gillədim-yəni,saf suyu-*red.müəl.*

Çox gəlirsən xoşuma,
Sən mənimçün nələrsən!

Qulağımda hənirtin,
Nəfəsini duyuram,
Şimşək kimi nəriltin,
Can evini yuyuram...

Ürəyimin atəşin,
Ömrümün qalanını,
Sənə vermişəm peşin.
Boş keçirmə anını,
Mən atdığın cüt şeşin!

İlan illi təbiət,
Bir ılıq yazla bitər;
Ona qalar əziyyət,
Həkim də bir gün itər...
*28.02.2013-cü il. Beyləqan şəhəri.*

## MƏNIM KÖVŞƏNİMƏ ÇOXDAN OD DÜŞÜB

*Az.tv-də şair dostum Vaqif Bəhmənlini dinlədikdən sonra.*

Vaqif Bəhmənlinin zəmisi kimi,
Mənim kövşənimə çoxdan od düşüb:
Zamanın gərdişi üzüb həkimi,
Şükür olsun,bəxtinə"Qızıl"ad düşüb!

Xalqımın dərdinə yanıb dözmüşəm,
Təbrizin,Kərkükün elin gəzmişəm,-
"Azərbaycanlı"nı çoxdan cözmüşəm,-
Xalqımın adına niyə"yad"düşüb?!

Hər yerdə dedilər"türməndi"xalqım,
Təbrizli,Kərküklü,Dərbəndli xalqım,
Ləhcəli,şivəli,dilbəndi xalqım,-
Bu qara bəxtinə şirin dad düşüb!..
*23.02.2013-cü il. Beyləqan şəhəri.*





## MƏRDİMAZAR XEYRİŞ KİŞİ

*Sovet dönəmində kolxoz quruculuğunun fəallarından biri, Xalacda ilk kolxoz sədri Xeyriş kişi pambıq məntəqəsi düzəltmək bəhanəsiylə bəy babalarımızın, nənələrimizin, ulularımızın, keçmişimizin uyuduğu Xalac kənd qəbirsanlığını əkdirib, düzəltdirmişdir! Deyilənə görə, kənd camaatının gözü qarşısında yayın günündə qəbirlərdən çıxan sumuklərin üstünə o qədər yağış yağdı ki, hər yeri su-sel apardı. 90 ildən sonra sovet hökuməti dağıldı, şükürlər olsun! Pambıq məntəqsi də dağıldı... İndi orada bayquşlar banlayır!!! Müstəqillik dövründə həmən yerdə xiyaban salınmalıdır!*

Səni qəbirdən çıxaram,
Sənə bir xeir iş edim?!
O dünyada üzü qaram,
Bu dünyada Xeyriş idin!..

Elə bildin ölməyəssən,
Qəbrstanlığı əkdirdin!
İndi özün neyniyyəsən,
Ölüb qəbr evinə girdin...

Əlibala Şirinovla,
Kəmfürsətlər əlbir oldu!
Binava kəndləri zorla,
Əllədilər, xəlbir oldu.

Güllələndi bəy babalar,
Qəbirləri talan oldu!
Kolxoz edildi obalar,-
Kişilik-zad yalan oldu!..

Kolxozçunun manqabaşı,
Briqadiri,sədri oldu.
Quyuya atdılar daşı,
Ay dolandı bədri oldu;-

Heç kim daşı çıxartmadı,
Axı,kim cürət edərdi?!
Lenin kəfəni yırtmadı,
Stalin gətirdi dərdi!!!

Otuz yeddinin günahı,
Düşdü rəhbərin adına!
Sürgünə gedənin ahı,
Kömək etmədi dadına...

Hitler də gəldi üstünə,
Qırmızılar dağılmadı!
Larisa* durdu qəstinə.
Elə vurdu,ayılmadı!.

Başqır qızı,o türk qızı,
Qan tökmədən yıxdı onu!
Ellərə gətirdi yazı,-
Geydi azadlıq-hürr donu!

Filankəsin Xeyrişlərin,
Gorları qoy çatlasın!
Müstəqillik,-zor işlərin, -
Üstündən keçib atlasın!!!

*Amin!Amin!Yüz min Amin!*
*11.02.2012-ci il.Beyləqan şəhəri.*

* Larisa Maqsudovna Qorbaçova (red.müəllif)





## OLMAYAQ QƏMİŞ

Hələ də yazmağa çox niyətim var,
Hərdən də qəlbimin sözü tutulur;
Bu yazıdan başqa daha nəyim var,
Bəzən də bulağın gözü tutulur...

Dünyada yazmayan nə çox"şair"var,-
Qəlbində fırtına,nitqi tutulu...
Ədib,mütəfəkkir,yazan sair var,
Sirri açılmamış qara qutulu!

Görən,bizdən sonra kimlər olacaq,
Kimlər söz deyəcək,kimlər yazacaq?
Deyilən,yazılan burda qalacaq,-
Gedənə insanlar qəbir qazacaq...

Deyəsən,bu şeiri filankəs yazıb,
Mənim də yazdığım elə bu imiş;
Bəzən də şeirlə yolunu azıb,-
Şeir sənətinə olmayaq qəmiş!

*24.02.2013-cü il. Beyləqan şəhəri.*

## "MİXALYLO"NUN XANIMI

*Xəstəm Kəmalə xanımı və əri-kəşfiyyatçı, cəsur zabit Raqif Şakir oğlu Güləhmədova həsr edirəm.*

"Mixaylo"nun xanımı.
Bizə təşrif buyurub;
Gizildədir canını,-
Beli sərpib,quruyub,
Bizı deyib yüyürüb.

Sərvi boylu sənəmdi,
Dodaqları piyalə.
Ətirli yasəməndi,
Hüseynova Kəmalə,
Hərdən dalır xəyalə...

Ərindən nigarandı
Yatmayıb səhərəcən.
Bel-buxunu arandı;-
Ağrı var yəhərəcən,
Yatmayıb səhərəcən!

Gücü,dəyanəti var,
Xəstə qapı süpürür;-
Qadın qənaəti var,
Tənbəlliyə tüpürür,
Xəstə qapı süpürür...

Balaları körpədi,
Qaraşirin balanın,
Əri zor görəvdədir,
Vallah,yoxdu yalanı,
Təhlükədi hər anı!!

Hər şeyə dözüb dürüb,
Salyanın gül balası.
Həyatı çözüb qurub,
Beyləqanda qalası,-
Qarabağı alası!.

Allah versin şəfasın,
Həkim əli şəfalı.
Əri görsün səfasın,
Ərinə çox vəfalı,-
Düşüncəli, qafalı...

*16.06.2012-ci il.*





## NADANLARA BORCLUYUQ

Mərdi-məzar axtarma,
Özü sənə rast gələr;
Çəkər əsəbi tarma,-
Zəhri-marı pas gələr!

Ha söyləsən nə fayda,
Qanmaz səni anlamaz,
Elimizdədi qayda,-
Qanmazı heç danlama!

Götürürsən sözünü,
Dil susub ürək yanır.
Öldürürsən özünü,-
Bədbəxt özündən sanır.

Biz nadana borcluyuq,
Çünki,yoxdu savadı;
Bu yollarda yolçuyuq,
Sülhün tərsi davadı!

Qanan qanmaza borclu,
Vay yarımçıq əlindən!
Kimsəyə atma suçu,-
İlişirsən dilindən...

Bundan ağır dərd olar,-
Qanan qanmaza borclu?!
Ürəyimə dərd dolar,-
Təmiz çıxanda suçlu!..

Yüz namərddən ötəri,
Küsmə gözəl dünyadan.
Həyat özü ötəri,-
Doymur göz-əl dünyadan!..

*26.01.2013-cü il. Beyləqan şəhəri.*

## NAMƏRD GÜLLƏSİ

Dəyirman üyüdür bizi,
Ağına-bozuna baxmır.
Daşdan silir düşən izi,
Ötən sular geri axmır...

Bulud kimi dolan könlüm,
Zərbələrə bir az da döz.
Qəlbi viran olan könlüm,
Bu qaranlıq işi də çöz!

Güllə atıldı haradan,
Nadan yeridi üstümə?!
Onu məhv edər Yaradan,
Tamaşa etsin tüstümə!

Düz söz deyib başsız gedəm.
Baxınazlar ki,göz yaşıma.
Susanda göz yaşım,didəm,-
Zəhər tökəndə aşıma!..

Bəziləri dəli deyir,
Düz sözün açması,-dəli?!
Öz sözüm başımı yeyir,-
Qızılbaş olub çün Əli!

Qızılbaş çətin düzələr,
İp incə yerdən üzülər...
İnsan şeytanın gəzələr,
Şeytanların adı bəlli!

Danos edir bilə-bilə,
Sonra da gəl üzr dilə?!
Çuğulları Allah silə,-
Tutula danışan dili!..

*24.06.2012-ci il. Beyləqan şəhəri.*





## İTƏR

*Bir anlığa Məhəmməd Füzuli*
*babamla baş-başa...*

"Gözəllər eşqinə düşdün,
Nə çox cövrü-cəva gördün?!
O günü görməsin kafər,
Ki,sən bəxti-qara gördün..."
(Məhəmməd Füzuli,türkmən)

Bəli,baba,mən də sevdim,
Sənin kimi,özüm kimi;
Cavanlıqda sanki,divdim,
Məcnunsayaq dözüm kimi!

Gözüm qaldı gözəllərin
Duruşunda, naxışında;
Sevgi dolu baxışların
Ürəyimə axışında...

Fəqət,lal oldu dillərim,
Dilim susdu,gözüm yandı.
Sevgiylə keçdi illərim,
Yaşlaşdıqca dözüm yandı...

Saçlarıma dən düşüncə,
Gözlərimin parıltısı,
Can evim yeyib şişincə,
Ürəyimin zarıltısı...

Daha nələr,nələr gördüm,
Yenə ölmədi məhəbbət;
Sevgi dolu çələng hördüm,
Bir gün qoldan tutar,əlbət...

Fəqət,yenə yanılmışam,
Sənin kimi,özüm kimi;
Bəzən filan sanılmışam,
Sevgi məst edən içimi...

Nələr gördüm,sormayasan,
Bunları özün yaşadın;
Məhəbbətdə bir mayasan,
Eşqi bu günə daşıdın.

Sənə baxıb mən də sevdim,
Səndən,özümdən xəbərsiz...
Allah qurduğu bir evdim,
Baxdım,hər şey bərabərsiz...
*10.03.2013-cü il. Beyləqan şəhəri.*

## NİGAR

*Həkim kabnetimə eynəkli bir xanım girdi, telfon-filan soruşdu, Qəribə məsumiyyət, sanki, öz qanım girdi,qəlb evimə doluşdu...*

Ürəyimə girmisən,
Ora dalmısan, Nigar,
Müəmmasan, sirmisən,
Qəlbimi etdin şikar?!

Baxdım,baxdım üzünə,
Eynəkli cavan pəri;
Sordum,dedi düzünə,-
Çoxdan atıbdı əri...

Armudun yaxşısını
Çöldə çaqqal yeyərmiş,
Eşqin yaz yağışını,
Qınasan da göyərmiş...





Elə bil göydən enib,
Niyə çıxdın aşıma?!
Məhəbbət donu geyib,-
Acımadın yaşıma?!

Beyləqan Nigarısan,
Bayıl,Bakı mənzilin;
Qəlbimin yarasısan,-
Yoxdu sənin bənzərin.

Şəfqətli əllərinlə
Özün sarı yaramı,
Xoşbəxt ollam səninlə,
Demə,həkim yaramır...

Əlillik dərəcəsin
Alıb getmisən haçan?
Eşqimin səcərəsin,
Qırıb Bakıya qaçan!..
*12.04.2012-ci il. Beyləqan şəhəri.*

## QISQANCLIQ

*Sevgili qarıcıma*

Səndə üç əmanətim,
Görən,əl dəyməyib ki?!
Cənnətdəki nemətim,
Bir kimsə yeməyib ki?!

Yuxuma da girmisən,
Əcəb dadlı yuxuydu...
Sən röyasan,sirmisən,
Cənnət dolu qoxuydu...

Elə məst olmuşdum ki,
Birisi peyda oldu?!

Sən elə dolmuşdun ki,
Dedin ki, fayda oldu?!

Yaman qısqandım səni,
Bu gerçəkmi,yuxumu?!
Bir həftə andım səni,
Otkaz etdim çoxunu!

Zəng etdim Moskvaya;
-Gözəl qarım,necəsən?
-Ruhum dönübdü aya,
-Sən də candan keçəsən.

Yuxudan kal oyanmış,
Mənim vəfalı qarım:-
-Hər yan qara boyanmış,
-İndi göydə ay, yarım?!

Yəgin etdim yuxuymuş,
Bəzən yuxum çin çıxir;
Birdən artıq çoxuymuş,
Kişilər evlər yıxır!..

İndi gördüm qarıcım,
Nələr çəkmiş əlimdəm?!
Vicdan olsun yarğıcım*,
Od tökməyim dilimdəm!..

Bir az mehriban olam,
Sevgimiz xətirinə!
Təzə eşqlər yazmayam,
Ömrümün dəftərinə!..
*10.03.2013-cü il. Beyləqan şəhəri.*

* yarğıc – türkcə – prokuror (red. müəllif)





## ŞAİR

Halım saz olanda ilhamım qaçır,
Nədən yazdığımı bəzən çaşıram;
Dərdli günlərimdə dərdlər dil açır,
Elə yazıram ki,həddi aşıram!..

Şair əziyyətlə alır çörəyi,
Onun qədərinə yazılan yazı?!
Kövrək,həssas olur şair ürəyi,
Onun xətirinə dəymə,ən azı!..

Bulanıq oluram Araz suyutək,
Beynimdən axışan sözüm durulmur.
Şeir dahisinin sadə huyutək,
Şah misralı şeirim niyə qurulmur?!

Yüz il zülüm çəksəm yenə qəm yeməm,
Bir həssas ürəkdə abidə qursam;
Bu gerçək dünyaya fani də deməm,-
Şeilərim ilə ayaqda dursam!..

Dil açıb kükrəyən haqq aşığının
Sədəfli sazının simi ağladır...
Qızılbaş zirvədən lap aşağıdır.
Kimisin güldürür,kimin ağladır...
*05.10.2013-cü il.*

## QALAR

Bu dünya,-hamı yalanlar,
Zəhmətdi bizə qalanlar;
Rəhmətlik adın alanlar,
Olacaq yada salanlar!..

Həvəs nədir?Öz yaşamın
Ömrünün sonuna qədər;
Kükrəyib coşub daşamın,
Ürəkdə qanına qədər!

Bir hücrəydin ikiləşdin,
Uşaq olub kəkələşdin,
Cavan olub yekələşdin,
Apardı yoluna qədər!..

Yaşamın şirin ləzzətin,
Yedi bir-birinin ətin!
Qaldı daş üstə surətin,
Ömrümüz elə bu qədər?!

Qocalıb itdin dünyadan,
Bu torpaqdı bizi udan;
Sanma,insanı ovudan,
Dünya varı,yoxu hədər!..

Unutma yurdun elini,
Fələk sındırar belini;
Unutma ana dilini,
Tısbağa qınına qədər...

Qışı,yazı,yay,payızı,-
Bir ildir,-ömürdən yazı...
Yay istisi,qış ayazı,-
Biçilib donuna qədər.

Yadıgardı,Səməd demiş,-
Onun da ömrünü yemiş;
Deyəcəklər getdi Qəmiş,-
Qalar sözlərində kədər!..





Qızılbaş,səndən öncəsi,
Gəlib gedib kötücəsi...
Nə gündüzü,nə gecəsi,-
Dərdinin buzun əridər!!!
*06.10.2013-cü il.*

## ÜRƏK SAATIMIZ

*Hər şeyin sonu var,zamanın necə?!*

Ürək saatımız nə vaxt duracaq,-
Sonsuza işləyən yol saatımız?!
Biri yarı yolda,birisə,ancaq,-
Yola davam edir son həyatımız...

Biri sonsuz deyir,biri qiyamət(!),
Allah varsa əgər sonsuzluq da var;
Deyir,bir gün də var,-adı dəyanət,
Dəyanət günündə yolsuzluq da var?!

Ürək saatımımız hələ işləsin,
Saat durdurmağın vaxtı deyildi!
Zınqrovlu səsi"tıp-tıp"işləsin,-
Nədən,xoş bəxtimin taxtı əyildi...

Nə vaxt düzələcək,onu bilən yox,
Biz dünya peşində,dünya işində;
Həyat urzusunu özün dilən,yığ,-
Yığdığın əynində,ya da dişində.

Münasib bir yaşam,yaşam üçün şərt,
Hamının istəyi budur dünyada...
Fəqət,yaşam özü olursa qəm,dərd,-
Saatın səbri çox,dayansın ya da!
*25.10.2013-cü il.*

## BƏLKƏ DƏYİŞDİ...

Beyləqanın"beş"manatlıq həkimi,
Burdakı həkimin qiyməti*"beş"dir;
Nə hirslən,nə də ki,qına heç kimi,
Bakıda olanın qisməti şeşdir!..

Özün qismətini burda aradın,
Özün də bilmədən nəyə aldandın?!
Bəxtinə nə düşdü,necə talandın,-
Açılmaq yerinə ürəyin şişdi!..

Ölüm-itim dünyasında pul ara,-
Acizlərin röyasındakı para;
Kimini bu dünya çəkəndə dara,-
Kiminin bəxtinə cənnət-behişdi...

Mənim də bəxtimə bu rayon düşdü,
Həkim işlədikcə,halım dəyişdi;
Çarəsiz dərdlərdən bişdi ürəyim,-
Allah da mənimlə deyən əyişdi!..

Yaxşı yaşamalı ikən amanda,-
Pul sarıdan necə qaldım damanda,
Sel məni aparır,əlim samanda,
Soruşdum fələkdən:-bu necə işdi?!

Görürəm,Bakıda gözəldi yaşam,
Fikrim var ki,bu yerdən uzaqlaşam;
Bunun üçün nəfsim ilə savaşam,-
Bəlkə,qaraçuxam tilsimi deşdi!

Pankreasım**şəkər ilə əlləşir,
Təbiətim,əsəblərim sərtləşir;

* xəstə baxış 5manatdır,-red.Ə.H.
** pankreas,-mədəaltı vəzisi,qanda şəkəri təmzimləyir,-red.Ə.H.





Qocaldıqca Qızılbaş da mərdləşir,-
Əlinə pul keçsə,bəlkə,dəyişdi...
*26.10.2013-cü il.*

## XƏYALIMDAN KEÇİRDİM

İndi xəyalımdan keçirdim səni,
Yel vurdu,yatdığım qapı açıldı;
Dərin xəyalımda içirdim səni,-
Elə bil,ruhuma sevgi saçırdı...

Səni arzuladım,sən gəlməz oldun,
Gələ də bilməzsən,bunu bilirəm.
Qəlbimdən keçəni heç bilməz oldun,
Qeyb olmuş ruhunu indi dilərəm!

Ruhlar vardı,yoxdu,onu kım bilir,
Onu bilirəm ki,sən yoxsan burda.
Ruhların varlığın bircə din bilir,-
Deyir,bəzən,ruhlar qalırlar darda...

Kaş ki,rastlaşaydı ruhun mənimlə,
Girəydi içimə mənim olaydı;
Baş-başa olaydıq yenə səninlə,
Mən ilə sən,dünya elə qalaydı...

Yenə qayğıların bəlkə bitməyib,
Yenə uşaqları fikirləşirsən...
Ruhun sağdı,deyə,adın itməyib,
Yenə də qəlbimdə ikiləşirsən...
*25.08.2013-cü il.*

## TƏRS DEYƏ

*"Özünü həkim sənətinə,insanların*
*sağlamlığına,səhhətinə həsr edənlər*
*ən qiymətli insanlardır"*
*Heydər Əliyev.*

Həkimlik işi almaq
Biliyin qismətidir;
Bu işdə kişi olmaq,
İnsanın ismətidir!

Kişi ol,ismətli ol,-
Cibin boş,qarnın acsa,
Vicdanlı hizmətli ol,
Hirsindən səbrin daşsa.

Qiyməti neçə olar,-
"Qiymətli insanların"?!
Maaş yüz əlli dollar,
Dəyəri"pasanların"?!

Çətin,şərəfli peşə,-
Çətinin qiyməti yox!
Bir ay gedirsən işə,
Yeməyə neymətin yox?!

Yenə əlin,cibin boş,
Göz tık şikəst xəstəyə?!
Allaha da gedər xoş,-
Bu şablonu tərs deyə!..

Bu"qiymətli insanlar"
Bizdə ucuzlaşıblar;
Yetişib elə anlar,
Yaman kasıblaşıblar!..
*24.07.2013-cü il.*





## NƏNƏLƏR VƏ NƏVƏLƏR

Dövlətdə dəvədir,övladda nəvə,
Sarıyar dörd yanın şirin nəvələr;
Bakıdan axışıb gələndə evə,
Başını götürüb qaçır nənələr...

Gələndə şad olur cəmi bir həfdə,
Sonra hay-küy səsi qarışır evə;
Qırılıb tökülür pəncərə,cəftə,
Hərəsi çevrilir,sanki,bir devə!

Zalpına,zırpına dözməli nənə,
Nəvələr nənənin ərköyünləri.
Belə gəlib keçib,bu bir ənənə,-
Hələ qabaqdadır toy-düyünləri...

Ən yaxşı tikəsin qıyar onlara,
Əvəz gözləməzlər qoca nənələr;
Nəvələr gül açıb dönəndə yara,
Cavan yaşlarına bir də dönələr...
*3-5.08.2013-cü il.*

## SİBİR

*Rusların buzlu ürəyi*

*Rusiyanın paytaxtı Moskva şəhərinin Qərbi Brulyova rayonunda baş verən məlum hadidisədən sonra; bir rusun ölümünə görə, -"Qaralar pisdir, Rusiyadan çıxsın!"-şuarı səsləndirənlər, bilməlidirlər ki, Böyük Vətən müharibəsində faşizm üzərində Qələbəni Bakı nefti və 416-cı kimi onlarca diviziyalar təmin etmişdi!O vaxtlarda da ruslar"yoldaşı"deyərək, rus dilini bilməyən azərbaycanlıları arxadan vururdular, elə indiki kimi!!! Halbuki, Rusiyanın Moskva vilayətində ... çayında boğulan üç rus qızını xilas edərək, özü boğulub ölən azərbaycanlı balası, əslən Lənkaranlı Rusiya yetgililəri və mətbuatı susdu və indi də susur!.. Bir sağ ola!-nə sözünüz?! Çıxsın gözünüz!!*

Kazandan düz Uzaq Şərqə,
Neft-qaz ölkəsidir Sibir;
Türklər dözümlüdür dərdə,
Rus bayraqlı türkə səbir!!!

Udmurdlardan Kaxasyaya,
Uzaq Şərqdən Alyaskaya,
Saysan, gəlməz türklər saya, -
At üstündə bozqurd, bəbir!. .

Rusiyanın buz ürəyi,
Tayqa meşəsi dirəyi;
Salmanov* oldu gərəyi, -
Yeraltı sərvəti kəbir!**

Kremilə xidmət edir,
Onun diktəsiylə gedir;
Bəxtinə yazılan nədir, -
Türklərə rus olub sədir?!

"Qızıl Orda"sı var idi,
Orxan-Yenisey yar idi!
Varlı ruslar boyar idi, -
Monqol-tatar üçün xəmir!!!

Əmir Teymurun hücümü***, -
Qoca türkün əlacımı?!
Toxtamış verdi tacımı, -
Ondan qalmadı bir səmir!..

* Sosialist əməyi qəhrəmanı, neftçi, -Fərman Salmanov nəzərdə tutulur
** kəbir, ərəbcə, -böyük deməkdir, -red. mən
*** Əmir Teymur Rusiyanı 300 ildən artıq bir vaxtda əsarətdə saxlamış monqol-tatarların axırıncı əmiri Toxtamış xanı məğlub etməklə ruslara azadlıq gətirdi, özü də bilmədən! Çox təəssüf!-red. Ə. H.





O getdi, Qroznu**** gəldi,
Kazan qalasını dəldi;*****
Şərəfimi yerə sərdi, -
Kilsə****** tikdi, üstü dəmir!

"Rasiya do Kazana"*******deyən,
Türk millətin sən də bəyən!
Yadda saxla, səni əyən, -
Türkün"neyin"sən də gəmir!..

Nastaljidi bizi üzən,
Türkün torpağında gəzən;
Türkün heysiyyatın əzən, -
Ruslar olub türkə əmir?!
*21.10.2013-cü il.*

## ORUCLUQ DA BIR QISMƏTDIR

Ramazanda oruc tutum,
Təmizliyə çıxmaq üçün;
Ehtirası,nəfsi uddum,-
Bədənimi sıxmaq üçün!

Gördüm ki,çox xeyri olur,
Şəkərim düşüb aşağı!
Yeməmiş nəfsim də doyur,
Tərk etdim qazan,qaşığı...

Sifdə başağrısı oldu,
Bildim ki,şəkərim düşüb;

**** İvan Qroznu nəzərdə tutulur, -red. Ə.
***** Kazanın axırıncı xanı Məhəmməd xanın məğlub edilməsi, -red. Ə.
****** Kremlin yanındakı 6 qübəli kilsə Kazanın alınmasına görə tikilib, -red.
******* 2006-cı ildə telemostda Vladimir Putin demişdi, şeirə bax, red. Ə.

Gözümə kor yuxu dolur,
Yorğunluqdan başın şişib!

Bir həftə keçmiş düzəlir,
Sanki,dünyanı yemisən!
Göbəyin,çəkin üzülür,
Suyu qurumuş demisən...

Ürəyin heç su istəmir,
Allah səbir verir sənə;
Bədənin olur bir dəmir,-
Qismət olmaz hər yetənə!

Orucluq da bir qismətdir,
Hər il kimə qismət ola?!
Pəhriz,iradə,ismətdir,-
Allah ilə kəsmət ola!..

Allah ömür versə mənə,
Hər il oruc tutmalıyam!
İslamda gözəl ənənə,-
Vərdişi unutmalıyam!!!
(Ramazanın 14-cü günü.)
*23.07.2013-cü il.*





# MAHNILAR

## SƏNSİZ

Bu gecəm də keçdi sənsiz,
Bilirəm ki,sən də tənha;
Sən də orda qaldın mənsiz,
Sən də tənha,mən də tənha...

Niyə belə yazılıbdı,
Sənin,mənim qədərimiz?!
Bir vüsal da azalıbdı,-
Çoxalacaq kədərimiz...

(nəqarət-1-ci kuplet)

Belə olmaz,canım,gözüm,
İnsaf adlı bir şey də var.
Səndə dözüm,məndə dözüm,
Məst olduğun bir meymi var?!
(nəqarət,1-ci kuplet)

Məsajında gileyləndin,
-Sən də bərəst-natərəstsən?!
Xəstə canımla əyləndin,
Öl,ay canım,nətəhərsən?..

Həyatdan incik gözəlim,
Səni dərddən kaş qurtaram;
O da bu əlimdə deyil,-
Qəlbim olur taram-taram...

Səndən ötrü inildəyir,
Zabul üstə tar-kamantək...

Həsrət vüsalı izləyir,-
Gecə gündüzü qovantək!

Kaş gecəmin bəxt ulduzu,
Nur saçaydı ürəyinə,
Düşünəydi mən yalqızı,
Yarıyaydım gərəyinə...
(İnşallah qovuşarıq!)
*12.03.2013-cü il. Beyləqan şəhəri.*

## QƏLBİMƏ QONACAQSAN

Səni quş qayıracam,
Uçacaq,uçacaqsan;
Səni yerdən ayıracam.
Qəlbimə qonacaqsan!..

Qəlbimin qəfəsində,
İsinib hey yatarsan,
İlinib nəfəsimdə,
İstəməsən,atarsan...

(nəqarət,1-ci kuplet)

İsinməsən,ilanım,
Mən də sənin ilanın.
Yazı,yayı analım,
Bəlkə,çıxdı yalanın!

Eşqlə məni qucaqla,-
İlantək sarılaraq;
Tapmasan,gəz,çıraqla,-
Ürəyin darılaraq!
(Qəlbimə qonacaqsan!)
*11.03.2013-cü il. Beyləqan şəhəri.*





## SƏN MƏNİ ÇÖZƏÇƏKSƏN

Mən sənə gərəyimi
Verəndə dözəcəksən?!
Sən,mənim ürəyimi,
Ancaq sən çözəcəksən!

Bu sirli sevgimizi,
Ancaq sən biləcəksən:
O,yazıb ikimizi,
Sən,bizi siləcəksən?!

(nəqarət,1-ci kuplet)

Buna gücün yetərmi?-
Yetərsə,eşqimə gəl!
Sənlə ömür bitərmi,
Sənsiz ömür kəm-hədər...
*11.03.2013-cü il. Beyləqan şəhəri.*

*Osmanlı üstə*
*Gözəl şeysən,yaşın hənuz on doqquz,*
*Məhəbbət donu geymisən,bu gün var,*
*Sabah yoxuz...*
Bu gün ətir saçırsan,
mən ətrinə qaçıram.
Ətrafa nur saçırsan,
İşığına uçuram,
Əlacım yox,naçaram...

Qanadlarım yansa da
Vüsalın necə xoşdu.
El məni danlasa da,
Neyləyim,qanım coşdu,
Sənsiz həyatım boşdu...

Bu boşluqlar içində
Saman çöpü aradım,
Səni tapdım içimdə,
Öpüb saçın daradım,
İstədim səndən dadın...

Ayıldım ki,xəyaldı,
İçim,çölüm ayıldı.
Səsim-ünüm yayıldı,
Gülüm,sənə yaradım,-
Qızılbaş oldu adım.
*04.09.2012-ci il. Beyləqan şəhəri.*

## SON SÖZ

İçindən baş çıxanın
Gözündən yaş çıxarmış.
Öz evini yıxanı
Özgə niyə yıxarmış?!

Haqqı tamam unudub,
Dünyaya baxsın axmaq.
İpləri sağlam tutub,
Axışına buraxmaq...

Səbirlə gördüyün iş,
Zamanla əskik gəlir.
Çox yaşayıb az dəyiş,
Bildiyin üskük gəlir!

Onda artıq gec olur,
Keçənə də güzəştmiş!
Gödək adam bic olur,-
Onu şeytan düzəltmiş!..

Tanrının düzəltdiyi
Çeşid-çeşid adamlar.





İnsanın tərs etdiyin
Zaman özü yalanlar!

İnsanın ürəyində,
Dünya qədər yalan var!
Bəs dəyəri nəyində?-
Müsbət rəy də alan var;-

Onun da yüzdə biri.-
Tərəzidir el gözü!
Az danış,bir az kiri,
O deyəcək son sözü!..
*07.02.2012-ci il. Beyləqan şəhəri.*

## SORĞU

Səndə üç əmanətim,
Görən, əl dəyməyib ki?!
Cənnətdəki nemətim,
Bir kimsə yeməyib ki?!

Yuxuma da girmirsən,
Bir soruşam,hardasan?!
Gözlərimdə çimirsən,
Yuxum gəlmir,dardasan?!

Gecələrim gündüzə,
Çöhrəndə açılanda,
Hərdən gəlirdin bizə,
Aydan nur saçılanda...

İndi niyə gəlmirsən?
Bir də çətin gələrsən...
Axı,özün bilirsən,
Sən mənimçün nələrsən...

Qulağımda hənirtin,
Nəfəsini duyuram.
Şimşək kimi nəriltin,
Leysanında yuyuram.-

Ürəyimin atəşin!
Ömrümün qalanını,
Sənə vermiçəm peşin,
Boş keçirmə anını,
Həyatımın çüt şeşin!..

*27.07.2012-ci il. Beyləqan şəhəri.*

## PİYALƏ GÖZLƏR

Aman, baxışların yandırdı məni,
Elə xumar-xumar baxma,gözəlim.
Piyalə gözlərin canıma qənim,
Qaymaq dodaqları əmib düzəlim...

Sən də ürəyində məni sevirsən,
Gözünün nurundan bunu anladım.
-Bəs harda qalmışdın,sandım,deyirsən,-
Piyalə gözlərin məni danladı...

Piyalə gözlərin nələr söyləyir,-
Onu mən bilirəm,bir də ürəyin;
O yaz nəfəsinlə eşqim göyərir,
Cənnət ağuşunda olar gərəyim...

Heyranam möhtəşəm məhəbbətinə,
Bu ülvü məhəbbət sönən deyilmiş;
Mənim səndən ayrı qəbahətimə,-
Şahidi olsan da dönən deyilmiş!..

Piyalə gözlərə olası məslim,-
Dünyanın ən xoşbəxt qulu olmuşam.





Sənin eşqin ilə yoğrulub əslim,
Sənin eşqin ilə Ulu olmuşam!

*22.02.2013-cü il. Beyləqan şəhəri.*

## BİR TÜRK MAHNISINDA

Daşlara,yollara yazdım adını,
Gəl,yorma zavallı eşq adamını.
Gəlmədin ki,dadım eşqin dadını,
Artırdın,almadın,gülüm, qadamı.

Ümanlar,dənizlər olsa yatağım,
Yenə də soyutmaz bu eşqin məni.
Sənə yaramadı cavanlıq çağım,
Ahıllıq çağlarım ovutmaz səni.

Eşqin tükənməzdi,həvəsin aləm,
Səninlə bu yola düşmək də ayıb.
Eşqini yazmağa tükəndi qələm,
Qızılbaşın özü olubdu qayıb...

*05.09.2012-ci il. Beyləqan şəhəri.*

# ÖMRÜMÜN FƏSİLLƏRİ

## YER NƏ VAXT İTƏCƏKDİR

Ramazanda istidə
Qonşu beton tökürdü.
Bu istidə xəstə də
Gün altında çökürdü...

Soyucudan sərin su,
Stəkanda çay süzdüm.
-Ramazanda gəlin su,
Ürəyimi tay üzdüm.

Oruç tutanı hanı,
İşlədilər o ki var.
İçində yox qananı,
Gəlsin cibə təki var...

Oruçlukda toy etmir,
Yaxşı ehsan yeyilir.
Cümə namaza getmir,
Müsəlmalıq,-deyilir?!

Ramazanda nə xoşdu,
Qonşuya əl tutmağa,
Qızılbaş da dəyişdi,
Keçmişi unutmağa...

Sübh tezdən geciyədək,
Beton töküb işlədi.
Evi gələcəyitək,
Tikib için dişlədi...





Yox yerdən villa tikdi,
Dişiylə-dırnağıyla;
Fəqət,özün yer əkdi,
Ərkiylə,qınağıyla...

Neçə ramazan ötüb,
Yenə də ötəcəkdir...
Bizləri torpaq öpdü,
Yenə də öpəcəkdir.

Yeni villalar tikib,
Yenə də tikəcəkdir,
Beynimi deşir fikir,
Yer nə vaxt tikəcəkdir?!

*12.08.2012-ci il. Beyləqan şəhəri.*

## YAZDIĞIMI VER MƏNƏ

Çox mərtəbə ev tikib,
"Prado","Cip" alanlar...
O,kasıba göz tikib,-
Bəxş elədi Quranı!!!

Sanma,varlı olmaqla,
Çox şeyi qazanmısan?!
Özünü yırt,ya danla,-
O dünyada yanmısan!..

Varlı ola bilərsən;
Bu dünya sənin olsun!
Göydən ulduz da dərsən,-
O,sənlə çətin olsun...

O bilir hara gəlir,
Varın başından aşa..
Ağır söz yara dəlir,
Səni demədim,haşa!..

Varınla çox öyünmə,
Fironlar da öyünüb!
Puldan ötrü söyünmə,
Şeytan pulla döyünüb...

Bir kasıb mağaraya,
Məhəmmədə(s.a.s.)endi O!
Mələk girdi araya;-
Oxu!-deyib,dindi O!..

Sən ondan artıqmısan,
Ay Allahın bədbəxti?!
Dünyadan nə almısan?-
Bir də sına kor bəxti!..

Var-dövlət istəmirəm,
Yazdığımı ver mənə!
Mən qulun,Sən əmirim,
Üzünü çevir mənə!...
*02.11.2011-ci il. Beyləqan.*

## QAYTAR MƏNİM GƏNCLİYİMİ

*Təranə Nurun "Unut" şeirinə*

Hər gözələ şeir yazdım,
Gözəllik aşiqi kimi.
Demə,düz yolumu azdım,
Lağ yerə qoyma həkimi...

Ancaq sən ayrı xanımsan,
İçimi aydın görmüsən.
Kimi özünkü sanımısan,-
Şeirinlə kimə gülmüsən?!

Möhsümü isti ilanam,-
İlan ilində doğuldum.





Bu gün var,səhər yalanam,-
Mən də şimşəktək oğuldum!

Təsadüfə inanıram,
Çünkü səbəb həqiqətim,
İçim-içimə yanıram,-
Yanıb kül olan taqətim...

Qəlbim də qabığım kimi,
Yanıb,yanıb külə dönür,
Tükənən çırağım kimi,-
Eşq atəşim nə tez sönür?!

Ürəyimi nurun yaxdı,
Qorun düşdü dincliyimə,
Ürəyimə nurun axdı,
Can qayıtdı gəncliyinə...

Yayıldın bütün canıma,
Ürəyimin qanı kimi,
Nə olar gəlsən yanıma,-
Qaytarasan gəncliyimi!

Oyat mənim gəncliyimi,
Daş yuxudan oyanantək;
Haram elə dincliyimi,
Acılara dayanantək!..

Sənin kimi bir gözələ,
"Gülüm"deyən dil qurusun.
Gül solur dönür xəzələ,-
Sənsə günəşin nurusun!..
*10.02.2013-cü il. Beyləqan şəhəri.*

## ƏGƏR ANLASAN

*Nurənə Nurun "Məni anlasa..." şeirinə*
"...**bir şair anlaya bilər.**"

Yaxşı anlayıram səni qəşəng qız,
Qəlbin fırtınadı,mənsə sahilin.
Təlatümlü qəlbin partlayar yalqız,
Mən sənin qəlbini duyan aqilin...

Günahı axtarma içim,içində,
Adəmdən, Həvvadan xəlq olmuşuq biz.
Haçansa dünyadan yalqız köçəndə,
Onda biləcəyik qərq olmuşuq biz...

Xoşbəxtliyi duyub yaşamaq üçün,-
Qürür kölgəsində qurban gedəsən!
Vüsalla sevgini daşımaq üçün,
Canı bu yollarda sərvan edəsən...

Onda bilərəm ki,mərd və qəşəngsən,
Çətin sualların cavabı kimdə?
Nadana nə qədər rişğənd edəsən,
Yenə də çözümü Əli həkimdə...

*11.02.2013-cü il. Beyləqan şəhəri.*

## SEYİDİN OCAĞINDA

*25 noyabr 2011-ci il cümə günü, Bilasuvarlı dostlarım, Beydili kəndindən-Fərid və Zəhmədabad kəndindən Hüseynlə birlikdə Ağakərim ağanın (Milli Qəhrəman Mübariz İbrahimovun atası) ocağını ziyarət etdim; anası-Şamama bacı üzə çıxmadı... Soruşmağa üzüm gəlmədi... Ağır, dindar ailədir, nə deyə bilərdim?! Başsağlığı verdim; kitabı açıb "Qurbanlığın mübarək" şeirini oxudum... Sən demə, sonradan Hüseyn danışırdı ki, Ağakərim kişi sən oxuduqca haidan-hala düşürmüş, qeyri-ixtiyarı, gözlərindən yaş gilələnirmiş... Odur ki, şeiri qutarıb, "Qəhrəmanlıq abidəsi"*





*poemasını başlamaq istəyirdim ki, Ağakərim kişi:-"onu oxuma, bəsdi, ciyərim yandı! Özüm səhər oxuyaram, sağ ol, əlivə sağlıq, zəhmət çəkmisiniz! "-dedi.Mən qüsürunu anlayıb, oxumadım, anladım ki, qarşımda oğul dağı görmüş şəhid atası durmuşdu və mən oğlunun faciəsini oxuduqca, onun ürəyi dağlanır.*

*-Mən oğlumu bu Vətənə qurban vermişəm! Onun nəşin almasam da heç vecimə də deyildi, inanın!*

*Nə isə, bir anlaşılmazlıq var; mən oğlumun cənazəsinə qurban-filan deməmişəm! (deyəndə, mən təəcüb elədim! Televizorda şəxsən özüm, Ağakərim ağanın, ya da anasının dilindən eşitmişdim... )*

*Zatən, özü də belə düşünürdü! O, özünü buna hazırlamışdı; deyirdi ki, dünya çempiyanatına uşaq yığanda, məndən zəifləri götürdülər, mən qaldım kənarda, nə pulum, nə də adamım yoxuydu ki, məni də yarışa aparsınlar! Odur ki, daxili qoşunda əlavə xidmətə gedəsi olur... Bu bir talehdir; acılı, şirinli bir ömür! Qəhrəman ömürü! Mübariz ömürü! Onu yığmaya götürməyən həmən məşqiçi Mübarizin kəsilən dırnağına dəyməz!!! Ruhu şad olsun!*

Seyidin ocağına getdim kitabı verim,-
Mübarizin haqqında yazdığım bir kitabı;
Getdim ki,ocağına yanan qəlbimi sərim,
Qəlbim alışıb yandı,üzülüb getdi tabı...

Seyidin həyatinə biz çatanda gecəydi,
Dedilər məsciddədir,kaş vaxtımız keçəydi...
Axır ki,gəlib çıxdı,dəvət elədi bizi,-
Kədər qəlbimi sıxdı,özlədim Mübarizi!

O,yox idi ocaqda,bəlkə də ruhu burda,
Ağakərim ayaqda,gözləri də çuxurda...
Anası üzə çıxmır,içəri otaqdadır,
Seyid üzümə baxmır,üzü qaş-qabaqlıdır...

Açıram kitabımı;başsağlığı verirəm,
Deyirəm öz adımı,iltifata girirəm..
"Qurbanlığın mübarək"şeiri ilə başladım,
Ağlamayaydım gərək,-gözlərimi yaşladım!..

Erəmini daşladım,Fəridlə,Mübarizin,
Adıyla yavaşladım,seyidin-çarəsizin,
Bağrı çatlayır gördüm,dedi:-qalsın oxuma,-
Özüm səhər oxuyam,zəhər qatdın yuxuma...

-Yaralarım göynədi,qövr etdi,gəldi cana,
-Bu sehir,yoxsa,nədi,ürəyim döndü qana?!
Çox mütəəssir oldum,kaş ki,oxumayaydın,
Ağakərim kişi doldu,gördüm gözlərin aydın;

Göy gözlər ağlayırdı od-alovu içində,
Oğlunu arayırdı,-tələşlı bir biçimdə!
Poemanın içində uşaqlığı,gəncliyi,
Yazılıb düz biçimdə indiki ruh dincliyi...

Kitabı yerə qoyub leysanımı qurutdum,
Düşmənin gözün oyub,qəhərimi də uddum.
Baxdım məğrur ataya,sandım,yuxu görürəm,
Düşmüşdüm bir xətaya;oxuduqca,ölürəm...

Şeirimi oxuduqca,haldan-hala düşürmüş,
Ara verdim azacıq,sən demə,can bişirmiş!..
Mübarizin yerinə Kərəm kimi yanırmış,-
Getmişdim çox dərinə,Hüseyndə qanırmış...

Oxumadım,dayandım...ürəyi dayanırmış...
Bu şeirlə xəyalən Mübarizi anırmış!
Ürək dözməyib buna,oğul dərdi ağırdı,
Özgəsinə nə var ki,dərd yiyəsin ağrıdır!..

Ordan getdik babaya,-Mir İlyasdı babası,
Qocadı,həm də xəstə,həzrət Əli əbası!..
Yardım etdim qocaya,dərdinə dəva yazdım,
Məlhəm oldum yaraya,adımı ora qazdım...
Seyidin ocağına!..

*27.11.2011-ci il. Beyləqan şəhəri.*





## ÖMRÜMÜN FƏSİLLƏRİ

Dünyanın yayı da,qışı da gözəl,
Sirli dünyamızın fəsilləridir.
Bəşər üçün yaradılıbdır özəl,
İlahi işinin əsilləridir...

Görən sürət-zadı varmı hardasa,
Belə bir mükəmməl gəzəyənin də?!
Var isə,mənimtək varlıq dardasa,
İşi çox çətindir üz əyənin də!..

Adları müxtəlif,rəngi müxtəlif,
Ulu Tanrımızın yaratdıqları.
Beynimə yazdığı min cürə əlif,
İnsanın içində aradıqları...

İçimi dərd alıb güman içində,
Görəsən nə edim ömrüm uzansın?!
Yüz illər yaşayıb bir an keçində,
Çətin ki,dünyamız bir an dayansın...

Yayı isti,qışı soyuq mənzilim,-
Onu tərk eləmir vəfalı könlüm.
Nə vaxtsa dolacaq ömür zənbilim,
O vaxtda sovqatım olacaq ölüm.

Hələ ki,həyatda dözüb durmuşam,
Şəkərlə yaşamaq bir qədər çətin.
İstidə,soyuqda canı yormuşam,
Qızılbaş yayı da,qışı da mətin!..

*07.08.2012-ci il. Beyləqan şəhəri.*

## UCUZ ÖLÜM

*Bir gözəl xanımın vaxtsız və faciəli ölümünə həsr edirəm. O, dərman içərək özünü ölümə təslim edib, əfsuslar olsun!*

Ölümün qəfilcən səni aparıb;-
Özün bilə-bilə ona qoşuldun?!
Ölüm səni məndən vaxtsız qoparıb,
Niyə sən həyatda belə boş oldun?!

Adam da sevdiyın atıb gedərmi,-
Dalınca yüz fələk,Əzrayıl gələ?!
Bu bir təsadüfmü.yoxsa,qədərmi,-
Özünə qəsd etdin sən bilə-bilə?!

Nə qədər namərdlik etmisən,gülüm,-
Sən ki,məhəbbətlə coşub-daşırdın!
Səni aparanda o vaxtsız ölüm,-
Məni qoyub kimlə qucaqlaşırdın?!

Acı,bəd taleyin səni sıxanda,
Məni düşünəydin o anlığında!
Səbrin qəfəsindən cırıb çıxanda,
Qərq oldun ölümün qaranlığında...

Həyatı bu qədər sevən bir insan,
Nə cür bu həyata əlvida dedi?!
İnana bilmirəm,ölümü asan,-
Həzm edib Aynurə beləcə yedi?!

O müthiş gecəni xatırlayıram;-
Ölən atasına necə yanırdı!
Bu ucuz ölümü heç sanmayıram,-
Aynurə həyatı gözəl qanırdı...





Suallar...suallar...bitməz suallar...
Bəs nə vadar etdi onu ölümə?!
Qızılbaş üşənib xəyala dalar,-
Yoxluğu salacaq onu zülümə...

*29.11.2011-ci il. Beyləqan şəhəri.*

## ÖZƏL XANIM

Sənin camalını nəyə bənzədim,
Göydəki ayamı,-göyün naxşımı?!
Deməkdə budur ki,əsil niyyətim,-
Sən qara geyməsən daha yaxşıdı.

Mənim ümüdlərim gözlərindədir,
Gözlərin dənizmi,səma mavisi?!
Ordakı ümanın daha dərindir,-
Onu yaradan da göyün Dahisi!..

Gözlərindən başqa daha nəyin var?-
Çox da qürürlanma özü-özünə!
Sinən,ağ buxağın,baha nəyin var,-
Kim gəldi soxursan onun gözünə?!

Çöx xanımlar var ki,səndən gözəldir,
Səndə olanların daha yaxşısı!
Axı,sənin nəyin daha özəldir,-
Özünə cəzb edir Əli-baxtsızı?!

*29.11.2011-ci il. Beyləqan şəhəri.*

## QAR YAĞIR

*(Qış balladası)*

Ağappaq qar yağır yerin bağrına,-
Lopalar tökülür cığıra-izə.
Qar qız qovuşdukca könüi yarına,
Sevinc göz yaşları dönür dənizə!

Göylərin bağrından qopup tökülür,
Gəlişi əndişə,yaza bərəkət.
Yükdən ağacların beli bükülür,
Sən də isti geyin eylə hərəkət;-

Ya qar topu oyna,ya buzda sürüş,
Bu qarlı duzlərə qan tökmə,ovçu!
İnsafı tapnırsan,vicdanla görüş,
Allahın boynuna yükləmə suçu...

Qorumasızlara yazığın gəlsin,
Özü də bilməsə,Allahı bilər!
Öldürsən yandırar səni naləsi,
Öldürmə,həyatdan səni ,O,silər...

Qış günü ovlama,qardaşım,yetər!!!
Ovlasan,Qızılbaş qəhərdən bitər...

*28.01.2012-ci il. Beyləqan şəhəri.*

## İLAN KİMİ

Bu gün Bakıdayam,yəni,Bayılda,
Hər yan buz bağlayıb yağışdan sora.
Bu qış gecəsindən sübhdən ayıl da,-
Cəld oğul istəyir yataqdan dura!

Durub su daşımaq qonşu həyətdən,
Özü də idmandır qışın günündə.
Ayağın sürüşür bilməyərəkdən,
Yıxılıb düşürsən evin tinində...

Dərsə gedən,yıxılan uşaq kimi,
Buz üstə düşürsən yumuşaq kimi!
Mənim də başıma gəldi bu işlər,
Qışın soyuğunda əllərim üşlər...





Niyə üşüyürəm,görən niyə mən?-
Səbəb axtarıram soyuqda,qarda.
Sən demə,Qızılbaş ilan ilindən,
Qış oldu,ilantək o da darda!!!

Üşüyər İlantək o da qıvrılıb,
Başını soxmağa bir yuva arar.
Yaz gələr istidən o da qovrulub,
Sevgi adlı bir gözəli də çalar!..

*29.01.2012-ci il. Bakı, Bayıl qəsəbəsi.*

## SEVGİ ADLI QARĞIŞIMDI

Gözlərin dəniz mavisi,
Gözlərinə vurulmuşam.
Yoxdu bu dərdin çarəsi,-
Gözləməkdən yorulmuşam...

Çox əlləşdim vüsalına,
Dedin vüsalım puladır!
Düzü yandım bu halına;
Köməklə yardım duladır...

Gözün Xəzər dənizitək,
Mən də dənizdə qayığam.
Şah Sənəmin kənizitək,-
Gecə keçir mən ayığam!..

Halım yaman pərişandı,
Nə olar ki,ovut məni!
Alovundan yanan şamdı,
Al qoynuna soyut məni...

Məni salmısan tilsimə,
Ha baxırsam,çarəsi yox!
İlhamə adlı isimə,
Aludə oldum niyə çox?!

Əvvəl adi bir ad idi,-
Bu ad mənə,dənizgözlüm!
Ürəyimin ətin yedi,-
Axır ki,bu adı çözdüm...

Bu ad mənim son pənahım,
İmdadıma çağrışımdır!
Bilirəm,çoxdu günahım,-
Sevgi adlı qarğışımdır!...

Görüşməyi istəmirsən,
Ürəyində bir yer elə...
Qızılbaş qapından girsə,
Özünə layiq ər elə!..
*23.11.2011-ci il.Beyləqan şəhəri.*

## SEVGİ GÖRÜŞÜ

Öpdüm yanağından yandı dodağım,
Eşq həvəsi qonub dodaqlarına.
Bu ahıl çağımda oldun qonağım,
Dözmədim eşqinin sınaqlarına...

Dedin ki,mənimlə birgə yaşasan,
Ömürlük kənizim olassan mənim?!
Baxmayıb ömürdən keçən yaşa sən,
Zamanın hökmünə olassan qənim?!

Sənin eşqin ilə cavanlaşıram,
Bəzən altmış yaşım çıxır yadımdan;
Bu ahıl yaşımda dağlar aşıram,-
Dadmaq üçün yenə vüsal dadından.

Sənlə ayaqlaşmaq mənə çətindir,
Sənin nə vecinə,-cavan yaşında.





Məni cavan görmək xoş niyətindir,
Gəncliq arayıram kor yaddaşımda...
*18.02.2013-cü il. Beyləqan şəhəri.*

## QANIM OLMUSAN

Sən ki, yola gələn deyildin,canım,
Nə əcəb könlünə insaflar yağdı?!
Odlu baxışından qaynadı qanım,
Gördüm ki,eşqimiz hələ də sağdı...

Yaxşı ki,dünyada sevgi varıymış,
Yoxsa ki,insanlar tənha qalarmış.
Həsrət çiçəyimə vüsal arıymış,-
Sevgi ləzzətindən şirin bal almış...

Nə əcəb dünyaya sən də gəlmisən,
Bu dərli könlümü kim dindirərmiş?
Nə əcəb eşqinə layiq bilmisən,-
Səndəki qüruru eşq sindirərmiş!..

Mənim çiçəyim də,arım da sənsən,
Pətəyimə dolan balım olmusan,
Özümə məşuqə,yarım da bilsəm,-
Qəlbimdə dolanan qanım olmusan...
*21.02.2013-cü il. Beyləqan şəhəri.*

## GECƏ QONAĞI

Gecə qonaq gəldi şirin yuxuma,
Ləbləri bal,qaymaq,büstə-badamır?!
Mən sordum qeybdən qaraçuxama,-
-Üzü ay camallı bəstə adamır?!

Dün gecə zəng etdi,bəlkə də gəldim,
Qəfəsdən çırpınıb çıxdı bu qəlbim.

Səhər tezdən gəlib alanda səbbim,-
Duydum ki,yuxuma girən qadamdır.

İşdə də qoymadı farağat duram,
Zəng edib söylədi,ağrıyır buram.
İşdən tez qayıtdım toy-büsat quram,
Əcəb ehtiraslı seksi madamdır!

Deyirəm,ay balam,qocuya cavan,
Bu ehtirasınla deyildir rəvan!
Dedi,sən lazımsan,qaymaqsız-yavan,
Anladım,bu ceyran hələ cavandır;-

Eşqi topuğunda,başı havalı,
Gözəl bir mələkdir,hülü-gavalı...
Bilən,bilməyən də mənən davalı,-
Eşqi anlamayan,vallah,nadandır!

Girəndə qoynuma çaldı ilantək,
Toy tutdu boyuma,etdi talantək,
Çəkdi min oyuna,girdim dalantək,
Çətin bu dalandan çıxam,yadamdır...

Əlində baltası girdi bağıma,
Baxmadı başına yağan dağıma,
Başıma gələnlər gəlsin yağıma,
Qoca ağac təki qolum budandı;

Eşqimin qazanın çatıb qaladı,
Qazandan doymadı,dibin yaladı,
Olan-qalanımı çapıb taladı,-
Bu xanım qocaya yaman dadandı...

Deyən,Qızılbaşın meyli onadır,
Mehri-məhəbbəti ona qonadır,
O da mərifətli,evdar sonadır,-
Deyir ki,ləzzətim,şəkər-dadımdır!.

*16-22 dekabr2012-ci il. Beyləqan şəhəri.*





## SEVGİLİMİN SEVGİSİ

Hər qadın sevgiyə bir əvəz istər,
Bəs sənin istəyin nədir, gözəlim?!
Onunla sevişib intim-gəz istər,-
Onunçün deyirsən eşqi-əzəlim,
Sənə kar edərmi mənim kəsərim?!

Yəni bu yaşında heç sevməməsən,
Mənə rast gələndən sevdim,deyirsən?!
İki qız balanla lap gülməlisən,
İçi boş,sevgisiz evdim,deyirsən,
Vallahi,deyəsən,qələt yeyirsən!

Bilmirəm,inanım,ya inanmayım,
Deyirsən,sevgini tapmısan,gülüüm.
Bir də başqasına sevgi anmayım,
Sənin ləblərində yansın bu dilim,
Eləsə,qeyrisin dəftərdən silim?!

Atəşin günəşdən istidir mənə,
Özgə ehtirasla sevirsən məni!
Daha vurulmaram mən də yetənə,
Sənintək sevməyə məcburam səni,
Çətin ki,bu yoldan döndərəm səni...

Deyirsən,ömrümə ömür qatarsan,-
Səndən pöhrələyib cavanlaşacam;
Deyirsən,qorxuram məni atarsan,
Qədərimlə,deyən,çox dalaşacam,
Belə getsə sənə tez alışacam!..

*22.12.2012-ci il. Beyləqan şəhəri.*

## QURBANLIQ

Deyir ki,sevgidə qurbanlığınam,
Bilmirəm sınayım,ya sınamayım?
Yoluna dikilən qaranlığınam,-
Zöhrə ulduzumu necə qınayım?!

Bu sirli dünyanın sirdi sevgisi,
Onu da cəzb edən günəşdi,vallah.
Yatmış bu qəlbimə girdi sevgisi,-
Sevgi oyatmaqçün güləşdi,vallah!

Dedim,ay qız,məndən sənə yar olmaz,
Dedi,mən saymışam fələk saydığın;
Dedim ki,bu işdən bizə ar olmaz?!
-Nöqsansız deyildi mələk sandığın...

Nöqsanlı,nöqsansız qismətinəm mən,
Nə qədər qismətdən vaz keçmək olar?!
Arım-namusumla ismətinəm mən,
Eşqin badəsindən az içmək olar...

*22.12.2012-ci il. Beyləqan şəhəri.*

## QƏFİL QONAQ

Bu gecə qonağım oldu bir inci*,-
Hələ nəşriyyatdan bir az tanışdıq;
Süfrəmiz yığışıb yatmaq gəlincə,
Ayrı otaqlarda ayrı yatışdıq...

-Gecəniz xeyirə qalsın,ay xanım,
-Tualet,hamam da yanınızdadır...
-Sənin ki də xeyrə qalsın,ay canım,-
-Bu mərtlik,kişilik qanınızdadır!

* Şairə dostum-Salatın xanıma-*red.müəl.*





Onun dediyini bir az anladım,-
Gördüm ki,yorğundu,vacibdi yatsın...
Özümü yataqda xeyli danladım;
Sönmüş od-ocağı niyə oyatsın?!

Yatışdıq ayrıca ayrı otaqda,
Səhər namazında oyatdı məni.
Başımın üstündə durub ayaqda,
Öpüp yanağımdan O,yaqdı məni!

Sandım ki,röyada sanki mələkdi,-
Yuxudan ayıldım,gördüm ki,odu;-
Dedim,bu nə həvəs,bu nə kələkdi?
Üstümə yağdırdı alovu-odu!..

Dedi,iradənə heyranam,düzü,-
Mənsiz necə yatdın tənha otaqda?!
İxtiyarsız yanıb,qızardı üzü,-
Necə məst elədi məni yataqda!...

*24.04.2013-cü il. Beyləqan şəhəri.*

## QİSMƏT EDƏ

*Üzünü görmədiyim bir xanım-*
*Zülfiyyə Bakıdan zəng edib qızına*
*kömək etməyimi rica etdi.*

Telefon açmışdı Zülfiyyə xanım,
Evin həm kişisi,həm də ki,yarım.
Məni dəvət etdi Bakıya canım,-
Bu dəvəti şərə,ya xeyrə yorum?!

Bir yavru qızı var,-adı Təhniyə,
Onun peşindədir,-ana ürəyi!
Adəm övladıdır,-çıxıb səhnəyə,
Həyat səhnəsində mənəm gərəyi?!

Orasın o bilir,bir də ki,Allah,
Üzün görmədiyim bu vaxta qədər...
Ona bağlanmağım,demə,bir günah,-
Bəlkə,qismət edə mənə kor qədər?!

*15.02.2012-ci il. Beyləqan şəhəri.*

## MƏHƏBBƏTİN BİR ALƏM

Bir tərəfdə ailəm,
Bir tərəfdə qəribim.
Məhəbbətin bir aləm,
Daha çatmır səbirim!..

Sən gələndə yanıma,
Od salırsan canıma!
Vücudu bir xanıman,
Sevgi yüklü kəhərim.

Doymur eşqin camından,-
Tamarzı anlamında!
Çox sevirəm canımdan,-
Az ömrümdə kəbirim.

Yandırdı imanını,
Təslim etdi canını...
Dodağının qanını,
Hər gələndə əmirəm!

Bu eşqimiz bitməsin,
İlqarımız itməsin.
Vəfa yardan getməsin,
Zülmət sonu səhərim.

Mindiyim kəhərimdi,
Ən yumşaq yəhərimdi.
Qanımda şəkərimdi,-
Şəkər dolu zəhərim...





İçərəm göz qırpmadan,
Ürəyimi çırpmadan!
Nə bilsin ki,kor-nadan,
Vəfa mənim qədərim!..

*16.02.2012-ci il. Beyləqan şəhəri.*

## QIZIM GEDİR MOSKVAYA

Yolun,bəxtin açıq olsun,
Ay bəxtimin gül baxçası!
Sənə kəc baxanlar solsun,
Sən çiçək aç,gül axçası!..

Həkim olub düşdün yola,
Çətin yolu özün seçdin;
Həkim gərək qadir ola,-
Sən də bu cərgəyə keçdin!..

Bizdıki zatıqırıqlar,
Aranı yaxşı qatdılar!
Milləti çölə atdılar,
Sən də qürbət suyun içdin?!

Çətin bir kələk qurdular;
Bu əngəli çətin aşaq!
Rüşvət alıb qudurdular,-
Öz ölkəmiz olub yasaq!

Odur ki,qürbəti seçdin,
Rus dilində kurs da keçdin.
İndi yolun Moskvadır,-
Aygül qızım yek kafadır!

Moskvanın yolu açıq,
Qismətin Moskva imiş;
Kremildə qur alaçıq,-
Aygül altunkafa imiş!..

Peyğənbərin yaxşı deyib;
Elim dalınca Çinə get!
Orada ağ xalat geyib,
Akademiya Seçənə get!

Yaxşı həkim olub qayıt,
Qayıt doğma elimizə!
Qayıt yatanları ayılt,-
Yardımçı ol elmimizə!..

*07.11.2011-ci il. Beyləqan şəhəri.*

## KAŞ DUYUB İNANAYDI

*(Quranın möcüzəsi-Məryəm surəsi 19-cu, Bal arısı surəsi isə 16-cıdır, arasında oxşarlıqlar var.)*

Allah-taala səbirdə,
Bəşər karvan üstədir;
Bəşəriyyət qəbirə,
Ruhlar əşir* istədi...

İstər istə,istəmə,-
Nəzərləri** üstədir!
Nəzər yetir dəstəmə,
Hərə bir cür xəstədir...

Bəşəriyyət otuz üç***,
Həşəriyyət on altı****;
İstər o dünyaya uç,
Cəsariyyət*****on altı!

* əşir-o dünya
** Nəzər-yəni,Allahın nəzəri
*** otuz üç-insanın xromosomlarının sayı!
**** on altı-arı və qarışqaların xromosomlarının sayı!
***** Cəsariyyət-Məryəm surəsində Məryəmin cəsarəti nəzərdə tutulur-red.ƏH





Bal arısı,qarışqa,-
On altı xromosomda.
Məryəm layiq alqışa,
İsa vələd* fasonda...

İsa otuz üç yaşda,**
Otuz üç xromosom var!
Bal arısı,qarışqa,-
Erkəkləri asan var***...

Dişilər şanda fələk,-
Mayasız doğur erkək.
Məryəmə dəyir mələk,-
İsanı doğur ürkək...

Qarışqa da,arı da
Quranın surəsində;
Ömrü**** bitir yarıda,
Onun yer kürəsində!..

Bal arısı,Məryəmin
Oxşar işarəti var;
Oxuyub,denən:-Amin!-
Bəşər,həşarəti var!

İsa yoxdan yarandı,
Məryəm idi anası.
Kökü Musa,Harundu,-
İmran onun babası...

Nuh surəsinə bir bax,-
Hərfi doqquz yüz əlli!

* vələd-ərəbcə,atasız uşağa deyilir-red.Ə.H.
** İsa peyğənbər otuz üç yaşında edam edilib-red.Ə.H.
*** Ana arı-erkəyini işləmədiyi üçün dış edir,ölürür...
**** İsanın ömrü nəzərdə tutulur-red.Ə.H.

Nuhun zamanına ax,-
Ömrü o qədər bəlli!..

Quranın möcüzəsi,
Bitib tükənən deyil!
Allahdan icazəsi,-
Susub çəkinən deyil!

Sussa,cahan tükənər,-
Oxu,şifrələri çöz;
Onu çözmək də hünər,-
Çözsən,ibadətdi söz!..

Allah Quran biçimdə,
Hələ kəşf edər insan!
Qəlbin şübhə içində,-
İnanmayacaq asan!..
Kaş duyub inanaydı...

*23.01.2011-ci il. Beyləqan şəhəri.*

## TƏRSİNƏ

*Rəvayətə görə Cənabı-Haqq özünün canişinini yerə göndərir ki, xəbər gətirsin; canişin gəzir yer kürəsini, görür ki,müsəlman ölkəsində müsəlman çoxdu, lakin iş-gücləri islama uyğun deyil, ancaq xristian ölkələrində islam hümbəti az olsa da,oranın işləri islama uyğun idarə olunur...Canişini heyrət bürüyür və Cənabı-Haqqa yürüyür!...*

Maaş kartım qızımda,
Özüm verdim dolansın.
Xəcalətdi yazım da;-
Lazım olsa,pul alsın...





Halım elə ağır ki,
Xərcləmir ki,yığılsın.
Təhsil haqqı yığır ki,-
Dərdi-səri dağılsın!..

Xaricdə oxuyana,
Pul-para da verirlər!
Heç kəs düşmür ziyana,-
Ona qanad gərirlər!

Biz də xalqdan dolannıq,
Yazılmamış qanunla!
İş-gücümüz də qanlıq,-
Qanunsuzdu;..Bir anla!..

Bir təhər dolanırıq,-
Sənətim sayəsində.
Allahı da anırıq,
Quranın ayəsində!..

Bizdə işlər tərsinə;-
Sosial ədalət harda?!
Hay verən yox səsinə,
Qalsan zülümdə,darda!..

Bizdə çoxdu müsəlman,
Əllərindən dad-həzər!
Avropada çex,alman...
Müsəlmanlartək gəzər!..

Orda sosial ədalət,
Dövlətin dəyəridir;
Bizdəki tam xəçalət,-
İslamın əyəridir?!

İslamdan xəbəri yox,-
Adını islam qoyub!

Qərbdə xiristian çox,
İş-gücün islam sayıb!...

Müsəlman ölkəsində,
Kasıb-kusub təklənib;
Çex,alman ölkəsində,
İslam ruhu köklənib!..

*Əhsən, bu ədalətə!!!*
*03.02.2012-ci il.Beyləqan şəhəri.*

## İSLAM YOLU

*Məhəmməd (ə.s.ə.) mövlüd günü münasibəti ilə.*

İnsanlığın xilası,
Məkkədə nazil oldu;
Dəyişdi son libasın,
İslama hazır oldu!

Nur yetişdi dünyaya,
Məryəmə yetişən nur!
Əmr çatdı dühaya,-
-Dünyanı yenidən qur!..

Tanrı iradəsini,
O yetirdi yerinə;
Quranın surəsini,
Həkk elədi sərinə!..

Qaranlığın pərdəsin,
Cırıb atdı Məkkəyə,
La-illallah!-kəlməsin,
Yazdı qızıl sikkəyə!

Aydınlatdı yer üzün,-
Nur paylayan üzüylə.





Yol açdı doğru-düzgün,
İnsanlıq getsin deyə!..

Düz yol İslam yoludur,-
Əbədi ehsan yolu!
Mərhəmətlə doludur,-
İslamin asan qolu!..

Vəhşi,kobut ərəbin
Yoluyla getmədi O;
Mədinədə ədəbin,
Əksini etmədin O!

Mədəniyyət yarandı,
Üz qarası silindi!
Yaxşıyla pis darandı,
Ağ,qarası bilindi...

Torpağa gömülən qız,
Xilas oldu o gündən!
İslama gülən arsız,
Möhkəm yapışdı dindən!!!

Əhsən,belə saf dinə,
Bəşər çıxdı ağ günə!
Sözlə doludur sinə,
Söz tapmıram şəninə!!!

Gözümdə nur Məhəmməd (s.ə.s.),
Mövlüd günün mübarək!
Dolça bürcündə Əhməd,
Qızılbaşa bərəkət!..

*03.02.2012-ci il. Beyləqan şəhəri.*

## YEDDİ

*Deyilənə görə Allahu-təala hər şeyi yeddi qatlı yaratmışdı. Qorunmaq məqsədiylərni?..*

Yerin-göyün yeddi qatı*,
Yeddi aləmlərin zatı,**
Yer üzündə yeddi yapı***
Nə demək istəyir görən?!

Elementlər yeddi atda****,
Yumurta da yeddi qatda,
Ömür də yeddi həyatda*****
Xoşbəxtdir yeddini sürən!

Həftənin yeddi günündə,
Səsimin yeddi simində******
İşıq da yeddi deyimdə*******
Nədən yeddi etdi Verən?!

Yeddi Allahın səddimi?!
Sonsuz-tükənməz cəddimi?!
Zəkat surəsi yeddidir********
Xoşbəxtdir yeddiyə girən...*********

*16.02.2012-ci il.*

---

* yer-göy yeddi təbəqədən ibarətdir
** 7-aləmə işarədir-red.Ə.H.
*** 7-materik nəzərdə tutulur-red.müəl
**** 7-dövrü sistemə görə elementlərin valentliyi-gücü
***** hüseyrə,rüşeym,döl,uşaq,cavan,ahıl,qoca...
****** səs tembri-yeddi notdan ibarətdir-red.Ə.H.
******* işığın yeddi spektiri-red.Ə.H.
******** Zəkat-əl-Maun surəsi-yeddi ayədir;dini yalan hesab edənlər və s.
********* qəbri də yeddi təpik qazırlar...red.Ə.H.





## ŞAİR-QARDAŞ
*(Aftoportiret)*

Altmış il öncə gəldim dünyaya,
Gül yanaqlı bir anaya tac oldum!
Doğulandan zülüm verdim anaya,
Döşlərindən südü qaçdı,ac oldum.

Aşqallarda Səkinə də doğmuşdu;
İxtiyar adında oğlu olmuşdu...
Mənimsə aclıqdan rəngim solmuşdu.
Onu əmib bir az qarnı tox oldum.

İndi o analar hanı dünyada?-
Bayramdan-bayrama salırıq yada.
Başım qovqalarda,əlim havada -
Bir zaman görəssən,mən də yox oldum...

Deyirlər filankəs halal süd əmmiş,
Kimisə,hansısa sülalədənmiş!
Bədbəxt Ayna nənəm axı nədənmiş,-
Beşaçılan gülləyə niyə tuş oldu?!

İranlı adıyla babam sürüldü,
Zülüm ərşə qalxdı,sərhəd hörüldü!
Esserində elə işlər görüldü,-
Millət manqurt düşdü,yalavac oldu!..

Neçə qohum-qardaş nazımı çəkmiş,
Qəmər nənəm beşiyimə gül əkmiş.
İnsanın taleyi nəyə gərəkmiş,
Baxan gözlər,gülər üzlər heç oldu...

İli qardaş,üç bacıya göz olduq,
İki bacım qaçdı,bizə söz oldu.
Nənəqızın kipriyində köz olduk.-
Əllərində oxloy,yuxa,tac oldu.

Axır ki,böyüyüb,bir kişi oldum,
Sənətim həkimlik-can işi oldu.
Allah sənətinə canişin oldum,-
Allahın izniylə dərddən bac aldım!

Ailə qurub,canbir oldum bir yadla,
Allah övlad payı verdi dörd adda;
Tural,Aytən,Fərid,Aygül həyatda,-
Ofelya başıma uca tac oldu!..

Səksən yeddidə gözümüz ağladı,
Atam öldü ürəyimi dağladı.
O,ölməklə,arxivi də bağladı,
Nəslimizin izi itdi,puç oldu!

Anam,atam artıq yoxdu həyatda,
Nə olsun ki,yaşayırıq büsatda.
Pəncərəsin bağlayanda həyat da,-
Sənə yazıq,qismətinə uç oldu...

İyirmi yanvarda meydan qan oldu,
Bakı küçələri meyidlə doldu!
Qarabağda minlərlə şəhid oldu,
Ellər qaçqın düşdü,köçə-köç oldu!

Erməni bizimlə yaman çəkişdi,
Axır ki,imdada Heydər yetişdi!
Heydər sığal çəkdi,yaram bitişdi,
Xaldımın başına İlham tac oldu!

## SƏCƏRƏSİ VAR

Gənciyini düşün,qalıbdı haran,
Naçar,boynubükük qaldın nigaran,
İlk və son mənzilin olubsa Aran,-
Demək,bu torpağın cazibəsi var.





Qarışqa yem olur gedib gələnə,
Torpağın neməti sinir gödənə,
Torpaq da göz tikib yazıq bədənə,-
Demək,hər bir zadın azuqəsi var...

Qədərində ye ki,azdan da qoyar,
Bir tikədən ötrü bəzi göz oyar,
Gözütox insansa sudan da doyar,-
Demək,çox şeyin də azı,bəsi var!

Adəmdən Hatəmə,Məhəmmədədir(s.a.s);
Ruhumuz cənnətə,cəhənnəmədir,
Küllü kainat da bir əmmadədir,-
İnsanın Tanrıdan səcərəsi var?!

Allah həmin ruhdan eyləsə kərəm,
Dərdimə dərman da olar,ölmərəm.
Ruhum göylərdəsə,yerdədi mərəm,-
Demək,hər həyatın təziyəsi var...

Bir gün yaradılan bir gün öləcək;
Həyatla ölümü belə böləcək...
Mənim bilmədiyim anda gələcək,-
Deyəssən,ölümün aciləsi var?!

Qızılbaş dərdini faş eləyəndi;
Gözündə nadanı yaş eləyəndi,
Bu qədər dərman var,ölüm nədəndi-
Demək,min bir dərdin min dərmanı var...

*20.11.2012-ci il.Beyləqan şəhəri.*

## NİGARANÇILIQ

*(İkinci kitabım bomba kimi partlayıb özümü yaxdı)*

İkinci kitabın çıxandan bəri,
Nə qədər hücüma məruz qalmışan;
Sağlığında arvad döydürdü ərin,
Deyir,ərin indi ələ salmısan?!

Birinin nə bilim çatmır qeyrəti,
Sən də ad çəkərək arxa durmuşan?
Hələ ki,özünə qalsın rəğbəti,
Güya,el içində sözlə vurmuşan!

İnciyib kürəkən,inciyib bacı,
"Həddini aşmağı"niyə yazmısan?
Düz danışmaq hər vaxt olubdu acı,-
Böyük-kiçik yolun niyə azmışan?..

Dünya belə gəlib,belə gedəcək,
Dəyirman işində,çak-çak səs salır.
İnsanlar bir-birin hələ didəcək,
Atalar dediyi niyə tərs qalır?!

Atanın,ananın rızası haqdır;
Bu qaydanı pozan niyə anlamır?!
Cilovsuz ehtiras evləri yaxdı,
Niyə insan oğlu özün danlamır?!

Hərislik,ehtiraz ağlın şeytanı,
Qismət,qismət!-deyib şeytana uyma,
İçində vicdanı,Allahı tanı,
Şeytana aldanıb Əliyə qıyma!

Cəlil də,Sabir də belə yazırdı,
Məsudu,Zakiri hələ demirəm...
Başımda misralar elə hazırdı,
Vərəqə köçəndə qələt yemirəm!

Bir şey ki, hamıya bəllidir,qadam,
Allahdan gizlətmək yersizdi axı,
Yalançı tərifi yazmağa yadam,
Düzü də yazanda bəzini yaxır!

Mənim şeirlərim ürəyə axır,
Bəlkə,yazmayım,qadam!

*10.11.2012-ci il. Beyləqan şəhəri.*





## ŞEYTAN

*Allahın mələkləri (o cümlədən Şeytan) elektromaqnit dalğaları kimi gözümüzə görünmür, bəzən, iradəsi zəif insanların ağlını işğal edərək, onları xoşa gəlməyən işlərə, hətta,cinayyətə sürükləyir.*

Mən həmişə demişəm,
Şeytandı qəlbə girən;
Müdrik olub həmişə,
Səbirlə ona dirən!

Deyəssən,şeytan hanı,-
Mənim ağlıma girə?!
Telfon zəng edən anı
Gözün görməz bir zərrə...

Maqnit dalğaları tək,
Şeytanı gözə dürtməz;
Nəfsimin halları tək,
Zəif ağılla hürkməz!

İstər şeytan,əzrayıl,
Fələyin kələkləri,
Qaraçuxa,Cəbrayıl,
Həyatın mələkləri...

Qaraçuxan bol olsun!

*28.11.2012-ci il. Beyləqan şəhəri.*

## QARAÇUXA

*Həyat yoldaşım Ofeliyanın xalaoğlusu Məmmədov Vaqif ölümdən döndü; Bakının ən məhşur xəstəxanasının kardioloji şöbəsi onu ölür, şəhərə çıxmaz, götürün evində ölsün,- deyə, evə göndərdilər. Lakin ölmədi, yaşamağa davam edir... Stress xorası (12b.b.xorası) və mədə-bağırsaq qanaxması!*

Gözün dünyaya baxırsa,
Deyə bilməzlər ölürsən.
Damarda qanın axırsa,
Demək,kəfəni dəlirsən...

Vaqif qardaş kəfən yırtdı;-
İki canlı oğul imiş!
Məzara düşmədi sırtı,
Həyat ipi yoğun imiş...

Vaxtı tamam olmayanın
Dənəsi üzülə bilməz.
Dağa söykənən qayanı
Hər təlatüm silə bilməz.

Dənəsi üzülməyəni
Heç bir kimsə üzə bilməz.
Fələyin özü əyəni,
Gətirsələr dizə bilməz...

Canımızın sahibi var,
Qoruyacaq qaraçuxa;
Tanrı üstündə olsa yar,
Qoymaz ruhun yola çıxa.





Ölər,-bildiyin xəstəyə,
Şəvahəti verən vardı.
Dünyalar səni bəsləyə,
Ölüm gəlsə,sənə dardı...

İnşallah ki,yaşayırsan,
Bu suala cavab qısa;
Ömrünə günlər sayırsan,
Həyatın dönməsin yasa!..

Olub keçənləri unut,
Həyat şirin,ölüm yaxın.
Gördüklərin min bir sübut,
Gələn-gedən axın,axın...

Eşin Ulduz da yanında,
Həkim sənə gərək deyil.
Nəciblik onun qanında,
Atam-anam Vaqif!-deyir.

Bir yastıqda qocalın,
Ölüm sənə vız gəlir;-
Bu dünyadan bac alın.
Oğlan gəlir,qız* gəlir...

*04.05.12-2012-ci il. Beyləqan şəhəri.*

## ONA GEDƏN YOL

Bu dünya gör-götür dünyası,atam,
Sanma ki,boşuna fırlanır bu yer;
Bir mələk timsalı göylərə çatam,
Yenə yer üzündə zərrə bir şeir...

Sözlə ifadəsi çətin Tanrının,
Nə qədər mələyi,dünyası vardı?!

---

* nəvələr nəzərdə tutulur-*red.müəl.*

Yeddi rəng bətnində ağla-qaranın,
Ağla-qaranın da dahası vardı...

Görünməz,bilinməz Tanrının işi;
Haradan başlayıb harda qurtarır?!
Milyon il gələcək,milyon keçmişi,
İfadə etməyə şübhə artırır...

Hələ də həzm etmir ağlım,kamalım,
Onu həzm etməyə ağıl-zad yetmir.
Bir zərrə düymaqdı onu amalım,-
Ona gedən yollar bağlıdır,bitmir...

Onu anlamaqçün Quranı oxu,-
Min beş yüz il öncə yazılmış kitab.
Onu oxusa da dünyanın çoxu,
Yenə də ürəyə edirlər xitab...
Ona gedən yollar ürəkdən keçir.

*05-06.12.2012-ci il. Beyləqan şəhəri.*

## ALIN YAZISI

Qaçan da çağırır,qovan bağırır,
Hansına yardımı etsin O yazıq?!
Deyirlər zülm etmək Onunçün ağır,
İnsanın da rəhmi ola azacıq...

Nə yaxşılıq etsən Ona xoş gəlir,
Kor şeytana uyub kükrəyib daşma!
Insan qəbr evinə əli boş gəlir,-
Varı da yığanda həddini aşma.

Həyat nə gözəldi;şirin-acılı,
Bir ölü görəndə ətim ürpəşir.
Deyirlər,insanın alnı yazılı,-
Yazıya baxan kim,hamı tərpəşir...





Bu alın yazıma daha nə düşüb,
Kaş ki,son yazımı oxuya biləm.
Dərd-qəmin əlindən ürəyim bişib,
Pisimi yaxşıtək toxuya biləm...

Elə toxuyam ki,Ona xoş gələ,
Hardadır,eşidir?Bu mühüm deyil.
Alın yazısıyla qurubdu tələ,-
Anlaya bilmirəm hardadır xeyir?!

*11.12.2012-ci il.*

## DÖYÜN ÜRƏYIM, DÖYÜN

Döyün ürəyim,döyün,-
Altmış yaşınla öyün!
Demə ki,qocalmısan.
Cavan qalıbsan,söyün(sevin)!
Döyün ürəyim,döyün!

Cilid quru,qırışıq,
Bir solub yaraşıq,
Qoca halına aşıq,-
Olan da var,çal düyün!
Döyün ürəyim,döyün!

Ürək cavan,baş bəyaz,
Güllü bağımda ayaz,
Bir il qocaldım bu yaz,-
Həkim nə etsin,deyin?!
Döyün ürəyim,döyün!

Gözəllər var ellərdə,
Gözüm qalır güllərdə,
Esqim naşı dillərdə,-
Qəbahət deyil,bəyim!
Döyün ürəyim,döyün!

Gənclik həvəsi qalıb,
Başını duman alıb,
Qüvvətə güman qalıb,
Qızılbaş,inlə,deyin,
Döyün ürəyim,döyün!..
*14 05 2013-cü il.*

## SAQQALIM AĞARSIN

*Pirani insanın gənc insana ağız duası*

Saqqalın ağarsın!-mənə deyəndə,
Gənc idim,qəribə gəlirdi mənə.
Qocalıq,xəstəlk məni əyəndə,-
Onu həyat özü gətirdi mənə...

Siftə ağ tükləri xəlvət çəkirdim,
Yerinə qara tük,sanki,əkirdim.
Başım tez ağardı,xiffət çəkirdim,-
Ağ ilə yazılmış sətirdi mənə...

Başa dən düşəndə qırx idi yaşım,
Elə yavaş-yavaş ağardı başım;
Əlli,-yubleyimdə istədim daşım,-
O vaxt şux gözəllər bitirdi məni...

Ömrün tez yükləndi altmış yaşıma;
Gör,necə dən düşdü saqqal-qaşıma,
Zaman sığal çəkdi kor yaddaşıma,-
Piri arzuları yetirdi mənə...

Yenə pay-piyada gedirəm yolu,
Bu yol məhəbbətlə,sevgiylə dolu;
İstər lap qocalıb pirani olum,-
Yenə qaraçuxam çətirdi mənə!





Deyirlər,bura yox,ora yaxşıdı;
Əlacsız insanın köç axışıdı...
Mənimçün hər yerdən bura yaxşıdı,-
Vətənin hər gülü ətirdi mənə!..
*14.05.2013-cü il.*

## İSTƏRƏM

Qaşlarının naxışı,
Cüt bəbəyimdən keçir.
Gözlərinin axışı,
Düz ürəyimdən keçir...

İçdin eşqin şərbətin,
Eşq əlindən hallı qız.
Öldürəcək həsrətin,
Dərdi şirin,ballı qız...

Niyə məni sevirsən?-
Mən ki,sənin deyiləm?!
Gör, heç məni deyirsən?-
Eşq əlindən veyiləm!

Axtarıb tapdım səni,
Bu nə taleh,nə yazı?!
Candan sevirsən məni,
Qurban olum ən azı!!!

Vücudun cənnət bağı,
Orda uymaq istərəm.
Abu-kövsər dodağın,-
Qırıb udmaq istərəm!..
*10.03.2012-ci il.*

# SİYASİ ŞEİRLƏR

## ÖLÜM SAVAŞI

*Çanaqkala savaşında şəhid olmuş türk əsgərinin müqəddəs ruhu önündə baş əyirəm! Çanaqkala savaşında düşmənin amansız taruzuna, dənizdən şiddətli top atəşinə məruz qalan türk bölüyünün kamandiri Mustafa Kamal Atatürkdən geri çəkilmək əmri əvəzinə;- Mən sizə geri çəkilmək yox, Ölmək əmri verirəm!-demiş və müharibənin gedişini türklərin xeyrinə dəyişdirmişdir! Çanaqkala döyüşlərində yüzlərlə könüllü azəri əsgəri də vuruşub şəhid olmuşlar! Ruhları şad olsun! Bunu bilən erməni daşnakları 1918-ci ildə Qubada və Şamaxıda soyqırım törətdilər.*

Çanaqkala savaşına sal nəzər;
Burda yer-göy od-alovla birləşib!
Belə bir savaşdan həzər,min həzər,-
Əsgər Əzraillə,canla əlləşib!..

Susuz,ac əsgərlər ölüm udublar;
Barıt havası da ciyərlərində...
Batdağa yazılıb müxtəlif adlar,-
Türk,yunan,ingilis dəyərlərində...

O tərəf,bu tərəf qana bələnib,
Qucağına alıb bu ana torpaq!
Başına tonlarla güllə ələnib,-
Amansiz atəşdən ağlayıb yarpaq...





Düşmən eskadrası doy gələn anda,
Cəbhə kamandiri;-geriyə!-demiş...
Türk əsgərin mərmi,top doğrayanda,-
Ata:- ölmək əmri verirəm!-demiş!

İki yüz əlli min əsgər yox oldu,
Qanında boğulub döndü torpağa!
Düşmənin gözünə türküm ox oldu,-
Bütün ümüdlərin gömdü torpağa!..

Düşmən su yerinə sidiyin içdi,
Öz ətin də yedi...nə simasızlıq?!
Türk əsgəri qandan,canından keçdi,-
Tüpürüb yalamaz!-nə amansızlıq!!!

Altmış yaşlı kişi top gülləsini,
Belində gətirib topu dindirir!
Allah da eşidir onun səsini,-
Həmən eskadranı dibə endirir!..

Qələbə bayramın qeyd edən günü,-
Atatürk soruşur:-necə götürdün?!
-Bütün Türkiyəyə yayılıb ünün!..
(Qoca cavab verir:)
-Məşər ayağıydı,candan ötürdüm!

Qoca heykəlləşib Çanaqkalada,
Orda heykəlləşib düşmən də,türk də!
Çörçel də baş əyib qəhrəman ada,-
Əsgərin önündə əyilib bürk də!..

Bu açıq ehtiraf,ehtiram idi;
Türkün qabağında əyilib başı!
Çanaqkala boyda yaram var indi,-
İllərlə sızlayıb tökər göz yaşı...

*13.11.2011-ci il. Bakı şəhəri. Bayıl qəsəbəsi.*

## QARABAĞNAMƏLƏR

*"Qarabağnamələr"i oxuyarkən.*

Tariximi oxudum
Acı göz yaşlarıyla;
Üstümə dağ uçulub,
Qayası,daşlarıyla!..

Nə yaxşı ki,yazılıb,
Onu yazana əhsən!
Haya qəbir qazılıb,
Düzünü açıq desən!..

"Qarabağnamə"tarix,-
Tutarlı bir sübutdur!
Çox gəzdim yırtıb çarıx,
Məni bir o ovutdu...

Qarabağın valisi,
Demək,türk oğlu türkdür!
Gəlib urus abisi,-
Hayın gözünə dürtdü!..

Bunu açıq deyən yox,
Çox qudurub erməni!
Türkü də dinləyən yox,-
Eləsə,öldür məni!!!

*05.11.2011-ci il.Beyləqan şəhəri.*

## SARIQAMIŞ ŞƏHİDLƏRİ

*Rus qoşunları Ərzurumu, Vanı işğal edib İzmirdə qərar tutmuşdular; dörd bir yanda yenilgiynən qarışılaşan osmanlı qoşunları rusların bu hücumunu durdurmaq üçün qarşıdan yox,onların gözləmədiyi yerdən vurmaq qərarına gəldi;çox riskli idi,çoxusu isti Ərəbistan çöllərindən geri çəkilənlərdən ibarət olan türk məhmətçikləri əksi 40 dərəcədə quşların uça bilmədiyi bir*





*yerdən keçib rusları vurmalı idi... Heyhat, Ənvər paşa qışın ağır şərtlərini nədənsə qulaqardına vurmuşdu!.. Bu da fəlakətin sonu;90 mindən çox türk əsgəri düşmənə bir güllə belə atmadan ac, susuz, soyuqdan donaraq can verdi;bir-birlərinə sarılaraq,nəfəs-nəfəsə, qucaq-qucağa donaraq can verdilər...*

*Allahu-Əkbər!-deyərək "Allahu-Əkbər dağlarında can verdilər! Heç bir şeydən xəbərsiz olan türk xalqı bu faciyəni on illər sonra biləcək,bu faciyəyə səbəb olan düşüncəsiz komandanlara lənətlər oxuyacaqlardı. Bu lənətlər,Allahu-əkbər sədaları belə o yavruları bir daha geri gətirməyəcəkdir!.*

*4 yanvar 1914-cü ildə Şarıqamış hərakatında"Allahu-Əkbər!" dağının ətəklərində,aşırımlarında həlak olan 90mindən çox türk əsgərinin və onlara ərzaq daşıyan və həmən dağlarda donaraq can verən 90-dan çox uşağın unudulmaz xatirəsinə.*

Açıldı qara sandıqlar,
Töküldü qanlı pambıqlar;
"Allahu-əkbər"dağında,
Doxsan minlik türk əsgəri,
Qara torpağın bağrında!

Nəfəsləri buza döndü,
Ürəkləri buza döndü!
Həvəslərin buza gömdü,
Diləklərin buza gömdü,
Silah tutan biləkləri
buza döndü!..
Aman Allah,bu nə fitnə,
bu nə yazı?!
Yüz otuz min əsgərindən,
Doxsan minin yerə qazdı?!
Sırtında torba daşıyan,
Doxsan uşaq idi azı!..

Doxsan uşaq necə oldu?!
Dallarında torbaları,
Həyatları heçə oldu,

Yox onların arbaları,
Yup-yumuşaq bədənləri
keçə oldu!..
Kaş görərdin çılın-çılpaq
ayaqların,göp-göyərmiş
dodaqların...Ağlayardın...
Dallarında torba ərzaq,
Yalın ayaq...Hara gedir
bu yavrular?!
Çoxdan ölmüş əsgərlərə?!
Soyuq-şaxtadan qıvrılar,
Səpələnər dərələrə;
Karıxarlar ürkək kimi,
Yaprıxarlar çiçək kimi...

Hanı sahibi bunların?!
Osmanlının qanunları?!
Allah,Allah!-deyə-deyə,
Qarı-buzu yeyə-yeyə,
Buza döndülər uşaqlar...

Onların bu matəminə,
Yerlər ağlar,göylər ağlar...
Ənvər paşanın əmrinə,
Bu yavrular nə bel bağlar?!
Sərt olurmuş buzlu dağlar!

Bir-birinə sarılaraq
gömüldülər...təzə açmış
ömürdülər...dağda saçmış
fişəng kimi parlayaraq,
sönüldülər...Bir Allahdan da
xəbərsiz!. .
Dondu insanlar təhərsiz,
Qırx dərəcə şaxtasında!





Yandı insanlar qəhərsiz,
Şəhidlərin baxçasında,
Xəbər tutmadı"basın"da...

Eləcənə,gizli qaldı bu faciyə
türk xalqından,
Sahibsiz kimdən inciyə?!
Allahu-əkbər dağından,-
Dönsələr də min inciyə,
Ayırmadı qar ağından,-

Ənvər paşa!..Hələ yaşa,-
Yaşa görüm bu utancla?!
Planların dəydi daşa,
Doxsan min əsgər inancla,
Girdi soyuqla savaşa!..

Qırx dərəcə şaxta ilə,
Baş edəməz türk balası!
Sən planı saxta elə,
Donub dağlarda qalası,
Torpağını rus alası...

Türk oğlu arxadan vurmaz,
Ənvər paşa!Hələ yaşa,-
Bu utancla!Doxsan uşaq,
Yerdə durmaz,çıxar dağa,
Çıxar daşa!Cavan ömrü,
dəyər daşa...
Biz də verdik Daşaltında
Neçə şəhid sənin kimi!
Çürük fikir baş altindan,
Çıxar türkə qənim kimi!.
Sonra tut-as görüm,kimi?!

Bir millətin belin qırdın
dərt dağında;
Qışın soyuq,saxtasında,
Sərt dağında!
Pərt elədin Allahu-əkbər
dağın da,
Xilas oldu türk əsgərindən
yağın da!

O planı yazan əllər qırılaydı,
Kaş doxsan min türk əsgəri
Ön cəbhədə vurulaydı!..
Bir gülləyə ölmək hara?-
Yavaş-yavaş donmaq hara?..

Dünyanın hansı dinində,
4-ü yanvar qış günündə,
O planı yazan zaman,
Doxsan minlik türk oğluna,
Qardan qəbir qazan zaman,-

Qırılaydı barmaqların,
Yumulaydı dodaqların!
Bu nə fikir,nə dərrakə,-
Millət övlad dərdi çəkə?!
Min il keçə,yenə çəkə?!

Əhsən Paşam,
Bu nə savaş?!Bu nə yaşam?!
Sönməz yanğım,bitməz bu yaş,
Yazam,coşam,dastan qoşam,
Sarıqamış şəhidlərinə!..

*04 yanvar 2013-cü il.*





## YAZIQ HİNDULAR

*(AzTV-də"Çinka-çukun"kinosuna baxarkən çox məyus oldum) (Yazıq türklər-canlar, mayalar! Oyanın ki,sizi dünya unudar!) Beş min illik Maya təqviminə və əzabkeş hinduların(can türklərinin və mayaların) soyqırımına həsr edirəm. Onların acı taleyi ilə bizim talelərimiz necə də uyğun gəlir! Onlar da bizlərdəndir.*

Harda türk var,türkün soyqırımı var;
Çünki,bu dünyanın dadı olublar...
Ötükən çölündən qopan şırımlar,
Adəm övladının yadı olublar.

Amerika qitəsi deyilən torpaq,
Canın ana yurdu olub,qardaşım.
Öz ana yurdunda olubdu qıraq,-
Mənim də yurdumda"ağırdı"daşım!..

Sən də tərəkəmə,can türküymüşsən,
Nə qədər müsibət çəkibdi başın?!
Kolumb yetişəndə mürgüdəymişsən,
Oyananda axdı qanlı göz yaşın!..

Kolumbdan öncə də"yam-yam"ın* vardı,
"Yam-yam"lar canına qənim kəsildi;
İnsanlıq adına vəhşətdir,ardı,-
Canı(türkü)qurban deyə başın kəsirdi!

Kolumb bu qitəyə xaçı gətirdi,
"İnanc özgürlüyü"yerin zor aldı;

---

* Can"türkləri və mayalar-Amerikanın abarogen sakinləri,red.müəl.

Bir"Səlib yürüşü"* yeli əsirdi,
Hindu çadırların alov-qor aldı!

Yamların zülmündən cana gələnlər,
İndi də"ağların"** hədəfindədir;
Qana qəltən oldu hindu ərənlər,-
Minləri qırıldı,can dəfindədir!..

Çadırları yanıb,xalqı pərişan,
Keçilməz dağlardan köçün aparır...
Təqibdədir ordu əldə od-nişan,-
Qana-qan!-timsalı öcün aparır!

Yaralanan,ölən yüzlərlə insan;
Xocalı timsalı güllə barandı!
Əlində yay-oxu neyləsin bu can***,
Odlu silahlarla xalqı darandı...

Yerindən,yurdundan olmaq çox çətin,
Qaçqınlıq zülmünü çəkənlər bilir.
Gəlmələr yedilər"canların" ətin,
Zülmü yer üzünə əkən nə bilir?!

Kolumbu yolundan azdıran kişi,
"Hindistan yolunu"ora salıbdır;
"Yam-yamın"vəhşətin qazdıran kişi,
Hindunu başqa cür tora salıbdır!

Torpaqları zəngin,taleyi qəmgin,-
Bəxtinə yazıldı özgə bayraqlar!

---

* Yam-yamlar-Amerika qitəsində yaşayan vəhşi gövm nəzərdə tutulur,red.Ə.H.
** Səlib yürüşü-orta əsrlərdə Avropa xristian-qoşunlarının müsəlmanlara divan tutması, soyqırımı.
*** Maya təqvimi-qədim mayaların.canların beş min illik təqvimidir, miladi təqvimindəki min il kimi





Başının üstündə səması əngin,
Mayalar"beş minlik ili"* varaqlar...

"Maya təqvimi"dir,o taykı təqvim;-
"Beş min illik"təqvim çoxdan hazırdı.
Məhəmməd Tusidə"Gün-Ayki"** təqvim,
Türklərin əliylə tarix yazıldı!..

Ancaq nə olsun ki,qədir-qiyməti,-
Dünyanın gözündə bir qara qəpik!
O tayda***, bu tayda durmuşuq mətin****,
Bu namərd dünyadan yedikcə təpik!..

Qədərdən qaçmağa geysən də çarıx,
Çarığın yırtılar,cəhdin boş gedər;
Keçdiyimiz yollar min illik tarix,
Olsa da,başımda qovğa və kədər!

Bu qədər qırılmaq,qırmaqmı olar?-
Gözdən axıdılan yaşa dəyərmi?!
Yaşatmaqdan ötrü barışmaq da var,
Mərhəmət var ikən,zülüm əyərmi?!*****

*20.11.2012-ci il.Beyləqan şəhəri.*

---

* 21dekabr 2012-ci ildə bu təqvim başa çatacaq və yeni era başlayacaq, vəssəlam.red.müəl.
** Gün-Ay (Şəmsi-qəməri) təqvimi-ilk dəfə Azərbaycan astarnom-alimi Məhəmməd Tusi tərtib edib.
*** O tay-Atlantik okeanın o tayı-Amerika materiki nəzərdə tutulur, red.müəl.
**** Türk xalqı-mətin,möhkəm xalqa deyilir
***** Əyər-qızılın ölçü vahidi,red.müəl.

## AMERİKADA AZADLIQ

*Afrikalı zəncilər öz yurd-yuvalarından zorla qaçırılaraq, vəhşicəsinə işgəncələr verilərək, dəniz yollarında ərzaq çatışmazlığından zəncilərin çoxunu diri-diri okean sularına qərq edərək, nəhayət, Kubanın San-Leon adasındakı xüsusi olaraq Afrikalı qulların saxlandığı qalaya gətirirdilər.*

*Oradan isə"qul bazarında"Cənubi və Şimali Amerikadakı fermerlərə satırdılar, əlbəttə, zəncirlərdə! Belə qullardan biri-Afrikada, öz vətənində pələngi daşla vurub öldürmüş-"milli cəngəllik qəhrəmanı", məhşur azadlıq carçısı, zənci-Sinq uzunmüddətli məhkəmə çəkişməsinin sonunda qalıb gəlir; ABŞ-da zəncilərə rəsmi azadlıq verilir! Zənci qulları qaladan guya çıxararaq, əlbəttə, bir qismin, ABŞ-ın o zamankı dəniz qüvvələrinin ağır top atəşi ilə qala yerlə-yeksən edilir; çox güman ki, qullarla birlikdə! Allah və bir də əməliyyatı icra edənlər yaxşı bilir! Və Senata məlumat verilir ki, "ABŞ-da daha heç bir qul və qala yoxdur! "Ola bilməzdi ki, həmin qala-"utanc qalası"kimi saxlanılaydı?! Bəs onda"azadlığa buraxılmış"minlərlə zəncini necə yerləşdirəcəkdilər?! Elə, faciə də bu ucdan baş vermiş olmalıydı! Çox güman! İndi də Kubanın Quantanama zindanında yüzlərlə" əl-Qaidəçi terrorist"müsəlman saxlanılır, zəncirlərdə! Məgər, bu, quldarlığa qaydış deyil, bəs nədir?! Sualsız-sübutsuz on illərdi ki, saxlanılırlar... Onlarla müsəlmanı qətl etmiş isveçli terroristə isə hələ də hökm oxunmamışdı və zəncirlənməmişdir! Niyə?! Ona görə ki, "xristian qırığıdır! "Xristian ərköyünüdür! Öldürdüyü isə müsəlmandılar! "Müsəlman fobiyası"davam edir Avropada! ..*

Uzaq keçmiş də deyil
qulların azadlığı,
Üstündən kölə sözün
götürəndə adlığı!
Kubada,San-leonda
qulların qalasının.
Toplarla yıxılanda
qırılan balasının





Sayı-hesabı varmı?!
Amerkaya bu armı?!
Afrikadan gələn Sinq
Amerkada köləydi.
Azadlıq carçısının
Qul həyatı beləydi;
Ovlanmış Afrikada
Öz kəndi yuvasında,
San-leonda,-adada
Üsyankar davasında!..
Afrikadan Kubaya
Gətiriləndə neçəsi?..
Atıldılar havaya
Ərzağından keçəsi?!
Amerkada məhkəmə
Bunu da sübut etdi...
Bu utanc bir hənqəmə,
Quldarlıq suqut etdi!
"İnsanın insan üstə
hökmranlıq sənətin,
Dünya vərdiş etməsin,
Dəyişdirsin adətin!"
Bəyamnamədə yazıb:-
" Adəm oğlu eşitdi.
Qullara qəbir qazıb!-
Bütün dünya eşitdi...
Afrikalı Sinq qalib
Gəlsə də məhkəmədə,
Qullar ölümə dalıb,
San-Leon-məngənədə!
Azadlıq heykəlinin
Uca əli səmada,
Cüzi insan sağ qaldı,
Ağır toplar əmada!..

İspaniya ləğv etmədi
Quldarlıq qurluşunu.
Utancla təzələsin
Qərb tarixin huşunu!!!
"Soyqırım"kəlməsini
Gətirməsin dilinə,
Hindu,zənci-kəsini
Alət etdi dininə!
Akt da yazdı Amerika:-
" Qul da yoxdu,qala da..."
Minlərlə qara insan
Məhv edildi adada!..
İki üzlü siyasət
Qərbə məxsus peşədir,
Sənəddəki azadlıq,
Qul üçün əndişədir!
O gün Ali Məhkəmə
Qərar verdi:-Azadlıq!
Məhv edildi qalada
Yüzlərlə qara azlıq!..
Sərras top atəşiylə
Qala sovruldu göyə,
Qullar dar qəfəsiylə
Dönə bilmədi öyə...

Göyə sovruldu qullar,
Qala qəfəsləriylə!
Barıt qoxusu aldı,
Çıxmış nəfəsləriylə...
İndi də davam edir
Quantanama xofu,
Müsəlmanlar terrorist!-
Xristian da artist!..
Neofaşist qüvvələr
İndi cilov gəmirir,





Raketlərdə nüvələr,
Yerə bəla gətirir!!!
Xristian terrorist,
Öz vətənində"dustaq",
Bir müsəlman terrorist
Yarı ölü,yarı sağ!..
İkili standartın dünya versin cavabın,
Bu əsrin"qalasının"kim qazansın səvabın?!
...Məhkəmənin qərarı:-"dəli"saydı canini!-
Cani halın dəyişmir,irişib baxır üzə,
Azadlığa çıxanda partladacaq camini,-
Belə"ədalət"ilə yenə qan çıxar dizə!..
*01.05.2012-ci il. Beyləqan şəhəri.*

## ÖLÜM HÖKMÜ

*Ruhu şad olsun, tarix müəllimim-filosof Qənbər Əsgərovun əziz xatirəsinə. Sovet dönəmində güllələnməyə seyrici qalan Ulu Öndərimiz, müstəqillik dövründə iradə və humanistlik göstərərək ölüm hökmünü götürdü, müharibə vəziyyətində olan ölkəmizdə, Helsinki konvensiyasına uyğun olaraq. Bu, Ulu Öndərimiz tərəfindən çox cəsarətli adım idi!Ruhu şad olsun!*

Bu göy-yerin taxtında,
Hamı torpaq olacaq...
Bu,insanın baxtında,
Qismət,qəbri qalacaq?!

Çətin suala cavab,-
Bir kimsə verə bilmir.
Öləndən sonra səvab,
Xoş əməllər silinmir.

Ruhları qoy şad olsun,
Vaxtların çox ötürdü...
Müstəqillik ad olsun,-
Ölüm hökmün götürdü!

*30.10.2011-ci il. Beyləqan şəhəri.*

## ƏRƏBLƏRİN BAHARI

*Özünü müsəlman sayan Kəddafi (Liviyanın keçmiş pezidenti) 200 milyardlıq pulunu Somalıdə acından ölən yüzlərlə müsəlmana, ehtiyac içində olan öz xalqına sərf etməkdənsə, hakimiyyətini qorumaqdan ötürü topa-tüfəngə sərf etdi,iç savaşında yüzlərlə insan qırıldı... Özü isə üsyançılar tərəfindən ələ keçirilib ölənə qədər döyüldü və öldürüldü! Cana doymuş xalq müsəlmançılığa sığmayan bir biçimdə onun çılpaq meyidi yanında şəkil çəkdirdilər, nəşini ələ saldılar, bütün dünya bu mənzərəni həyacanla izlədi!*

Müsəlmanın tərifi,-
Bir Allaha inanmaq;
Vadar edər arifi,-
O dünyanı da anmaq!..

Yəni savab iş görək;
Kimdə var böyük ürək,
Versin aclara çörək,
Yoxsa,acları döyək?!

Somalidə acından
Öləndə məzlum insan,
Kəddafi olub aslan,-
Öz xalqını yanıdı!

Qitənin bu başında
Kəddafi xalqın"sevir!"
Somalidə acından
Yüzlərlə can can verir...





Baş qarışdı davaya,
Pul sovruldu havaya!
Özü keçdi yabaya,-
Xalqı onu qınadı!..

Belə müsəlman olar?-
Vaxt keçər,zaman dolar!
Kreslolar boşalar,-
Onda yolun sonudur!..

Tunis, Misir baharda,
Yəmən də çiçəklədi!
Somali xalqı darda,
Kəddafi səfehlədi!

Dünən hökm edən bu gün,
Küçələrdə can verir!
Dünənki bir böyügün
Yaraları qan verir!..

Çılpaq nəşi yerdədir,
Coşan dili susubdur...
Hakimiyyət nərdədir?-
Yediyini qusubdur!

Dünən hökm edən valeh*
Dəmir barmaqlıqdadır!
İstehfa verdi Saleh**,
Adı soraqlardadır!..

O da çətin qurtula,
Xalq məhkəmə istəyir!
Suriya qalıb dala,
O da arşını əyir!..

* Misirin keçmiş prezidenti-Hüsnü Mübarək nəzərdə tutulur-red müəll.
** Yəmənin keçmiş prezidenti - Əli Saleh, red.müəll.

Dolanışıq aşağı.
Axrınız xeyir olsun!
Təmir etmir uşağı,
Artacaq!-deyir,olsun!..
Kaş ki,belə olaydı!

*30.11.2011-ci il. Beyləqan şəhəri.*

## ACIYIR

*Türkiyədə piket keçirən erməni lobisinə; Türkiyədə ermənilər (haylar)"Aqos"qəzetinin baş yazarı Hrant Dinkin 5 il bundan öncə. 19 yanvar 2009-cu ildə dəliqanlı-millətçi bir türk gənci tərəfindən qətl edilməsindən sonra, həmin gəncə Türkiyə məhkəməsi ağır cəza verdi. Lakin yüzlərlə erməni küçələrə tökülüb; piket-filan keçirir, məhkəmənin qərarına etiraz edirlər; guya ki, məhkəmə işə düz baxmayıb, "örgüt-filan" axtarıb tapmalıymış, özlərinin mənfur-cinayətkar "örgütləri" kimi;türkləri qətl edən, türklərə qarşı soyqırım törədən yüzlərlə örgütləri kimi!.. Hrant Dink üçün bir ayaqqabıya qıymayan erməni örgütü bu "yazıq" erməniyə yas tutmaq əvəzinə,bu qətli özlərinin siyası məqsədləri üçün istifadə edirlər, yalançı"erməni soyqırımını gözə soxmağa,dünya ictimayətində yalançı rəy yaratmağa çalışırlar.*

Yenə haylar Türkiyədə hay salıb;-
-Hrant Dink davası bitməyib hənüz!
Türk oğlu an ağır cəzasın alıb,
Haylar küçələrdə sanki,bir dəniz!

Gözümün önünə gəlir Hrant Dink;
Üzüquylu yatır küçədə cansız...
Ayağında nimdaş, yırtıq bir çarıq,
Ona bir cüt başmaq alaydın,qarısız!

Guya Hrant Dinkə canı yanırmış,
Qışın soyuğunda düş küçələrə?!
Onun ildönümün belə anırmış,
Lobisi güc verib pul-kisələrə?!

"Həpimiz erməni,həpimiz türkük,"-
Deyib,cinayətə don geyindirmə!





Nə qədər rəzilsən,nə qədər küçük,-
"Böyük qırğın!"-deyib,kələk əyirmə!

Gözümün önünə gəlir Ramilim;
Onu da o qətlə hay vadar etdi!
Hrantı öldürən başqa bir dəlim,-
O da Ramilimin dalınca getdi...

"Daşnaqsütyun","Knak"...saysan;yüz örgüt,
Türkə qarşı qurub,kökümü kəsir!
Dəliqanlı türkə verir min öyüt,
Bircə ölüsünün üstündə əsir!..

Hrantın qədrini elə bilirdin,-
Niyə sağlığında başmaq almadın?
Küçəyə düşməkdə başqadı dərdin;-
Yalan"soyqırımla"türkü qınadın!..

Kirvəsi Parisdə hay-həşirdədir,
Özü Türkiyədə küçələrdədir!
Naqis arzuları mürdəşirdədir,-
Lobinin verdiyi kisələrdədir!..

Örgüt axtarırsan Hrant işində,
Xain,qəlbiqara,kinli adamcıq!
Sənin örgütlərin türkün peşində,
Kəsib atılmalı xəstə badamcıq!..

Hay türkün köksündə qara çibandır,-
Kəssəm, kəsməsəm də canım acıyır!..
Bütün varlığıyla türkə yabandır,-
Duyub həqiqəti qanım acıyır!!!

*20 yanvar 2011-ci il. Beyləqan şəhəri.*

## XOCALIYA XAÇ YÜRÜŞÜ

Sandıq, dünya sivilləşib,-
Vandallar qaldı tarixdə.
Xaç yürüşü civilləşib,
Xocalıda etdi diqtə;

Bu gün mədəni dünyamız,
Vandallara qucaq acır;
Daşnaqlar qanlı röyamız,-
"Ocaq"yazıb alov saçır!

Bu faciyə niyə oldu?
Qara gözlər niyə doldu?
Hay-qudurmuş it sürüsü,-
Xocalıya xaç yürüşü!

"Xaç"yürüşü yada düşdü,-
Vəhşilərin bəd savaşı!
Tarixlərdə ada düşdü,
Nadanların"xaç"davası...

Tanklarında xaç nişanı,
Dizə çıxdı insan qanı,
Güllələrdən arı şanı,-
Oldu bədən,baş-qafası!

Adın qoyub"xaç"davası,
Qara keşiş pərdələnib;
Zəhərləyir kor qafasın,
Ürəyimə dərd ələnib...

Axırı pis qurtaracaq,
Ölüm-dirim davasının;
Tanrı,qafasın qıracaq,
Qurtaracaq vay havasın!

*04.11.2012-ci il. Beyləqan şəhəri.*





## İYİRMİ YANVAR GECƏSİ

İyirmi yanvar gecəsi,
Tanklar girdi Bakıya;
Gülləyə gəldi neçəsi,
Bu iş gəlməz şakaya!..

Əzrayıl enib Bakıya,
Yoxsa,qismətmi deyək?!
Fürsət verilib yağıya,
Qarşısında əyilək?..

Xallı şeytanın əməli;
Allahın xəbəri yox!
Erməni qoyub təməli,
Ölüm,qandan bəri yox?!

O taydan bir daş atılsa,
Gəlib dəyir xalqıma.
Bir qara xəbər yazılsa,
Tez yazılır alnıma!..

Küçə,yollar qan içində,
Ölənlər,yaralılar...
Cəsədlər qorxunc biçimdə,
Tank altında qalıblar.

Dünən hayqıran insanlar,
Qan içində yatırlar...
Cana tuşlanan nişanlar,
Susmaq bilmir, atırlar!

Azadlığın alıb nişan,
Millətimə atırlar!
Millətim olub pərişan,
Erməniyə satırlar...

Şəhid olub cavanlar,-
Qurd üstünə gedənlər!
Qəfil gəlib canavar,-
Qoyun,quzu güdənlər!..

Bu günün aslanıtək,
Şəhid olub azaldım,
Azadlıq dastantək,-
Tarixlərə yazıldım!..

Qanlı yanvar qan yaddaşım,
Çətin onu unudam!
Yazıldı yerə başdaşım,-
İftixaram,umudam!..
*20.01.2013-cü il. Beyləqan şəhəri.*

## YENƏ ƏSARƏTDƏYƏM

Neft-qaz çıxaran əllərin
Nə olsun ki,qızıl kəsir;
İmperialist qüvvələrin
Əllərində qalıb əsir!

Dünən Moskva istədi,
Bu gün soran bir dəstədi.
Xalq nigaran,can üstədi,
Ürəyimiz tir-tir əsir...

Başımda var hay dumanım,
Gələcəyə yox gümanım;
Qara neftiyidi amanım,
Onu da masonlar kəsir!

İngilist yeyir ətimi,
Neftdən gələn sərvətimi,
Özü qoyur qiymətimi,
Mən də vətənimdə yesir!





Harda neft var, orda dərd var,
Hay silləsi daha sərt var;
Mənim kimi susan pərt var,-
Bir quru yurd, bir də həsir...

Payın çoxunu götürür,
Sonra da haya ötürür!
Neft-qaz bəlalar gətirir,-
Qılınc başım üstə əsir!

Davam əsarətim edir,
Yanır cəhənnəmdə ətim;
Düşmənlə dostdu millətim,
Davam edəcək yüz əsir...

Qarabağdakı süqutum,
İraq, Liviya sübutum;
Baş əyməyən qalır yetim,
Qızılbaş da bundan küsür...
*21.03.2012-ci il.*

## AZADLIĞIN SINAQ DÖVRÜ

*Ulu Öndər 1994-cü ildə Bakıda "Gülüstan" sarayında "Əsrin müqaviləsi"ni imzalayanda öz sərvətimizin 20 faizinə sahib olduq;-buna da şükür! - dedik... Müqavilənin müddəti 25 ildir, ınaq dövrü!.*

Bizim sınaq dövrü 25 ildir,
Ona da dözərik,dözümlü türkük!
Azadlığın tamın nə vaxtsa bildik,
Başımızın üstün tez aldı bürkü...

Sovet rejimində mənganədəydik,
Mənganədən çıxıb düşdük müşkülə;
Düz yola çıxmışkən onu da əydik,
Nə olar,azadlıq bizə tuş gələ!..

Dünyanı bölüşən dövlətlər ilə,
Şahmat taxtasında görüşən xalqıq;
Bizə yol göstərən qələtlər ilə,-
Çıxılmaz dalanda köməksiz qaldıq...

İndi hökm verən,qıran da onlar,
Biz də hökmə tabe təəbələr olduq.
Bundan yararlandı kəmfürsət yanlar,-
Onların əliylə yürddan qovulduq!

Yenə də"düyünə"düşdü işimiz.
Düyünü vuranlar xalqıma bəlli;
Düyünü açmağa yetmir dişimiz,
Deməк ki,çətindir bu işin həlli!

Əgər"düyün"vuran hay tərəfdəsə,
Müstəqil olmağın anlamı yoxmuş?!
Azadlıq kəlməsi çox şərəflisə,
Bəs niyə xalqımı dalana soxmuş?!

Neft-qazın üstündə başımız dərddə,
Lenin də,Hitler də,ABŞ da cumdu!
Hökm-zər əlində qalmışıq nərddə,-
Qoşa şeş verəndə deyir,-"hücumdu!"

Oğrunun səsinə doğru bayılır,
Tüpürüm oğrunun ədalətinə!
Şükürlər olsun ki,xalqım ayılır,
İnşallah,son qoyar zəlalətinə!..
(Özü sahib çıxar öz sərvətinə!)





Bu"sınaq dövrü"də çatanda başa,
"Azadlıq"carçısı(?)"son!"-deyəcəkmi?!
Qorxuram,yenə də sözündə çaşa,
(Deyərmi xalqıma firavan yaşa?!)
Yenə iki üzlü don geyəçəkmi?!
*12.08.2013-cü il.*

## TÜRK ƏSRİ

*16 avqust 2013-cü ildə Azərbaycanın (qədim Albaniyanın paytaxtı) Qəbələ şəhərində keçirilmiş Türksoyun "Qəbələ samitinə" həsr edirəm; Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Azərbaycan respublikasının qatıldığı samitə Macarıstan (Hunqariya), Monqolustan, Başqırdıstan, Tatarıstan, Kaxasiya və digər xırda türk dövlətləri dəvət olunmamışdı. Təəssüf. Yəqin səbəb ləri vardı. Kaş ki, heç olmayaydı!.. Hələ Bolqarıstan, Rumıniya, Qaqauzlar, Hinduları (canlar, mayalar), Kərkük türkmənlərini demirəm... Möhrərəm prezidentimiz İlham Əliyev 21-ci əsri "Türk əsri" adlandırdı!*

Yenə toplanıbdı türk böyükləri,
Qədim Albaniyanın baş şəhərinə;
Bir-birinə verir şah öyüdləri, -
Ki, birgə çıxsınlar türk səhərinə!

İyirm birinci əsr, "Türk əsri"kimi,
Dünyanın bağrından yüksələcəkdir!
Atacaq köksündən hüzünü, qəmi, -
Bu dünya durduqca türk güləcəkdir!

Qazax, türkmən, özbək, qırğız, azəri,
İndi bir-birinə arxa durublar;

Övladları atıb dərdi, kədəri, -
Qardaşlıq naminə"Şura"qurublar!

Möhtəşəm yüzillik indi başlayıb,
Türklər zirvələrə atılacaqdır!
Qəlbindən şeytanı qovub, dışlayıb,
Macar da, monqol da qatılacaqdır!..

Türksoy"Türk şurası" yaradıb indi,
Bu il Azərbaycan"Şura"ya rəhbər;
Düşmənin bağrını qaraldıb nədi, -
Bütün türk dünyasın edər səfərbər!!!

Qüvvət birlikdədir!-deyib atalar,
Bu Türk birliyini pozma, İlahi!
Yerdə qalan türklər həvəs tapalar,
Bunu"pantürkistliyə"yozma, İlahi!

Yaxşı yola saldı qədim Qəbələ,
Türksoylu xalqların ən böyüklərin;
Türkün tarixində bu bir qələbə, -
Bir yerə qoydular son dediklərin!..
*16-17.08.2013-cü il.*

## NANKOR, YOXSA, AYILMIŞ?

*Erməni xislətli, bəlkə də əsli-kökü*
*hay olan Əkrəm Əylisliyə.*

Ona nankor demirəm,
Bu sözün yiyəsi var.
O ayılmış bir hərəm,-
Dünyaya deyəsi var...

Qoy ürəyin boşaltsın,
Zori Balayan kimi:





Ermənini"ucaltsın",-
Haylar ağlayan kimi!

"Ot kökü üstə bitər",-
Yaxşı deyib atalar;
Hay geni çətin itər,
Dönüb haya qatılar!..

Daş yuxudan ayılar,
Sərsəm-sərsəm sayıqlar...
Elə yalan danışar,
Yatanlar da alışar!

Onun da qanı qəliz,
Əylis ermənisitək!
Haydan dönmə bir bəniz,-
Əmcəyin gənəsitək...

Bu torpaqda əkilmiş,
Dönük ermənilərtək,
Qan əmib çox kökəlmiş,
Donuz,gəmricilərtək!..

Çoxdan yolunu azıb,
Erməni təəsübkeşi,
Mir Möhsün Nəvvad* yazıb,
Vəsf eləyib keçmişi;

Mir Möhsün Nəvvad açıb
Onların iç üzünü,-
Tarixə işıq saçıb,
Əkrəm tapıb izini...

O,türkün qanın içən,
Erməni dığasıdır;

* Mir Möhsün Nəvvad-mütəfəkkir, yazar, tarixçi - red. Ə.H.

O,türkü haydan seçən**,
Millətin yağısıdır!

Ermənіyə ad verib,-
Puşkin,Lavrov,Veliçko;-
Əkram özünü sərib,-
Özün göstərib açko!

"Əgər oğru,hiyləgər,
Həm qorxaq,həm də nökər,-
Deməк ki,ermənisən,-
Türkün al qanın tökən!!!

Siz onu qınamayın,
Qanı çəkir,neyləsin;
Qurdun versən də payın,
Bir gün tutar yiyəsin!

*15.02.2013-cü il. Beyləqan şəhəri.*

** "hayes-türkes?"-erməni sualı nəzərdə tutulur, red.müəl.





# LİRİK DUYĞULAR

## XƏYALIMDAN KEÇIRDIM

İndi xəyalımdan keçirdim səni,
Yel vurdu,yatdığım qapı açıldı;
Dərin xəyalımda içirdim səni,-
Elə bil,ruhuma sevgi saçırdı...

Səni arzuladım,sən gəlməz oldun.
Gələ də bilməzsən,bunu bilirəm.
Qəlbimdən keçəni heç bilməz oldun,
Qeyb olmuş ruhunu indi dilərəm!

Ruhlar vardı,yoxdu,onu kim bilir.
Onu bilirəm ki,sən yoxsan burda.
Ruhların varlığın bircə din bilir,-
Deyir,bəzən,ruhlar qalırlar darda...

Kaş ki,rastlaşaydı ruhun mənimlə,
Girəydi içimə mənim olaydı;
Baş-başa olaydıq yenə səninlə,
Mən ilə sən,dünya elə qalaydı...

Yenə qayğıların bəlkə bitməyib,
Yenə uşaqları fikirləşirsən...
Ruhun sağdı,deyə,adın itməyib,
Yenə də qəlbimdə ikiləşirsən...

*25-08-2013-cü il.Əlizamin Hüseynli(Qızlbaş).Beyləqan şəhəri.*

## ŞEYTANIM İÇİMDƏDİR

Yaz nəfəsi ürəyimi qızdırar,
Çiçək açar budaqlarım,dallarım.
Mən sevdiyim elə gözəl qızdılar,-
Bu yaşımda görən yenə aldanım?!

Uşaq vaxtı şeytan məni azdırıb,
Qızların dalınca suda axmışam!
Məktəb yaşda hərifi səff yazdırıb,
Səff tutanda matdım-matdım baxmışam...

Tələbəlik illərinin acısın,
Semaşkoda işləyəndə unutdum;-
Şeytan dedi:-filankəsin bacısın,
Mən bişirdim,mən düşürdüm,mən uddum!...

Daha sonra...həkim olub işlədim;
Nəfsimin qurbanı oldu sənətim...
Kimi tumarladım,kimi dişlədim,-
Bu yolda əyildi qürur,qamətim!

Bu işlər çoxunun başına gəlib;
İbliz kimi qlafında gizlənib!
Əlzamin çoxunun xoşuna gəlib,
Fəqət,dilə düşüb,bəzən izlənib...

Arvad qısqanc olub,zəhləmi töküb,
Ehtiraf edim ki,bəzən vurmuşam.
Pulsuzluq,qocalıq belimi büküb,
Yorulub,usanıb sakit durmuşam...

İndi də şeytanım bəzən aldadır;
Allahım qorusun şeytandan məni!
Şeytan içimdədir,bilməm hardadır?-
Çox vaxt tənha qoyub meydanda məni...





Şeytanın günahı yoxdu,a qardaş!
Şeytan dediklərin öz içimdədir...
Əgər inanmırsan get,o"Qara daş",
Gör,şeytan sifəti nə biçimdədir?!

*25.06.2009-cu il. Beyləqan şəhəri.*

## SON BƏXTİM

*Sevimli bəstəkar Gövhər xanım Həsənzadəyə həsr edirəm:-"pesni-moi samıye luçşie blyudi..."*

"Palitra"da şəklini,
Görəndə qaragözlüm,
Dəli etdin həkimi,-
Gövhər xanımmış sözlüm...

Yuxusuz hər gün gecəm,
Sənin qara gözlərin.
Taleh deyir gələcəm,
Xatırladım sözlərin;-

...Qaraçı fala baxdı,-
Yeddi yaşım olanda;
-"Qaragözlüdü baxdın,-"
"Bir dul qadın alanda..."

"Sənin son bəxtin odur,-
Qara gözlü bir mələk!
Xoş həyatın daldadır,
Bəxtinə o gələcək!.."

Gözmuncuğu taxmısan,
Göz dəyməsin,amandır!
Ürəyimə axmısan,
Falçı dediyi andır!..

Niyə çıxardım səni,
Ürəyimin içindən?!
Elə axtardım səni,
Tapdım,qəlbim seçəndən.

Sətirləri üzülən,-
Bir şeir yazdım sənə.
Bir mahnıya düzülən,-
Medalyonam sinənə!..

As,qəlbinin içindən,
Səni sevən nə çoxdu?!
Mən sevirəm içimdən,-
Vallah,yalanı yoxdu!..

*15.06.2012-ci il. Beyləqan şəhəri.*

## SÖZ YARADAN QALASIDI

Söz mülkünün varı nə çox,
Hər ömürün yarı nə çox!..
Hamı ölüb gedəsidir,-
Söz yaradan barı nə çox!

Bu dünyada ən dövlətli,
Söz mülkünün kənkanıdır.
Allah böyük,səxavətli,-
Verdiyi şair qanıdır!

Qanın ilə yazdıqların,
Bu dünyada qalasıdır.
Bu dünyada azdıqların,
Cəhənnəmə salasıdır?!

Cəhənnəm,ya da cənnətin,
İçində varmı sənətin?!
İstəmirəm o qisməti,-
Ölüm məni alasıdır...





Dünyadan aldığın nədir?
Dünyaya verdiyin nədir?
Yadigarı min-bir şeir,
Bir ki,dörd balasıdır...

Dünya mənimdi!-deyənlər,
Dünyanı diri yeyənlər,
Dünya heç kimin!-deyənlər,
Söz yaradan qalasıdır!

Dövlətin var qucaq-qucaq,
Vaxt gələcək yox olacaq!
Söz mülkü daim qalacaq,
Deməkvarlısan,Qızılbaş!

Çəkmə bu qədər sitəmi,
Yola salmısan Hatəmi;
Gələndə şeirin dəmi,
Sil sözünü şair qardaş!..

*01.12.2011-ci il. Beyləqan şəhəri.*

## FƏRQ

Bütün dünya bu gün nəsə,
Xalqa xitmət istəyir.
Azərbaycan xalqı isə,
Bu dövlətə işləyir...

Dövlətin mübarək,xalqım,
Şanlı Odlar yurdumuz!
İsdiqlalı qanla aldım,
Qoruyacaq ordumuz!..

Bu gün üç rəngli bayrağım
Dalğalanır səmada!

Xoş gəlibdi bu növrağım,
Dayanmışıq əmadə!..

Məşəqqətlər çəkdi başım,
Bu dövlətə də şükür!
Azalıb torpağım,aşım,-
Düşmən belimi bükür...

Torpağıma göz tikənin
Sayı-hesabı yoxdur.
Neftin hesabın çəkənin,
Səbri-əsabı çoxdur!

Əsabımla çox oynayır,
Biz ki,dözümlü xalqıq!
Nə qanım coşub qaynayır,
Yüz yerdən möhür aldıq...

Daha qanımız qaynamaz,
Soyutdular qanımızı.
İndi moda minib namaz,
Təslim edək canımızı?!

Hələ tezdi,can qardaşım,
Gələn nəsli düşünək!
Hahaq bezdin,qan qardaşım,
Namus-ardan üşünək!..

*02.06.2012-ci il. Beyləqan şəhəri.*

## FƏRİDİMİN TOY GÜNÜ

Fəridimin toy günü,
Atam yadıma düşdü;
Etdiyi toy-düyünü,
Həkim adıma düşdü.

Allah ömür verirsə,
Həyat səni sevirsə,





Babat yola gedirsə,
Yaşam da yaxşı işdi.

Yayın yerin qış alıb,
Ömrün boyu qısalıb,
Alı deyən azalıb,
Sökülən çəpər dişdi.

İllər durna qatarı,
Gəncliyimi aparır,
Qocalığın çaparı,-
Ahıl çağıma düşdü.

Saçlarıma dən düşür,
Qəm zərlərim tən düşür,
Gözlərimə cən düşür,
Şəkər qana girişdi...

Gənclıyım başsız gəmi,
Ömrümün keçən dəmi,
İndi Fəridim əmi,
Ömür günü dəyişdi.

Tural,Aytən ev olub,
Sevincləri sel olub;
Fərid sevgili olub,-
Həyat yolunda bişdi...

Aygülüm,son beşiyim,
Sağlamlığım,keşiyim,
Ayna nənəm,-qəşəyim,
Yeri cənnət-behişdi...

Sevinc gözdə yaş olur,
Fərid,Süsən baş olur,
Süfrəmizdə aş olur,-
Qızılbaş yeyib şişdi...

*04.08.2012-ci il. Beyləqan şəhəri.*

## GÜC DƏ VERƏR

*Qələm dostum Tural İrfanın"Dəli olmaq istəyirəm"şeirinə.*

Gözləyib altmış yaşımı,
Atıb abrımın daşını,
Bir gözəlin göz-qaşını,
Vəsf elədim yaman,Allah!

Məhəbətin yaşı olmaz,
Sönük gözün yaşı olmaz.
Sevənlərin başı olmaz,-
Ağlım itir,aman,Allah!

Bu ehtirasmı,sevgimi?-
Eşq ilə yıxdım evimi...
Məni aparan selimi?-
Axtarıram saman,Allah!

Öz sözünü deyir zaman,
Dərd içimi alıb tamam,
Sevişməyə yoxdu gümün,
Güc də verər güman,Allah!
İnşallah!

*04.08.2012-ci il. Beyləqan şəhəri.*

## DƏLİ OLMAQ İSTƏYİRƏM

İllər nə tez keçdi,Əli,
Dönə bilməm bir də geri.
Xivvətimdən ollam dəli,
Dəli olmaq istəyirəm.

Gəncliyim quş qanadında,
Uçub gedib öz anında.





Xatiri qalıb yadımda,
Dönüb almaq istəyirəm.

Necə alım,geri dönməz,
Aquşuna məni gömməz?!
Ehtirası,eşqi sönməz,-
Əli olmaq istiyirəm!

Daha Əlidən xəbər yox,
Qəm dənizində bəhər yox.
Qocalıq kimi zəhər yox,
Zəlil olmaq istəyirəm.

Gözəlləri necə duyum?-
Dəyişdikcə gənclik huyum?!
Süzülüb tökülüb suyum,-
Sulu qalmaq istəyirəm.

Gözlərimdə qəm dəryası,
Qəlbimdə dünyanın yası,
Başımda eşqin havası,
Dəli olmaq istəyirəm...

*04.08.2012-ci il. Beyləqan şəhəri.*

## QIŞ BALLADASI

*07-08 noyabr 2011-ci ildə Beyləqana və respublikanın ərazisinə ilk qar yağdı*

Qış yaman darıxıb bu il tez gəlib,
Dağı,dərələri aşıb düz gəlib;
Keçən ilki Yer vətninə gəlib,
Yanılmayıb,ünvanına düz gəlib.

Soyuqda,çovğunda deyəsən üşüb,
Ağ-ağ ləçəyini asıb gəlibdi.

Görüb ki,cənubda istilər düşüb,
Dözməyib,oradan qaçıb gəlibdi...

Dedim ki,xoş gəldin əli qarlı qış,
Soyuğa,-coş!-dedin,əli varlı qış.
Sən düşən torpağa bərəkət düşər,
Yağmurdan boş yer yox,qar-baharlı qış!

Qışın da,ay baba,öz ləzzəti var,
Soyuqlu-çovğunlu yüz bəzzatı var.
Vaxtilə büz sarmış yer kürəsini,-
Bu qoca dünyanın buzdan qatı var!

Odur ki, günəşə sitayiş etdim,
Sonra da atəşin dalınca getdim;
Az getdim,çox getdim,axır,yetişdim,-
Anladım,nizamı quran Zatı var!..

Bu sonsuz göylərin yeddi qatında,
O qatda gecələr ulduzlar gördüm.
Yüz cür həşarat var qarın altında,
Gün kimi,Ay kimi yalqızlar gördüm...

Gördüm Yer kürəsi asılıb göydən,
Bir yanda bahardı,bir yanda qışdı!
Bu sızaq qış günü çıxdım ki,öydən,-
Gördüm,dün yanan yer qardı,yağışdı.

Soyuqdan gül-çiçək boynun bükübdü,
Qaranquş,bülbüllər uçub qaçandan.
Şahanə yarpaqlar yerə çökübdü,
Xəzan yarpaqları coşub açandan!

Həşaratlar görən harda gizlənib?-
Heyva,narın içi tamam bizlənib.
Yem axtaran quşlar,ov heyvanları,
Düşmən tərəfindən qışda izlənir!





Mənim isti evim,yorğan-döşəyim,
Bəs göldə qalana nəyi döşəyim?
İçimdən səs gəldi;-vəhşi aləmin,
Yeri-yuvası var,-küncü,köşəyi?!

Olmasa,onların nəsli kəsilər;
Gələn bahar,yayda hünülər uçmaz.
Kəpənək,arılar bir az əksilər,
Olmasa,ağacda çiçək bar açmaz!..

*07-08.11.2011-ci il. Beyləqan şəhəri.*

## TƏQDIMAT

*05.11.2011-ci ildə, Qurban bayramı ərəfəsində Əlizamın Hüseynlinin (Qızılbaşın) "Bir ünvan yaşa dım" şeirlər kitabının təqdimatı keçirildi; Beyləqan ədəbi birliyinin nümayəndələri onu təbrik etdilər, ürək sözlərini belə ifadə etdilər (təvazökarliqdan uzaq olsa da deyəcəm). Onların dilindən.*

İlk kitabın çıxıb,yığışıb dostlar;
Kitabın mübarək,şair qardaşım!
Şəninə deyilır tərif lər,tostlar,
Deyəsən,sevincdən axır göz yaşın?!

Dedin ki,xəcalət çəkmisən bu gün,
Xəcalətli düşmənin olsun sənin!
Rəngarəng şeirinlə artacaq ünün,
Şairi olmusan sən də Vətənin!..

Həkim-şair olmaq çətin peşədir,
Sənin yükün ikiqatdı,çəkirsən!
Hər iki sənətin çox əndişəli,
Can,-şeir bağında nədi,əkirsən?!

Səndəki saf ürək ikiqat vurur;
Qəlbdə,əlində nədi bu sehrin?!
Şəfalı əllərin həkimtək qurur,
Şairtək,ruhumu oxşayır şeirin!..

Ay Allahın əziz,xoşbəxt bəndəsi,
Sənə öz lütvündən ikiqat verir;
Sənə verdikləri aşkar həndəsi,-
Zəhmətlə istedad bil,rahat verir!..

Bu kitab zəhmətin,fitrin məhsulu,
Orda deyilənlər şair kəlməsi!
Bu kitabı yazan Allahın qulu,
Allahım,Qızılbaş gözə gəlməsin!!!
Deyiləni nəzmə çəkdi Qızılbaş,
Sonunda yeyildi lüləkabab,aş...

*05.11.2011-ci il. Beyləqan şəhəri.*
*Heydər Əliyev mərkəzində.*

## EHTİYAC

Səbir bulaq deyil ki,
Axıb gələ, tükənib...
Sanma, dərdim bu ilki,
Asimana dikənib!

Dərdlərim dərddən doyur,
Qayığısız arvad kimi.
Məni də ala qoyur:-
Çözmə,alış,yat!-kimi...

Nə tilsimdi düşmüşəm,
Şeytan bilir çarəsin!
Bəxtimə çox gülmüşəm.-
Allah buna neyləsin?!





Dərdlərimə çarə yox,
Tayfa salıb tilsimə!
Mal-dövlətdə gözüm yox.-
O da durub qəstimə!..

Ehtiyaclar-dərdlərim,-
Bitib tükənən deyil!
Ətəyində əllərim,
Pulsuz qalmışam veyil!..

*07.01.2012-ci il. Beyləqan şəhəri.*

## MİLLƏTİN ADI TÜRKMAN

*Türkiyəli bilim-araşdırma adamları,-Haydar Dündər və Səlahəddin Çətinqayanın "Tərəkəmə"ki- abında-toplusunda Azərbaycanlıları Qafqaz türkmənləri adlandırırlar. Beyləqan şairi Məsud ibn Nəmdar da öz şeirlərində Azərbaycan xalqını-Beyləqandan Şabrana qədər türkmən adlandırır və onların hakimiyyətini arzulayır, türkmənlərlə fəxr edir! 2249 beytdən çox olan Divanı Böyük Britaniya Kral Əlyazmalar Fondunda-qızıl fondda saxlanılır...*

"...Üzüm o Beyləqanın ən şirin nemətidir,
Ağıllılar danlamaz bu sözçün əlbət məni.
Mən sizə xurma payı göndərirəm uzaqdan,
Bizim torpaq olmayıb çünkü xurma vətəni..."

"...Pəltəklər Beyləqanda,Şabranda şər qatdılar,
Taleyimi yadların ayağına atdılar!
Ruhlarını Tanrımız yəqin ki,əff eyləməz,
Türkmənlər hakim olar,onlara aman verməz!.."

Bu haqda Məsud Nəmdar nə qədər aydın deyib;
Özü də Nizamidən bir az qabaq yaşayıb;
Özü azərbaycanlı,-türkmən adını geyib,
Şeiriylə tarixi bizim günə daşıyıb!..

Burda da türkmən deyə,fəxr edib Məsud Nəmdar;
"Bizim torpaq"söyləyib,üzümlü Beyləqana!
Bir kənarda qalıbdı tarix,sübut,-tarimar,
Adımı dəyişənlər uyub qara şeytana!..

"Pəltək"yadın dilindən təzə ad eşitmişəm,
Özgənin qazanından təzə dadlar yemişəm.
Öz doğmaca babamı necə yad eşitmişəm,
Özümü qandırıblar, qalmışam yana-yana!..

Elə dövran gəlib ki,adımı dəyişiblər;
Elə"müsəlman"deyib,mənimlə döyüşüblər!
Xalqın"başbilənləri"yadlarla gəyişiblər,-
"Türkman"i silib atıb tarixdən qana-qana!..

Heç olmasa,millətin adın düz denən,qardaş,-
Arxivlərə baş da vur,tarix ilə aç savaş!
Ağızına gələni deyib coşma,qulaq as,-
Hara gedir millətim adını dana-dana?!

Adıma gah bir tatar, gah azəri deyiblər;
Gah qədim Albaniya,gah xəzəri deyiblər.
Belə-belə aldalıb sərvətimi yeyiblər,
Tarixə sal nəzəri türkmanı ana-ana!...

Şah babam Xətayinin yaddaşına qazılan,
Şeyx Füzulu babamın baş daşına yazılan,
Kərkük,Mosul,Ərbilin göz yaşında azalan,
Türkmanımın adıdır, indi gəlibdi cana!..





"...Həmişə fəxr etmişəm,mən-azərbaycanlıyam!"
Adımı doğmamışam,hələ ikicanlıyam!..
Mən də türkman!-deyirəm,əlli milyon sanlıyam,
Hamımız qurban olaq anam Azərbaycana!!!

*08.01.2012-ci il. Beyləqan şəhəri.*

## DOKTOR AİDƏ XANIMA

Adın Aidədir, sənətin həkim,
Sənətin dünyanın ən çətin işi!
Səni bu dünyaya gətirib hər kim,-
Nə gözəl anadır,nə gözəl kişi!

Bəsdə boylu,qara gözlü,bal dodaq,
Siyah telin tökülübdü dal-qabaq...
Səni görən,evdən düşmüşəm qaçaq,-
Açmışam başıma mən əcəb işi!

Məlahətli,təravətli gözəl qız,
Bilmirəm ərdəsən,ya da ki,yalqız?!
Səni görcək vurulmuşam mən arsız,-
Eşqin yaşı olmur sözün gəlişi...

İki nardı qərar tutub yaxanda,
Canım alır hər gərdandan çıxanda.
Ağ ayranı itə töküb baxanda,-
Əli cibə tökər qara kişmişi!..

*27.06.2008-ci il. Bakı. Bioloji təbabət kinikasında,alman professorlarının kursunda.*

## DƏYİŞMƏDİ

Bayrağımız dəyişdi,
Xəsyətim dəyişmədi,
Bilmirəm necə işdi,-
Əzyətim dəyişmədi?!

Bəli,zaman dəyişdi,
Bizim iş dəyişmədi.
İyanələr də şişdi,
Bizim diş dəyişmədi.

Yollarımız əyişdi,
Sovet pulun dəyişdik,
Milli pula girişdik,
Bu cibiş dəyişmədi...

Hələ bir az azaldı,
Bəzisinə yazıldı.
Bəzisi də qaz oldu,-
Közdə şiş dəyişmədi!

Tülkü bəyin dərəsi,
Hakim olub hərəsi.
Yoxdu başım çarəsi,-
San,keçmiş dəyişmədi.

Kimin əldə biçağı,
O da basır riçağı!
Şaxtanın oğlan çağı,
Bu nimdaş dəyişmədi.

Fəsil gəlir cürbəcür,
Hərə keçinir bir cür...
Sənə fərq etməz Mücür.*
Yazla qış dəyişmədi!

* Mücürəddin Beyləqanı timsalında ziyalı təbəqə nəzərdə tutulur,red.Ə





Ölkələr var,-qanunu,
Qoruyursan canını.
Çimdikləmə yanını,-
Səndə dış dəyişmədi...

Gülümüz açıb rəng-rəng,
Fəqət,çatışmır ahəng...
Qazan çatıbdı pərsəng,-
Bizdə biş dəyişmədi.

Yoxdu dalımda arxa,
Şəkərim qalxıb çarxa.
Qızılbaş niyə qorxa,-
Qızıldiş dəyişmədi...

*30.12.2012-ci il. Beyləqan şəhəri.*

## ƏMANƏNƏT VƏ DƏYANƏT

*(2013-cü ilin 1-ci şüiri)*

Dəyanəti dağa verdik,
Durdu,laxlaya bilmədi.
Əmanəti bağa verdik,
Fəqət,saxlaya bilmədi...

Bağ da dolub boşalacaq,
Fəsillərin təsbehində.
Əmanəti daş olacaq,
Saxlayacaq bəs zehində?!

Əmanəti insan saxlar,-
Əsirlərin mücrəsində?!
Dəyanəti insan yoxlar,
Qəlb evinin hücrəsində...

Çətin yolların yoldaşı,
Olmaq da var bu dünyada.

Əsirlərin qan yaddaşı,-
Çətin düşər bu gün yada!..

Dəyanəti laxlayanlar,
Satar doğma qardaşın da.
Əmanəti saxlayan var,-
Qayaların yaddaşında!

Əmanəti insan saxlar?!
Bəs Qobustan qayaları?!
Milyon ili gedib haqlar,
Üstündəki boyaları...

O şəkili çəkən insan,
Silə bilməz ütüsü tək,
Oxumaq da deyil asan,-
Qara gizli qutusutək...
*01.01.2013-cü il. Beyləqan şəhəri.*

## DƏYƏRDİMİ NƏDƏNƏ

*Dünyadan vaxtsız köçən gözəl*
*bir qadının əziz xatirəsinə*

Çox gözlədim gəlmədin,
Dedim yəqin küsmüsən...
Dostu oldun namərdin,
Əlaqəni kəsmisən?!

Əlaqəmiz bilinib,
Çətin işə yarayım!
Telfonum da silinib,
Səni necə arayım?!

Oturub gözləmişəm,
Səndən xəbər çıxmayıb...
Xoşbəxtlik diləmişəm,
İlişgimiz çox ayıb!..





Hər sarı ford* görəndə,
Gözüm axtarıb səni...
O gülər,ağ çöhrəndə,
Qəlbim toxtardı mənim!

Gülüm,görən hardasan?-
Bu gün də çox aradım...
Cəfər**dən səni sordum,
Dedi:-gora yaradın?!

Sözünə inanmadım,
Bu,dəhşətli xəbərdi!..
Cəfər danışdı qandım,-
Qırxı bu gün-səhərdi...

Səbəbini soruşdum;-
Dərman atıb,-qanaxma!
Qanaxma alıb hüşün,-
Həkimsiz qalıb axmaq!...

Sarsıldım,çox üzüldüm,-
Onun bəd taleyinə!
Çağısaydı gələrdim,-
Yetərdim köməyinə!..

Təəsüf ki,bilməmişəm,
Heç nədən gedib qadın!
Yas yerinə gəlmişəm,
Pis hallanmasın adın...

Səsim yetmir gedənə,
Hayıf o şux zənənə!..
Gəldin,niyə tez getdin,-
Dəyərdimi nədənə?!

* sarı ford-onun gəlib-getdiyi ford
** Cəfər-sarı fordun sürücüsü

## ÇƏTİN Kİ, ÇATA SƏNƏ

Qəlbimin qulaqları Onu duyub eşidir,
Qəlbimin gözlərinə nur çilənir nurundan:
Onun sonsuz varlığı bu dünyanın eşidir,-
Nə vaxt oyanacaqlar İsrəfilin zurundan?!

Baxıram bu dünyanın bir ömürlük ömrünə,
Dünya necə dəyişir bir ömürlük ömürdə?!
Əbədilik bu dünya ömür-ömür sürünən,-
Nəsilləri yaşadır, nəsillər də ömürdə...

Qəlbimin qulaqları qulaq verir bu sirrə,-
Bir qarışqa ömrünün nurun verir təbiət.
Bir ömürdə dünyanı ya qucaqla,ya girrə,
Yenə torpaq olassan,torpaq olassan əlbət!

Taxılırıq dünyanın tükənməyən varına,
Ianırıq dünyanın vəfasız ilqarına,
Düz ilqarla yaşamaq getməsin çox arına,
İstəsən,istəməsən,torpaq olacaq xilqət!..

Bunları niyə dedim sənə,sən ki,bilirsən,
Bilsən də bilməsən də çətin ki,yata sənə,-
Sərf etməyən şeyləri ömüründən silirsən,
"İtin beş milçək tutdu",çətin ki,çata sənə...

*05.08.2011-ci il. Beyləqan şəhəri.*





## YAZ MƏNİM ÜÇÜN

*Qadın klinikasında bir gözəl gördüm, məsum baxışları nəyi anladır... Qadınların duyğularını anlamaq da mənə düşüb, ancaq çox gec başa düşürəm...*

Dünən bir cənnətə düşmüşdüm,sanki,-
Hürülər bürümüş dörd bir yanımı;
Həyatım boyunca elə bir an ki,
İşvəli bir gözəl aldı canımı!.

Yazın tərafəti çökmüş hüsnünə,
Məsum baxışları nələr anladır?!
Yazıq Qızılbaşın durub qəstinə,-
Günahgarcasına onu danladır...

İçində özünü danladan yazıq,
Qədərə,qismətə gücün yetərmi?!
Onu kəşf eləyib anla azacıq,
Bu həsrət vüsalla söylə,bitərmi?!

Niyə söyləməyə gücün yetməyir,
Sənə ki,dil-ağız verib İlahi?!
Niskilin,işgəncən niyə bitməyir,-
Sənə iki gül qız verib İlahi?!

O dərilmiş güldü,-şöhrət qurbanı,
O şöhrətpərəstin əli qurusun!
Bahar təravəti süsmüş hər yanın,
İlan* illi təbiətin ruhu Sun...

Vücudum doysa da ruhum doymayır,
Ruhumuz göylərin əmanətidir;

* 1953-doğum ilim-ilan ilidir;"sun"-günəşi-baharı sevərlər.

Yerdəki buxolar bizi qoymayır,
Ruhumuz Tanrının zəmanətidir!..

Mən belə anladım Tanrının işin,
Kim necə anlayır qoy elə bilsin.
Sevgi,məhəbbətim,bizim Canişin,-
Məndən əsirgəsə,qoy məni silsin!

*09.03.2013-cü il. Beyləqan şəhəri.*

## BU QIZDAN OLMAZ

*Qız-gəlinlərimizə"tibb kursu"nu öyrədən Afət xanıma. 1983-cü il təvəllüdlü, ilan ilindəndi, mənim kimi.*

Göylərdən enibmi bu mələk,Allah,-
Ruh kimi dolaşır nəyin peşində?!
Qız deyil,elə bil oğlandı,vallah,
Kim mane olsa da bu qız işində.

Mahir təşkilatçı,sadə ürəkli,
Həzin bir nəğməli siması qızın.
Xoş niyyət,ziyalı,arzu-diləkli,
Qəlbin titrədəsən bu incə sazın...

Məqsədi alidir;sənət bəxş edir,-
Yurdumun-elimin gəlin,qızına.
İncə minyatürlə özün nəqş edir,-
Qəlbimin açılan güllü yazına.

Düzü,heyran qaldım cəsarətinə,
Qaynayıb qarışıb bizə gələndən.
Mat qaldım soyuqda hərarətinə,-
Axı,mənim kimi ilan ilindən?!

Qışın oğlan çağı gəlib buraya,
İsti həfəsiylə bahar gətirə;





Gəlib Beyləqana,işə yaraya,-
Gənc qızdan,gəlindən loğman bitirə...

-Mənə bir şeir yaz,-dedi,astadan,
Deyəndə şeirtək axdı qəlbimə;
Bir şeir istədi həkim-ustadan,-
Özünü şeirlə taxdı qəlbimə...

*14.02.2013-cü il. Beyləqan şəhəri.*

## BÖYRƏYIN SATAN QARDAŞ

*Televizorun "Sağlamlıq"rubrikasında belə bir süjet getdi;əlim üzümdə qaldı! Belə də iş olar?! Böyrəyini 7 min manata satan bir el oğlu (Allah ondan razı olsun!) başqa bir el oğlunun həyatını xilas edib, lakin böyrəyini satan oğlan, onun böyrəyini alan oğlandan razılıq edirdi ki, yaxşı ki, onun böyrəyini bu qiymətə alıb! Bu pulla mal-qara alıb ferma açacam, bankdan pulu yüksək faizlə verirlər,o da sərf etmir!.. Can qardaş,Allah bankirlərə insaf versin! Qardaş Türkiyədə bankların faizi çox aşağıdır,hələ digər müsəlman ərəb ölkələrini demirəm, orda faiz yoxdur-Qurana görə!!!*

Böyrəyini yeddi minə satan qardaş!
Minnətdarlıq məktubu da göndəribsən?!
O böyrək canındır,-deyil,kəndalaş.-
Onu əkib yeddi minə dəribsən?!

Alanda günah yox,satan da yazıq,-
Satan ehtiyacdan satdı böyrəyin!
Varlının hüqüqu olsaydı pozuq,
Alardı kasıbın vuran ürəyin!..

Vallah,eşidəndə pis oldu halım,
Millətin balası gör nə gündədir!
Deyirsən,bu pula mal-qara alım,
Bu insaf,bu mürvət hansı dindədir?!

Kimi ehtiyacdan böyrəyin satır,
Cibinə yeddi min manat gələcək!

Kimi sərvət üstə qıvrılıb yatır,
Düşünmür görəsən,nə vaxt öləcək?!

Banklardan faizli kredit almaq,
Onsuz da çətindir,sən"düz"etmisən!
Yoxsulluq bu xalqı elədi maymaq,-
Sən"qara"gününü,"gündüz"etmisən?!..

Axı dövlətin var,-arxanda durub,-
Ona səs vermisən!O,sağ qolundur!
O da böyrəyini çıxanda vurub,
"Faizsiz kredir"-çıxış yolundur?!

"Faisiz kredid"-o böyrəyindi,
O əlin,o gözün,o ciyərindir!..
Nə qədər istəsən,öz ürəyindi,-
Yaşamaq haqqı da bir dəyərindir!!!

*28.06.2009 cu il. Beyləqan şəhəri.*

**BİLMƏSSƏN**

Qismət dediklərin,-sənin həyatın,
Qalxanda bəmindən zilə,bilməzsən.
Sahibin soruşsan bu kainatın,
Əqlini zorlama,bilə bilməzsən!..

Ruhunun baş alıb gedən zamanı,
Həmən tərk edəcək o şirin canı.
Qapına axışıb gələcək hamı,-
O vaxt gələnlərlə gülə bilməzsən...

Nə qədər insanlar gəlib gediblər,-
Aqili,nadanı...şair,ədiblər...
Hamısı dünyadan giley ediblər,
Alın yazısını silə bilməzsən!

Alın yazısı da sənin kodundu;
Bu kodu dəyişmək çətin oyundu!





Gələcək nəsillər sənin soyundu,-
Dəyişəcək ildən-ilə,bilməzsən...

Yaxşı ki,nəsillər yaşıyacaqdı,
Nəsillər izini daşıyacaqdı.
Naqislər izini qaşıyacaqdı,-
Bəzən də düşərsən dilə,bilməzsən...

Qızılbaş,taleyi dəyişmək çətin,
Yaşamın özüdür bu həqiqətin!
Torpağa dönəndə o şirin ətin,
Ətini taxarlar milə,bilməzsən!

*31.01.2012-ci il. Beyləqan şəhəri.*

**AD GÜNÜM**

Biri fevral ad günüm,
Əlli doqquz il öncə,
Qoyuldu adım-ünüm,
Nə söyləyim,nə dinim?-

Balabikə* yuxuda,
-Bir oğlun oldu!-dedi..
Al-qırmızı çuxada,
Kirvə şirnisin yedi!

Mən anadan olanda,
Atam bir qurban kəsdi,
İməklədiyim anda,
Bir kəlçə heyvan kəsdi!

Anamın yuxuları
Gecə ərşə çəkildi,
Döşünün yuxaları,
Məni görüb əkildi...

Anamın südü qaçdı,
Süddən də yanıq oldum.

Özgəyə ağız açdı,
Özgəyə qınaq oldum...

Süd qardaşı,bacısı,
Qazandım bu həyatda.
Həyatımın acısı,-
Kor bəxtim yata-yatda!

Başımın üstə nənəm,
Laylay deyib danladı.
Nənəqız adlı sənəm,-
Mənə baxıb anladı.-

Anladı oğlu olub,-
Yuxusu tay çin çıxıb!
Gözüm də dağlı olub,-
Yuxumdan da cin çıxıb!..

Yersiz yerə ağladım?-
Nə qədər dərd-sər olar?!
Ürəkləri dağladım,
Yazsan bir əsər olar!..

Kaş o vaxtlar olaydı,
Vallahi,ağlamazdım.
Anam yaşa dolaydı,
O vaxtı anlamazdım...

İndi özüm qocayam,
Anam əlli bir yaşda!
Növbədə duracayam,-
Artıq ağarıb baş da...

Atam torpaq altdadır,
Ruhu dərin qatdadır.
Qurbanlığı mən kəsim,
Fərid, Tural atdıdır!...

*01.02.2012-ci il. Beyləqan şəhəri.*





## BİR İL DƏ KEÇDİ...

Bu gün mənim ad günümdür,
Bir il də qocaldım,ana...
Həkim-şair ad-ünümdür,-
Bir azca ucaldım,ana!

Düz əlli doqquz il öncə,
Bu dünyaya salam verdim.
İlahi qismətdi məncə,
Ölümlərdən qalam,-dedim!

Bu gün mənim ad günümdür,
Bir dərəcəm,bir adım yox,
Ömrüm yerlərdə süründü,-
Yetmədiyim muradım çox!

İş-güc ilə çox əlləşdim,
Alım olmaq çıxdı yaddan.
Çox vaxt hirsimlə güləşdim,
Qorxdum Allahdan,pis addan!

Uşaqlarım böyüyübdü,
Nəvələrim minir məni;-
Bu da babaya öyüddü,-
Dəyişmək olmaz düzəni!

Qız-oğlumu ayırmıram;
Hərəsinin öz yeri var.
Onlara vermədim haram,
Halalın da dərd-səri var!..

Bu gün mənim ad günümdür;
Ömrümdən bir il də keçdi...
Bir gün görəssən ki,söndü,
Qızılbaş dünyadan köçdü,-

O vaxtdı ömrün axırı,-
Təbriklər,zənglər susacaq...
Dünyamızda su axarı,-
Ölüm həyatı busacaq!

Belə gəlib,belə gedər,
Əkizdi sevinclə kədər...
*01-02.02.2012-ci il. Beyləqan şəhəri.*

## BALLI QIZ

Qaşlarının naxışı,
Cüt bəbəyimdən keçir.
Gözlərinin axışı,
Düz ürəyimdən keçir.

İçdin eşqin şərbətin,
Eşq əlindən hallı qız,
Öldürəcək həsrətin,
Dərdi acı ballı qız.

Niyə məni sevirsən,
Mən ki,sənin deyiləm?
Gör heç məni deyirsən?!
Eşq əlindən veyiləm...

Axtarıb tapdım səni,
Bu nə tale,nə yazı?!
Elə sevirsən məni,
Qurban ollam ən azı!

Vücudun cənnət bağı,
Orda uymaq istərəm.
Abu-kövsər dodağın,
Qırıb udmaq istərəm!..
*09.03.2012-ci il. Beyləqan şəhəri.*





## HİRSLİ QIZ

O gün sənə zəng elədim,
Yaman hirsli-higgəlisən.
Özümə ölüm dilədim,
Bildim,ölsəm gəlməlisən...

Könlünü almaq istədim,
Zəng eləmə,yetər!-dedin.
Gülü sevməkdi məqsədim,
Güldə tikan bitər!-dedin...

Qurban olum tikanına,
Gül ətirin yetər mənə.
Sevgi dolub al qanına,
Aşinadan betər mənə...

Səni sevmək günah isə,
Cəhənnəm oduna yanım!
Çabalarım nahaq isə,
Heç olmasa səni qanım...

Sən xoşbəxt ol,mənə yetər,
Mənim higgəli mələyim.
Tikanın qəlbimdə bitər,
Demə,sovrulub ələyim...

Qəlbimin bir guşəsində,
Sənin yerin ayrı olur;
Sevgi dolu gur səsində,-
Mənə sevgi,qayğı olur..

Sevgini əskiltmə barı,-
Əgər varsa ürəyində,
Çox sınağa çəkmə yarı,
Arxan olar gərəyində!..

İyrim biri barış günü,
Zəng etdiyin o saatdan;-
Könüllərin qarış günü,
Doyarammı bu büsatdan!..

Vüsalına yetmək çətin,
Elə deyirsən gələcəm!
Gəlib çıxmır əmanətin,
Vallah,gec gəlsən,öləcəm...

Heç olmasa tez gəl barı,
Əminoğlu çox darıxıb!
İntizarda qoyma yarı,-
Demə,Qızılbaş karıxıb...

*21.01.2013-cü il. Beyləqan şəhəri.*

## ALLAHIMA ŞÜKÜRLƏR

Yenə çıxdım səhərə,
Allahıma şükürlər!
Çıxacağam şəhərə,
Allahıma şükürlər!..

Yenə gələcək səhər,
Mənim ömrüm bu qədər...
Ölüm sacaq qəhər,-
Yenə deyim:-şükürlər?!

Gileylənmə bu qədər;
Demə,yaşadım hədər!
Mənimki də bu qədər,-
Allahıma şükürlər!

Bu dünyanı qanasan;
Yaşamaq çətin,asan...
Hərdən məni anasan,-
Deyəsən,çox şükürlər!





Oğlum,qızım yaşıyır,
Nəslimizi daşıyır!
Qızılbaş da baş əyir,-
Allahıma şükürlər!!!

*02.11.2011-ci il. Beyləqan şəhəri.*

## AYGÜLÜM ORDİNATOR

Bu gun qızımla getdim
İşə girdiyi yerə;
Mələklərin süzdüyü,
İnsanın yer üzünə,
Naçar gəldiyi yerə;
Qəm,sevinci gözündə,
Ömür sürdüyü yerə...

Bu gün getdim qızımla
Doğuşların getdiyi,
Müqəddəs bir məkana;
Burda hər şey nizamla
Allahın düz etdiyi,-
Qadılar olur ana!

Buranın həkimləri
Allahın göndərdiyi,
Ağ xalatlı mələklər;
Yetişdirir kimləri,
Anaların dərdiyi,
Coluq-cocuq bələklər...

Oleq Vasilyeviçdi
Kafedranın müdiri,
Pavel Vasilyeviçdi
Gülər gözləri diri,
İnsana ümid verir,
İnsanı candan sevir...

Professor Makarov,
Tələbkar,ciddi insan,
Allah,üstündə yar ol,
Ömür sürsün qoy asan,
Aygülümün şefidir,
Çox abırlı kişidir.

Aygül artıq işləyir
Moskvanın tacında,
Həkim olmaq istəyir
Həm toxun,həm acın da...
Seçdiyi çətin peşə,
Sabah yarıyar işə.

Göydən enən mələklər.
Varsa,bura enirlər;
Coluq-cocuq,bələklər
Sinələrə sinirlər...
Əmib süd budaqları,
Böyüyür budaqları...

Anaların keşiyin
Çəkir ağ xalatlılar,
Körpələrin beşiyin
Yüyrüyür ağ atlılar.
Qızım Aygül də burda,
Bir gün qayıdar yurda...

*04.10.2012-ci il. Moskva, Şərqi Burlyuleva rayonu.*

## MOSKVANIN YOLLARI

Bakıdan Moskvaya
Gələli bir həftədir;
Vaxtım getdi havaya,
Yol tıxaclı xəstədir,-





Maşınla getmə,zarı,
Tıxac tutub yolları...

Düşüb mindim metroya,
Yolumu dəff etmişəm;
O yolu günortaya
Maşınla qətt etmişəm,-
Bu yollar xəstəlikdir,
Getməli yol dəlikdir.

Yer altında bir şəhər,
Yolları azad,rəvan...
Durub minsin sub səhər,
İşə edərsən davam,
Vaxtın getməz boş yerə,
Dərsin götürsün hərə!

Maşın,yoxsa ki,metro?-
Məncə,metro yaxşıdır.
Nə işgəncə,nə litro*,
Dəmiryolun naxşıdır,
Təhlükəsiz,tıxacsız,
İnsanların axışıdır...

*04.10.2012-ci il. Moskva. Vostoçnaya Buryuleva.*

## MOSKVANIN HAVASI

Moskvanın başında sovetlərin havası,
Xalqını yaşatmaqdı dünya ilə davası;
Yadlara qucaq açır qoynunda ana kimi,
Aygülü qəbul edib çox kövrəlti həkimi...

* litro-sərxoş sürücülər nəzərdə tutulur-red.müəl.

Təyyarədən enəndən hiss elədim bunları;
Səliqəni,qanunu,insanlığın anların...
Aeroportdan Seymura gəlib aparır Şahin.
Sarğısında çibanı,eşit Seymurun ahın!

Endiyimiz aeroport"Domadeda*"adlanır.
Ən təmiz zona kimi"Biryuleva**"hallanır.
"Çarçina"çölündə küknar meşə zolağı,
Yollar çiçəkli çəmən,yoxdu bircə alağı.

Bu səfalı düzənlər çarların xan bağları,
Dərə-təpələri var,yoxdu hündür dağları.
Bu yerlərdə hökmdar itlərlə ov edirmiş,
Ancaq yayda Yaltaya,Essentuka gedirmiş...

O vaxtdan adı qalıb, "Çaritsina"*** çölləri,
İndi də qəbul edir dünyanın çox ellərin...
"Biryuleva Vostoçni" bu çöllərdə yerləşir.
Hündür binalarıyla yerlə-göylə əlləşir.

Vaxilə yel dəyirman olub çölün düzündə.
"Biryuleva"adlanıb urusun öz sözündə.
Seymur, Şahin yurt salıb "Biryuleva"yerində.
Özünün evi yoxdu, kiraçi rus evində...

Aygülün işi üçün"Solnseviya"* getdik,
Rövşən** ilə görüşüb,bir para söhbət etdik;
Sözümüz heç tutmadı,insanlar qəliz imiş.
Onu maraqlandıran"üç minlik"gəlir imiş!

---

* Domodeda-rusca"dədə evi"-red.müəl.
** Biryuleva-rusca"yel dəyirmanı"-red.müəl.
*** Çariçina-Çarın oylağı-red.müəll.
* Solinsev-"Günəşli"-red.müəll.
** Rövşən-bizim"işimizi"qurub qoşan adam-red.müəl.





Yaxşı ki,tez ayıldım;ürək deyən yaxşıdır,
Aygülün arzulrı bir Allahın naxşıdır!
Moskvanın havası"Heyvagülü"havası,
Dilini bil urusun,sənnən yoxdu davası...

*01.10.2012-ci il. Moskva. Buryuleva Vostoçnaya.*

## AXMA, QARDAŞIM

*Bu gün"Beynəlxalq uşaqlar günü"ndə radiodan eşitdim ki, hələ erməni əsirliyində 18 uşağımız var, işgəncə altındadır! Azərbaycan respublikasının höküməti buna necə dözür?! Anlaşılan deyil!*

*Hələ də ermənilər Bakımızda alverdədirlər, azad şəkildə gəlib gedə bildiyi halda, əsirlikdə balalarımız qalmaqdadır!.. Qaratəpə səmasında vurulan vertalyot faciəsinin 20 illiyinə həsr edirəm...*

Ölkənin talehi əmin əldədir,
On il bundan qabaq belə deyildi.
Talışı,ləzgini çuğul öyrədir;-
Azərbaycan dağılacaq!-deyirdi...

Ermənini firitdiyən üstümə,
Sərvətimə aşıq olub,bilirsən!
Qızına bilmirəm özüm istimə,
İstimi də çuğul ilə silirsən!..

Ayrı çıxış yolu qalıbmı məndə?
Çuğul hər işimə burnunu soxur!
Yazıq kişi düşdü namərd kəməndə,
İndiki isdən də qiyamət qoxur!..

Sifariş o taydan gəlir,bilirsən,-
Hünərin var,əməl etmə,bitərsən!

Öz adını,o deyir ki,silirsən,-
Yoxsa,Kəddafitək özün itərsən!..

Dünyanın işləri belədi,qardaş!-
Çox da boş başına döymə,ölərsən!
Türklərdə onsuz da kütəlir yaddaş,
Gec-tez dərdini də hayla bölərsən...

Yenə haxçı qızlar süfrə başına,
Yenə dığalarla tut arağında...
Zəhər töküləcək yenə aşına,
Cızzığın çıxacaq yenə yağında!

De,kimə lazımdı sənin qürurun?-
Sərvətinə aşıq olub,bilirsən...
Gözünə bıçaqdı hər bir uğurun,
Arxalı köpəkdi,onçun silirsən?!

Vallah,nahaq yerə,qorxursan,qardaş,
Dünyada kişilər bir dəfə ölür!
Bir gün vertalyotdan töküləndə daş,
Daşları sındıran vətəni bölür!..

Daşları qıranın başını sındır,-
O tayın,bu tayın hayına baxma!
Sözlə qanmıyanı çomaqla qandır,-
Haxçının-maxçının hayına axma!...

*Axma, qardaşım! 20.11.2011-ci il. Beyləqan şəhəri.*

## ZƏMANƏT

İndinin adamları
Ehtibarsız olublar,
Bu dünyanın tamları,
Mala-pula dolublar...





Sözünə bütöv hanı,
Yalan vədlər verənlər.
Sən də yaxşını tanı,
Səxavəti dərənlər...

Sənə verim xəbəri,
Qadın saxlayar əri.
Allahın bəxtəvəri, -
Uzun ömür sürənlər.

Hər kəs sərvətə dalar,
Bir gün Əzrayıl alar,
Geridə nəyin qalar,
Mənə baxıb gülənlər!..

*02.09.2012-ci il. Beyləqan şəhəri.*

## AVROPADAN FƏRQİMİZ

*Məhşur bir fransız filmində qızcığaz həkim atasında soruşur: -atacan, anam hardadır? Atası cavab verir.-qızım, fikir eləmə, anan qəşəng bir kişiylə sevişib, getdi. Təki, xoşbəxt olsun! Bunun nəyi pisdir ki?! Kefin sürüb evə qayıdan arvadına, əri belə sualla müraciət edir:-necə idi, kavalerin?..*

*Qadın irişərək, cavab verir: Əla idi! Necə bəyəm, qısqanclığın tutdu?.. Yox, yox, elə-belə soruşdum. - deyə, qadınını sevməyə başlayır... Bu cür qadından ötürü isə almanlara divan tutur! Bizdə isə... Allah qorusun, belə qadınlara sən bilən nə edərlər?!*

Avropalı qadın kefindən gəzir,
Bizdə pula görə ruhunu əzir...
Hələ namus nədir, özü də nəzir, -
Bax, bizim onlardan fərqimiz budur!

Bizdəki dəyərlər onlarda yoxdur,
Arsız, barmaqlısı, qansızı çoxdur!
Namusdan danışsan, sanki, bir oxdur, -
Bax, bizim onlardan fərqimiz budur!

İncili, Quranı çoxdan atıblar,
Namusu, qeyrəti eyşə satıblar.
Bəzən ər yerinə itlə yatıblar, -
Bax, bizim onlardan fərqimiz budur!

Avropa bizlərə bayağı baxır,
Bizə öz bildiyi sayağı axır...
Başıma hay adlı xaçını çaxır, -
Bax, bizim onlardan fərqimiz budur!

Orada insana qiymət verilir,
İşinə, gücünə zinyət verilir;
İnsantək yaşamda insan sevilir, -
Bax, bizim onlardan fərqimiz budur!

Seçim xalq əlində, -səni xalq seçir,
Xalqdan oy alanlar qutudan keçir!
Bizdə xalq adından yalan and içir, -
Bax, bizim onlardan fərqimiz budur...

Hərdən düşünürəm, Allah hardadır?-
Quranda yazılan cənnət ordadır.
Bizdəki insanlar zülüm, dardadır, -
Bax, bizim onlardan fərqimiz budur!

*23.01.2012-ci il. Beyləqan şəhəri.*

## QOY UTANSIN

Qurumuş yarpaq kimiyəm,
İrmaqlar, çaylar utansın.
Çürümüş yarpaq kimiyəm,
Xəzanlı aylar utansın.





Qübardan gözlərim ağlar,
Fələk yollarımı bağlar.
Aramıza girdi dağlar,
Qayalar, yollar utansın...

Dərddən yazdım, doldu qaraq,
Səhfələndi qalaq-qalaq,
Ürəkdən üzüldü saplaq,
Tutulan damar utansın.

Tellərinə həsrət əllər,
Daha dərmir sənə güllər.
Yanağıma hopdu sellər,
Buna səbəbkar utansın.

Yollarına baxar gözlər,
Göz yaşlarım olar göllər.
Zəhərlədi məni çöllər,
Məni çalan mar utansın!

Cavanlıqda çox öyündüm,
Xəstəm sağaldı, söyündüm.
Həssas ürəktək döyündüm,
Saydığım saylar utansın...

Başlamadıq biz vay işin;
Çox qırıldı qadın, kişin...
Düz varaqlasan keçmişi,
Davakar haylar utansın!

Var qədim bir el məsəli,
Çoxundan güclüdür dəli.
Qırar güclünün də belin,
Bel qırın taylar utansın.

Dediyim sözlər tükəndi,
Düz yazginən axır bəndi.

Qutardın, ver çayı-qəndi,
Qurtumla, saylar utansın!

Qızılbaş, qar düşdü başa,
Çox niyyətin dəydi daşa.
Mərd olginən yüz il yaşa,
Sürünən zaylar utansın...

*03.04.2012-ci il, Beyləqan şəhəri.*

## MÜASİR FİRİONLAR

Mənasız tikintilər
Çölün biyabanında?!
Tarixi yeyintilər
Firionun zamanında.

Qumsal çöldə piramid
Daşları hardan tapıb?!
Göyə ucalan amid,
Buları necə yapıb?!

İndiki firionlar,
Pullu, varlı uşaqlar...
Axıtdıkları qanlar
Yenə xalqı qucaqlar!

Nə gedir xalqdan gedir,
Qalır yapdığı məbəd.
Kamil insan zənn edir,
Oxuyacaqlar nəhlət!..

Vara-pula nə nəhlət,
Səfa sürəndə onlar?
Nə qədər edər qələt,
İndiki firionlar?!

Nəfəsi gəlib gedə,
Üdid yeri hələ var:





Yeddi dönəmi gədə,
Fironun əlində var!

Fərasətli filankəs,
Filankəsin postudur;
Dünyadan bac alan kəs,
Klanların dostudur!..

*04.-09.2012-ci il, Beyləqan şəhəri.*

## DƏRMAN FİRMALARI

Dərman firması yüz çeşid,
Halala haramı qatır.
Dərmanları eyni-eşid, -
Hərə bir qiymətə satır.

Aptek açmaqdı çətini;
Özü qoyur qiymətini.
Soyur millətin ətini, -
Millətə dərmanla atır!

Həkimlə girir sazişə,
Həkim də yazır həmişə.
Mətəl qalmışam bu işə, -
Gözü doymur, qığıb yatır!

Pulu yoxdu nə vecinə,
Xəstə ölüb lap keçinə!
Aptekçinin nə s...nə(...)
Gecə qu tükündə yatır.

Son zamanlar artıb xeyli,
Millət firmadan gileyli.
Harama salıbdı meyli,
Günahın içində batır!

Qızılbaş xeyrin heçində,
Hal görmədim bu biçimdə!

Yanıb qovruldu içində,
Şikayəti ərşə çatır!..
*10.05.2012-ci il. Beyləqan şəhəri.*

## YAŞAMAQ İSTƏYİRƏM

Yer kürəsi fırlanır,
Neçə ildir başıma.
Ömrə illər qalanır
Əlli doqquz yaşında!..

Yaşamaq istəyirəm,
Yenidən uşaq kimi;
Ölümsüzlük demirəm,
Sönməyim işıq kimi.

Qüvvə olsun dizimdə,
Namazımı qılanda.
Adım qalsın izimdə,
Gözlərim yığılanda...

Müqəddəslik, sadəlik,
Ömrümüzə ad olsun.
Yekəxana, gadəlik, -
Üzümüzə yad olsun!..
*12.05.2012-ci il. Beyləqan şəhəri.*

## KƏLƏFİN UCU

Sınıq könülləri tikənlərdən ol,
Əffi yoxdu günahının, yamandır!
Könüldə gülüstan əkənlərdən ol,
Şəri qurtaracaq bircə amandır!..

Kələfin üçünü itirdim nədən?-
Çözülmür, düyünə düşüb deyəsən!





Səbrin qazanını daşdırıb hərdən,
Şeytanı söyürəm, söykü-söyəsən!..

Hərdən də sükuta qərq olur nitqim.
Səssiz, öz-özümü haraylayıram;
Gözümün önünə gəlir gəncliyim, -
İndiki ağlımla ayarlayıram...

Bilirəm kələfim niyə dolaşıb?-
O məğrur gəncliyim əriyib bitən.
Soruşa-soruşa dağları aşıb,
Sorğusuz dərənin dibində itən!..
*21.05.2012-ci il. Beyləqan şəhəri.*

## HAQSIZLIQLA DOLU DÜNYA

Ciyərim yandı, Allah,
Qurduğun bu dünyada
Nədən çəkməliyəm ah,
Bəs ədalətin hanı?!
Birinə ver sərvəti,
Birinə bitməz qada...
Bir şey olmamış kimi,
Deyirsən, məni tanı?!

Ciyərim yandı, Allah,
Biri yetimxanada
acıyla boğuşanda,
Qarnı ac, açar sabah...
Biri qu yastığında
Sabahla qovuşanda,
Yeməyə olmaz iştah,
Bolluqdan daşar yanı,
Hanı ədalət, hanı?!

Biri balalarına
daşdan çıxarar əkmək,
Alnında proletariat,
Qabar əlində əmək!
Bumu insanın şanı?!
Hanı ədalət, hanı?!

Biri zəka sahibi,
Rayonlarda çürüyür...
Biri meşşan, vahabi,
Qızıl bəxti yürüyür!
Dayısız əjdahanı
Qarışqalar sürüyür...

Dayılı əjdahalar
Zirvələrdə yürüyür.
İnsanlardan bahalar,
İnsanları sürüyür...
Yox ədalət divanı,
Hanı ədalət, hanı?!

Ürəyi istəyəni
Ala bilməyən yazıq,
Ondan daddın azacıq
Qarşında bahar deyil,
Açılacaq boran, qar!
Onda xəzanı tanı,
Bəxtini azca yanı...

Bu dünya belə gəlib,
Belə gedəcək əlbət!
Qurtlar mətəni dəlib,
İstədiyintək düzəlt!
İtirmə bircə anı!
Yaz, yarat bu divanı!..





De, hansı haldan yazım,
Halım pərişan, yetər!
Haram, halaldan yazım,
Halal haramdan betər!..
Özümə qəbir qazım?!
Ot kökü üstə bitər!

*25.05.2012-ci il. Beyləqan şəhəri.*

## YERİN ÜÇ OYNU

Günəş durub zenitdə,
Yeri-göyü yandırır.
Buna dözməz bir it də,
Cəhənnəmi andırır!

O günəşin atəşi,
Od verir bu uşağa.
Günəş dolanıb ərşi,
Keçib şimal qurşağa.

Gün zenitdə dayanıb,
İyunun iyrim biri.
Şimal qütbü oyanıb,
Başlayıb yaz sehiri..

Möcüzə yaradıbdı;
Şimalda yay, cənub qış.
Gündüzü qaraldıbdı,
Yaradana min alqış!

Yerin üç oynu vardı,
Bir günəşin başında.
Necə olacaq ardı, -
Görən neçə yaşında?!

*21.06.2012-ci il. Beyləqan şəhəri.*

## ALTMIŞ YAŞIM

Altmış yaşım tamam oldu,
Sənin yaşın neçə, qardaş?!
Bu dünyanı qanan oldum,
Yaşam hasan olaydı kaş.

Öz-özümə hesab çəkdim;
Nə əkmişəm, nə biçmişəm?
Dörd övladdan çoxmu əkdim, -
Seyrəltməsindən keçmişəm...

Savablarım, günahlarım,
Qandıqlarım, qanmadığım,
İztirablarım, ahlarım,
Şad günümdə anmadığım...

Bir şeirə sığarmı heç, -
Bir ömürdə nələr oldu?!
Aciz qulam, üstündən keç,
Doğru yola gələr oldum...

Mənə qalan dörd cocuğum,
Bir də yarım, bacı-qardaş...
Şükür, sönməyib ocağım, -
Evimdə qurmuşam bardaş.

Sənətim var el içində;-
Həkim olmaq çətin peşə;
Pay-piyadə bir biçimdə,
Gedib gəlirəm bu işə.

Hərdən də bir cızma-qara,
Fikrimin yüzdə biridir.
Mən öləndə deyin yara,
Qızılbaş hələ diridir...





Atam gedib mən də gedim,
Yerimdə atalar bitib.
Estafeti verib dedim;-
Deməyin şəcərəm itib!.

Altmış yaşım olsa yüz il,
Yolçusuyam gedən yolun...
Elə yaşa, elə sezil, -
Nəslə-kökə layiq olun!..

*01.02.2013-cü il-İlan ili, Beyləqan şəhəri.*

## İLAN İLİ

*İlan ilinin dolça bürcündə anadan doğuldum;1fevral 1953-də, ilan kimi üşüyən, dolça kimi su sevənəm, üstəlik də şəkərim yuxarı...*

Qış gələndən ilan yatıb,
Məndə yuxu hanı, qardaş?!
Dolçamıza şəkər qatıb,
Şəkərim olmayaydı kaş...

Hər tərəfli ilişmişəm,
İlan ili, dolça bürcü;-
Şirin yeyib, su içmişəm,
Gedib qollarımın gücü.

Atam, anam, çox üşüdüm,
Doğumum ilan ilidir?!
Atam, anamla bişidi, -
Dağalda qalan Əlidir.

Özü də dolça bürcüyəm,
Qışda dondum, yayda yandım,
Fəhmdə sanma, güclüyəm, -
Bu dünyanı çətin qandım...

Qananda da çox gec oldu,
Sadəlövlük oldu peşəm;
Tək işləmək də güc oldu, -
Halal zəhmətlə yemişəm!

Dilimə şəkər qatıram,
Açılanda zəhər saçır!
Baş qoyub xor-xor yatıram, -
Axşam gələn, səhər qaçır.

Günahkarı sanma ki, mən,
Səbəbi, -ilan ilidir;
Xəsyətimə bumuş nədən,
Günahkar olan Əlidir!..

*13.02.2013-cü il, -ilan ili. Beyləqan şəhəri.*

## ALTDA DƏYİRMAN DAŞIM

Altda dəyirman daşım,
Təzə eşqim mübarək;
Altmışı keçmiş yaşım,
Baxçama təzə bar ək, -
Yaz günü təzə yar ək!

Can qoymadın Əlidə,
Bənd olubdu çöhrənə,
Sərvi boylu Xalidə,
Vurulmuşam zöhrənə, -
Məni saldın cəhrənə...

Məni didib əyirdin,
Qatdın zərif saçına;
Əl dəyməyib!-deyirdin,
Sahibləndim açına;-
Şümşad kimi qıçına!





Zərif bal dodağında,
Təzə eşqim alışdı;
Vücudunun bağında,
Canım çıxıb çalışdı, -
Sevgilərə qarışdı...

Səninlə yatdığımda,
Çox şirinsən!-anladım,
Səni gec tapdığımdan,
Özümü çox danladım,
Lövbərimi yanladım!

Səni tərk eləyiblər
İyirmi yeddi yaşında,
Evlənsənə!-deyiblər,
Mən çıxmışam aşından,
Çox utandım başımdan.

Sən mənim qara-şirin,
Altda dəyirman daşım;
Bir də qoynuna girim,
Sənlə kükrəyim, daşım,
Qoyma axsın göz yaşın...

Zərif, xam dodaqların, -
Köksünə nar qoyunca,
Qəlbinin otaqların,
Gəzə bilsəm boyunca, -
Yaşayardıq doyunca...

*13.03.2013-cü il. Beyləqan şəhəri.*

## AĞZIMIN DADI

Allah bizi bir yaradıb;
Sən baharsan, mən yarpağam.
Soruşsan dilsiz yar adı, -
Qədəm basdığın torpağam...

Sən soyuqsan, mənsə qaram,
Yanan sinənə yağaram.
Sən hardasan, mən də varam,
Xumar gözünə baxaram...

Gecə sənə baxan ayam.
Pəncərəndən boylanaram.
Bir gün yanında olmayam,
Dəli kimi hoylanaram!.

Dünyam sənin gözlərində,
Sağındayam, solundayam.
İxtiyarım sözlərində,
Baş qoyduğum yolundayam.

Sevgi dünyamın yarısan,
Nə yaxşı ki, səni tapdım.
Payızımın son barısan, -
Bu ağzımın dadı yapdım!..

*17.01.2013-cü il. Beyləqan şəhəri.*

## İKİMİZ DƏ BİR ADAMIQ

Sənsən bu dünyanın varı,
Pətəyimdə ana arı,
Heç olmasa tez gəl barı, -
Sənsiz dünyam tarımardı.

Sən xanımsan, mənsə ərin,
Mən alovlu, sənsə sərin.
Sənin bulaq suyun dərin, -
Mənə layiq yarım vardı.

İkimiz də bir adamıq,
Saf ürəklərə qadamıq.
Sevgiyə-eşqə dadanıq, -
Sağalmayan zarım vardı...





Ala gözün baxışıyam,
Gözlərinin yağışıyam,
Şimşək kimi çaxışıyam, -
Sulamağa tarım vardı.

Qızılbaşın baş tacısan,
Dörd bacıdan zor bacısan,
Gah şirinsən.gah acısan, -
Nə olsa da qarım yardı...

*17.01.2013-cü il. Beyləqan şəhəri.*

## AĞLIM DA YETMİR

Allaha gəl şər atmayaq,
Fələkləri oyatmayaq!
Ha yerisən yetməz ayaq,
Yerin-göyün gedişinə...

Taleyini yazdığını, -
Bir sətirdə pozduğunu,
Yuxuları yozduğunu,
Düyüb düşərsən peşinə!

Hərə də bir cürə yozur, -
Alın yazır, şeir yazır...
Özü yazıb, özü pozür.
Qarışma Allah işinə!

Xəbərsiz gətirir bizi,
Təyin edir ömrümüzü!
İzimizə düşüb izi, -
Salacaq bizi dişinə!..

Küllü cahan, -bu kainat:
Canlılara açır qanat!

Ona yetişməyə can at, -
Az qalır insan üşünə...

Küllü aləm peşindədir,
O, aləmin işindədir!
İçindəmi, eşindəmi?!
Ağlım yetmir ki, düşünə...

*23.12.2011-ci il. Beyləqan şəhəri.*

## ADSIZ ŞEİR

Nə balaca, gözəl şeydir,
Al ağuşuna əmginən.
Cuşə gələn coşğun heydir,
Qaraja salıb dəm yenən...

Buludtək dolub boşalsan,
Üzündən öpüb qəminən.
Əgər ki, buna xoşhalsan,
Onu da alıb cəm elən!

Dərdindən ölən sevginən,
Ağlını da nə səm elən.
Arzuna çat sevinginən,
Çox zilə çıxma, bəm elən...

*03.11.2012-ci il. Beyləqan şəhəri.*

## BİRİ İNCİDİ MƏNDƏN

Bir söz üçün göynəyib,
Biri incidi məndən;
Yazdığımı öyrənib,
O sözü edib nədən!..

İncimə, ay qardaşım,
Söz yarası ağırdı;-





Kütəlməyib yaddaşım,
O vaxt qarğış yağırdı!..

Mən xatirə yazmışam,
Onu da çox görürsən...
Deyisən ki, azmışam?-
Sözün ilə döyürsən?!

İzin ver, bir söz deyim,
Sən özünsən günahkar;
Qurandan al don geyim,
Etdiklərin nahaq, ar!..

Billəm, deyəssən, qismət, -
Mən də səninlə razı...
İnsanda namus, ismət,
Olmalıdır, ən azı!..

*12.09.2012-ci il. Beyləqan şəhəri.*

## MOSKVADA BİR SƏHƏR
*Sənədli poema*

*Qızım Aygül dünən Moskvanın 2-ci tibb akademiyasının akşer-ginekologiya kafedrasının ordinaturasına qəbul oldu. Sübh tezdən durub Seymurgilin balkonundan seyrə dalmışam...*

Moskvada bir səhər,
Durmuşam səhər çağı.
Görməmişəmmiş məgər,
Seyr edirəm qabağı...

Yaşıllıqlar bürüyüb,
Küçələri, yolları...
Moskva çox böyükdü,
Uzanıbdı qolları;

Çar yurdundan*, Dədəyə**,
Küçələrdə maşınlar,
Səhər tezdən az olur,
İş görür bələdiyyə,
Təmizlənib saz olur.

Yolda zibil maşını,
Səhər tezdən işləyir,
Yol-irizi süpürür,
Təmizliyi istəyir, -
Natəmizə tüpürür!

Adamlar tələsirlər,
İşə-gücə, məktəbə...
Qara düşən ləpirlər,

* Tsaritsino
** Domadeda





Gedib çıxır mətləbə.
Fəhlə, alim, tələbə...

Bir azdan çoxalacaq
Maşınların sürüşü;
Vaxtımı çox alacaq,
Tıxacların" duruşu",
Vərdiş edib bu işi, -

Moskvanın yolları
İşgəncəli tıxacdır;
Yorur möhkəm qolları,
Vallah, töhmət-qaxacdır,
Dincəlməli arxacdır.

Seymurun maşınında,
Arzu minib qabaqda,
Əlində"naviqatel",
Aygüllə mən ayaqda,
Yuxulayır sayıq da!..

Nəhayət ki, yetişdik,
Deyildiyi mənzilə.
Deyiləni eşitdik,
Döndüm xarab əzgilə,
Səsim qalxdı ən zilə!

Sən demə, bura qəbul,
Çox asan, həm pulludur;
Savadın olsa məqbul,
Gələnlərin quludur,
Oxuyanla doludur...

Rovşan adlı birisi,
Mənə yalan söyləmiş;
Saleh ona girişib,

O da bizi əyləmiş,
İkisi də səyləmiş...

Fikrimdən heç dönmədən,
Aygüldən xəbər aldım:
Aygül göstərdi nədən,
Çaşıb yerimdə qaldım,
Turalı yada saldım.

Tural tapıb adresi,
Telefonla göndərdi;
Telfon etdim;-nərəsi?
Danışram candərdi,
Bizi ora döndərdi...

Unverstetin pərisi, -
Ala adlı birisi,
-Üç günün qalıb!-dedi,
Bütün dannını verdi,
Başımdan sildi dərdi!..

Birinci gün sənədlə,
Getdik Aygül deyənə,
Bu yolu da dənətlə,
Deyib keçdim bəyanə;
Kaş rəisi bəyənə...

Rəis baxdı diploma,
-Dölətindir, qurama?..
Cavab verdim ki,
-Yoxla, əlbəttə, dövlətindir,
-Həkimlik çox çətindir!

-"Odlar yurdu"yazılıb,
-"Beynəlxalq"dan qazılıb...
-Odlar yurdu-vətənim,
-Azərbaycanım mənim,





-Həkimlikdir sənətim.
-Yaxşı, qəbul edirik,
-Kafedra rəy verməli...
-Ala məktub yazası,
-Kafedradır bazası...
**************

Alanın kabnetində,
Yaxşı qarşıladı O,
Uca-şux qamətində,
Sevgi bağışladı O...

O, telifonla zirək,
Beş dəqiqə sürmədi,
Oldu Aygülə dirək;-
Zamin oldu, hürmədi...

-Tatyana, bircə xahiş;-
-Aygül adlı bir qıza,
-Edərsiniz bir baxış,
-Sizdən istərəm riza...
Qismətin Allah yaza!

Razılaşdıq sabaha,
Səhər getdik bir daha;
Profesor Tatyana,
Səmimi gözəl ana,
Qurban olum qanana!

Sual verir;-nə əcəb?
-Alanın dediyisiz?
-Bəli, xanım elədir,
-Necə gözəl, iyisiz!
-Aygülün tələbidir...

Göstərərək zənbili;-
-Sizə catacaq, xanım.
O soruşdu mənzili;

-Azərbaycan diyarı,
-Qoyub gəlmişəm yarı...

Göz ucuyla baxmadı,
Gətirdiyim sovqata,
O, mənim nəzərimdə
Yüksəldi neçə qata;
Gözü toxdu həyata!

Aygülün dannı*ların,
Yazdı öz dəftərinə...
Dedi, səhər gələrsiz,
-Kafedranın"Sərinə"**
-O, getməz çox dərinə...

Gördü ki, intizarla
Baxdım onun üzünə,
Odur ki, qayğı etdi,
Sözün dedi düzünə.
Qurban bunun yüzünə!

Aygülə sual etdi,
Aygül bir az tutuldu,
Ana dili deyil ki,
Cavab verib qurtuldu...
Xanım zəli deyil ki!
-Sənə Ayka deyirəm.
-Aykul* bir az çətindir,
Deyib, gülümsədi O,
-Mamalıq sənətindir,
Deyib, bilimsədi O...

* rus sözü-məlumatlarını, red. müəl.
** kafedra müdiri, professor Oleq Vasilyeviç Makarov nəzərdə tut. Ə. H.
* Aykul-Aygülün rusca tələffüsüdür, red. müəl.





Aygül çox xoş hal oldu,
Ağzı-dili bal oldu...
-Papa, qəbul olundum?
-Səhər bilinər, qızım,
-Çalacaq telli sazın!...

Seymur, Arzu ayaqda,
Gözləyirlər bayaqdan.
Çıxanda, soruşdular;-
-Yemədiniz dayaqdan?
-İnşallah, sovuşdular?.

-Səhər də gələsiyik,
-Deyəsən güləsiyik...
Deyib baxdım Aygülə,
Aygül döndü bülbülə,
Qurbanam şirin dilə...

Azru naviqateli,
İşə salıb oturdu.
Çörəkli kartofeli,
Seymur bizə ötürdü,
Maşın qazı götürdü...

İki saat içində
Gəlib çatdıq bazaya,
Çox yorğun bir biçimdə.
Hansı ki. Seymur, Şahin,
Bu bazada keçimdə...

Payız. axşam üstüdür,
Moskvada tez düşür,
Sanma. burda istidir.
Cənublu burda üşür,
Ruslar istidən bişir!

Zapadnıy Çertanovka*
Arzunun mənzilidir;
Düşdü bir ostanovka**
Səbirli, məzəlidir,
Bir ağrıyan belidir,
Əl tutmaqda Əlidir!

Atası*** ölüb təzə,
Ağır bir xəstəlikdən!
Mehriban idi bizə,
Ayırdı dəstəlikdən, -
Çarəsiz bir xəstəlik;

Moskvada yoxlanıb,
Gəldi doğma Bakıya,
"Neftçi"lərdə oxlanıb****
Özün qoydu şakıya,*****
Ölüm qondu yakıya...

Moskvada hər yanı******
Yoxladıb gəldi bura:
-Mənim taylarım hanı,
-Bəlkə, ürəyim vura.
Söyləyib girdi gora...

Başsağlığı verirəm,
Həm oğluna, qızına...
Eşi-Fatma xanıma!
Aygülə də deyirəm:
Çatasan hər arzuna...

---

* cənub şeytanbazar-red. Ə. H.
** dayanacaq-red. Ə. H.
*** Seymurun qaynatası-Mübariz, red. müəl.
**** Nefçilər xəstəxanasının kardiocərrahiyə şöbəsində
***** saka-türkcə, zarafat-deməkdir-red. müəl.
****** xəstəxanaları-red. müəl.





Yorğun gəldik mənzilə,
Kodu yığıb, qalxmışıq,
Barmaq basmışıq zilə,
Deyəsən gec qalmışıq, -
İmnarə tutur dilə:-

-Balam, harda qalmısız?
-Nə yaman gec gəldiniz?
-Yəqin razı salmısız,
-İşləri düzəltdiniz?
-Keçin, keçin içəri;
-Ağır günlər keçəri...

İmnarə gözəl gəlin,
Atasıdır elə bil!
Xoş sifəti bilindi,
Ona layiqdi ödül,
Süfrəsi bol, şirindil!

Əl-üz yuyub oturduq
Süfrəsinin başına;
Küftə, turşu və toyuq,
Ləzət qatır aşına,
Ləzzətlə yeyib doyduq.

Aygülüm də tez doyub,
-Allah var etsin!-deyir,
Seymur ehtiraz edir:-
-Aygül niyə az yeyir?!
-Az yemək daha xeyir!-

Aygül tez cavab verir,
Mən də çox narahatam,
Moskvaya gələndən,
Yuxum da yoxdu yatam,
Dərdinə ovqat qatam...

Deyən, Aygül sıxılır,
Başqasının evində,
Arıqlıqdan"yıxılır",
Şalvar durmur belində,
Çətinlik var dilində...

Allaha yalvarıram;-
-Allahım, yardım elə,
Onu da uyarıram, -
-Sən də gəl ardım ilə;
-Öyrəşəssən bu dilə!..

Ancaq fikir eyləyir,
Deyəsən, altan-altan,
Rus dili onu əyir,
Düşmək ayıbdı atdan, -
Möhkəm yapış həyatdan!..

O keçir otağına,
İki otaqlı mənzil;
Uzanır yatağına,
Onu fikirlər əzir,
Gah da otaqda gəzir...

Fatma hələ dərsdədir,
Elgün atılıb düşür,
Nərmin qız da səsdədir,
Elgün ilə didişir,
Kompüterə girişir...

Mən də keçdim otağa,
Televizora baxıram;
Ürəyim dönür dağa,
Xəyallarda axıram,
Bir az da darıxıram...





Qarşıda çox işim var;
Bakıda testim* durur,
Aygülə beş min dollar,
Harda, necə iş qurur?-
Hələ çox işim durur!

Testə hazırlaşıram,
Seymur futbola baxır,
Çox oxuyub çaşıram,
Gözümdən yuxu axır,
Sanki, içmişəm çaxır...

Seymurun yarası var,
Arxası, arasında, -
Kor çibandır, -yarılar,
İrin var yarasında,
Maz qoydum qarasından...

Yaranın gözün oydum,
Dərini kəsib soydum,
Sonra trunda** qoydum,
Sefriakson da vurdum,
Salfetka*** qoyub durdum.

Oturacaq əzibdir,
Yarasını bir qədər,
Bir aydır ki, bezibdir,
Yola verib bir təhər.
İndi bir az toxdadı...

Biliram sağalacaq,
Geci-tezi bir təhər.

* test-yoxlama, imtahan-təzə işdir
** trunda-cunadan drenaj piltə-red. müəl.
*** salfetka-rusca, bir neçə qatlanmış bint parçası, yaranın üstə qoyulur

İynə səbbin alacaq,
Vurulsa axşam, səhər,
Sağalacaqdı yəhər!

## MOSKVANIN MƏLƏKLƏRİ

*Aygül qızımın həkim-ordinator işlədiyi Moskvanın Piraqov adına 2-ci tibb akademiyasının mam-alıq-ginekoloji kafedrasının şefi-professor Oleq Vasilyeviç Makarov, 8-ci doğum klinikasının baza şefi, prof. Kozlov, qayğıkeş insan, professor Tatyana Nikolayevnaya, 10-cü doğum klinikasının baza şefi professor Sonya Barisovna Sakalovaya, dosent Anna Nikolayevnaya, 10-cu doğum evinin başhəkimi Akimovskaya, xarici əlaqələr söbəsinin rəisi Ala Aleksandrovnayaya həsr edirəm.*

Sarnışın, alagöz mehriban qadın, -
Alası, Annası, ya Tatyanamı...
Demə, adın çəkir özgənin, yadın, -
Onlardı qoruyan gözəl dünyamı!

Aygülü aldılar qucaqlarına,
Yerin əşrəfini yoğurmaq üçün;
Dünyanın ən məsum uşaqlarına, -
Yardım edib yerə doğurmaq üçün.

Onlardı gecələr səhərə kimi,
Yorulmaq bilmədən növbə çəkənlər.
Onların adı var, -mama-həkimi,
Cənnət yuvasını açıb-tikənlər...

Onlar üçün milli mənsubiyyət yox,
Ananın, uşağın sağlamlığı şərt!





Ürəkləri təmiz, məsuliyyəti çox,
Nizam-intizamda poladdan da sərt!

Burda səhlənkarlıq faciyə demək, -
Faciyə önünə sipər çəkirlər.
Hardandı bu qədər enerji, əmək,
Ana ürəyinə təpər çəkirlər?!

Ağır doğuş gəldi, Makarov hazır;
Cərrah biçağıyla ölümü qazır!
Doğuş sənətini sevib seçənlər,
Onun sayəsində əsərlər yazır...

O sevir hamını övladı kimi,
Tələbkar, qayğıkeş, həssas bir kişi;
Kamil yetişdirmək mama-həkimi,
Onun ən müqəddəs, önəmli işi!.

Tatyanı götür, -mülayim qadın, -
Aspirant-alimlər yetişdirir O;
Həmişə gözləyir müqəddəs adın,
Ən çətin işləri ötüşdürür O!..

Ya Sonyanı götür, tələbkar qadın,
Aygülə doğru yol göstərən odur;
Annanı əvvəlcə zəhimli sandın, -
İpəkdən yumşaqmış ürəyi onun...

Akimovskaya, -doğumun şefi,
Baş həkim işləmək asan deyil ki.
Sağlam ana-uşaq xanımın nəfi, -
Keçən ildən yaxşı olsa bu ilki!..

Onlar Moskvanın mələkləridir;-
Aygülü qatdılar cərgələrinə.
Qızılbaşın sonsuz diləkləridir, -
Sağlıqlar yazılsın dərgilərinə!...

*06.12.2012-ci il. Beyləqan şəhəri.*

## MOVZOLEY

Gəlmişəm Qızıl meydana,
Movziley də möhürlənib.
Lenini görmək bir yana,
Lal divarlar sehirlənib;

Türk qızının* sehiriynən,
Elə bil ki, həyat durub, -
Axşamıynan, səhəriynən,
Durub, azadlığı qurub!

Gələni yox, gedəni yox,
Müqəvvası qalıb tənha.
Lal divarlar elə soyux,
Qəbir kimi... dura, qalxa, -

Deyə;-balam, mən ki, sizə
Baba idim, oraq-çəkic,
Yaba idim!-deyə üzə,
Eşitdikcə olarsan gic...

Doğrudan da girəcəkdə
Gördüm Stalinlə onu;
İkisi də nə gərəkdə,
Oxşarları geyib donu!

Yeri-göyü asıb kəsən,
Sovetlərdən bir əsər yox;
Azadlıq küləyi əsən, -
Nə despot yox, nə təşər yox.

Azadlığa qovuşanlar,
Bura müzey kimi baxır;

* başqır-türkü olan Larisa Maksudovna Qarbaçova-red. Ə. H.





Firovundakı nişanlar,
Leninin başını yaxır...

Firovun da mumyalanmış,
Piramidlər diyarında,
Ölümsüzlük nə yalanmış, -
Lenin adlı xiyarın da!..

Mozileyin lap üstündən
Əl sallayanların hanı?!
Əl çəkin xalqın qəstindən,
Azadlıqlarını tanı!..

*06.10.2012-ci il. Moskva. Qırmızı meydanda Leninin movzileyi yanı.*

## BƏSİRƏT GÖZÜNÜ AÇAYDI İNSAN

Kamil adəm günah etdi, qovuldu;
Doqquz yüz əlli il yaşayıb öldü!
Peyğənbərlər gəlib axır sovuldu, -
Qeyri-kamil insan dünyanı böldü,
Bu yolda öldürdü, özü də öldü!

İtaət etmədi Allah yoluna,
İbadət etmədi Allah yolunda!
Altıgüşə ulduz, bir xaç qolunda,
Yağmaladı, qətl elədi insanı!
Heçə saydı Davud, Musa, İsanı...

Sodom, Homorranı salmazlar yada?!
Viran qaldı neçə ölkə dünyada!
Amerka dağ çəkdi gözəl Bağdada,
Əzrayıldan ötkəm, zəhimli insan,
Nə olar səbirli, rəhimli olsan!..

Yüzlərlə Xocalı nicat güləyir;
İnsanlıq susubdur, bayquş söyləyir!

Bayquş da sıxılıb, insan özləyir,
İnsanlar nə qədər insafsız oldu?!
Dərələr, aşrımlar meyidlə doldu!..

Adəm oğlu günahlara batanda,
Nəfsini şeytana, şərə satanda,
Qəflət yuxusunda xor-xor yatanda,
İnsanın yuxusun, Allah bol eylə!
Sənə gedən yolu bizə yol eylə!!!

Ayılıb çox işlər görəcək insan;
Heç olmasa, yaxşı işlər görəydi!
Hörümçək sayağı hörəcək insan,
Heç olmasa, nəfsimizi hörəydi,
Bəsirət gözünü açıb görəydi!!!

*01.07.2009-cu il, Beyləqan şəhəri.*

## TƏRS BİÇİMDƏ

Təkərim tərsə fırlanır,
Bu Yer kürəsi biçimdə.
Şəkərim ərşə fırlanır,
Qızıl qanımın içində!

Asanımı çətin etdim,
Çarəsi olmaz biçimdə.
Şirin canı sətin etdim,
Büründüm alov içimdə.

Qədərimi boş buraxdım,
Bir qurtumluq su içimdə.
Araz suyu kimi axdım,
Sönmədi çölüm, içim də!

Ağ yalanlar məni yedi,
Başımı qatıb da dedi;
Aşa bilsəydin o həddi,
Asan olardı seçim də...





Sonsuz sual, ömür qısa,
Çiçək açır, dönür qışa...
Fal açıram qızıl tasa,
Ömür mənasız keçimdə...

*04.11.2012-ci il, Beyləqan şəhəri.*

## ASLANIN YIRTDI MƏHBƏSİN

*Ramil Səfərovun Prezident İlham Əliyev tərəfindən əff edilməsinə həsr edirəm*

Gözün aydın, Azərbaycan,
Aslanın yıtdı məhbəsin!
Ədalətdən yoxsul cahan,
Duysun millətimin səsin;

Azad oldu iradəsi
bir millətin balasının,
Kişilik, qeyrət kəlməsi
Yıxdı hayın qalasını!

Hayın gücü buna yetməz,
Xocalıda etdikləri...
Min il keçsə sona yetməz,
Qan qusacaq sevdikləri!

Dünyamız duysun səhvlərin,
Budapeştdə səhv elədi.
Baş komandan bu əsgərin
Fərman ilə əff elədi!

Yetmiş yeddi qətlə görə,
Norveçliyə iyirmi beş il?!
Türkü vadar edib törə,
Ömürlük həbs yaxşı deyil.

Qoy haylara məsaj olsun,
Ramil Səfərov azaddır!
Düşmən gözü qanla dolsun,
Qisas almaq da bir addır!

Təyarədən enən anda,
Azadlıq hökmü oxundu.
Mərdlik ürəyində, qanda,
Başına çələng toxundu.

Pal Şimit*lə, İlham** yıxdı,
Hayın"ömürlük"qalasın;
Ramilim məhbəsdən çıxdı, -
Azad etdi türk balasın!..

*25 avqust 2012-ci il. Beyləqan şəhəri.*

---

* Pal Şimit-Macarıstanın (Hungariya) prezidenti
** İlham-Azərbaycan respublikasının prezidenti.





## GÖRÜCÜ
*(Allah vergisi)*

*Polşanın balaca yoxsul kəndi Kalvarda yoxsul kəndli ailəsində dünyaya göz açmış balaca Folf Messing lunatiq olur; anası Sara bu əhvalatı kəndin yolunda keşişi Zahaya danışır. Keşiş məsləhət verir ki, pəncərənin qabağına su dolu çanı qoy, pəncərənin önündə oyla"dolaşanda" ayağı suya dəyib ayılacaq və yatağına dönəcəkdir. Anası elə də edir;balaca Folf diksinib ayılanda anası:-ay yuxu görürdün?-deyə soruşanda, -ana, yuxuda görürdüm ki, böyük bir çəkirdəyəm və çox acam, yemək istəyirəm! -deyəndə;allah qorusun, ay bala, elə demə, ölüm qabağında elə demə! -deyə yalvarır.*

*Bir dəfə də üç payını oğrun aparıb"aluqara" başlıqlarına verir, ona acıqlayır. Anası soruşur:-oğlum, niyə belə edirsən?-Ana, tezliklə inəyimiz öləcək, yuxuda gördüm! -deyəndə anası ağlayır:-ay bala, elə demə, inək ölsə, biz acından ölərik! -Ana, bu mənim əlli deyil ki, bay ölməyəydi! Ancaq mən gördüm ki, inəyimiz ölür... Səhər tezdən inəyi sağmağa gələn anası Sara görür ki, inək peyədə yerində uzanıb xırıldayır... Atası əhvalatdan xəbər tutur;onu acılayır:-sən bayquşsan! Həmişə bəd xəbər gətirirsən! -deyir. Bu əhvalatı kəndin keşişinə danışırlar. Keşiş balaca Folfu yanına çağırır, sorğu-sual edir və müəyyən edir ki, uşaqdakı Allah vergisidir;o, gələcəyi görmək qabiliyyətinə malikdir!*

*Ona and içdirir ki, son kəndə insanlara xeyirxahlıq etməlisən, bu yetənəyindən insanlar ziyan çəkməməlidirlər! Atası onu acılayıb evdən qovur, o, atasının fikrini oxuyur ki, "yemək yeyənimizin biri azalsaydı, bu uşaq yetimxanaya getsəydi canımız ondan qurtarardı!" O, bay görürüb evdən qaçır, pulsuz-pənasız, qatarın gözətçisindən yayınaraq qatara minib oturacağın altında gizlənir, bələdçi onu görüb, oradan çıxarır:-biletin yoxdu, düşən! -deyir. O, iti gözlərini bələdçinin gözlərinə dirəyən kimi, bələdçi hilməz olur, balaca Folf yerdən qəzet parçasını götürüb bələdçiyə uzadır. Bələdçi:-bu başqa məsələ, biletin ola-ola niyə oturacağın altına girirsən?Boş yerlərimiz çoxdu, otura bilərsən! -deyəndə, balaca Folf özü də məəttəl qalır... Çünki, öz yetənəyindən özü də xəbərsiz idi...*

*Varşavaya gələn balaca görücü acından bayılır, onu ölmüş bilib morqa qoyurlar, çünki, o, elə bir yuxuya dalmışdı ki, nəbzi hiss olunmadığı üçün həkimlər onu ölmüş bilmişdilər. Praktikantlar meyidləri yoxlayarkən onun bədənin isti olduğunu bilib baş həkimə (pan həkimə) xəbər verir. Həqiqətən, meyit sandıqları uşaq ayılır, halbu ki, üç gün idi ki, ölülər arasında ac-susuz qalmışdı... Ayılan kimi o, su istəyir... Pan həkim onu evinə gətirir, çimizdirib, yedizdirir, onunla seanslar keçirir. Həqiqətən uşaq yetənikli, istedadlı qeyri-adi uşaq idi. Onu Berlinə aparıb, alman publikasına təqdim edir...*

*Seansların birində Albert Eynişdeynlə rastlaşır;oturduqları yerdə ona lağ edib gülürlər. Bunu hiss edən görücü birinci dəfə gördüyü adamı öz adı ilə çağıranda Albert:-bu heç də təəcüblü deyil, mənim şəkilimi qəzetlərdən də görüb tanıya bilərdin... Onu imtahana çəkir;çətin bir tapşırıq verir -"get, dostumun cibindən dəsmalın və qızıl saatın al gətir, ona de ki, ku-ku! "Folf Missing bu tapşırığı da qüsürsüz yerinə yetirir. Eynişdeyn heyrətindən özünü saxlaya bilmir və:-mənim sizin şərəfinizə əl çalmaqdan başqa ayrı əlacım qalmadı! -deyə, zala müraciyət edir, zal alqışdan guruldayır Moskva. 1946-cı il. Qışın ortalarıdır. Yenə səhnədə dünya şöhrətli görücü Folf Missing Berlindən Hitlerin amansız təqibindən yaxa qurtarıb Stalinin köməyi ilə Moskvaya gətirilən Folf Missing Allahsız kommunist rejimi dövründə psixoloji seanslar verir;belə seansların birində Stalinin oğlu Aviyasiya generalı Vasili İosivoviç Stalin(Jojaşvili)də iki qız rəfiqəsi(bəlkə, arvadı) ilə iştirak edir. Seansın ortasında yanındakı qadının qulağına pıçıldayır ki, soruş, gör, qabaqdakı Sverdlovski oyununda mənim "VVS"xokkey komandam udacaq, ya uduzacaq?Folf bunu hiss edir.-Vasili, siz özünüz sualınızı verə bilərsiniz, başqası deyil! Vasili özü durub sualını təkrar edir... İcazə ver bir az fikirləşim! -deyib, əsəb gərginliyi ilə qabağı görməyə çalışır; gözlərini yumub dərin xəyala dalır. Mənzərə çox müdhişdir! Sverdlovskiyə uçan təyyarə qəzaya uğrayırdı, bütün sərnişinləri ilə birlikdə!*

*O, Vasilini qırmaq istəmir, nə də olmasa, Rəhbərin yeganə oğludur! O, səhnəni tərk edib, Stalinin qəbul otağına zəng edir, yalvarır ki, onu Rəhbərlə calaşdırsınlar, çox qacib məsələ ilə əlaqədar olaraq! Çox çəkmir ki, Stalin şəxsən onu yanına çağırdır,*





*salamlaşıb;-necəsən?Səni bura gətirən vacib səbəbi deyə bilərsənmi?-deyə, soruşur. O da olduğu kimi danışır və yalvarır:-İosif Visseryanoviç, nə olar, yalvarıram, qoymayın, Vasili o təyyarəyə minsin, təyyarə qəzaya uğrayacaq! Rəhbər sual verir:-Folf Qriqoriyeviç, siz Vasili üçün əndişələnirsiniz, yoxsamı, bütün heyyət üçün?.. Əlbəttə, bütün heyyət uçmasa, daha yaxşı olar, qoy, qatarla getsinlər! -deyə, görücü cavab verir. Stalin ondan məmun qalır. Messing Kremili razı halda tərk edir, axı, Rəhbərə hər şeyi olduğu kimi danışmışdı... Sən saydığını say, gör, fələk nə sayır! -deyiblər... Folf kabineti tərk edən kimi, Rəhbər özünün baş şeytanı-Beriyaya (NKVD-nin sədri) zəng vurur:-Folf yanımda idi, bəs belə-belə... görən, o, bizi axmaq yerinə qoymur ki(ne duraçit)?Lavrenti Filankəsoviç, necə bilirsən, mən bilən hər ehtimala qarşı Vasilini Sverdlovskiyə qatarla yola sal, kamanda isə təyyarə ilə uçsun. Sən necə bilirsən?...*

*Tamamilə, düz fikirdir, yoldaş İosif Visseryanoviç! Elə də edərəm...*

*Bir neçə gündən sonra həqiqətən də Sverdlovskiyə uçan təyyarə bütün sərnişinləri, o cümlədən, xokkeyçilərlə birlikdə qəzaya uğrayıb hamısı da həlak olur. Görücü Folf Messinq çox məyyus olur; göz yaşları içində yatağa sərilir, arvadı Aidə:-özünü ələ al, deyə, ona təskinlik verməyə çalışsa da, Messing:-O, məni aldatdı! -deyib, hönkürüb ağlayır, olduqca sarsılır. Axı, o uşaqlıqda kəndin keşişi nə söz vermişdi ki, bu yetənəyindən insanlar ziyan çəkməməlidir! O əhdinə sadiq qala bilməmişdi, "kaş, Vasilinin özünə deyəydim, bəlkə də o, bu faciyəni önləmiş olardı! "Lakin iş-işdən keçmişdi...*

*Çox maraqlıdır ki, mənim də həyatımda çin çıxan belə yuxularım olmuşdu;məs"Lükoyl"şirkətinin Bayıla gedən(köhnə Səttar xan gəmitəmiri zavodu ilə üzbə-üz)yolun sağ kənarında yerləşən ofisinin torpaq sürüşməsindən sonra batdığı yerdə, gecə yuxumda Musa peyğənbəri (Dədə Qorqud libasında orda oturub əlindəki mis camla torpağı sağdan götürüb sola tökdüyünü yuxumda gördüm kimsə, qeybdən:-Əlizamin, Musa peyğəmbərdi, get, əlindən öp! -deyirdi... Üç dəfə təkrar etdi... Mən ona tərəf yaxınlaşıram, 1-2 addım qalmış yuxum pozulur, əlindən öpmək qismət olmur... Səhəri günü eşidirəm ki, həmən yer, yuxuda gordüyüm, Musa peyğənbərin oturduğu yer*

*batıb. İndi isə, həmin yerləri möhtərəm prezidentimiz İlham Əliyev cənabları necə də abadlaşdırdı; "Evrovision" keçirildi və sairə...*

*Bu şeirimi dünya şöhrətli görücü Folf Missingin unudulmaz xatirəsinə həsr edirəm*

Bir Folf Missinq vardı qoca dünyada,
Dünyanı görürdü oldüğü kimi;
Bir Allah Mayisey salmışdı yada,-
Anası dünyaya doğdu gör kimi?!

Anası görür ki,yuxulu gəzir,
Ay göydə doğanda,sanki,oyanır...
Yataqdan yuxulu durub düzəlir,
Pəncərə önündə gəlib dayanır...

Anası mehriban,atası qəddar,
Hələ balacadır,günlər gələcək...
Pəyədə bir sağlam inəkləri var,
Onu əzizləyir,bilir öləcək...

Anasına deyir qəlbinin dərdin,
Avam anası da fəryad qoparır;
-Bircə inəyimiz...necə deyərdin?-
Kəndin keşişinə onu aparır...

Keşiş sual edir;-ay çıxan zaman,
Sən Ayı görürsən,nə hiss edirsən?
Az qala oğlana gətirsin iman,-
Deyir:-Bəs yuxulu necə gedirsən?..

Atasına deyir;-müğayət olun,
Bu bir möcüzədir,izahı çətin!
İlahi vergidir,deyildi oyun,
Bunun ağlı olar sənin sərvətin...





Ata piyaniska,döyür oğlanı;-
-Get pul qazan gətir,öldü inək də!
Ata itiribdi tamam ağlını;-
-Bir yeyən azalsın,rədd ol!-deməkdə...

Anası Saraydı,atası Cərgiz*
Polşada Kalvarlı yevrey balası;
Lap uşaqlıq vaxtdan qaldı çarəsiz,-
Gəldi Varşavaya,acmı qalası?!

Günlərlə ac qaldı bayılanadək,
Quşların payını yedi ölməsin.
Morqda üç gün qaldı ayılanadək,
İnsanın başına bir də gəlməsin!..

Pan həkim uşağı gətirdi evə,
Çimdirib yedirdir,seans keçirib;
Onun nazın çəkir pan sevə-sevə,
Bilir ki,İlahi bir onu seçib!

Bu uşaq istedad,-telepatdı ki,
Allahdan verilən İlahi paydı!
Özü yunatikdi,üç gün yatdı ki,
Sirli kəhkəşanda sirdaşı Aydı!..

Varşava dar gəldi,gedir Berlinə,
Albert Eynişteyn onu yoxlayır;
Beynində suallar,almır dilinə,
Görücü hədəfi yenə oxlayır!

Adını,sanını həmən söyləyir;
Hamı heyran qalır istedadına!
Hitlerin başına külü ələyir,
Onun istedadı yetir dadına...

---

* Cərgiz-Georgi-red.müəl.

Albert sual edir,fikrində ancaq;
-Dostumun cibindən dəsmalı gətir!
-Sonra qulağına söylə ki,"alçaq",
-Bununla səninlə seansı bitir!..

Ürəkdə dediyi sualları ilə,
Albert Eynşteyin yoxlayır onu;
Allaha açılmış qulaqları ilə,
Folf Missinq zəkası oxlayır sonu!

Albert Eynişteyn çarəsiz qalıb:-
-Səni alqışlamaq,deyir,qimətin!
-Aydın zəkanı sən Tanrıdan alıb,-
-Təqdirə layiqdi təmiz ismətin!

Zal bu sözdən sonra elə gurlayır,
Gurlayır nadanı oyatsın!-deyə,-
Folf Missinq zəkaya elə nur yayır,
Ədalət,insanlıq qayıtsın,-deyə!

Heyhat, Hitler gəlib hakimiyyətə;
Sosial-millətçilik baş alıb gedir!
Burada heç kim çatmaz heç bir niyyətə,
Düşünən beyinlər daş olub gedir...

"Yəhudu oyunu"başlayan kimi,
Hitlerin əlindən güclə qurtulur.
Stalin masontək qurur tilsimi,
Görür ki,Hitlerin qarnı yırtılır!..

Folf Missinq vermişdi bu proqnozu;
"-Hitler bu döyüşdə məğlub olacaq!.."
O vaxt anlamadı alman donuzu,
Milləti qırılıb məzlum qalacaq!..





Qabaqcadan gördü,deyə bilmədi,
Onunçün qınadı özünü çox vaxt!
Uyara bilmədi faşist namərdi,
Milyonlar qətl edən o qanlı tac-taxt!...

...İndi Moskvada seans keçirir,
Zalda Stalinin oğlu oturur;
-Sverdlovskidə xokkey heçədir?!-
Deyə,sualını ona ötürür...

-Mənim VVS-im udacaq,yoxsa?-
Vasili* dinmədən onu yoxlayır;
-Özün desən yaxşı,fikirin çoxsa,
Fikrini cəmləyib bir az toxdayır;-

-Bir az fikirləşim!-möhlət istəyir,
Görür ki,təyyarə qəza keçirir!
Telfonla danışıb rəhbərə deyir,-
Qəbula düşərək,and da içirir!

Stalin söz verir;-qatarla gedər,
Berya inanmayır;-bizi dolayır!
Vasili qatarla rahatca gedir;
-Xokkey heyyətinə təyyarə ayır!

Missinqi yoxlamaq gəlir ağlına,
Təyyarə havada birdən ulayır,-
Qəzaya uğrayır...Berya dağlana,-
-İnandırdı məni!...
Başın bulayır...
Eləcə,uzanır çarpayısına;
Keşişə söz verib,O etməmişdi!
Sarsılır,bataraq könül yasına,
Deyəsən,düz yolla O getməmişdi!

* Vasili Çoçaşvili, Stalinin kiçik oğlu, aviasya general-leytenantı

Heyrət içindədir bunu eşidən,
Axı,qabaqcadan söyləmişdi O!
İlahi sirlərdən tapıb min nədən,
Qəzanı,bəlanı önləmişdi O!..
Sübhəyə qapılıb inanmadılar;-
Bütün bir heyəti oda atdılar!
Ordakı insana heç yanmadılar,
Özləri özlərin çox aldatdılar!...

Özünü danlayır;-kaş Vasiliyə,
Əgər ona desəm,O inanardı;
Yenə də qapılır O,asılıyə,-
Bəlkə də Vasili onu qanardı...

Şübhə içindədir yenə insanlıq;
Görücülüq elmi düzmü,yalanmı?!
Folf Missinq ağlıma gəlir bir anlıq,-
Mənim də yuxumu yada salımmı?..

Hamının yadında"Lükoyl"* batan,
Həmən gecə gördüm qərib yuxunu;
Musa Peyğənbərdi torpağı atan,
Xəbərdar etmişdim mən də çoxunu...

Qeybdən eşitdim bir"kəs"dilindən,
Əlində mis camı tökür torpağı...
Qeybdən deyilir;-öp pak əlindən,
Gəlirəm,qeyb olur dəniz qırağı...

Deməkgörücülük qeybdən gələn səs;
O səsi hiss edən qəlblərə əhsən!
Sübhəylə yanaşmaq əbəsdir,əbəs,-
Allah vergisidir!-doğrusun desən!..
*10-04-2013-cü il.yenidən işləndi.Beyləqan şəhhəri.Əlizamin Hüseynli (Qızılbaş).*

* "Lükoyl"-yanacaqdoldurma məntəqəsi, Bayılda. - red.ƏH





# İLQAR
*Poema*

*Balqız oğlu İlqar Sərdar oğlu Əsədlinin əziz xatirəsinə (11-06-2013-cü ildə babasının öldüyü günü vəfat etdi.32yaşında)*

Sarnışın olduğundan,
"Sarı"dedilər ona,
İndi isə torpağın
Yarı deyirlər ona...

Uşaqlıq şəkilləri
Lap gözümün önündə;
Orta məktəb illəri,
Eynəyi də gözündə...

Eynəkdən uzaq qaçar,
Nistaqma[1] yol açar,
Anası hirslənəndə,
Gülərək qucaq açar!

Bir çətinlik görəndə,
Hərdən çatar qaşını,
Bir məclisə girəndə,
Dosta verdi aşını...

Onun sözü ataydı,
Onun gözü anaydı;
Onun cavan yerinə,
Kaş ikisi yanaydı!..

...Mənim alman dosrum var,
Adı Fleksik Burhart;

[1] nıstaqm,-gözün süzülməsi,-zəif görmə-red.mən

Şəkilə baxanda İlqar,
Sanki,öz şəklin tapar!..

-Nə vaxt çəkdin şəklimi?
Deyə,məndən soruşdu;
Alman onun əksimi,-
Bu necə oxşayışdı?!

Dedim,-dulikatındı,-
Alman professoru;
-Sənin iki qatındı,
-Görəndə özün soruş!

Dedim,Burhart gələndə,
Aparıb tanış edəm;
Tale üz döndərəndə,
Ya İlqar,mən nə edim?!

Beləcə,uçdu getdi,
Tayı qaldı dünyada;
Ürəyin açdı getdi,
Yarı qaldı dünyada...

Ürəklərdə bir məsum,
Şirin tembirli səsi,
Ata,ana kəlməsi,-
"Sarı"qaldı dünyada...

Onun qohum,tanışı,
Qan ağladı öləndə;
O cavanın anısı[1],
Ürəyində, dilində!..
********************
...Bu dünyada İlqar vardı,
Saf ürəkli məsum varlıq...

[1] xatirəsi,-red.mən.





Tez kəsildi ömrün ardı,
Dünyaya edirdi darlıq?!

Gənc çağında ölüm aldı,
Yəqin ki,səbəbi vardı;
Gözü yaşlı kimlər qaldı,
Onlara bu dünya dardı!

Atası ürək xəstəsi,-
Təbrizə apardı onu;
Ürəyinin şah pərdəsi,
Gətirdi ömrünün sonun...

Atasından betər oldu,
Dərilmiş gül kimi soldu,
Bir həftədə yaşa doldu,
Geyindi kəfənlik donun!

Təbrizin şəfa ocağı
Gənc İlqara mərəz oldu;
Qol-budaq oldu ağacı,-
Nə düşmənlik,qərəz oldu?!

Özü-özünün düşməni,
Xumar gözünün düşməni,
Dadlı sözünün düşməni,
Sükut ilə əvəz oldu...

Atasının əməlyatı
həddindən çox ağır keçdi;
Çağalmaz gənclik həyatı,
Bir ulduztək axib keçdi.

Ana uşağydı hələ,
Nə olsun ki,kişi idi;
Ölüm ona qurub tələ,-
Qədər,qismət işi idi?!

Açıq ürək əməliyyatı
Ürək cərrahı Pərvizi,
Sərdarı tamam yoxlamış;
Təlatüm edir dənizi,
İlqarın qəlbin oxlamış!..

-Ağır keçəcək əməlyat,
-Allaha yalvarın görək!
Atası onunçün həyat,
Boğazından keçmir çörək...

İştahı,bənizi qaçıb,
San,özü əməl olacaq!
Əməlyatın adı açıq,
Görən,ata sağ qalacaq?..

Qəlbindən qara qan keçir,
Büruzə vermir ataya;
Nə xörək yeyir,nə içir,-
Kaş düşməyəydi xətaya!

Orda Aytənlə[1] görüşür,
Onun qaynənəsi xəstə;-
Məlahətin qəlbi şişib,
Onu da Pərvizə göstər...

Vüqar*,Aytən,İlkin* burda,
Məlahətlə bir gəliblər;
Təkbaşına İlqar dur də,
Lap siftədən səhv ediblər!..

Ürək əməlyyatı ağır,
Burda yaşam,ölüm də var;
Vallah,birdən kəsmir ağıl,
Nə bileydi zülüm də var!..

[1] Aytən-böyük qızım-red.m





O,döşünə döyüb gəlib,
Böyük şirkətin[1] rəhbəri;
Hələ özün öyüb gəlib,
Kim bileydi qəm-qəhəri!..

Ata girir əməlyyata,
Gedişatı səkkiz saat!
Bir də dönərmi həyata,-(?)
Həyacanla,saqqız,saat...

Saat işləmir qolunda,
Sanki,əqrəblər dayanır?!
Ata cərrah salonunda,
Görəsən nə vaxt oyanar?!

Öz-özünə fikirləşir,
Var-gər edir kalidorda;
Vallah,canıynan əlləşir,
Ata qalıb,deyən,darda!..

Səbri çatmır;necə çatsın?!
On beş saat keçib gedib...
Deyir,hələ xəstə yatsın,-
Bu nə cavab,bu nə ədəb?!

Səbri çatmır İlqarımın,
İstəyir ki,girib baxsın;
İyirmi dörd saat keçib,
Az qalır ki,özün yaxsın!

Dincəlmək nə,yuxu nədir?
Kah oturur,gah da durur...
Yoxdu atasında hənir,
Görmək üçün plan qurur.

[1] "Səba"büreyler şirkətinin baş mühəndisi-red.Ə.H.

Tibb heyyətinə yalvarır;-
-Atasını girib görsün!
Görəndə gözü qaralır,
Yarasını özü hörsün?!

Döş qəfəsi tamam açıq,
Ürək vurur saat kimi!
Sanki,ona ölüm saçır,
O deyil ha qəlb həkimi!

Oğrun baxır atasına,
Heyrətdən qəlbi üzülür;
Narkoz altda yatasına,
Baxdıqca suyu süzülür...

Döş qəfəsi tam kəsilib,
Sallahxana qurbanıtək;
Elə bil ürək asılıb,
Saplağından nurbanıtək!

Bir anlıq qəlbi sıxılır,
Az qalır huşun itirə;
Huşun itirib yıxılır,-
Ömrünü yeyib bitirə!..

Personal gəlir köməyə,
Su çiləyəndə ayılır;
Heyif çəkdiyi əməyə,-
Bu da zəiflik sayılır?!

Axı,qardaş,belə olmaz!-
Buna saf ürək dözərmi?!
Ağlı olan onu qoymaz,
Göz çıxarıb,qaş düzəldir?!

Otuz bir saat tamamda,
Əməlyatı tamamlanır;





İlqar,sanki,bir hamamda,
Nəfəs çatmır,havalanır!..

Sanki,nəfəsi tıncıxır,
İştahdan kəsilib yaman;
Xəstə atasına baxır,
-Ölməyəydi yazıq atam!-

Fikirləşir ürəyində,
Ata yükü kürəyində!
Yanındadır əsgər kimi,
Ağır gündə,gərəyində!

Sərdar artıq özündədir,
Huşu,fılanı yerində...
Gözü onun üzündədir,-
Gözləri batıb dərində...

-Gözümə çox pis dəyirsən,-
-Özünü bir yoxlat görək!
-Niyə köksünü əyirsən?
-Qoysana ağzına çörək!

Gülümsəyib cavab verir;
-Mən yaxşıyam,bir az köpəm...
-Quru düyünü kim yeyir,
-Boğazımdam keçmir tikəm...

-Tezliklə gedərik evə,
-Yeyib dönərəm bir divə!
-Özümü də yoxlatdırram,
-Sizləri də sevə-sevə!..

Xəstəliyin yoxladılar;
-Ürəyində işemiya!
Ata,oğul toxdadılar;
Pərvizi bəd söz demiyə!..

Özü-özünü qandırıb,
Bilməzlikdən bunu etdi?
Ata yolunda yandırıb,
Cavan ömrün mağdur etdi!

Cərrah Pərvizi yoxlayır,
EKQ-yə salır hələ;
İlqar bir qədər toxtayır,
Bilmir,ölüm qurub tələ!..

-Oğlum,dəva almalısan,
-Lazım burda qalmalısan!
-Sakın,atama demə sən,
-Onun halı deyil asan!..

-Əgər bilsə öləcəkdir,
-And veririəm,həkim,Sizə!
-Bu ürəyim hələ bərkdir,
-Gətirəməz məni dizə!..

Sən saydığını sayginən,
Qoca fələk gör nə sayır?
Şirin canına qıyginən,
Dırnağı ətindən ayır!..

Gör necə ağrıdır,qardaş!
Səndə heç insaf yoxdumu?!
Gözlərimdə qurudu yaş,
Qəlbinə dəyən oxdumu?!

Təbrizdə atan sağaldı,
Əməlyatı ağır keçdi;
Sənin gözlərin qaraldı,
Göydə ulduz axıb keçdi...

Məlahət də orda idi,
Aytən,Vüqar da yanında;





O da əməlyat olundu,
Sağaldılar da sonunda.

Vüqar aptekə girəndə,
Dərman pulunu sən verdin;
Hanı sənin kimi bəndə,
Qohumcannı,ağlı dərin?!

Özünü tamam unutdun,
Dedin ki,heç nəyim yoxdu!
Nə cəsur,möhkəm oğulsan,
Səni çalan hansı oxdu?!

Deyənə məhəl qoymadın,
Bu nə inad,bu nə tərslık?!
Yox,qardaş,ilqardı adın,-
Övladlara bu bir dərslık!

İnsanlara bu bir dərslik;
-Mən ölüm,atam ölməsin?!
Əhsən,sənə belə tərslik,
Kaş ürəyin dərd görməsin!

Tez-tələsik qayıtdınız,
Ürəyində ağır yara;
Əzrayılı oyatdınız,-
Bəs atan baxırdı hara?!

Hiss etmədi o,halını,
Sənsə atana bir dirək;
Yoxsa,yazılıb alnına,
Heç buna dözərmi ürək?!

Təbrizdən xəstə ayrılır
---------------------------
Əməlyatı yaxşı keçmiş,-
Açıq ürək əməlyatı;

Ata çox siqaret içmiş,
Təhlükədədir həyatı!

Klinkadan çıxıb axşam,
Getmək istərkən hotelə;
Təbrizdə eyləyib son şam,
Çıxdılar şoferlə yola...

Təbrizdən sübh-dan ayrılır,
Xəstə ata,xəstə oğul...
Can evindən,can ayrılır,
Yol boyunca halsız,boğul...

Dörd-beş saat Təbriz yolu,
Üç saat da gömrükxana...
Taqəti yox,düşür qolu,
Ürəyi boyanıb qana!

Əmr gəlir:-dayan,İlqar!
İlqar deyir:-yubanırıq!
-Yuxulardan oyan,İlqar,
-Ata,ana qurbanıyıq!.

-Şirin canım qurban olsun!
-Qızıl qanım qurban olsun!
-Onlar məni yaratmışsa,
-Sonsuz anım qurban olsun!

Gömrükxanadan keçəndə,
Güclə durdun ayaq üstə;
Ağrını çəkdin içində,
Cün altında ağır xəstə?!

Hər an qurban gedəsiydin,
Müqəddəs ata yolunda;
Sən İsmayılın səsiydin,-
Qurban da oldun sonunda!





Şəhid olmağa hazırdın,
Duaların belə idi;
Özünə qəbir qazırdın,
Kaş atan da bilə idi!..

O,öz canın hayında,
Ağlasığmaz dəyanətin;
Bu xoş niyyət irs payında,
Səni anlamaq da çətin!

Ata yazıq can hayında,
Nə biləydi İlqar xəstə;
Qəddar fələk öz sayında,
Ürəyini kəsə-kəsdə!..

Deyir;-yəqin,qulunc oldum,
-Çox tərlədim,soyuq dəydi?
-Bu yaşımda gülünc oldum,-
-Təbriz yolu məni əydi!

Dörd-beş saat Bakı yolu,
Taxi şütüyür irəli;
İlqarın mədəsi dolu,
Gözləri yatmır,bərəli...

Hərdən də sorur atasın,
-Mən yaxşıyam,sən necəsən?
-Bəlkə,sən bir az yatasan,-
-Ürəyi sanma heçə sən!..

Yuxusu çəkilib ərşə,
Nə də ki,bir iştahı var...
Yarası qəlbini deşə,
Nə bir səsi,bir ahı var...

İlqar artıq Bakıdadır
Dörd-beş saat Bakı yolu,

Axır ki,çatdılar evə;
Məlişin[1] qırıldı qolu,
Bilmədi ki,necə sevə?!

Əzizlədilər Sərdarı,
İlqar ki,xəstə deyildi;
İlqarı pis gördü yarı,-
İlqar ağrıdan əyildi...

Sir-sifəti avazıyıb,
İlqarda taqət qalmayıb;
Sanki,al qanın qazıyıb,
Huşu-başı,halı qayıb!

Ata qaldı bir kənarda,
Düşdü İlqarın üstünə;
Gördü,canı soyuq-qardı,
Üşaq yanıbdı tüstünə!-

Deyə,Sərdarı danladı,
Hələ gecə bankaladı;-
Neyləsin ki,yazıq ana,
Soyuqdəymədi!-anladı...

Tay demədi,son nəfəsdə,
İlqar güclə gəlib evə;
Ürək dayanır qəfəsdə,
Atasını sevə-sevə!..

Bankaların yeri qara,
Sanki,ordan qan çıxacaq!
Dərinə işləyir yara,
Qəlbini qəfil sıxacaq...

Onda taqət də qalmayıb,
Az qala huşun itirə;

[1] Məli - Məleykə İlqarın anası-red.m.





Hələ canını almayıb,
Ki,şirin canın bitirə?!

Ata çaşqın,ana çaşqın;-
-Bu uşağa nə oldu ki?!
-"Təcili yardım"çağırın,-
-Həyat surəsi doldu ki!

Baxmayaraq ata xəstə,
Hamısı İlqara baxır;
İlqar uyduqca ahəstə,
Huşu,hissi elə axır...

Axır ki,həkim çağırır;
-Ay İlqar!-deyə,bağırır,
İlqardan bir hənirti yox,
Axan gözləri ağarır...

**Təcili yardım maşını**

"Təcili yardım"maşını,
Gəlib yoxlayır İlqarı;
Həkim soruşur yaşını,
-Ürəyi işləyir yarı!..

-Ağır infarkt keçiribdi;
-Yaşaması möcüzədir!
-Xəstəliyi bir qəribdi,
-Gedişatı o üzədir!..

Yoxladılar təzyiqini,
Dedilər,təzyiqi düşüb!
İnfarkt keçirib yəqini,
Qansızlıqdan ürək şişib!

Heç bir söz demədi,susdu;
Qəddar ölüm onu pusdu!

Mədəsində küt ağrı köp,
Atanı hay əzizlə,öp...

Nə çıxacaq avam işdən?-
Keçəndən sonra iş-işdən!
İlqar niyə anlamadı,
Öz-özünü danlamadı?!

Atasını çox sevirdi,
Avamlıq onu devirdi;
Ağılalmaz xəstə ola,-
Ata dura,özü ölə!..

Xəstə,yara ürəyinlə,
Ata yükün çəkdi orda!
Mərd,kişilik dəyərində,
Əbədilik girdi gora...

Can verməyə tələsmədi,
Kürəyində xəstə ata;
Dərsin verirdi namərdin,
Çətin,ona kimsə çata!!!

O həkim ki,ona baxıb,
Hippokrat andı tutsun!
Bu qədər insanı yaxıb,
Onu cəhənnəm ovutsun!..

Kaş onu məcbur edəydi,
Elə Təbrizdə yataydı!
Müalicənin haqqı nəydi,
Sağ-salamat qayıdaydı!..

Nə qədər"kaş"demək olar?-
Atam bilməsin!-deyirdi?!
Boş,faydasız əmək olar?-
Dırnağı ətdən ayırdı!





İlqar gəlmədi özünə,
Dili baxmadı sözünə!
Şübhələndi ata yaman:
Bir şey olar ona,aman!

Təcili yardım çağırdı,
Həkimlər dedi;-ağırdı!
Təcili yardım götürdü,
"Mərkəz klinə"ötürdü...

Evdən çıxanda son sözü;-
-Ata,özünə yaxşı bax!
-Məndə hələ çoxdu dözüm,
-Qorxma,qayıdaram sabah!..

Mərkəzdə dedilər;-ağır!
-Yaşaması bir nağıldı...
Yara ürəyini yaxır,
Bütün vücuda yayıldı!..

Neçə sabah keçib getdi,
Yatan İlqar ayılmadı;
Neçə həkim nələr etdi,
Nəbzi,ritmi sayılmadı...

Ürəyi düşdü qüvvədən,
Böyrəkləri də dayandı!
Mələklər yendi qübbədən,-
Dedilər,haqqa əyandı!..

Ruhun çəkəcək yanına,
Azar salıbdı canına;
Dedilər ki,can üstədir,
Bunu da özü istədi!..

İstanbuldan həkim gəldi,
Natiq düşübdü qabağa;

Süni ürək,-yatan qəlbi,
Bəlkə,durğuzdu ayağa!..

Onu qoşdular cihaza,
Cihazın qiyməti baha[1]:
Razı olardı həm aza,-
Qiymətə minibdi daha!

İstanbula aparıldı,
San.avyasiya ilə O;
Orda can evi qaraldı,
Qayıtdı yası ilə O...

İstanbuldan gəlir tabut,-
İçi dobdolu tabutun;
Orda İlqar edib sükut,-
Sarı nəvəsi Yaqutun!

Yatan ölməz,duran ölər,
Həyatda təzada bax;
Öz ipini qıran ölər,-
Törətdiyi qəzaya bax!

İlqar oğul şəhid oldu,
Sevimli ata yolunda;
Bir həftədə yaşa doldu,
Ölüb getdicə sonunda!..

Az-çox ağla,yaxanı yırt,
O ki,heç qayıdan deyil;
O yaratdı əbədi yurt,-
Ruhunun önündə əyil!

Torpağın üzü soyuqdu,
Sanma ki,yaddan çıxacaq?!

[1] süni ürək aparatı 49min.evro qiymətindədir-red.m.





Allahdan gələn buyruqdu,-
Hamımızı O,yıxacaq!..

**Epiloq**

Gecə-gündüz növbə çəkdi,
Qohum-qardaşla personal;
Dillərində dua əkdi,
Ay Allah,sən;-İlqar sağal!..

Ancaq İlqar sağalmadı,
Çünki,dərdi ağır idi;
Duaları O almadı,
Çünki,İlqar fağır idi...

Heç kimə baxmadı Tanrı,
Möcüzə,filan olmadı...
Saf İlqarı sən də tanı,
Onuntək oğlan olmadı!

Qan içində boğuldu O,
El içində oğuldu O;
Yatan ölməz,duran ölər,
Niyə belə doğuldu O?!

Ömrü gödək,bəxti yeyin,
Bir oğuldu!-siz də deyin;
Ata-anası ah çəkin,-
Onun dalınca ha deyin!

Onun təbiəti belə,
Saflıq onun qanındaydı;
Allah ona rəhmət elə,
Səni anmaq canındaydı!

Arzusunu tez eşitdin,-
Atadan öncə ölənin;

Həyatla ölüm eşitdi,-
Sırğası olsun bilənin!

Ata baxır qəbr evinə,
Tabutdan enir cavan ər;
Qara torpaq ha sevinə,
Bəxşiş alıbdı bəxtəvər...

Qoyurlar daşdan məzara,
Axund bir Yasin oxuyur;
İnildəyır qəlbi yara,
"Qəbirdən asın!"- oxuyur...

-Lay-lay balam,a lay-lay,
-Mənnən Təbrizdən gələn,
-Halsız qalan,a lay-lay!
-Səni niyə apardı,mənə gələn
A lay-lay?!

-Sənsız necə yaşayım?
-Sənin yükün daşıyım?
-İki qız balam qalıb,
-Onların göz yaşıyam...

-Arzun bir oğul idi,
-Qara torpaq tez yedi!
-Qızlarına nə deyim;
-İlqar bir nağıl idi?!

-Ataya qurban gedən,
-Şəhid İlqarım,lay-lay!
-Sual etməyən:-nədən?
-Düz ilqar-yarım,lay-lay...

Atasının şərəfi,
Babasının xələfi;
Övlad andı,zəfəri,
Namusum,arım,lay-lay!





Təmizlikdə bir danə,
Layiq oldun Vətənə;
Yaman düşdün çətinə,
Ay ahu-zarım,a lay-lay!..

Ruhun cənnət bağında,
Cismin Bakı dağında;
Vicdanın qar ağında,-
Dağda buz-qarım,lay-lay!

Məleykənın balası,
Sərdarın qəlb yarası;
Xəzan vurb salası,-
Yazım,baharım,lay-lay!..

Təzə pir məscidində
Təzə pir məscidində
Sənə yas saxladılar;
İnsanlar cilidində,
Mələklər ağladılar...

Bu gün Aytən,İlahə,
Günel getdi qəbrinə;
Günəş qalxmışdı şahə,
Tələsdilər əmrinə!

İslanmamış qəbrini,
Göz yaşları suladı;
Çəkib sənin dərdini,
Başlarını buladı...

Ordakı şəhristana,
Baxıb köks ötürdülər;
Yazsan,dönər dastana,-
Səndən köz götürdülər!

Qohum-tanış yığışıb,
Gəlib vay məclisinə;
Sanki,sellər axışıb,
Dolub "pir"məscidinə...

Baş sağlığı verirlər,
Sənsiz qalan atana;
Axın-axın gəlirlər,
Torpaq altda yatana!..

Girəcəkdə elanın.
Lap başdan asılıbdı:
Əzab içrə qalanın,-
Gözündən basılıbdı...

Ağlar qalıb gözləri,
Qapıda,Təzə pirdə...
Vallah,deyil yalanı,
Qayıtma bizə bir də!

Qayıtsan xərclənəssən,
Yenə əvvəlki kimi;
Mələksən,insan,nəsən?
Məyyüs etdin həkimi...

Ağladı anan-bacın,
Çox ağırdı bu acın;
Boş qalıb evdə tacın,
Peşman etdin hər kimi!

---

Niyə getdin Təbrizə.
Döşünə döyüb getdin?!
Sərdarı verib bizə,-
Özünü öyüb getdin!

Əlacsız qalıb atan,
Yaralı yerdə yatan;





Çox ağır oldu xətan,
Bizləri"söyüb"getdin!

Anan peşman əlindən,
Gözünün yaşı durub;
Bir söz denən dilindən,
Sənlə "dalaşıb"durub!

Söz deməkdən yorulub,
Qəlbi yanıb qovrulub,
Xırmanlığı sovrulub,
Odsuz alışıb durub...

İki gül balan qalıb,
Yadına salan qalıb,
Gedənlər ha qayıtmaz,
Qəbirdə qalan qalıb...
*11-17.06.2013-cü il.*

# MÜNDƏRİCAT


Ön söz əvəzi ... 3
İlham seçildi ... 8
Əsrimizin sevgilisi ... 9
Ərkan abı-öyrətmən ... 25
Beyləqanın başçısı ... 27
Cavad xanın övladları ... 28
Gəncə qalası ... 31
Fövqəladə vəziyyət ... 33

ÜNVANLI ŞEİRLƏR
Malikin ilk nəvəsi ... 35
Saf ürəkli general ... 36
Qənirə ... 38
Emin bəyin rütbəsi ... 40
Nişan mərasimi ... 40
Ad günü ... 42
Biri iyul ... 43
Ad günün mübarək ... 44
Yolundan dönmə, qardaş ... 45
Mən kiməm ... 48
Şuşanın qartalı daşaltıdadır ... 49
Ebtibarsız adamlar ... 51
Allahın elçiləri ... 52
Azıx mağarası ... 54
Sinif müəllimlərim ... 56
Belesuvarlı dostum ... 57
Yolunda can yanası ... 58
Menecer Aytən xanım ... 59
Nakam ömür ... 61
Reyhan Qaraca və Ancelina Cülıya ... 62
Müqəddəs görəvlı kişi ... 64
Böyrək sancısı ... 65
Bal arısı ... 66
Sənətə qiymət ... 67







Loğman ... 68
Qurbanəli bəyə oxşar ... 70
Xoş gəlmisən, Ayşə xanım ... 71
Cahan şahın məhəbbəti ... 73
Elimın ağsaqqalı ... 74

HÜZÜNLÜ ANLARIM
Babək də getdi ... 76
Zərifənin ölümü ... 78
Qəfil ölüm ... 81
Anacaq ... 84
Quranın möcüzəsi ... 85

LİRİKA
Yaz, mənim üçün ... 87
Yaşamaq istəyirəm ... 88
Yaradılanı sevək? ... 89
Vəfalı qız ... 90
Xəsis hacı ... 91
Ağlımı oynatma, qız ... 92
Bir qadına nəsihət ... 93
Vaxtsız qocalmışam ... 94
Kim bilir ... 95
Bir ömür sevgi ... 96
Ürək bezib ... 96
Türk sözündən heç utanma ... 97
Bir kərküklü gözələ ... 98
Kimlər qalıb? ... 99
Tərif, yoxsa ... 100
Tənha sakkız ağacı ... 101
Tənha qadın ... 102
Biri incidi məndən ... 104
Tənəzzül ... 105
Tapılar ... 106
Dəli Kürün şıltaqlığı ... 108
Dünyadan yazım ... 109

Güvənmə ........ 110
Həkim qızım-aygülə ........ 110
Həsrət, möhlət körpüsü ........ 112
İmzam ........ 113
İstərəm ........ 115
Kaş ürəkdən sevə bilə ........ 115
Londonda dörd türk qalıb ........ 117
Londondan açılan zəng ........ 119
Həsrət ........ 121
Mənim kövşənimə çoxdan od düşüb ........ 122
Mərdimazar xeyriş kişi ........ 123
Olmayaq qəmiş ........ 125
"Mixaylo"nun xanımı ........ 125
Nadanlara borcluyuq ........ 127
Namərd gülləsi ........ 128
İtər ........ 129
Nigar ........ 130
Qısqanclıq ........ 131
Şair ........ 133
Qalar ........ 133
Ürək saatımız ........ 135
Bəlkə dəyişdi... ........ 136
Xəyalımdan keçirdim ........ 137
Tərs deyə ........ 138
Nənələr və nəvələr ........ 139
Sibir ........ 139
Orucluq da bir qismətdir ........ 141

**MAHNILAR**

Sənsiz ........ 143
Qəlbimə qonacaqsan ........ 144
Sən məni çözəçəksən ........ 145
Son söz ........ 146
Sorğu ........ 147
Piyalə gözlər ........ 148
Bir türk mahnısında ........ 149





**ÖMRÜMÜN FƏSİLLƏRİ**

Yer nə vaxt itəcəkdir ........ 150
Yazdığımı ver mənə ........ 151
Qaytar mənim gəncliyimi ........ 152
Əgər anlasan ........ 154
Seyidin ocağında ........ 154
Ömrümün fəsilləri ........ 157
Ucuz ölüm ........ 158
Özəl xanım ........ 159
Qar yağır ........ 159
İlan kimi ........ 160
Sevgi adlı qarğışımdı ........ 161
Sevgi görüşü ........ 162
Qanım olmusan ........ 163
Gecə qonağı ........ 163
Sevgilimin sevgisi ........ 165
Qurbanlıq ........ 166
Qəfil qonaq ........ 166
Qismət edə ........ 167
Məhəbbətin bir aləmi ........ 168
Qızım gedir Moskvaya ........ 169
Kaş duyub inanaydı ........ 170
Tərsinə ........ 172
İslam yolu ........ 174
Yeddi ........ 176
Şair-qardaş ........ 177
Səcərəsi var ........ 178
Nigarançılıq ........ 179
Şeytan ........ 181
Qaraçuxa ........ 182
Ona gedən yol ........ 183
Alın yazısı ........ 184
Döyün ürəyim, döyün ........ 185
Saqqalım ağarsın ........ 186
İstərəm ........ 187

## SİYASİ ŞEİRLƏR

Ölüm savaşı........188
Qarabağnamələr........190
Sarıqamış şəhidləri........190
Yazıq hindular........190
Amerikada azadlıq........195
Ölüm hökmü........198
Ərəblərin baharı........201
Acıyır........202
Xocalıya xaç yürüşü........204
İyirmi yanvar gecəsi........206
Yenə əsarətdəyəm........207
Azadlığın sınaq dövrü........208
Türk əsri........209
Nankor, yoxsa, ayılmış?........211

## LİRİK DUYĞULAR

Şeytanım içimdədir........212
Son bəxtim........216
Söz yaradan qalasıdı........217
Fərq........218
Fəridimin toy günü........219
Güc də verər........220
Dəli olmaq istəyirəm........222
Qış balladası........222
Təqdımat........223
Ehtiyac........225
Millətin adı türkman........226
Doktor aidə xanıma........227
Dəyişmədi........229
Əmanənət və dəyanət........230
Dəyərdimi nədənə........231
Çətin ki, çata sənə........232
Yaz mənim üçün........234
Bu qızdan olmaz........235
Böyrəyin satan qardaş........236
........237





Bılməssən........238
Ad günüm........239
Bir il də keçdı...........241
Ballı qız........242
Hirsli qız........243
Allahıma şükürlər........244
Aygülüm ordinator........245
Moskvanın yolları........246
Moskvanın havası........247
Axma, qardaşım........249
Zəmanət........250
Avropadan fərqimiz........251
Qoy utansın........252
Müasir firionlar........254
Dərman firmaları........255
Yaşamaq istəyirəm........256
Kələfin ucu........256
Haqsızlıqla dolu dünya........257
Yerin üç oynu........259
Altmış yaşım........260
İlan ili........261
Altda dəyirman daşım........262
Ağzımın dadı........263
İkimiz də bir adamıq........264
Ağlım da yetmir........265
Adsız şeir........266
Biri incidi məndən........266
Moskvada bir səhər (*sənədli poema*)........268
Moskvanin mələkləri........278
Movzoley........280
Bəsirət gözünü açaydı insan........281
Tərs biçimdə........282
Aslanin yırtdı məhbəsin........283
Görücü........285
İlqar (poema)........293

Əlizamin Hüseynli (Qızılbaş)

ƏSRİMİZİN SEVGİLİSİ

Bakı, «MBM», 2014, 320 səh.

Naşir: Ceyhun Əliyev
Bədii redaktor: Afər Fəttahova
Dizaynerlər: İradə Əhmədova, Flora Əliyeva
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Operatorlar: Məlahət Quliyeva, Tərlan Quliyeva

---

Yığılmağa verilmişdir: 01.09.2013
Çapa imzalanmışdır: 17.01.2014
Tiraj 200; ş.ç.v. 20
«MBM» nəşriyyatının mətbəəsində
çap olunmuşdur